بسم الله الرحمن الرحيم

# QIRX MƏCLİS, MİN HƏDİS

*Ayələr, rəvayətlər və maraqlı əhvalatlar*
*On dörd məsum və Kərbəla şəhidlərinin müsibətləri*
*Hər məsumdan qırx hədis*


**Müəllif: Əhməd Dehqan**

**Mütərcim: Ramil Əzimov**

Kitabın adı:…………...………....“ Qırx məclis, min hədis”
Müəllif::…...…………………..……......….Əhməd Dehqan
Tərcümə edən:............................................Ramil Əzimov
Redaktor.................................................Qaraş Elxanoğlu
Naşir:….....…………………………...…........ “Əsre-rəhayi”
Tarix:…………………………………….....................2008
Çap növbəsi:…………………………………...........Birinci
Tiraj:……....…………………………………………...1000
ISBN:……………………………..…….978-964-2760-47-3

# Ön söz

İslam maarif və mədəniyyətini yaymaq işində təbliğçilərin lazımı qədər savadlanmaları zəruridir. Bunun da ruhi və mənəvi cəhətləri vardır ki, özünü islah və təhzib kimi faktorları tələb edir. Bura həmçinin, Quran, hədis, fiqh və sair elmlərdən agahlıq da daxildir. Çünki təlim-tərbiyədə əməli təbliğin və nəfsin təzkiyəsinin rolu mühümdür. Amma dini, zamana uyğun yeni metodlarla yaymaq üçün gərək din təbliğatçıları bunlarla da tanış olsunlar. Alimin abiddən üstünlüyü də burada öz əksini tapır. Çünki alim özünü cəhalətin qaranlığından xilas etməklə cəmiyyəti də zəlalət və azğınlıqdan kamilliyə və Allahın əsl hədəfinə doğru hidayət edir. Lakin bu işdə yalnız, təvəkkül, təqva, elm, helm, əməl, ixlas, özünü islah etmək, uzaqgörənlik, zöhd və dünyaya etina etməmək, zəmanədən xəbərdar olmaq, səy göstərmək, din qeyrəti çəkmək, məsuliyyət hiss etmək, vilayət, düzgünlük, məhəbbət, səbir etmək, camaata şəfqət göstərmək, vüqar və mətanət, uca himmətli olmaq və s. kimi məfhumlarla dərindən tanış olan və əxlaqını bu xüsusiyyətlərlə bəzəmiş bir təbliğçi müvəffəq ola bilər. Çünki alim və tərbiyəçilərin rəftarı dinləyicilərdə daha çox əsər qoyur. Ona görə ki, camaat alimin sözündən çox onun əməllərinə və rəftarına diqqət edir. Uzun illər sədəqə və infaq etməyin fəzilətləri haqda bizə ayə və rəvayətlərdən danışan bir müəllimimizin bir gün küçədə sədəqə verdiyini gördüm. Bu hadisə isə mənə onun uzun illər təbliğindən daha çox təsir qoydu. Psixoloji cəhətdən əməli təbliğin daha çox təsiri olmasının səbəbi belə izah olunur ki, dinləyici təbliğçinin sözünü zahirdə qəbul etsə də, onda belə bir şübhə yaranır ki, görəsən o, özü dediyinə əməl edir ya yox?

İmam Sadiq (ə) buyurur:

كونوا دعاة الناس بغير السنتكم ليروا منكم الورع والاجتهاد والصلاة والخير

“Xalqı dilinizlə deyil, rəftarınızla dinə çəkin ki, onlar da sizin əməllərinizdə təqvanı, çalışqanlığı, namazı və xeyirli işləri görsünlər!”

“Uzun illik təbliği təcrübədən belə nəticə almışam ki, dediklərim əməlimdə müşahidə olunduğu vaxt çox gözəl nəticə verirdi. Amma əks təqdirdə, müsbət təsir qoymurdu.” Bu kitabı hazırlamaqda məqsəd hörmətli təbliğatçıların işini asanlaşdırmaqdır. Ona görə də kitabın ümdə hissəsini Məsumların kəlamları təşkil edir. İmam Baqir (ə) buyurur: “Bizim hədislərimiz qəlbləri dirildər. Onun dinə olan faydası şeytan üçün min abidin ibadətindən üstündür.”[1] Çünki onların sözləri əməlləri ilə uyğun idi. Onların hədislərinin təsiredici olması da məhz buna görədir. Həmçinin, bu kitabda olan çoxlu seçilmiş hədislər yüzlərlə xütbəyə zəmin ola bilər. Amma gərək hədislərin çoxluğu onların dərin mənaları barəsində fikirləşməyin qarşısını almasın. İmam Sadiq (ə) bu haqda buyurur: “Bir hədisin mənasını dərindən dərk etmək, min hədis nəql etməkdən üstündür.”[2] Buna görə də dinləyicinin dərketmə qabiliyyətini nəzərə alan təbliğatçı müvəffəqdir. Peyğəmbər (s) buyurur:

انا معا شر الانبياء امرنا ان نكلم الناس علي قدر عقولهم

“Biz—peyğəmbərlər xalqla öz şüur və düşüncələrinə uyğun danışarıq.”[3]

Hətta, zaman və məkanın da təbliğdə böyük rolu var. Çünki hər sözün öz yeri var. Kitabın axırıncı hissəsini hazırlamağın iki səbəbi var:

1. Qırx hədisi yazmaq və yaymaq;

2. Bəzi imamların hədislərini ələ gətirmək çətin olduğuna görə bu işi asanlaşdırmaq üçün müxtəlif mövzularda hər

---

[1] “Biharul-ənvar”, c. 2, səh. 151.
[2] “Biharul-ənvar”, c. 2, səh. 184.
[3] “Üsuli-kafi”, c. 10, səh. 23.

imamdan qırx hədisi onun tərcüməsi ilə birlikdə bu kitaba əlavə etdik.

Sonda Allahdan arzum budur ki, Məhəmməd (s), onun saf məktəbini yaymaqda və ona əməl etməkdə bizə yar olsun.

*Müqəddəs Qum şəhəri,*
*Əhməd Dehqan.*

# BİRİNCİ FƏSİL

## «MƏCLİSLƏR»

# Birinci məclis

## «ÖZÜNÜTƏRBİYƏ VƏ TƏQVA»

“Hər kəs təzkiyəyi-nəfs etdi nicat tapdı və hər kəs küfr və günaha batdı ziyan gördü.”[1]

“Hər kəs Allah dərgahında hazır olmaqdan qorxdu və həvayi-nəfsdən uzaq oldu, həqiqətən, onun yeri cənnətdir.”[2]

Peyğəmbər (s) buyurmuşdur:

لَا يَكُونُ الْعَبْدُ مُؤْمِناً حَتَّى يُحَاسِبَ نَفْسَهُ أَشَدَّ مِنْ مُحَاسَبَةِ الشَّرِيكِ شَرِيكَهُ وَ السَّيِّدِ عَبْدَه

“İnsan öz nəfsini sorğu-suala çəkməsə, mömin olmaz. Bu sorğu-sual gərək şərikin şərikə qarşı və ağanın qula qarşı rəftarından çətin olsun.”[3] Həzrət döyüşdən qalib qayıtmış əsgərlərə buyurdu:

مَرْحَباً بِقَوْمٍ قَضَوُا الْجِهَادَ الْأَصْغَرَ وَ بَقِيَ الْجِهَادُ الْأَكْبَرُ قِيلَ يَا رَسُولَ اللَّهِ ص وَ مَا الْجِهَادُ الْأَكْبَرُ قَالَ جِهَادُ النَّفْسِ

“Afərin kiçik cihadı qurtaranlara, böyük cihad isə hələ qalıbdır. Soruşdular: Böyük cihad nədir?

Buyurdu: Bu cihad nəfs ilə olunan cihaddır.”[4]

Həzrət yenə də buyurmuşdur:

مَنْ مَقَتَ نَفْسَهُ دُونَ مَقْتِ النَّاسِ آمَنَهُ اللَّهُ مِنْ فَزَعِ يَوْمِ الْقِيَامَةِ

---

1 “Şəms” surəsi, ayə: 9-10.
2 “Naziat” surəsi, ayə: 40-41.
3 “Biharul-ənvar”, c. 77, səh. 88.
4 “Üsuli-kafi”, c. 5, səh. 13.

“Hər kəs camaatla düşmənçilik etmək əvəzinə öz nəfsinə düşmən gözü ilə baxsa, Allah onu qiyamət gününün qorxusundan qoruyacaq.”

İmam Xomeyni “Cihadi-əkbər” kitabında yazır:

“Ey əziz! Qəflət yuxusundan oyan, himmət göstər. Nə qədər ki, vaxt var, fürsəti qənimət bil, nə qədər ki, sağsan, güclüsən, cavansan, pis əxlaqlar sənə qalib gəlməyib, özünə bir çarə qıl. Pis əxlaqı aradan qaldırmaq üçün dərman tap. Şəhvət və qəzəb odunu söndürmək üçün yol axtar.”[1]

## *Yeddi xislət, bəndəliyin yolu*

Allah-təala Peyğəmbərə (s) buyurur:

يَا أَحْمَدُ هَلْ تَدْرِي مَتَى يَكُونُ [لِيَ] الْعَبْدُ عَابِداً قَالَ لَا يَا رَبِّ قَالَ إِذَا اجْتَمَعَ فِيهِ سَبْعُ خِصَالٍ وَرَعٌ يَحْجُزُهُ عَنِ الْمَحَارِمِ وَ صَمْتٌ يَكُفُّهُ عَمَّا لَا يَعْنِيهِ وَ خَوْفٌ يَزْدَادُ فِي كُلِّ يَوْمٍ مِنْ بُكَائِهِ وَ حَيَاءٌ يَسْتَحِي مِنِّي فِي الْخَلَاءِ وَ أَكْلُ مَا لَا بُدَّ مِنْهُ وَ يُبْغِضُ الدُّنْيَا لِبُغْضِي لَهَا وَ يُحِبُّ الْأَخْيَارَ لِحُبِّي لَهُم

“Ey Əhməd! Bilirsənmi bəndəm nə vaxt abid hesab olunur?” Dedi: “Bilmirəm.” Buyurdu: “O vaxt ki, onda yeddi xislət olsa. Günah etməyə mane olan təqvası olsa, boş söz danışmağa mane olan sükutu olsa, Allah qorxusundan ağlamağı çoxaldan qorxusu olsa, təklikdə məndən xəcalət çəkdirən həyası olsa, (günah etməkdən) zəruri yeməyə qənaətlənsə, dünya məhəbbətini düşmən bilsə, çünki mən onu düşmən bilirəm. Yaxşı adamlarla dost olsa. Çünki mən salehləri sevirəm.”[2]

---

[1] “Cihadi-əkbər”, səh. 257.
[2] “Müstədrəkül-vəsail”, c. 9, səh. 19.

## *Alçaq himmət (istək)*

مَن كانَ هِمَّتُهُ ما يَدخُلُ بَطنَهُ كانَ قِيمَتُهُ ما يَخرُجُ مِن بَطنِهِ

"Hər kəsin bütün himməti yemək və qarın üçün olsa, onun qiyməti qarnından xaric olan qədərdir."[1]

## *Arifin sözü*

Arif olan şəxs ömrünü qəflət və çirkabda keçirmiş bir nəfərdən soruşdu: Sən böyüksən, yoxsa saqqalın...? Dedi: Mən saqqalımdan əvvəl dünyaya gəlmişəm. Arif dedi: Sənin saqqalın qaralıqdan ağlığa doğru yönəlib. Amma sən hələ də çirkin əxlaqından dönməmisən. Vay olsun sənə! Qəlbin günahdan qaralıb. Saqqalın isə səndən sonra vücuda gəldiyi halda kamal kəsb etməkdə səni qabaqlayıb, sən isə dəyişməmisən.

İmam Kazim (ə) buyurub:

مَنِ اسْتَوَى يَوْمَاهُ فَهُوَ مَغْبُونٌ وَ مَنْ كَانَ آخِرُ يَوْمَيْهِ شَرَّهُمَا فَهُوَ مَلْعُونٌ وَ مَنْ لَمْ يَعْرِفِ الزِّيَادَةَ فِي نَفْسِهِ فَهُوَ فِي نُقْصَانٍ وَ مَنْ كَانَ إِلَى النُّقْصَانِ فَالْمَوْتُ خَيْرٌ لَهُ مِنَ الْحَيَاةِ

"Hər kəsin iki günü eyni olsa, o aldanmışdır. Hər kəsin sonrakı günü əvvəlki günündən pis olsa, o məlundur. Hər kəs mənəviyyat cəhətdən özündə naqislik hiss etsə, o şəxsə ölüm yaşamaqdan yaxşıdır."[2]

## *Təqva*

Allah Quranda buyurur:

---

[1] "Camiül-əxbar", səh. 178.
[2] "Biharul-ənvar", c. 78, səh. 327.

“Axirət üçün azuqə götürün. Ən yaxşı azuqə təqvadır. Ey ağıl sahibləri, məndən qorxun.”[1]

Başqa bir ayədə buyurur:

“Çəkinin o gündən ki, həmin gün heç kim başqasının əvəzinə cəzalandırılmayacaq.”[2] Peyğəmbər (s) buyurub:

أَكْثَرُ مَا تَلِجُ بِهِ أُمَّتِي الْجَنَّةَ تَقْوَى اللَّهِ وَ حُسْنُ الْخُلُقِ

“Ümmətim əsasən iki şeyə xatir cənnətə daxil olar. Biri təqva, o birisi isə yaxşı əxlaqdır.”[3] İmam Rza (ə) buyurur:

لا دِينَ لِمَن لَا وَرَعَ لَه

“Hər kəs təqva və vərə sahibi olmasa, dinə də sahib deyil.”[4] İmam Baqir (ə) buyurub:

إِنَّ اللَّهَ عَزَّ وَ جَلَّ يَقُولُ وَ عِزَّتِي وَ عَظَمَتِي وَ عُلُوِّي وَ ارْتِفَاعِ مَكَانِي لَا يُؤْثِرُ عَبْدٌ هَوَايَ عَلَى هَوَى نَفْسِهِ إِلَّا كَفَفْتُ عَلَيْهِ ضَيْعَتَهُ وَ ضَمَّنْتُ السَّمَاوَاتِ وَ الْأَرْضَ رِزْقَهُ وَ كُنْتُ لَهُ مِنْ وَرَاءِ تِجَارَةِ كُلِّ تَاجِرٍ

“Həqiqətən, Allah-təala buyurur ki, izzətimə, cəlalıma, əzəmətimə və uca məqamıma and olsun, əgər bir bəndə mənim istəyimi öz istəyindən üstün tutsa, onun bütün ehtiyaclarını öhdəmə götürərəm. Yer və göy onun ruzisinə zamindirlər. Mən müxtəlif yollarla onun ruzisini yetirərəm.”[5]

## *Təqva ilə xarici aləmi özünə tabe etmək*

İmam Sadiq (ə) səfərlərinin birində Kufəyə daxil oldu. Sonra oradan Mədinəyə yola düşdü. Kufənin alim və böyük şəxsiyyətləri Həzrəti yola saldılar. Onların arasında Süfyan Suri və İbrahim ibn Ədnəm də var idi. İmamı yola salanların

[1] “Bəqərə” surəsi, ayə: 197.
[2] “Bəqərə” surəsi, ayə: 48.
[3] “Biharul-ənvar”, c. 68, səh. 375.
[4] “Mizanul-hikmət”, c. 3, səh. 379.
[5] “Vəsailüş-şiə”, c. 15, səh. 278.

bir dəstəsi Həzrətdən qabaqda hərəkət edirdilər. Birdən səhradan bir şirin onlara tərəf gəldiyini görüb dayandılar. İbrahim ibn Ədnəm onlara dedi: İmam Sadiq (ə) gələnə kimi yerinizdən tərpənməyin. Hadisəni İmama xəbər verdilər. Həzrət qorxmadan şirə tərəf getdi. Şir də ədəblə İmama tərəf yaxınlaşdı. İmam onun qulaqlarından tutub, işarə ilə onu oradan uzaqlaşdırdı. Heyvan xəcalətli halda getdi. Bu vaxt İmam oradakılara dedi:

إِنَّ النَّاسَ لَوْ أَطَاعُوا اللَّهَ حَقَّ طَاعَتِهِ لَحَمَلُوا عَلَيْهِ أَثْقَالَهُمْ

"Əgər insanlar təqvalı olsalar və Allaha itaət etsələr, Allah şiri onlara tabe edər ki, hətta yüklərini onunla daşısınlar."

## *İmam Həsənin (ə) nəsihəti*

جَاءَهُ رَجُلٌ وَ قَالَ أَنَا رَجُلٌ عَاصٍ وَ لَا أَصْبِرُ عَنِ الْمَعْصِيَةِ فَعِظْنِي بِمَوْعِظَةٍ فَقَالَ ع افْعَلْ خَمْسَةَ أَشْيَاءَ وَ أَذْنِبْ مَا شِئْتَ فَأَوَّلُ ذَلِكَ لَا تَأْكُلْ رِزْقَ اللَّهِ وَ أَذْنِبْ مَا شِئْتَ وَ الثَّانِي اخْرُجْ مِنْ وَلَايَةِ اللَّهِ وَ أَذْنِبْ مَا شِئْتَ وَ الثَّالِثُ اطْلُبْ مَوْضِعاً لَا يَرَاكَ اللَّهُ وَ أَذْنِبْ مَا شِئْتَ وَ الرَّابِعُ إِذَا جَاءَ مَلَكُ الْمَوْتِ لِيَقْبِضَ رُوحَكَ فَادْفَعْهُ عَنْ نَفْسِكَ وَ أَذْنِبْ مَا شِئْتَ وَ الْخَامِسُ إِذَا أَدْخَلَكَ مَالِكٌ فِي النَّارِ فَلَا تَدْخُلْ فِي النَّارِ وَ أَذْنِبْ مَا شِئْتَ

Bir nəfər imam Həsənin (ə) yanına gəlib dedi: Mən elə bir günahkar insanam ki, öz günahlarımın müqabilində dözə bilmirəm. Mənə nəsihət et. İmam buyurdu: "Beş işi yerinə yetir. Sonra istədiyin qədər günah et. Allahın ruzisindən yemə. Sonra istədiyin qədər günah et. Elə bir yerə get ki, Allah səni görməsin. Bu vaxt istədiyin qədər günah et. Allahın vilayətindən xaric ol, sonra istədiyin qədər günah et. Əzrail canını almaq istəyəndə onu özündən uzaqlaşdır. Sonra istədiyin qədər günah et. Cəhənnəm atəşinin sahibi səni cəhənnəmə

atmaq istəyəndə ora daxil olma. Sonra istədiyin günaha mürtəkib ol."[1]

## *Allahın hüzurunda günah etmə!*

Rəvayətə görə bir şəhərə etdikləri günahlara görə dözülməz qıtlıq üz veribmiş. Bunun üçün əhali acından ölürmüş. Bu şəhərdə dul mömin bir seyyidə xanım yaşayırdı. Onun bir neçə övladı var idi. O, bir gecə uşaqlarının aclıqdan tələf olduqlarını görüb, başqalarından dövlətli olan dəmirçi kişinin yanına getdi və ondan kömək istədi. Dəmirçi qadından onunla zina etməsini istədi. Qadın bu sözü eşidərək qəmgin halda evinə qayıtdı nə qədər fikirləşdisə, bir çarə tapa bilmədi. Yenə də dəmirçinin yanına getdi və ondan həmin cavabı eşitdi. Qadın uşaqlarını ölüm vəziyyətində görüb üçüncü dəfə dəmirçinin yanına qayıtdı. O yenə qadından günaha batmasını istədi. Qadın qəbul etdi və şərt təyin edərək dedi: Bu işi elə yerdə gör ki, məndən və səndən başqa orada heç kim olmasın.

Dəmirçi onu xəlvət bir otağa apardı. O, qadının titrədiyini görüb soruşdu: Bəs, niyə titrəyirsən? Dedi: Sən niyə şərtinə vəfa etmədin? Dəmirçi dedi: Məgər burada səndən və məndən başqa kimsə varmı? Qadın dedi: Allah bizim əməllərimizi görür və mələklər yazır. Məgər, Quranda deyilmir ki:

"Dediyi hər sözü (yazmaq üçün) onun yanında hazır durub gözləyən (iki mələk) vardır!"[2]

O, bu sözləri eşidəndən sonra pis əməlindən əl çəkdi. Hətta, sərvətinin çox hissəsini o qadına verdi. Qadın onun üçün dua etdi: İlahi, bu kişinin bədənini heç bir atəşdə yandırma. Onun duası qəbul oldu. Bu hadisədən sonra dəmirçi dəmir kürəsindən qızmış dəmiri əli ilə götürər və amma əli yanmazdı.

İmam Həsən (ə) buyurur:

---

[1] "Əl-Məvaizul-ədədiyyə", səh. 274.
[2] "Qaf" surəsi, ayə: 18.

مَن عَبَدَ اللهَ عَبَّدَ اللهُ لَهُ كُلَّ شَيئٍ

"Hər kəs Allahın qulu olsa, Allah-təala hər şeyi ona qul və müti edər."[1]

## *Həqiqi bəndə*

İbrahim Ədnəm bir qul alıb, evinə gətirdi və ona dedi: Ey qul, nə yeyirsən? Dedi: Siz nə versəniz. Dedi: Nə geyirsən? Dedi: Siz nə geyindirsəniz. Dedi: Məndən nə istəyin var? Dedi: Mənim istəklə nə işim var. Mən sənin qulun və xidmətçinəm. İbrahim ağlayaraq öz-özünə dedi: Ey miskin! Ömrün boyu belə bəndəlik etmisən?

## *Təqvalı çoban*

Təqvalı bir çobandan soruşdular: Nəyə görə canavarlar sürünün içinə daxil olurlar, amma qoyunları yemirlər? Onlar qoyunlarla nə vaxtdan dost olublar? Çoban cavab verdi: Mən günah etməyəndən.

## *Dörd şey günahları silər*

Peyğəmbər (s) buyurub:

أَرْبَعٌ مَنْ كُنَّ فِيهِ وَ كَانَ مِنْ قَرْنِهِ إِلَى قَدَمِهِ ذُنُوباً بَدَّلَهَا اللَّهُ حَسَنَاتٍ الصِّدْقُ وَ الْحَيَاءُ وَ حُسْنُ الْخُلْقِ وَ الشُّكْرُ

"Hər kəsdə dörd xislət olsa, büsbütün günah içində də olsa, Allah onun bütün günahlarını yaxşı əmələ və savaba çevirəcək. Həmin dörd xislət bunlardan ibarətdir: Düz danışmaq, həya, gözəl rəftar və nemətlərin şükrünü etmək."[2]

---

[1] "Biharul-ənvar", c. 71, səh. 184.
[2] "Üsuli-kafi", c. 3, səh. 166.

## *Sizin dostunuz xoşəxlaqlı idi!*

Peyğəmbər (s) dövründə bir şəxs dünyasını dəyişdi. Müsəlmanlar onu qəbiristanlığa apardılar. Qəbir qazanlar qəbir qazmağa başladılar. Amma yer çox bərk olduğundan onlar yeri qaza bilmədilər və Peyğəmbərə (s) şikayət edərək dedilər: Ey Peyğəmbər (s), külüngümüz yerə işləmir. Elə bil, onu daşa vururuq. Peyğəmbər (s) buyurdu: Nəyə görə!? Sizin dostunuz ki, xoşəxlaqlı idi. Sonra Həzrət bir qab su istədi və əlini qabın içinə salıb, suyu yerə səpdi. Sonra buyurdu: Qazın. Yer qum kimi yumşaldı.[1]

Peyğəmbərin (s) "sizin dostunuz ki, xoşəxlaqlı idi"— sözlərindən məlum olur ki, xoş əxlaqlı olmaq dünya və axirətdə rahatlıq, pis əxlaq isə fəlakət nişanəsidir.

İmam Sadiq (ə) buyurur:

إِنَّ الْخُلُقَ الْحَسَنَ يُمِيثُ الْخَطِيئَةَ كَمَا تُمِيثُ الشَّمْسُ الْجَلِيدَ

"Günəşin istisi buzu əritdiyi kimi, xoşəxlaq da günahları yox edir."[2]

## *Peyğəmbərin (s) müsibəti*

Peyğəmbər (s) insanları hidayət etmək üçün dözülməz çətinliklərlə qarşılaşdı və nəhayət, ümmətindən böyük cəfa gördü. Risalətə görə onu daşladılar, dişini sındıranları lənətləmək əvəzinə, belə dua etdi: "İlahi! Onlar cahildirlər və Özün onları hidayət et." Damlardan başına zibil tökdülər, hətta ömrünün axır anlarında qələm və mürəkkəb istədi ki, ümmətinin hidayəti üçün vəsiyyət etsin. Onlar isə Həzrətin göstərişinə əməl etməyib dedilər: "O, can verir və sayıqlayır. Quran bizə bəsdir!"

---

[1] "Üsuli-kafi", c. 2, səh. 101.

[2] "Biharul-ənvar", c. 68, səh. 375.

Həzrət Rəsulullah buyurmuşdur: “Heç bir peyğəmbər mənim qədər ümmətindən əziyyət görməyib.”

Amma biz isə Peyğəmbərə (s) deyirik ki, sənin Əhli-beytinin (ə) başına gətirilən müsibətlər, xüsusilə, İmam Hüseynin (ə) müsibəti sizin müsibətinizdən az olmayıb...

# İkinci məclis

## «ELM VƏ ALİMİN QİYMƏTİ»

“De, ey peyğəmbər! İlahi! Mənim elmimi artır.”[1]

“Allah elm və iman əhlinin məqamını (hər iki dünyada) uca edər.”[2]

İmam Səccad (ə) buyurur:

**لَوْ يَعْلَمُ النَّاسُ مَا فِي طَلَبِ الْعِلْمِ لَطَلَبُوهُ وَ لَوْ بِسَفْكِ الْمُهَجِ وَ خَوْضِ اللُّجَجِ**

“Əgər insanlar elmin qiymətini dərk etsəydilər, müharibə və qantökmə ilə də olsa onu öyrənməyə cəhd göstərərdilər.”[3]

Həzrət Baqir (ə) buyurur:

**عَالِمٌ يُنْتَفَعُ بِعِلْمِهِ أَفْضَلُ مِنْ سَبْعِينَ أَلْفَ عَابِدٍ**

“Elmi faydalı olan alim yetmiş min abiddən üstündür.”[4]

### *Min cihaddan üstün*

Peyğəmbəri-əkrəm (s) Əbuzərə belə buyurmuşdur:

**يا اَبا ذَرّ! الْجُلُوسُ سَاعَةً عِنْدَ مُذاكَرَةِ الْعِلْمِ اَحَبُّ اِلَيَ اللهِ مِن قِيامِ اَلْفِ لَيلَةٍ يُصَلّيَ فِي كُلِّ لَيلَةٍ اَلْفُ رَكْعَةٍ الْجُلُوسُ سَاعَةً عِنْدَ مُذاكَرَةِ الْعِلْمِ اَحَبُّ اِلَيَ اللهِ مِن اَلْفِ غَزوَةٍ وَ قِراءَةِ القُرآنِ كُلّهِ**

---

[1] “Taha” surəsi, ayə: 114.
[2] “Mücadilə” surəsi, ayə: 11.
[3] “Biharul-ənvar”, c. 1 səh. 185.
[4] “Üsuli-kafii”, c. 1 səh.33.

—Ey Əbuzər! Bir saat elmi müzakirə ilə məşğul olmaq, min gecənin savabından ki, hər gecə min rükət namaz qılıb və min müharibə və Quran tilavətindən üstündür.[1]

Yenə də buyurdu:

يَا أَبَا ذَرٍّ! الْجُلُوسُ سَاعَةً عِنْدَ مُذَاكَرَةِ الْعِلْمِ خَيْرٌ لَكَ مِنْ عِبَادَةِ سَنَةٍ صِيَامٍ نَهَارُهَا وَ قِيَامٍ لَيْلُهَا وَ النَّظَرُ إِلَى وَجْهِ الْعَالِمِ خَيْرٌ لَكَ مِنْ عِتْقِ أَلْفِ رَقَبَةٍ

—Ey Əbuzər! Bir saat elmi müzakirədə oturmaq bir ilin ibadətindən—gündüzləri oruc tutub və gecələri namaz qılmaqdan üstündür. Alimin üzünə baxmaq qul azad etməkdən üstündür.[2]

## *İki hədis öyrənmək və altmış il ibadət*

Həzrət Peyğəmbər (s) buyurub:

مَنْ تَعَلَّمَ حَدِيثَيْنِ اثْنَيْنِ يَنْفَعُ بِهِمَا نَفْسَهُ أَوْ يُعَلِّمُهُمَا غَيْرَهُ فَيَنْتَفِعُ بِهِمَا كَانَ خَيْراً مِنْ عِبَادَةِ سِتِّينَ سَنَةً

“Hər kim iki hədis öyrənsə, onlardan kamala yetişmək üçün istifadə etsə və ya başqalarına öyrətsə, onlar da o hədislərdən istifadə etsələr, belə bir şəxsin əməli altmış ilin ibadətindən üstündür.”[3]

Həzrət Əli (ə) buyurur:

الْحِكْمَةُ ضَالَّةُ الْمُؤْمِنِ فَخُذِ الْحِكْمَةَ وَ لَوْ مِنْ أَهْلِ النِّفَاقِ

“Hikmət və elm möminin itirdiyi şeydir. Ona görə münafiqdən olsa da onu öyrənin.”[4]

Həzrət Peyğəmbər (s) buyurmuşdur:

---

[1] “Müstədrəkül-vəsail”, c. 9, səh. 153.

[2] “Müstədrəkül-vəsail”, c. 9, səh. 153.

[3] “Biharul-ənvar”, c. 2, səh. 152.

[4] “Nəhcül-bəlağə”, səh. 481.

**يا عَلِيُّ ثَلاثَةٌ مِنْ حَقَائِقِ الْإِيمَانِ الْإِنْفَاقُ مِنَ الْإِقْتَارِ وَ إِنْصَافُكَ النَّاسَ مِنْ نَفْسِكَ وَ بَذْلُ الْعِلْمِ لِلْمُتَعَلِّم**

"Ey Əli, üç şey imanın sirindəndir; kasıb ikən ehsan etmək, camaatla insafla rəftar etmək, başqalarına elm öyrətmək."

## *Alimlərdə olan beş xislət*

Peyğəmbər (s) buyurub:

**لا تَجْلِسُوا إِلَّا عِنْدَ كُلِّ عَالِمٍ يَدْعُوكُمْ مِنْ خَمْسٍ إِلَى خَمْسٍ مِنَ الشَّكِّ إِلَى الْيَقِينِ وَ مِنَ الرِّيَاءِ إِلَى الْإِخْلَاصِ وَ مِنَ الرَّغْبَةِ إِلَى الزُّهْبَةِ وَ مِنَ الْكِبْرِ إِلَى التَّوَاضُعِ وَ مِنَ الْغَشِّ إِلَى النَّصِيحَةِ**

"Yalnız sizi beş şeydən uzaqlaşdıran və beş şeyə dəvət edən alimlə oturun: Şəkdən yəqinə, riyadan ixlasa, rəqvətdən zöhdə, təkəbbürdən təvazökarlığa, xəyanət və hiylədən xeyirxahlığa dəvət etsin."[1]

## *Bir saat mütaliə və yetmiş il ibadət*

Peyğəmbər (s) buyurub:

**سَاعَةٌ مِنْ عَالِمٍ يَتَّكِئُ عَلَى فِرَاشِهِ يَنْظُرُ فِي عِلْمِهِ خَيْرٌ مِنْ عِبَادَةِ الْعَابِدِ سَبْعِينَ عَاماً**

"Alimin bir saat elmə sərf etdiyi vaxtı abidin yetmiş il ibadətindən üstündür."[2]

---

1 "Müstədrəkül-vəsail", c. 7 , səh. 327.

2 "Biharül-ənvar", c. 2 səh. 23.

## *Alimin abiddən üstünlüyü*

Peyğəmbərimiz (s) buyurub:

اِنَّ الشَّيْطَانَ يَدَعُ الْبِدْعَةَ لِلنَّاسِ فَيُبَصِّرُهَا الْعَالِمُ فَيَنْهَى عَنْهَا وَ الْعَابِدُ مُقْبِلٌ عَلَى عِبَادَتِهِ لَا يَتَوَجَّهُ لَهَا وَ لَا يَعْرِفُهَا

"Şeytan insanları bidətə doğru çəkir. Belə olan surətdə alimlər insanları agah edib çəkindirir, abid isə ancaq ibadətə qapılaraq ətrafına fikir vermir və bunu anlamır."[1]

## *Alimlərin axirətdə şəfaəti*

İmam Rza (ə) buyurub:

يُقَالُ لِلْعَابِدِ يَوْمَ الْقِيَامَةِ نِعْمَ الرَّجُلُ كُنْتَ هِمَّتُكَ ذَاتُ نَفْسِكَ فَادْخُلِ الْجَنَّةَ وَ يُقَالُ لِلْفَقِيهِ يَا أَيُّهَا الْكَافِلُ لِأَيْتَامِ آلِ مُحَمَّدٍ الْهَادِي لِضُعَفَاءِ مُحِبِّيهِمْ وَ مَوَالِيهِمْ قِفْ حَتَّى تَشْفَعَ لِمَنْ أَخَذَ عَنْكَ أَوْ تَعَلَّمَ مِنْكَ فَيَقِفُ فَيَدْخُلُ الْجَنَّةَ مَعَهُ فِئَامٌ وَ فِئَامٌ وَ فِئَامٌ حَتَّى قَالَ عَشْراً وَ هُمُ الَّذِينَ أَخَذُوا عَنْهُ عُلُومَهُ وَ أَخَذُوا عَمَّنْ أَخَذَ عَنْهُ وَ عَمَّنْ أَخَذَ عَمَّنْ أَخَذَ عَنْهُ إِلَى يَوْمِ الْقِيَامَةِ فَانْظُرُوا كَمْ فَرْقٍ بَيْنَ الْمَنْزِلَتَيْنِ

"Qiyamət günü abidə deyilər: Sən yaxşı insan idin, ibadət və kamala yetişməyin üçün çalışdın. Amma fəqih və alimə deyilər: Ey ali Məhəmmədin (s) yetimlərinin himayədarı! Sən onları hidayət etdin, zəiflərə məhəbbət göstərdin. İndi öyrətdiyin şəxslərə şəfaət et. O, onlara şəfaət edər və bəzi şagirdlərini isə cənnətə aparar. Buna görə də alimlə abid arasında fərq var."[2]

İmam Əli (ə) buyurub: "Bir saat alimlə oturmaq Allah yanında min ibadətdən daha sevimlidir. Alimlə camə

---

[1] "Biharul-ənvar", c. 23, səh. 24.
[2] "Müstədrəkül-vəsail", c. 17, səh. 32.

məscidində namaz qılmaq yüz min rəkətə bərabərdir. Qeyri-cümə məscidində isə min rəkət savabı var.”

## *Ən pis və ən yaxşı insan*

İmam Səccad (ə) buyurub:

اِنَّ اللَّهَ تبَارَاكَ وَ تعَالَى أَوْحَى إِلَى دَانِيَالَ اِنَّ أَمْقَتَ عَبِيدِي إِلَيَّ الْجَاهِلُ الْمُسْتَخِفُّ بِحَقِّ أَهْلِ الْعِلْمِ التَّارِكُ لِلاِقْتِدَاءِ بِهِمْ...

Allah Danyal peyğəmbərə vəhy etdi: “Mənim yanımda ən pis və düşmən insan alimlərə zillət gözü ilə baxan və ona tabe olmayan cahildir. Ən yaxşı insan həmişə alimlərlə olan və onları ülgü qərar verən adamdır.”[1]

Alimlərə ehtiram haqda hədislərdə deyilən çoxlu buyuruqların kənarında bir o qədər də əməlsiz alimlərin məzəmməti barədə göstərişlər vardır. Əlbəttə, burada deyilənlər yalnız dini təhsili olan ruhanilərə aid deyil, ümumiyyətlə, şəri vəzifə və göstərişlərdən xəbəri olan hər bir müsəlmana aiddir.

## *Əməlsiz alimin məzəmməti*

İmam Əli (ə) buyurmuşdur: “Tovratın axırıncı hissəsində beş buyuruq vardır ki, mən hər səhər onu oxumağı sevirəm: Əməlsiz alim şeytan kimi, zalım soltan Firon kimi, tamahkar fəqir varlının qarşısında baş əyən it kimi, istifadə edilməyən sərvət kərpic kimi və zəruri və ehtiyac olmayan hallarda evdən çıxan qadın kəniz kimidir.”[2]

Ustadlardan birinə dedilər: Siz niyə əxlaq dərsi demirsinin? Dedi: Quranın iki ayəsi məni bu işdən uzaqlaşdırıb:

---

[1] “Üsuli-kafi”, c. 1, səh. 36.
[2] “Nəsayih”, səh. 223.

“Siz necə insanları yaxşı işlərə əmr edirsiniz ki, özünüzü unudursunuz? Halbuki siz Allahın kitabını oxuyursunuz. Bəs, niyə fikirləşmirsiniz?”[1] Başqa bir ayədə buyurur:

“Əməl etmədiyiniz sözü deməkdən qorxun. Bu Allahı bərk qəzəbləndirir.”[2]

## *Dünyapərəst alim və dinsiz ölüm*

Həzrət Peyğəmbər (s) buyurmuşdur:

مَن تَعَلَّمَ لِلتَّكَبُّرِ ماتَ جاهلاً وَمَن تَعلَّمَ لِلقَولِ دُونَ العَمَلِ ماتَ مُنافِقاً وَمَن تَعلَّمَهُ لِلمُناظَرَةِ ماتَ فاسِقاً وَمَن تَعَلَّمَهُ لِكَثرَةِ الْمالِ ماتَ زِندِيقاً وَمَن تَعَلَّمَهُ لِلعَمَلِ ماتَ عارِفاً

“Hər kəs fəxr etmək üçün elm öyrənsə, cahil kimi dünyadan gedər. Hər kəs onu ancaq demək üçün öyrənərsə, münafiq kimi ölər. Hər kəs onu mübahisə və cədəl üçün öyrənərsə, fasiq ölər. Hər kim onu varlanmaq üçün öyrənərsə, dinsiz ölər. Hər kim onu əməl etmək üçün öyrənsə, arif və müvəhhid ölər.”[3]

## *Yolkəsən*

İmam Sadiq (ə) buyurur: Allah-təala Davuda (ə) belə vəhy etdi:

أَوْحَى اللَّهُ إِلَى دَاوُدَ ع لَا تَجْعَلْ بَيْنِي وَ بَيْنَكَ عَالِماً مَفْتُوناً بِالدُّنْيَا فَيَصُدَّكَ عَنْ طَرِيقِ مَحَبَّتِي فَإِنَّ أُولئِكَ قُطَّاعُ طَرِيقِ عِبَادِيَ الْمُرِيدِينَ إِنَّ أَدْنَى مَا أَنَا صَانِعٌ بِهِمْ أَنْ أَنْزِعَ حَلَاوَةَ مُنَاجَاتِي عَنْ قُلُوبِهِمْ

“Dünyapərəst alimi mənimlə öz aranda vasitə qərar vermə. Çünki o səni mənim məhəbbətimdən uzaqlaşdırar. Dünyapərəst

---

[1] “Bəqərə” surəsi, ayə: 44.
[2] “Səf” surəsi, ayə: 3.
[3] “Əl-Məvaizül-ədədiyyə”, səh. 262.

alimlər bəndələrin yolunu kəsəndir. Mən ən azı onlardan öz minacatımın şirinliyini alacağam."[1] İmam Sadiq (ə) buyurub:

يُغْفَرُ لِلْجَاهِلِ سَبْعُونَ ذَنْباً قَبْلَ أَنْ يُغْفَرَ لِلْعَالِمِ ذَنْبٌ وَاحِدٌ

"Alimin bir günahı bağışlanmamış cahilin yetmiş günahı bağışlanar."[2]

## *Alimin xətası və təbil səsi*

Həzrət Peyğəmbər (s) buyurub: "Alimin xətası təbil səsi kimidir ki, tezliklə camaata yetişər. Amma cahilin xətasını onun nadanlığı örtər."[3]

Həzrət Əli (ə) buyurub: "Alimin xətası böyük cinayətdir." "Alimin xətası aləmdəkiləri fəsada sürükləyər."[4]

زَلَّةُ الْعَالِمِ كَانْكِسَارِ السَّفِينَةِ تَغْرِقُ وَ تُغْرِقُ

"Alimin xətası sınmış gəmiyə bənzəyər ki, özünü və başqalarını qərq edər."[5]

## *Uşağın xəbərdarlığı*

Bir gün Əbu Hənifə bir yerdən keçirdi. Bir uşağın uçuq bir yerdən keçmək istədiyini gördü. Uşağa dedi: Özünü qoru ki, yıxılmayasan. Uşaq Əbu Hənifəyə dedi: Ey Şeyx! Mənə yıxılmaqla heç nə olmaz. Əgər sən yıxılsan, sənin bütün tərəfdarların yıxılar. Əbu Hənifə uşağın zəkasına təəccüb etdi.

---

[1] "Üsuli-kafi", c. 1, səh. 46.
[2] "Üsuli-kafi", c. 1, səh. 48.
[3] "Nəhcül-fəsahə", səh. 357.
[4] "Qürərül-hikəm", səh. 47.
[5] "Biharul-ənvar", c. 2, səh. 58.

## *Musanın (ə) ağlaması*

Allah Musaya (ə) buyurdu: İndiyə qədər xalis bir əməl etmisən? Dedi: Bəli, namaz qılmışam, oruc tutmuşam və zikr etmişəm. Allah-təala buyurdu: Namazın Sirat körpüsündən keçməyin üçün bir vasitədir. Orucun cəhənnəm atəşi üçün qalxandır. Zikrin isə cənnətdə dərəcəni artırandır. Həzrət Musa (ə) ağladı və dedi: İlahi! Mnə elə bir iş öyrət ki, yalnız sənin üçün olsun. Buyurdu: Məzluma kömək etmisən, paltarsızı geydirmisən? Susuza su vermisən? Alimə hörmət etmisən? Bunlar xalis əməllərdir.[1]

Peyğəmbər (s) buyurub:

خَمْسَةٌ مِن مصائِبِ الآخرَةِ فَوَاتُ الصَّلوةِ وَ مَوتُ العالِمِ و رَدُّ السّائِلِ وَ مُخالَفَةُ الْوالِدَينِ

"Beş şey axirətin müsibətlərindəndir: 1. Namaz qılmamaq; 2. Alimin ölümü; 3. Dilənçini ümidsiz etmək; 4. Ata-anaya itaətsizlik; 6. Zəkat verməmək."[2] Yenə Peyğəmbər (s) buyurub:

مُجَالَسَةُ الْعُلَمَاءِ عِبَادَةٌ

"Alimlərlə oturmaq ibadətdir."[3]

Əli (ə) buyurur:

لَيْسَ مِنْ أَخْلَاقِ الْمُؤْمِنِ التَّمَلُّقُ وَ لَا الْحَسَدُ إِلَّا فِي طَلَبِ الْعِلْمِ

"Yaltaqlıq və paxıllıq mömindən uzaqdır, yalnız (müsbət mənada) elm yolunda."[4]

---

[1] "Nəsayih", səh. 110.
[2] "Əl-Məvaizul-ədədiyyə", səh. 262.
[3] "Biharul-ənvar", c. 1, səh. 204.
[4] "Müstədrəkül-vəsail", c. 12, səh. 19.

## *Həzrət Zəhranın (əh.) müsibəti*

İbn Abbas deyir: Həzrət Zəhra (əh.) vəfat edəndə Əli (ə) məsciddə idi və Həsən və Hüseyn (ə) da evdə yox idilər. Evdə yalnız Əsma bint Ümeys var idi. Əsma müsibətin ağırlığından nalə edərək ağlar halda evdən çıxdı. Qapının qarşısında Həsən və Hüseynlə rastlaşdı. Onlar dedilər: Anamızın vəziyyəti necədir? Əsma susduqda, onlar həyəcanla evə daxil oldular və Həzrət Zəhranı yatmış halda gördülər. Hüseyn (ə) anasını tərpədərək onun ölümündən xəbər tutduqda, belə səsləndi: Qardaşım, sənə baş sağlığı verirəm! Sonra fəryad edərək dedi: Ya Mühəmməd (s)! Bu gün sənin vəfat müsibətin bir daha təkrar oldu! Anamız vəfat etdi! Həsən və Hüseyn (ə) məscidə tərəf qaçaraq hadisəni Əliyə (ə) xəbər verdilər. Bu xəbər İmamı o qədər sarsıtdı ki, taqətsiz halda yerə yıxıldı. Orada olanlar Həzrəti ayıltdılar və İmam oğulları ilə birgə evə qayıtdı. Onlar Əsmanı ağlar halda Zəhranın cənazəsinin yanında gördülər. Əli (ə) Zəhranın (əh.) üzündən parçanı götürdü. İmam onun vəsiyyətnaməsini balışın altından götürüb oxudu. Orada belə yazılmışdı: "Əmioğlu, mənim qüslümü gecəyə saxla və gecə də kəfənləyib, namaz qılıb torpağa tapşır. Bu xəbəri heç kimə bildirmə. Səni Allaha tapşırıram və övladlarıma salam yetir..." Əli (ə) onun vəsiyyətinə əməl edərək vəsf olunmayan bir qəm-qüssə ilə, ağlar gözlərlə ona gecə qüsl verib, kəfənləyib torpağa basdırdı."[1]

[1] "Biharul-ənvar", c. 43, səh. 214.

# Üçüncü məclis

## «İSLAMDA EVLƏNMƏ»

"Əlbəttə, subay kişiləri və ərsiz qadınları, kənizləri və qulları bir-biri ilə evləndirin. Ta ki, möminlər arasında subay kişi və ərsiz qadın qalmasın. Fəqirlikdən qorxmayın. Əgər qadın və kişi fəqirdirsə, Allah öz lütfü ilə onları ehtiyacsız edəcək. Allah-təala bəndələrindən xəbərdardır."[1]

### *Dünyanın xeyri dörd şeydədir*

Peyğəmbər (s) buyurub:

أَرْبَعٌ مَنْ أُعْطِيَهُنَّ فَقَدْ أُعْطِيَ خَيْرَ الدُّنْيَا وَ الْآخِرَةِ بَدَناً صَابِراً وَ لِسَاناً ذَاكِراً وَ قَلْباً شَاكِراً وَ زَوْجَةً صَالِحَةً

"Əgər bir şəxsə dörd şey verilsə, dünya və axirətin xeyrini qazanar: 1. Sağlam bədən; 2. Zikr edən dil; 3. Zikr edən qəlb; 4. Saleh xanım."[2]

### *Dörd şey rəhmətin nazil olmasına səbəb olar*

Peyğəmbər (s) buyurub:

يُفْتَحُ أَبْوَابُ السَّمَاءِ بِالرَّحْمَةِ فِي أَرْبَعِ مَوَاضِعَ عِنْدَ نُزُولِ الْمَطَرِ وَ عِنْدَ نَظَرِ الْوَلَدِ فِي وَجْهِ الْوَالِدِ وَ عِنْدَ فَتْحِ بَابِ الْكَعْبَةِ وَ عِنْدَ النِّكَاحِ

---

[1] "Nur" surəsi, ayə: 32.
[2] "Müstədrəkül-vəsail", c. 14, səh. 108.

“Allahın rəhmət qapıları dörd vaxt açılır:1. Yağış yağan vaxt; 2. Övlad məhəbbətlə atanın üzünə baxan vaxt; 3. Kəbənin qapısı açılan vaxt; 4. Evlənmə vaxtı.”[1]

İmam Səccad (ə) buyurur:

مَنْ زَوَّجَ عَزَباً تَوَجَّهَ اللَّهُ بِتاجِ الْمُلكِ

“Hər kəs subay bir şəxsi evləndirsə, Allah-təala qiyamətdə onun başına şahlıq tacı qoyar.”[2]

## *Min qəsrdə min huri*

Peyğəmbər (s) buyurub:

مَنْ عَمِلَ فِي تَزْوِيجٍ بَيْنَ مُؤْمِنَيْنِ حَتَّى يَجْمَعَ بَيْنَهُمَا زَوَّجَهُ اللَّهُعَزَّ وَ جَلَّ أَلْفَ امْرَأَةٍ مِنَ
الْحُورِ الْعِينِ كُلُّ امْرَأَةٍ فِي قَصْرٍ مِنْ دُرٍّ وَ يَاقُوت

“Hər kim iki mömini evləndirməyə çalışsa, onlar ailə qurana qədər Allah onu hər biri dürr və yaqut qəsrdə yaşayan min huri ilə evləndirər.”[3]

## *Nikahın tərki Allaha qarşı şübhədir*

Peyğəmbər (s) buyurub:

مَنْ تَرَكَ التَّزْوِيجَ مَخَافَةَ الْعَيْلَةِ فَقَدْ أَسَاءَ ظَنَّهُ بِاللَّهِعَزَّ وَ جَل

“Hər kəs kasıblığa görə evlənməsə, o Allahın qüdrət və ruzi verməsinə şəkk edir.”[4] Peyğəmbər (s) digər bir hədisində buyurub:

تَزَوَّجْ فَإِنَّ فِي التَّزْوِيجِ بَرَكَة

“Evlən, çünki evlənməkdə bərəkət var.”[5]

---

[1] “Müstədrəkül-vəsail”, c. 9, səh. 152.
[2] “Əvalil-ləali”, c. 3, səh. 251.
[3] “Vəsailüş-şiə”, c. 20, səh. 47.
[4] “Müstədrəkül-vəsail”, c. 14, səh. 172.
[5] “Müstədrəkül-vəsail”, c. 14, səh. 162.

## *Ən gözəl ocaq*

Peyğəmbər (s) buyurub:

مَا بُنِيَ فِي الْإِسْلَامِ بِنَاءٌ أَحَبُّ إِلَى اللَّهِ عَزَّ وَ جَلَّ وَ أَعَزُّ مِنَ التَّزْوِيجِ

"İslamda Allah yanında nikahdan sevimli və əziz ocaq yoxdur."[1]

## *Ən pis və ən yaxşı ümmət*

Peyğəmbər (s) buyurub:

شِرَارُكُمْ عُزَّابُكُمْ وَ الْعُزَّابُ إِخْوَانُ الشَّيَاطِينِ

"Sizin ən pisiniz evlənməyənlərdir. Onlar, şeytanın qardaşı hesab olunurlar."[2]

خِيَارُ أُمَّتِي الْمُتَأَهِّلُونَ وَ شِرَارُ أُمَّتِي الْعُزَّابُ

"Ümmətimin ən yaxşı şəxsləri evlilərdir və ən pisi isə evlənməyənlərdir."[3] Başqa bir hədisdə buyurur:

لَوْ خَرَجَ الْعُزَّابُ مِنْ مَوْتَاكُمْ إِلَى الدُّنْيَا لَتَزَوَّجُوا

"Subay vəfat edənlər əgər dünyaya qayıda bilsəydilər, mütləq evlənərdilər.[4]

رَكْعَتَانِ يُصَلِّيهِمَا الْمُتَزَوِّجُ أَفْضَلُ مِنْ سَبْعِينَ رَكْعَةً يُصَلِّيهَا الْعَزَبُ

"Evlinin iki rükət namazı subayın yetmiş rükət namazından üstündür.[5] Peyğəmbər (s) yenə buyurub:

أَفْضَلُ نِسَاءِ أُمَّتِي أَصْبَحُهُنَّ وَجْهاً وَ أَقَلُّهُنَّ مَهْراً

"Ümmətimin ən üstün qadınları mehriyyəsi az olan gözəl simalı qadınlardır."[6]

---

[1] "Biharul-ənvar", c. 13, səh. 22.
[2] "Müstədrəkül-vəsail", c. 14, səh. 156.
[3] "Müstədrəkül-vəsail", c. 14, səh. 156.
[4] "Müstədrəkül-vəsail", c. 14, səh. 157.
[5] "Vəsailüş-şiə", c. 14, səh. 6.
[6] "Müstədrəkül-vəsail", c. 14, səh. 161.

## *Məhəbbət mehriyyə ilə deyil*

Həzrət Əli (ə) buyurmuşdur:
“Qadınların mehriyyəsini çox etməyin ki, ədavət yaradar.”

## *Elçilik edənin şərtləri*

İmam Baqir (ə) buyurub:

مَنْ خَطَبَ إِلَيْكُمْ فَرَضِيتُمْ دِينَهُ وَ أَمَانَتَهُ فَزَوِّجُوهُ إِلَّا تَفْعَلُوهُ تَكُنْ فِتْنَةٌ فِي الْأَرْض

“Əgər elçi gələn şəxsin dini və əmanətdarlığı qənaətbəxş olsa, qızınızı onunla evləndirin. Əks halda isə, yer üzündə fəsad baş verər.”[1]

## *Paklıqdan başqa heç nə*

İmam Rza (ə) buyurub:

إِنْ خَطَبَ إِلَيْكَ رَجُلٌ رَضِيتَ دِينَهُ وَ خُلُقَهُ فَزَوِّجْهُ وَ لَا يَمْنَعْكَ فَقْرُهُ وَ فَاقَتُهُ قَالَ اللَّهُ تَعَالَى ﴿وَ إِنْ يَتَفَرَّقَا يُغْنِ اللَّهُ كُلًّا مِنْ سَعَتِهِ وَ قَالَ إِنْ يَكُونُوا فُقَرَاءَ يُغْنِهِمُ اللَّهُ مِنْ فَضْلِهِ وَ اللَّهُ وَاسِعٌ عَلِيمٌ﴾

“Əgər qızınıza elçi gəlsə, dini və əxlaqı yaxşı olsa, qəbul edin. Kasıblıq, gərək, evlənməyə mane olmasın. Çünki Quran buyurur: “Əgər fəqir olsalar, Allah lütfü ilə onları ehtiyacsız edər. Allah genişləndirən və agahdır.”[2]

## *Asan nikah*

Şiə aləminin fəqih və alimlərindən olan Kaşiful-ğita kimi məşhurlaşmış mərhum Ayətullah şeyx Cəfər Kəbir (rəh.), camaat arasında böyük nüfuza malik idi. O, bacardığı qədər

[1] “Müstədrəkül-vəsail”, c. 14, səh. 189.
[2] “Müstədrəkül-vəsail”, c. 14, səh. 188.

camaata kömək edirdi. Bir gün o, dərsdə tələbəsinin sözlü olduğunu gördü. Ancaq tələbə utandığı üçün bir söz deyə bilmirdi. Şeyx onunla o qədər xoş söhbət etdi ki, tələbə dilə gəlib dedi: „Qızını mənə ərə ver." Şeyx onu evinə aparıb qızının əqdini tələbə üçün oxudu. Onlar həmin gün evləndilər.[1]

## *Fasiq və şərabxor elçi*

Peyğəmbər (s) buyurmuşdur:

مَنْ زَوَّجَ كَرِيمَتَهُ بِفَاسِقٍ نَزَلَ عَلَيْهِ كُلَّ يَوْمٍ أَلْفُ لَعْنَة

"Hər kim qızını fasiqə ərə versə, hər gün onun üçün min lənət nazil olar!"[2]

Peyğəmbər (s) buyurmuşdur:

مَنْ زَوَّجَ كَرِيمَتَهُ مِنْ شَارِبِ الْخَمْرِ فَكَأَنَّمَا سَاقَهَا إِلَى الزِّنَى

"Qızını şərabxora ərə verən şəxs elə bil, onu zina etməyə göndərib!"[3]

## *Bir il ibadətin savabı*

Peyğəmbər (s) buyurub: "Allah-təala başqalarını evləndirməyə çalışan şəxsin hər addımına və sözünə birillik ibadətin savabını (ki, gündüzləri oruc və gecələri namaz qıla) əta edər."[4]

## *Ən yaxşı şəfaət*

أَفْضَلُ الشَّفَاعَاتِ أَنْ تَشْفَعَ بَيْنَ اثْنَيْنِ فِي نِكَاحٍ حَتَّى يَجْمَعَ اللَّهُ بَيْنَهُمَا

---

[1] "Hekayəthaye-şənidəni", səh. 207.
[2] "Müstədrəkül-vəsail", c. 14, səh. 192.
[3] "Müstədrəkül-vəsail", c. 14, səh. 191.
[4] "Müstədrəkül-vəsail", c. 14, səh. 191.

“Ən üstün şəfaət insanın iki nəfəri evləndirmək üçün etdiyi köməkdir.” İmam Sadiq (ə) buyurub:

الرِّزْقُ مَعَ النِّسَاءِ وَ الْعِيَالِ

“Ruzi xanım və ailə ilə birlikdədir.”[1] “Hər kim övladını evləndirməyə gücü çatdığı halda evləndirməsə və övladı günaha batsa, onun günahlarının yarısı valideynin əməl dəftərinə yazılar.”[2]

Peyğəmbər (s) buyurmuşdur:

حَقِّ الْوَلَدِ عَلَى وَالِدِهِ ثَلَاثَةٌ يُحَسِّنُ اسْمَهُ وَ يُعَلِّمُهُ الْكِتَابَةَ وَ يُزَوِّجُهُ إِذَا بَلَغَ

“Övladın ata boynundakı haqqı ona yaxşı ad qoymaq, baliğ olanda onu evləndirmək və Quran öyrətməkdir.[3]

## *Yetmiş min bərəkət*

Gəlin ər evinə gələndə əgər onun ayağını yuyub suyunu evin hər tərəfinə səpsələr, o evdən yetmiş min kasıbçılıq uzaqlaşar, yetmiş min bərəkət nazil olar. Gəlinin başına isə yetmiş min rəhmət tökülər və onu dəlilik və xora xəstəliyindən qoruyar.[4]

لَا سَهَرَ إِلَّا فِي ثَلَاثٍ مُتَهَجِّدٍ بِالْقُرْآنِ أَوْ فِي طَلَبِ الْعِلْمِ أَوْ عَرُوسٍ تُهْدَى إِلَى زَوْجِهَا

Peyğəmbər (s) buyurub: “Üç zaman gecə oyaq qalmaq caizdir: 1. Quran oxuyanda; 2. elmlə məşğul olduqda; 3. ər evinə gəlin gətiriləndə.”

## *İmam Əlinin (ə) müsibəti*

Peyğəmbər (s) buyurmuşdur:

---

[1] “Üsuli-kafi”, c. 5, səh. 331.
[2] “Zəalil-ənvar”, c. 3, səh. 221.
[3] “Müstədrəkül-vəsail”, c. 15, səh. 128.
[4] “Camiül-əxbar”, səh. 276.

إِنِّي تَارِكٌ فِيكُمُ الثَّقَلَيْنِ مَا إِنْ تَمَسَّكْتُمْ بِهِمَا لَنْ تَضِلُّوا كِتَابَ اللَّهِ وَ عِتْرَتِي أَهْلَ بَيْتِي وَ إِنَّهُمَا لَنْ يَفْتَرِقَا حَتَّى يَرِدَا عَلَيَّ الْحَوْضَ

"Mən iki qiymətli şeyi—Quran və Əhli-beytimi sizin aranızda əmanət qoyuram ki, əgər onlara bağlansanız heç vaxt yolunuzu azmazsınız..." Amma deməliyik ki, ya Rəsulullah, sizdən sonra hakimiyyət üstündə dünya hərisləri hansı zülmləri Əhli-beytinizə rəva görmədilər, Zəhrana sillə vurdular, Əlini ev dustağı etdilər, əlibağlı məscidə aparıb zorla beyət etdirdilər və axırda isə mehrabda başını yardılar!

تَهَدَّمَتْ وَ اللَّهِ أَرْكَانُ الْهُدَى وَ انْطَمَسَتْ وَ اللَّهِ أَعْلَامُ التُّقَى قُتِلَ ابْنُ عَمِّ مُحَمَّدٍ الْمُصْطَفَى قُتِلَ عَلِيٌّ الْمُرْتَضَى قَتَلَهُ أَشْقَى الْأَشْقِيَاءِ

Məhəmməd Hənəfiyyə deyir ki, atam dünya ilə vidalaşmaq istəyərkən buyurdu: "Məni namaz qıldığım yerə aparın." Həzrəti dediyi yerə apardılar. Bu zaman camaat elə kədərlə ağlayırdı ki, az qalırdı insan can versin. İmam Hüseyn (ə) ağlar halda atasına baxıb dedi: "Sizdən sonra biz nə edərik! Sizin müsibətiniz Peyğəmbərin (s) vəfatı kimi bizim üçün çox ağırdır! Allaha and olsun, sizi bu halda görmək mənim üçün dözülməzdir!" İmam buyurdu: "Hüseyn! Yaxın gəl." Hüseyn yaşlı gözlərlə ona yaxınlaşdı. İmam Əli (ə) onun gözünün yaşını əli ilə silərək əlini onun ürəyinin üstünə qoyub buyurdu:

يا بني ربط الله قلبك بالصبر...

"Oğlum, Allah sənə səbir versin, sənə və qardaşına ən böyük savabı əta etsin. Sakit ol və ağlama ki, Allah bu böyük müsibətə görə sənə əcr versin."[1] Başqa rəvayətə görə Əli (ə), Hüseynə (ə) baxıb dedi:

يا أبا عبد الله أنت شهيد هذه الأمة فعليك بتقوى الله و الصبر على بلائه

"Ey Əba Əbdillah, sənsən bu ümmətin şəhidi! Bəlalarının müqabilində səbirli və təqvalı ol." Bundan sonra başqa

---

[1] "Biharul-ənvar", c. 42, səh. 289.

övladları da İmamı görməyə gəldilər. İmam onlara da səbiri tövsiyə etdi. Bu ərəfədə bəzən Həzrət özü də onlara qoşularaq ağlayırdı...[1]

[1] "Süqnameyi-Ali-Mühəmməd", səh. 48.

# Dördüncü məclis

## «QADININ ƏR QARŞISINDA VƏZİFƏLƏRİ»

“Qadınların ərlərinin boynunda hüquqları var. Necə ki, kişilərin xanımlarının boynunda şəri hüquqları vardır. Lakin kişilərin qadınlardan üstünlüyü var. Allah izzətli və hikmət sahibidir.”[1]

Peyğəmbər (s) buyurmuşdur:

مَنْ كَانَ لَهُ امْرَأَةٌ تُؤْذِيهِ لَمْ يَقْبَلِ اللَّهُ صَلَاتَهَا وَ لَا حَسَنَةً مِنْ عَمَلِهَا حَتَّى تُعِينَهُ وَ تُرْضِيَهُ وَ إِنْ صَامَتِ الدَّهْرَ وَ قَامَتْ وَ أَعْتَقَتِ الرِّقَابَ وَ أَنْفَقَتِ الْأَمْوَالَ فِي سَبِيلِ اللَّهِ وَ كَانَتْ أَوَّلَ مَنْ تَرِدُ النَّارَ ثُمَّ قَالَ قَالَ رَسُولُ اللَّهِ^ص وَ عَلَى الرَّجُلِ مِثْلُ ذَلِكَ الْوِزْرِ وَ الْعَذَابِ إِذَا كَانَ لَهَا مُؤْذِياً ظَالِماً

“Allahərini incidən qadının namazlarını və yaxşı əməllərini ərini razı etməyincə, qəbul etməz. O qadın ömür boyu oruc tutsa, namaz qılsa, qulları azad etsə və bütün malını ehsan etsə də. Həmin qadın cəhənnəmə daxil olan ilk şəxs olacaq.” Sonra Peyğəmbər (s) buyurmuşdur: “Kişi də xanımını incitsə, həmin əzablara düçar olacaq.”[2]

İmam Sadiq (ə) bu barədə buyurub:

خَيْرُ نِسَائِكُمْ الَّتِي إِنْ أُعْطِيَتْ شَكَرَتْ وَ إِنْ مُنِعَتْ رَضِيَتْ

“Qadınların ən yaxşısı bir şeyi ona versək şükür edən, verməyəndə isə qane olan qadındır.”[3]

---

[1] “Bəqərə” surəsi, ayə: 228.
[2] “Vəsailüş-şiə”, c. 14, səh. 116.
[3] “Müstədrəkül-vəsail”, c. 14, səh. 161.

## *Bir qurtum su ilə altmış illik günahın bağışlanması*

İmam Sadiq (ə) buyurub:

مَا مِنِ امْرَأَةٍ تَسْقِي زَوْجَهَا شَرْبَةً مِنْ مَاءٍ إِلَّا كَانَ خَيْراً لَهَا مِنْ عِبَادَةِ سَنَةٍ صِيَامِ نَهَارِهَا وَ قِيَامِ لَيْلِهَا وَ يَبْنِي اللَّهُ لَهَا بِكُلِّ شَرْبَةٍ تَسْقِي زَوْجَهَا مَدِينَةً فِي الْجَنَّةِ وَ غَفَرَ لَهَا سِتِّينَ خَطِيئَةً

"Qadının ərinə bir qurtum su verməsinin savabı bir ildən artıq olan ibadətin (gündüzlər oruc tutub gecələr namaz qılmaqla) savabına bərabərdir. Əgər qadın ərinə su versə, Allah cənnətdə onun üçün bir şəhər tikər və onun altmış günah və xətasını bağışlayar."[1]

## *Ərdən küsməyin günahı*

Peyğəmbər (s) buyurmuşdur:

أَيّما اِمرَأةٍ هَجرَتْ زَوْجَها وَ هِيَ ظالِمَةٌ حَشَرتْ يومَ القِيامَةِ مَعَ فِرعَونَ و هامانَ و قارونَ فِي الدَّركِ الاَسفَلِ مِنَ النّارِ اِلّا اَن تَتُوبَ وَ تَرْجِعَ

"Əri ilə küsən qadın özü günahsız olsa da, qiyamətdə Firon, Haman və Qarunla cəhənnəmin ən aşağı təbəqəsində olacaq. Məgər tövbə edə və ərinin yanına qayıda."[2]

İmam Sadiq (ə) buyurub:

أَيُّمَا امْرَأَةٍ قَالَتْ لِزَوْجِهَا مَا رَأَيْتُ قَطُّ مِنْ وَجْهِكَ خَيْراً فَقَدْ حَبِطَ عَمَلُهَا

---

[1] "Vəsailüş-şiə", c. 14, səh. 123.

[2] "Vəsailüş-şiə", c. 14, səh. 123.

“Əgər qadın ərinə desə ki, mən səndən heç vaxt xeyir görməmişəm, onun yaxşı əməllərinin əcri məhv olar.”[1]

## Cəhənnəmin sürməsi

Peyğəmbər (s) buyurub:

مَا مِنِ امْرَأَةٍ تَرْفَعُ عَيْنَهَا إِلَى زَوْجِهَا بِالْغَضَبِ إِلَّا كُحِّلَتْ بِرَمَادٍ مِنْ نَارِ جَهَنَّمَ

“Əgər qadın qəzəblə ərinə baxsa, qiyamətdə cəhənnəm atəşinin külü ilə onun gözünə sürmə çəkərlər.”[2]

مَا مِنِ امْرَأَةٍ تَحَمَّلُ مِنْ زَوْجِهَا كَلِمَةً إِلَّا كَتَبَ اللَّهُ لَهَا بِكُلِّ كَلِمَةٍ مَا كَتَبَ مِنَ الْأَجْرِ لِلصَّائِمِ وَ الْمُجَاهِدِ فِي سَبِيلِ اللَّهِ عَزَّ وَ جَلَّ

“Əgər hamilə qadın ərinin pis sözlərinə dözsə və reaksiya göstərməsə, Allah hər bir sözün müqabilində həmin qadına oruc tutanın və mücahidin savabını verər.”[3]

## Ən yaxşı qadın

Peyğəmbər (s) buyurub:

خَيْرُ نِسَائِكُمْ الَّتِي إِذَا دَخَلَتْ مَعَ زَوْجِهَا خَلَعَتْ دِرْعَ الْحَيَاءِ وَ قَالَ ص الَّتِي إِنْ غَضِبَتْ أَوْ غَضِبَ زَوْجُهَا تَقُولُ لِزَوْجِهَا يَدِي فِي يَدِكَ لَا أَكْتَحِلُ عَيْنِي بِغَمْضٍ حَتَّى تَرْضَى عَنِّي

“Ən yaxşı qadın özünü utanmadan ərinə təqdim edən qadındır. Əgər qadın özü və əri əsəbləşəndə desə ki, məndən razı olmayınca səndən əl çəkməyəcəyəm, o, ən yaxşı qadındır.”[4]

---

[1] “Vəsailüş-şiə”, c. 14, səh. 162.
[2] “Müstədrəkul vəsail”, c. 2, səh. 548.
[3] “Müstədrəkul vəsail”, c. 14, səh. 245.
[4] “Müstədrəkul vəsail”, c. 14, səh. 161.

## *Hamilə qadın və şəhid savabı*

Peyğəmbər (s) buyurub: "Qadın hamilə olduğu və övladı süddən kəsilənə qədər kafirlərlə döyüşən döyüşçü kimidir. Əgər bu vaxt vəfat etsə, şəhid savabı qazanar."[1]

## *Cəhənnəm atəşi üç nəfəri yandırmaz*

Peyğəmbər (s) bu barədə buyurmuşdur: "Cəhənnəm odu üç nəfəri yandırmaz: 1. ərinə itaət edən qadını; 2. ərinin çətin vaxtlarında səbir edən qadını; 3. ata-anasına yaxşılıq edən övladı."[2]

## *Allahın qəzəbi*

Peyğəmbər (s) buyurub: "Ərindən icazəsiz evdən çıxan qadın ərini razı edənə və evə qayıdana qədər Allahın qəzəbinə düçar olar." "Səbəbsiz ərindən boşanmaq istəyən qadına cənnətin iyi haramdır. Əri razı olan qadın cənnətlikdir."

İmam Sadiq (ə) buyurub: "Allah yeddi gün ərinə xidmət edən qadının üzünə cəhənnəmin bütün qapılarını (yeddi qapı) bağlayar və cənnətin bütün qapılarını (səkkiz qapı) açar."[3]

Peyğəmbər (s) buyurmuşdur:

**أَيُّمَا اِمْرَئَةٍ دَعَا زَوْجُهَا اِلَيٰ فِرَاشِهِ فَأَبَتْ، خَرَجَتْ مِنْ حَسَنَاتِهَا كَمَا يَخْرُجُ الْحَيَّةُ مِنْ جِلْدِهَا**

"Ərin cinsi yaxınlığına razılıq verməyən qadının yaxşı işlərinin savabı ilan dərisindən ayrıldığı kimi onun əməl dəftərindən ayrılar."[4]

---

[1] "Müstədrəkul vəsail", c. 14, səh. 161.
[2] "Nəsayih", səh. 111.
[3] "Rahe səadət", səh. 15.
[4] "Ləalil-əxbar", c. 3, səh. 286.

## *Qadının ərinə səcdəsi*

رُوِيَ إِنَّ النَّبِيَّ ص دَخَلَ حَائِطاً لِلْأَنْصَارِ وَ فِيهِ غَنَمٌ فَسَجَدَتْ لَهُ فَقَالَ أَبُو بَكْرٍ نَحْنُ أَحَقُّ لَكَ بِالسُّجُودِ مِنْ هَذَا الْغَنَمِ فَقَالَ إِنَّهُ لَا يَنْبَغِي لِأَحَدٍ أَنْ يَسْجُدَ لِأَحَدٍ وَ لَوْ جَازَ ذَلِكَ لَأَمَرْتُ الْمَرْأَةَ أَنْ تَسْجُدَ لِزَوْجِهَا

Bir gün Peyğəmbər (s) ənsardan olan bir şəxsin həyətinə daxil oldu. Bu vaxt həyətdəki qoyun Peyğəmbəri (s) görən kimi onun qarşısında səcdə etdi. Əbu Bəkr dedi: Biz səcdə etməkdə qoyundan daha yaxşıyıq. Peyğəmbər (s) buyurdu: Bəndə bəndənin qarşısında səcdə etməməlidir. Əlbəttə, əgər bu iş caiz olsaydı, qadına ərinin qarşısında səcdə etməyi əmr edərdim.[1]

## *Qadınların cihadı*

Həzrət Əli (ə) buyurub:

اِنَّ جِهادَ الْمَرئَةِ حُسْنُ التَّبَعُّلِ لِزَوْجِها

"Qadının cihadı onun ərinə yaxşı baxmasıdır."[2]

İmam Baqir (ə) belə buyurub:

لَا شَفِيعَ لِلْمَرْأَةِ أَنْجَحُ عِنْدَ رَبِّهَا مِنْ رِضَا زَوْجِهَا

"Qadın üçün heç bir şəfaət ərinin razılığı qədər faydalı deyil."[3]

## *Qadın ərinin malını qorumaqda məsuldur*

Peyğəmbər (s) buyurmuşdur:

الرَّجُلُ رَاعٍ عَلَى أَهْلِ بَيْتِهِ وَ كُلُّ رَاعٍ مَسْئُولٌ عَنْ رَعِيَّتِهِ وَ الْمَرْأَةُ رَاعِيَةٌ عَلَي مَالِ زَوْجِهَا وَ مَسْئُولَةٌ عَنْهُ

---

[1] "Müstədrəkül-vəsail", c. 14, səh. 246.
[2] "Müstədrəkül-vəsail", c. 14, səh. 246.
[3] "Səfinətül-bihar", c. 1, səh. 561.

“Kişi ailənin başçısıdır və hər başçı rəiyyəti qarşısında məsuliyyət daşıyır. Qadın isə ərinin malını qorumalı və o da bu işdə məsuliyyət daşıyır.”[1]

## *Bir gecə oyaq qalmağın savabı*

Peyğəmbər (s) buyurub: “Əgər qadın doğuş vaxtı ölsə, Allah ona şəhid savabı verər.Uşağı qorumaq üçün bir gecə oyaq qalanın savabı Allah yolunda yetmiş qul azad edənin savabı qədərdir.”[2]

Peyğəmbər (s) buyurub: “And olsun məni peyğəmbərliyə məbus edən Allaha, əgər qadın ərindən icazəsiz müstəhəb oruc tutsa, günahkarlardan hesab olunar. Yalnız qəza və ya nəzir orucundan başqa.”[3]

Peyğəmbər (s) buyurub:

مَا مِنِ امْرَأَةٍ تَمُدُّ يَدَيْهَا تُرِيدُ أَخْذَ شَعْرَةٍ مِنْ زَوْجِهَا أَوْ شَقَّ ثَوْبِهِ إِلَّا سَمَّرَ اللَّهُ كَفَّيْهَا بِمَسَامِيرَ مِنْ نَار

Allah ərinin saçını yolan ya paltarını cıran qadının əllərini cəhənnəm odundan olan mıxlar ilə əzər.[4]

Peyğəmbər (s) yenə buyurub:

وَ الَّذِي بَعَثَنِي بِالْحَقِّ نَبِيّاً مَا مِنِ امْرَأَةٍ تَمُدُّ يَدَيْهَا تُرِيدُ أَخْذَ شَعْرَةٍ مِنْ زَوْجِهَا أَوْ شَقَّ ثَوْبِهِ إِلَّا سَمَّرَ اللَّهُ كَفَّيْهَا بِمَسَامِيرَ مِنْ نَار

“Məni risalətə seçən Allaha and olsun, əgər qadın ərinin məntiqli sözünü qəbul etməsə, qiyamət günü onu dilindən asar və dilini atəşli mıxlarla tikərlər.”[5]

Peyğəmbər (s) digər bir hədisdə buyurub:

---

[1] “Müstədrəkül-vəsail”, c. 14, səh. 248.
[2] “Nəhçül-fəsahə”, səh. 106.
[3] “Müstədrəkül-vəsail”, c. 2, səh. 548.
[4] “Müstədrəkül-vəsail”, c. 14, səh. 238.
[5] “Müstədrəkül-vəsail”, c. 14, səh. 238.

لَا يَنْبَغِي لِلْمَرْأَةِ أَنْ تَتَصَدَّقَ بِشَيْءٍ مِنْ بَيْتِ زَوْجِهَا إِلَّا بِإِذْنِهِ فَإِنْ فَعَلَتْ ذَلِكَ كَانَ لَهُ الْأَجْرُ وَ عَلَيْهَا الْوِزْرُ

"Məni peyğəmbər seçən Allaha and olsun, qadının icazəsiz ərinin evindən sədəqə verməsi yaxşı deyil. Əgər ərindən icazəsiz sədəqə versə, onun savabı ərinə yetişər, qadına bədbəxtçilik nəsib olar."[1]

## *Ərin malını oğurlamaq*

Həzrət Məhəmməd (s) buyurub: "Yeddi evə rəhmət nazil olmaz:1. Səbəbsiz qadına təlaq verilən evə; 2. Ərinə tabe olmayan qadın olan evə; 3. Əmanətə xəyanət olunan evə; 4. Zəkat verilməyən evə; 5. Ölünün vəsiyyətinə əməl olunmayan evə; 6. Şərab içilən evə; 7. Ərin malını oğurlayan qadın olan evə."

## *İnsanın öz qohumlarının əli ilə ölümü*

Peyğəmbər (s) buyurub:

سَيأْتِي هَلاكُ الرَّجُلِ عَلى يَدَي أَبَوَيهِ فَإِنْ لَمْ يَكُنْ لَهُ أَبَوانِ فَعَلى يَدَيْ زَوجَتِهِ وَ وَلَدِهِ وَ إِنْ لَمْ يَكُنْ لَهُ زَوجَةٌ فَعَلى يَدُ قَرابَتِهِ قالُوا كَيفَ ذلِكَ يا رَسُولَ اللهِ قالَ يُعَيِّرُونَهُ بِالْفَقْرِ وَ ضِيقُ الْيَدِ فَيُكَلِّفُونَهُ ما لا يُطِيقَهُ حَتّى يُورِدَهُ ذلِكَ مَورِدِ الْهَلَكَةِ

"Elə bir gün gələr ki, insanın ölümü ya atasının ya anasının, ya xanımının, ya övladlarının, ya qohumlarının, ya da qonşularının əli ilə olar. Soruşdular: Bu iş necə mümkündür? Buyurdu: Onu sadə həyatı olduğuna görə təhqir edər, həmişə onu çox dünya malına yetişməkdə təşviq edər və onu elə işlərə vadar edərlər ki, o işi etməyə qüdrəti çatmaz və bu yolla onu öldürərlər."[2]

---

[1] "Kənzül-Ümmal", c. 16, səh. 48.
[2] "Şərhi nəhcül-bəlağə", c. 1, səh. 47.

## *Fatimə (əh.) ilə məhşur olan qadınlar*

ثَلَاثٌ مِنَ النِّسَاءِ يَرْفَعُ اللَّهُ عَنْهُنَّ عَذَابَ الْقَبْرِ وَ يَكُونُ مَحْشَرُهُنَّ مَعَ فَاطِمَةَ بِنْتِ مُحَمَّدٍ ص امْرَأَةٌ صَبَرَتْ عَلَى غَيْرَةِ زَوْجِهَا وَ امْرَأَةٌ صَبَرَتْ عَلَى سُوءِ خُلُقِ زَوْجِهَا وَ امْرَأَةٌ وَهَبَتْ صَدَاقَهَا

Qadınların üç dəstəsi qəbir əzabı görməzlər və Fatimə (əh.) ilə məhşur olacaqlar: 1. ərinin çətinliklərinə dözən səbirli qadın; 2. ərinin pis əxlaqına dözən qadın; 3. mehriyyəsini ərinə bağışlayan qadın.[1]

## *Hər addıma min şəhid savabı*

Peyğəmbər (s) buyurub: “Qadın və əri arasında sülh yaratmaq üçün çalışan şəxsə Allah-təala bu yolda götürdüyü hər addımına min şəhid savabı və danışdığı hər sözə bir il ibadətin savabını (gecələri namaz qılıb, gündüzləri oruc tutulan) verəcək.”[2]

Bir neçə qardaş var idi ki, onlardan hamı razı idi. Onlardan böyük qardaş hamıdan cavan görünürdü. Bunun səbəbini soruşanda dedi: Çünki xanımım xoşəxlaqdır. Heç vaxt məni qəmgin etmir.

Bir filosofdan soruşdular: Sən necə kamillik dərəcəsinə yetişdin? O, belə cavab verdi: Təqvalı xanımımın gözəl əxlaqı həyatın çətinliyinin mənim elm və hikmət öyrənməyimə mane olmağa qoymadı.

## *İmam Həsənin (ə) müsibəti*

İmam Həsənə (ə) verilən zəhər kimyəvi bir maddə idi ki, əgər onu bədənin üzərinə töksəydilər, əhəng kimi dərisini doğrayardı. Beləliklə, Həzrətin mədəsinin divarları doğrandı və

---

[1] “Əl-Məvaizül-ədədiyyə”, səh. 146.

[2] “Məailul-əxbar”, c. 3, səh. 226.

mədənin daxilində şiddətli qanaxma başladı. Bundan sonra İmamın halı dəyişərək çoxlu miqdarda qan qusdu.

Cənadə deyir ki, bir dəfə mövlamın görüşünə getmişdim. Birdən söhbət əsnasında Həzrət ağzını tutaraq işarə ilə teşt istədi. Teşti gətirib onun qarşısına qoyduqda, gözündən qanlı yaş damcılarının axdığını və ağzından laxta qan töküldüyünü gördüm. Dedim: Ağa! Niyə bu dərdə dərman etmirsiniz? Buyurdu: Cənadə! Mənim ölümümü nə ilə darman etmək olar?

Nəhayət, bir zaman İmamın evindən şivən səsləri ucaldı və Əba Məhəmməd (ə) dünyadan getdi...[1]

[1] "Məqtəli-Fəlsəfi", səh. 47.

# Beşinci məclis

## «ƏRİN ARVAD QARŞISINDA VƏZİFƏLƏRİ»

“O, Allahdır ki, sizi vahid bir vücuddan yaratdı. Və ondan qadını müqəddər etdi ki, qadınla aram ola.”[1]

﴿وَعَاشِرُوهُنَّ بِالْمَعْرُوفِ فَإِن كَرِهْتُمُوهُنَّ فَعَسَي اَن تَكْرَهُواْ شَيْئاً وَيَجْعَلَ اللّهُ فِيهِ خَيْراً كَثِيراً﴾

“Qadınlarınızla insafla rəftar edin. Əgər ondan xoşunuz gəlməsə, nifrətinizi izhar etməyin. Çünki Allah sizin xoşunuza gəlməyən şeylərin çoxunda sizin üçün çoxlu xeyir qərar vermişdir.”[2]

İmam Sadiq (ə) buyurub:

يُسَلِّمُ الرَّجُلُ إِذَا دَخَلَ عَلَى أَهْلِهِ وَ إِذَا دَخَلَ يَضْرِبُ بِنَعْلَيْهِ وَ يَتَنَحْنَحُ يَصْنَعُ ذَلِكَ حَتَّى يُؤْذِنَهُمْ أَنَّهُ قَدْ جَاءَ حَتَّى لَا يَرَى شَيْئاً يَكْرَهُهُ

“Ər evə daxil olanda ailəsinə salam verməlidir. Əvvəl ayaqqabısının səsi, ya öskürməklə gəlişindən ailəsini xəbərdar etməlidir ki, xoşuna gəlməyən bir şey gözünə dəyməsin.”[3]

### *Ərin xanımına baxması ibadətdir*

Peyğəmbər (s) buyurub:

نَظَرُ الْمَرءِ اِلَيٰ زَوجِها عِبادَةٌ وَ تَكفِيرٌ لِلذَّنْبِ

---

[1] “Əraf” surəsi, ayə: 189.
[2] “Nisa” surəsi, ayə: 19.
[3] “Biharul-ənvar”, c. 76, səh. 11.

"Ərin xanımına baxması ibadətdir və günahlarının kəffarəsi hesab olunur."[1]

Peyğəmbər (s) digər bir hədisdə buyurub: "Hər kəs ailəsinə xidmət etməkdən üz çevirməsə və şikayət etməsə, bu iş onun böyük günahlarının kəffarəsi, Allahın qəzəbini söndürər, yaxşı əməllərin dərəcəsini çoxaldar.[2]

İmam Sadiq (ə) buyurub:

مَنْ حَسُنَ بِرُّهُ بِأَهْلِ بَيْتِهِ زِيدَ فِي رِزْقِهِ

"Ailəsi ilə mehriban dolanan kəsin ruzisi artar."[3]

## *Yetmiş odlu sillə*

Peyğəmbər (s) buyurub:

فَأَيُّ رَجُلٍ لَطَمَ امْرَأَتَهُ لَطْمَةً أَمَرَ اللَّهُ عَزَّ وَ جَلَّ مَالِكاً خَازِنَ النِّيرَانِ فَيَلْطِمُهُ عَلَى حُرِّ وَجْهِهِ سَبْعِينَ لَطْمَةً فِي نَارِ جَهَنَّمَ وَ أَيُّ رَجُلٍ مِنْكُمْ وَضَعَ يَدَهُ عَلَى شَعْرِ امْرَأَةٍ مُسْلِمَةٍ سُمِّرَ كَفُّهُ بِمَسَامِيرَ مِنْ نَار

"Əgər bir kişi xanımına bir sillə vursa, Allah cəhənnəmin vəlisinə əmr edər ki, onun üzünə yetmiş odlu sillə vursun. Kişi əlini naməhrəm qadının bir tükünə vursa, qiyamət günü o əl cəhənnəmin odlu mıxları ilə tikilər."[4]

Peyğəmbər (s) həmçinin buyurub:

كُلَّمَا ازْدَادَ الْعَبْدُ إِيمَاناً ازْدَادَ حُبّاً لِلنِّسَاءِ

"İnsanın imanı artan zaman xanımına məhəbbəti çoxalar."[5]

---

[1] "Ləailil-əxbar", c. 3, səh. 285.
[2] "Biharul-ənvar", c. 104, səh. 132.
[3] "Biharul-ənvar", c. 71, səh. 104.
[4] "Vəsailüş-şiə", c. 2, səh. 54.
[5] "Biharul-ənvar", c. 71, səh. 104.

## *Əsirə ehsan*

İmam Kazim (ə) buyurub:

إِنَّ عِيَالَ الرَّجُلِ أُسَرَاؤُهُ فَمَنْ أَنْعَمَ اللَّهُ عَلَيْهِ نِعْمَةً فَلْيُوَسِّعْ عَلَى أُسَرَائِهِ فَإِنْ لَمْ يَفْعَلْ أَوْشَكَ أَنْ تَزُولَ النِّعْمَةُ

"İnsanın ailəsi əsir kimidir. Ona görə də gərək Allahın nemətlərindən ailəsi üçün xərcləsin. Bu işdə səhlənkarlıq etsə, mümkündür ki, neməti əldən versin."[1]

İmam Rza (ə) buyurub:

يَنْبَغِي لِلرَّجُلِ أَنْ يُوَسِّعَ عَلَى عِيَالِهِ كَيْلَا يَتَمَنَّوْا مَوْتَه

"Kişiyə ailəsinin rifahını artırmısı vacibdir ki, onlar da onun ölümünü arzulamasınlar."[2]

Peyğəmbər (s) buyurmuşdur:

أَخِي جَبْرَئِيلُ وَ لَمْ يَزَلْ يُوصِينِي بِالنِّسَاءِ حَتَّى ظَنَنْتُ أَنْ لَا يَحِلَّ لِزَوْجِهَا أَنْ يَقُولَ لَهَا أُف

"Qardaşım Cəbrail həmişə qadınlara hörmət etməyi tovsiyə edərdi. Güman etdim ki, ərin xanımına "uf" belə deməsi caiz deyildir." Başqa bir hədisdə buyurub: "Cəbrail qadınları o qədər mənə tövsiyə etdi ki, onları boşamağın haram olduğunu düşündüm. Evlənin, amma talaq verməyin. Çünki talağa görə Allahın ərşi lərzəyə gəlir."[3]

Peyğəmbər (s) buyurub:

الْمُؤْمِنُ يَأْكُلُ بِشَهْوَةِ أَهْلِهِ وَ الْمُنَافِقُ يَأْكُلُ أَهْلُهُ بِشَهْوَتِهِ

"Mömin ailəsinin istəyi ilə yemək yeməlidir. Gərək əhli-əyal da onun istəyi ilə yemək yesin."[4]

---

[1] "Biharul-ənvar", c. 101, səh. 69.
[2] "Mənla yəhzuruk-fəqih", c. 2, səh. 34.
[3] "Nəhcül-fəsahə", səh. 230.
[4] "Üsuli-kafi", c. 4, səh. 3.

Rəsuli-əkrəm belə buyurmuşdur: “Dünya bir maldır. Ən yaxşı mal isə təqvalı və saleh qadındır. Sizin ən yaxşınız qadınları ilə mehriban olanlardır.”[1]

## *Ailənin dərdini çəkmək cəhənnəm oduna qarşı sipərdir*

Peyğəmbər (s) buyurub:

غَمُّ الْعِيَالِ سِتْرٌ مِنَ النَّارِ وَ طَاعَةُ الْخَالِقِ أَمَانٌ مِنَ الْعَذَاب

“Ailənin çətinlikləri ilə maraqlanmaq cəhənnəm oduna qarşı səddir. Allaha itaət etmək Allahın əzabından uzaqlaşmağa səbəb olur.”[2]

Peyğəmbər (s) həmçinin buyurub:

إِنَّ أَرْزَاقَ الْعِبَادِ عَلَى اللّٰهِ سُبْحَانَهُ وَ غَمُّكَ لَهُمْ لَا يَضُرُّكَ وَ لَا يَنْفَعُ غَيْرَ أَنَّكَ تُؤْجَرُ عَلَيْهِ وَ إِنَّ أَغَمَّ الْغَمِّ غَمُّ الْعِيَالِ

“Məxluqatın ruzisi Allahın öhdəsindədir. Onlar üçün çalışmağının sənə nə zərəri, nə də xeyri var. Bunun üçün sənə yalnız axirət savabı yetişər. Həqiqətən, ailə yükü ən böyük dərddir.”[3]

## *Kişinin xanımı üçün bəzənməsi*

Hədislərin birində deyilir ki, kişinin bəzənməsi və gözəlliyi qadının iffətini artırar.[4]

İmam Sadiq (ə) buyurub: “Kişinin borcudur ki, arvadının qarnını doyura, geyindirə və xətalarından keçə.”[5]

---

[1] “Nəhcül-fəsahə”, səh. 230.
[2] “Biharul-ənvar”, c. 73, səh. 16.
[3] “Biharul-ənvar”, c. 73, səh. 16.
[4] “Biharul-ənvar”, c. 76, səh. 99.
[5] “Vəsailüş-şiə”, c. 3, səh. 184.

## *Min şəhidin savabı*

Bir gün Peyğəmbər (s) Həzrət Əlinin (ə) evinə gəldi. Bu vaxt Əli (ə) mərci təmizləyirdi. Fatiməyi Zəhra (ə) qazanın yanında əyləşmişdi. Peyğəmbər (s) buyurdu: "Eşit, ey Əbülhəsən! Dediklərim Allah əmridir. Hansı kişi arvadına ev işlərində kömək etsə, Allah onun bədənindəki hər bir tükünün sayında bir illik ibadətin (ki, gündüzləri oruc tuta, gecələri ibadət edə) və Yaqub, Davud, İsa (ə) kimi səbirli şəxslərin savabını verər. Ey Əli! Hər kim ailəsinə kömək edə və köməyini ondan əsirgəməyə Allah onun adını şəhidlər dəftərində yazar və hər gecə-gündüz min şəhidin savabını verər. Hər addımına Həcc və Ümrə, min cihad, min xəstə görüşünə getmə, min cümə namazı, min dəfndə iştirak etmə, min acı doyurma və Allah yolunda min at ehsan etməyin savabın verər. Həyat yoldaşına ev işlərində kömək etmək Tövrat, İncil, Zəbur və Quran oxumaqdan, min əsiri azad etməkdən, kasıblara min dəvə ehsan etməkdən üstündür və elə bir şəxsin yeri cənnətdir."[1]

## *Ailəyə xidmət günahların kəffarəsi*

Peyğəmbər (s) buyurmuşdur: "Ey Əli! Ailəyə xidmət böyük günahların kəffarəsi, Allah qəzəbini yatırdan, hurinin mehriyyəsi, saleh əməlləri çoxaldan və dərəcələri yüksəldəndir. Ey Əli! Ancaq sadiq şəhid və o şəxs ki, Allah, dünya və axirətin xeyrini ona verib ailəsinə xidmət edər."[2]

## *Min xəta və günah*

Peyğəmbər (s) buyurmuşdur:

---

[1] "Biharul-ənvar", c. 101, səh. 132.
[2] "Biharul-ənvar", c. 101, səh. 132; "Asarus-sadiqin", c. 15, s. 300.

لَا يَقْذِفُ امْرَأَتَهُ إِلَّا مَلْعُونٌ أَوْ قَالَ مُنَافِقٌ فَإِنَّ الْقَذْفَ مِنَ الْكُفْرِ وَ الْكُفْرَ فِي النَّارِ لَا تَقْذِفُوا نِسَاءَكُمْ فَإِنَّ فِي قَذْفِهِنَّ نَدَامَةً طَوِيلَةً وَ عُقُوبَةً شَدِيدَةً

"Arvadını zina ilə ittiham edən yalnız məlun və münafiqdir. Çünki belə ittiham küfürdür və küfr isə cəhənnəmlikdir. Bəs, belə etməyin ki, bu işin peşmançılığı və şiddətli əzabı var."[1]

Peyğəmbər (s) buyurub:

مَنْ قَذَفَ امْرَأَتَهُ بِالزِّنَا خَرَجَ مِنْ حَسَنَاتِهِ كَمَا تَخْرُجُ الْحَيَّةُ مِنْ جِلْدِهَا وَ كُتِبَ لَهُ بِكُلِّ شَعْرَةٍ عَلَى بَدَنِهِ أَلْفُ خَطِيئَةٍ

"Hər kim arvadına zinanı nisbət versə, saleh əməlləri ilan dərisindən ayrılan kimi ondan ayrılar. Bədənində olan hər bir tükün sayı qədər əməl dəftərinə min günah yazılar."[2]

## *Ət almaq və qul azad etmək*

Həzrət Əli (ə) buyurub:

مَنِ اشْتَرَى لِعِيَالِهِ لَحْماً بِدِرْهَمٍ كَانَ كَمَنْ أَعْتَقَ نَسَمَةً مِنْ وُلْدِ إِسْمَاعِيلَ

"Hər kəs ailəsi üçün bir dirhəm dəyərində ət alsa, elə bil həzrət İsmailin övladlarından olan bir qulu azad edib."[3]

İmam Baqir (ə) buyurub: "Hər vaxt səfərə getdin, ailən üçün mütləq bir hədiyyə al. Hətta, bir şey tapmasan yerdən daş götür və hədiyyə kimi özünlə apar."

Həzrət İbrahim (ə) çöldən evinə qayıdanda ailəsi üçün bir hədiyyə tapmadı ki, aparsın. Evə əliboş qayıtmasın deyə, çölün daşlarından bir az götürüb, miniyinin xurcununa tökdü. Evə çatanda xurcun yerə düşdü və birdən Allahın qüdrəti ilə bütün daşlar una çevrildi.

İmam Sadiq (ə) buyurub:

---

[1] "Birharul-ənvar", c. 103, səh. 249; "Camiül-əxbar", səh. 446.

[2] Həmin.

[3] "Biharul-ənvar", c. 75, səh. 32.

إِذَا سَافَرَ أَحَدُكُمْ فَقَدِمَ مِنْ سَفَرِهِ فَلْيَأْتِ أَهْلَهُ بِمَا تَيَسَّر

"Səfərdən qayıdanda mümkün olduğu qədər ailənizə hədiyyə gətirin."[1]

## *İki şəxsə Allahın qəzəbi tutar*

Peyğəmbər (s) buyurmuşdur: "Hər kəs arvadına o qədər əziyyət versə və arvad məcbur qalıb ərinə pul versə ki, onu boşasın, Allah həmin şəxsə cəhənnəmdən az cəza verməz. Çünki Allah-təala yetimə zülm olunanda qəzəbləndiyi kimi, xanıma zülm edəndə də qəzəblənir."

## *Fədakarlığın ən üstün dərəcəsi*

Bir şəxsin çox pis əxlaqlı arvadı var idi. Amma o həmişə səbir edirdi. Dostları ona dedilər: Niyə onu boşamırsan ki, ondan xilas olasan? Dedi: Çünki qorxuram ki, təlaqdan sonra başqa biri ilə evlənə və pis əxlaqına görə onu incidə.[2]

## *İmam Hüseynin (ə) müsibəti*

İmam Baqir (ə) buyurmuşdur: "Hər kəs İmam Hüseynin (ə) müsibətinə ağlayaraq bir zərrə belə göz yaşı töksə, Allah onun dəryalar qədər vüsəti və ulduzların sayı qədər günahlarını (əgər varsa) bağışlayar."[3]

İmam Səccad (ə) deyir: "Kufəlilər Əlinin (ə) yanına gəlib yağışın yağmadığından şikayətlənərək dedilər ki, dua et, Allah bizim üçün yağış göndərsin. İmam Əli (ə) oğlu Hüseynə (ə) dedi: Qalx, Allahdan yağış dilə. İmam Hüseyn (ə) ayağa qalxaraq Allaha həmd-səna etdikdən və Peyğəmbərə (s) salam

---

[1] "Vəsailüş-şiə", c. 8, səh. 337.
[2] "İbrətli hədislər", səh. 32.
[3] "Tühfətul-məcalis", səh. 215.

göndərdikdən sonra dua etdi. Həzrətin duası qurtarmamış Allah göydən leysan yağış gön-dərdi. Hətta çöl ərəbləri Kufə ətrafından gəlib xəbər verdilər ki, dərələr və biyabanlar su ilə dolmuşdur.”[1]

Amma həmin kufəlilər İmam Hüseyni (ə) Kufəyə dəvət edərək üç gün Fərat çayının kənarında susuz saxladılar, Həzrətin susuz halda başını kəsməkdən əlavə, körpə Əli Əsgərini susuz şəhid etdilər, Həzrət Əbülfəzlin bədənini Fəratın kənarında tikə-tikə doğradılar...

---

[1] “İmam Hüseynin (ə) buyuruqlarının külliyyatı”, səh. 160.

# Altıncı məclis

## «ÜNSİYYƏT QAYDALARI (1)»

“Həqiqətən, möminlər bir-birinin qardaşıdır. Bəs həmişə öz din qardaşlarınızın arasında sülh yaradın. Allahdan qorxun bəlkə rəhm olunasınız.”[1]

İmam Kazim (ə) buyurub:

التَّوَدُّدُ إِلَى النَّاسِ نِصْفُ الْعَقْلِ

“İnsanlarla dostluq ağlın yarısıdır.”[2]

## *Salam Allahın adlarından biridir*

Peyğəmbər (s) buyurmuşdur:

السَّلَامُ [اسْمٌ] مِنْ أَسْمَاءِ اللَّهِ فَأَفْشُوهُ بَيْنَكُمْ فَإِنَّ الرَّجُلَ الْمُسْلِمَ إِذَا مَرَّ بِالْقَوْمِ فَسَلَّمَ عَلَيْهِمْ فَإِنْ لَمْ يَرُدُّوا عَلَيْهِ يَرُدُّ عَلَيْهِ مَنْ هُوَ خَيْرٌ مِنْهُمْ وَ أَطْيَبُ

“Salam, Allahın adlarından biridir. Ona görə də salamı öz aranızda yayın. Əgər bir kişi müsəlmanların yanından keçsə və onlara salam verdikdə onlardan cavab eşitməsə, müsəlmanların ən yaxşısı ona salam versin.”[3]

إِذَا لَقِيَ الرَّجُلُ الْمُسْلِمُ أَخَاهُ فَسَلَّمَ عَلَيْهِ وَ صَافَحَهُ لَمْ يَنْزِعْ أَحَدُهُمَا يَدَهُ عَنْ صَاحِبِهِ حَتَّى يُغْفَرَ لَهُمَا

---

[1] “Hücürat” surəsi, ayə: 10.
[2] “Vəsailüş-şiə”, c. 11, səh. 403.
[3] “Müstədrəkül-vəsail”, c. 8, səh. 302.

“Müsəlman müsəlman qardaşı ilə görüşdüyü zaman ona salam versin və onunla əllə görüşsün. Onlar bir-birindən ayrılmamış günahları bağışlanar.”[1]

Həzrət Əli (ə) buyurub:

أَمَرَنَا رَسُولُ اللّٰهِ إِذَا مَرَّ بِنَا رَجُلٌ وَ لَمْ يُسَلِّمْ وَ الطَّعَامُ بَيْنَ أَيْدِينَا أَنْ لَا نَدْعُوَهُ إِلَيْهِ

“Rəsulullah bizə əmr edib ki, əgər bir kişi sizin yanınıza gəlsə və salam verməsə, yanınızda yemək olsa belə, onu süfrəyə dəvət etməyin.”[2]

## *Salamla cənnətə giriş*

Peyğəmbər (s) buyurub:

مَا فَشَا السَّلَامُ فِي قَوْمٍ إِلَّا أَمِنُوا مِنَ الْعَذَابِ فَإِنْ فَعَلْتُمُوهُ دَخَلْتُمُ الْجَنَّةَ

“Hansı tayfa salamı öz aralarında yaysa, Allah əzabından amanda qalar. Əgər siz bir-birinizə çoxlu salam versəniz, cənnətə daxil olarsınız.[3]“Uşaqlara salam verməyi ölənə qədər tərk etməyin. Məndən sonra bunu mənim sünənim kimi yadigar saxlayın.”[4]

Müqəddəs Incil kitabında deyilir:

إِذَا قَلَّ سَلَامُ الْمُؤْمِنِينَ بَعْضِهِمْ عَلَى بَعْضٍ ظَهَرَتِ الْعَدَاوَةُ وَ الْبَغْضَاءُ فِي قُلُوبِهِمْ

“Möminlər arasında salam vermək azalanda, düşmənçilik və kin çoxalır.”[5]

## *İblisin ağlaması*

Peyğəmbər (s) buyurub:

---

[1] “Müstədrəkül-vəsail”, c. 8, səh. 359.
[2] Həmin, səh. 356.
[3] Həmin, səh. 363.
[4] Həmin, səh. 212.
[5] Həmin, səh. 360.

إِذَا سَلَّمَ الْمُؤْمِنُ عَلَى أَخِيهِ الْمُؤْمِنِ فَيَبْكِي إِبْلِيسُ لَعَنَهُ اللَّهُ تَعَالَى وَ يَقُولُ يَا وَيْلَتَاهْ لَمْ يَفْتَرِقَا حَتَّى غَفَرَ اللَّهُ لَهُمَا

"Bir mömin öz mömin qardaşına salam verəndə lənətlənmiş İblis ağlayaraq deyər: "Vay olsun mənə! Bunlar bir-birindən ayrılmayınca günahları bağışlanar."[1] "Bir-birinizlə görüşəndə salam verin ki, kinlər qəlblərdən çıxsın."[2]

## *Günah ağac yarpaqları kimi tökülür*

İmam Sadiq (ə) buyurmuşdur:

إِنَّ الْمُؤْمِنَ لَيَلْقَى الْمُؤْمِنَ فَيُصَافِحُهُ فَلَا يَزَالُ اللَّهُ يَنْظُرُ إِلَيْهِمَا وَ الذُّنُوبُ تَتَحَاتُّ عَنْ وُجُوهِهِمَا كَمَا يَتَحَاتُّ الْوَرَقُ عَنِ الشَّجَرِ

"Əgər iki mömin bir-biri ilə görüşsə, Allah həmişə onlara rəhmət gözü ilə baxar. Onların günahları ağac yarpaqları kimi tökülər."[3]

## *Afərin deməyin savabı*

İmam Sadiq (ə) buyurub:

مَنْ قَالَ لِأَخِيهِ الْمُؤْمِنِ مَرْحَباً كَتَبَ اللَّهُ تَعَالَى لَهُ مَرْحَباً إِلَى يَوْمِ الْقِيَامَةِ

"Hər kəs mömin qardaşına afərin və mərhəba desə, Allah qiyamətə qədər onun üçün mərhəba yazar."[4]

İmam Baqir (ə) buyurub:

تَبَسُّمُ الرَّجُلِ فِي وَجْهِ أَخِيهِ حَسَنَةٌ

"Möminə təbəssüm etməyin savabı vardır."[5]

---

[1] Həmin.
[2] "Nəhcül-fəsahə", səh. 610.
[3] "Üsuli-kafi", c. 2, səh. 182.
[4] Həmin, səh. 206.
[5] Həmin, səh. 183.

## *Üç şey nifaqa səbəb olar*

Peyğəmbər (s) buyurub:

ثَلاثٌ مَنْ كُنَّ فِيهِ كَانَ مُنَافِقاً وَ إِنْ صَامَ وَ صَلَّى وَ زَعَمَ أَنَّهُ مُسْلِمٌ مَنْ إِذَا ائْتُمِنَ خَانَ وَ إِذَا حَدَّثَ كَذَبَ وَ إِذَا وَعَدَ أَخْلَف

"Hər kəsdə üç xislət varsa, oruc tutan və namaz qılan olsa da belə münafiqdir: 1. Etimad olunan şəxs xəyanət edəndə; 2. Yalançı; 3. Vədəsinə vəfa etməyən şəxs."[1]

Peyğəmbər (s) buyurub:

لَا تَخُنْ مَنْ خَانَكَ فَتَكُونَ مِثْلَهُ وَ لَا تَقْطَعْ رَحِمَكَ (وَ إِنْ قَطَعَكَ

"Sənə qarşı xəyanət edənə xəyanət etmə ki, onun kimi olmayasan, sileyi-rəhmi davam et, hətta səninlə sileyi-rəhmi kəssələr də."[2]

Peyğəmbər (s) buyurmuşdur:

مَنْ دَخَلَ عَلَى أَخِيهِ وَ هُوَ صَائِمٌ فَأَفْطَرَ عِنْدَهُ وَ لَمْ يُعْلِمْهُ بِصَوْمِهِ فَيَمُنَّ عَلَيْهِ كَتَبَ اللَّهُ لَهُ صَوْمَ سَنَةٍ

"Əgər oruc olan şəxs din qardaşının qonağı olsa və ev sahibinə minnət olmasın deyə, (ehtiram qəsdilə) xəbərdar etmədən iftar etsə, Allah ona bir illik orucun savabını verər."[3]

## *Qonağa hörmət və bir milyon infaq*

Peyğəmbər (s) buyurmuşdur:

مَنْ أَكْرَمَ الضَّيفَ فَقَد أَكْرَمَ سَبعِينَ نَبِيّاً وَ مَن أَنفَقَ عَلى الضَّيفِ دِرهَماً فَكَأَنَّمَا أَنْفَقَ أَلفَ ألف دِينارٍ فِي سَبِيلِ اللهِ تَعالَى

---

[1] Həmin, səh. 291.

[2] "Nəvadir", Ravəndi, səh. 6.

[3] "Üsuli-kafi", c. 4, səh. 151. Əlbəttə, məqsəd müstəhəb orucdur və bir də vaxtı müəyyən olmayan orucu zöhrdən qabaq açmaq olar.

“Qonağa hörmət edən yetmiş peyğəmbərə hörmət etmiş kimidir. Hər kəs qonağa bir dirhəm ehsan etsə, Allah yolunda bir milyon ehsan edən şəxs qədər savab qazanar.”[1]

## *İmanı məhv edən günah*

İmam Sadiq (ə) buyurub:

إِذَا اتَّهَمَ الْمُؤْمِنُ أَخَاهُ انْمَاثَ الْإِيمَانُ مِنْ قَلْبِهِ كَمَا يَنْمَاثُ الْمِلْحُ فِي الْمَاءِ

“Su duzu əritdiyi kimi, mömin qardaşına töhmət vuran şəxsin də imanı aradan gedər.”[2]

Peyğəmbər (s) buyurmuşdur: “Mömin mömin qardaşından üzr istəyəndə qəbul etməsə, həmin şəxs Kövsər hovuzunda mənimlə görüşməz.”[3]

## *Qonaq günahları məhv edər*

Peyğəmbər (s) buyurub: “Əgər qonaq bir evə daxil olsa, ev sahibinin günahları bağışlanar.”[4]

Peyğəmbər (s) buyurub:

أَكْرِمِ الضَّيْفَ وَ لَو كانَ كافِراً

“Qonaq kafir olsa da, ona hörmət et.”[5]

---

[1] “İrşadül-qülub”, c. 1, səh. 138.
[2] “Üsuli-kafi”, c. 2 səh. 361.
[3] “Nəhcül-fəsahə”, səh. 610.
[4] Həmin, səh. 400.
[5] “Camiül-əxbar”, səh. 214.

## *İmam Əlninn (ə) ağlaması*

إِنَّ أَمِيرَ المُؤمِنِينَ ع بَكى يَوماً فَسَألُوهُ عَن سَبَبِ بُكائِهِ فَقالَ مَضَتْ لَنا سَبْعَةُ أيّامٍ لَم يَأتِنا ضَيْفٌ

Bir gün Əli (ə) ağlayırdı. Səbəbini soruşanda buyurdu: “Yeddi gündür ki, evimizə qonaq gəlmir.”[1]

Peyğəmbər (s) buyurub: “Birinci, ikinci və üçüncü gün qonağa qulluq etmək onun haqqıdır. Amma üç gündən sonra ev sahibi qonağa sədəqə verir. Heç kəs o qədər qonaq qalmasın ki, günahkar hesab olunsun.” Dedilər: Necə günahkar olar? Buyurdu: “O qədər qalar ki, ev sahibi onun xərcini çatdıra bilməz.”[2]

İmam Sadiq (ə) buyurub:

مَنْ أَتَاهُ أَخُوهُ الْمُسْلِمُ فَأَكْرَمَهُ فَإِنَّمَا أَكْرَمَ اللّٰهَ عَزَّ وَ جَلَّ

“Qonaq gələn mömin qardaşını yaxşı qarşılayan kəs, sanki, Allaha yaxşılıq etmişdir!”[3]

## *Küsmək qan tökmək kimidir*

Peyğəmbər (s) buyurub: “Hər kəs üç gündən artıq din qardaşı ilə küsülü qalsa və bu halda ölsə, cəhənnəmə gedər.”[4] “Hər kəs bir il din qardaşı ilə küsülü qalsa, elə bil onun qanını töküb.”[5] “Bazar ertəsi və cümə axşamı rəhmət qapıları açılır. Müşriklərdən başqa hamının günahı bağışlanır. Amma din qardaşı ilə düşmənçilik edən isə bağışlanmayacaq.”[6]

---

[1] “Camiül-əxbar”, səh. 137.
[2] “Xisal”, səh. 167.
[3] “Biharul-ənvar”, c. 71, səh. 298.
[4] “Nəhcül-fəsahə”, səh. 572.
[5] Həmin, səh. 593.
[6] Həmin, səh. 595.

مَنْ مَشَى فِي إِصْلَاحِ بَيْنِ امْرَأَةٍ وَ زَوْجِهَا أَعْطَاهُ اللَّهُ أَجْرَ أَلْفِ شَهِيدٍ قُتِلُوا فِي سَبِيلِ اللَّهِ حَقّاً وَ كَانَ لَهُ بِكُلِّ خُطْوَةٍ يَخْطُوهَا وَ كَلِمَةٍ فِي ذَلِكَ عِبَادَةُ سَنَةٍ قِيَامٌ لَيْلُهَا وَ صِيَامٌ نَهَارُهَا

"Hər kəs ərlə arvadın arasında sülh yaratmağa çalışsa, Allah ona min şəhidin savabını verər. Bu işdə atdığı hər addıma görə Allah ona bir ilin ibadətinin savabını (gecələr ibadət, gündüzlər oruc tutan) verər."[1]

## *Üç gün küsülü qalmağın günahı*

İmam Baqir (ə) buyurub: "Əgər iki mömin üç gün bir-biri ilə küsülü qalsa, üçüncü gün mən onlara nifrət edərəm. Dedilər: Mümkündür onlardan biri günahsız olsun. Buyurdu: O, gərək müqəssirin yanına gedib özünü müqəssir kimi göstərib onunla barışsın."[2]

İmam Sadiq (ə) buyurub:

مَلْعُونٌ مَلْعُونٌ رَجُلٌ يَبْدَؤُهُ أَخُوهُ بِالصُّلْحِ فَلَمْ يُصَالِحْه

"Məlundur, məlundur o kəs ki, ondan barışmaq xahiş oluna, amma o qəbul etməyə."[3]

Peyğəmbər (s) buyurub: "Hər kəs icazəsiz qardaşının məktubuna baxsa, elə bil cəhənnəmə baxır."[4]

مَنْ مَشَى فِي صُلْحٍ بَيْنَ اثْنَيْنِ صَلَّى عَلَيْهِ مَلَائِكَةُ اللَّهِ حَتَّى يَرْجِعَ وَ أُعْطِيَ ثَوَابَ لَيْلَةِ الْقَدْرِ

---

[1] "Vəsailüş-şiə", c. 16, səh. 344.
[2] "Xisal", səh. 210.
[3] "Vəsailüş-şiə", c. 16, səh. 270.
[4] Həmin, səh. 58.

“Hər kəs iki nəfərin arasında sülh yaratmağa çalışsa, Allahın mələkləri ona salam və rəhmət göndərər və ona Qədir gecəsinin savabı verilər.”[1]

## *Davanı tərk etməyin savabı*

Peyğəmbər (s) buyurub:

مَنْ تَرَكَ الْمِرَاءَ وَ هُوَ مُحِقٌّ بُنِيَ لَهُ بَيْتٌ فِي أَعْلَى الْجَنَّة

“Hər kəs davanı tərk etsə, (özü haqlı olsa da belə) cənnətin ən yaxşı yerində onun üçün bir ev tikilər.”[2]

لَا يَسْتَكْمِلُ عَبْدٌ حَقِيقَةَ الْإِيمَانِ حَتَّى يَدَعَ الْمِرَاءَ وَ إِنْ كَانَ مُحِقّاً

“İnsan çəkişmə və davanı tərk etməyincə həqiqi iman qazana bilməz. Əgər özü haqlı olsa da belə.”[3]

İmam Rza (ə) buyurmuşdur:

لَا تُمَارِيَنَّ الْعُلَمَاءَ فَيَرْفُضُوكَ وَ لَا تُمَارِيَنَّ السُّفَهَاءَ فَيَجْهَلُوا

“Alimlərlə cahilcəsinə mübahisə və dava etməyin ki, sizi özlərindən uzaqlaşdırmasınlar. Nadanla da dava etməyin ki, onların cahil hücumlarına məruz qalmayasınız.”[4]

Həzrət Əli (ə) buyurub:

إِيَّاكَ وَ الْخُصُومَةَ فَإِنَّهَا تُورِثُ الشَّكَّ وَ تُحْبِطُ الْعَمَل

“Düşmənçilik və kindən uzaqlaşın ki, şəkk-şübhə yaradar və saleh əməli məhv edər.”[5]

İmam Sadiq (ə) buyurub: “Hər kəs müsəlmanın üzünə və başına ətir vursa, Allah onun hər bir tükünün müqabilində qiyamətdə həmin ətir vuran üçün bir nur yazar.”[6]

---

[1] Həmin, c. 18, səh. 441.
[2] “Biharul-ənvar”, c. 2, səh. 139.
[3] Həmin.
[4] Həmin, səh. 137.
[5] Həmin, səh. 135.
[6] “Səvabul-əmal”, səh. 327.

Peyğəmbər (s) buyurub: “Hər kim mömini narahat edib qəmləndirsə, bu işinə görə dünyanı kəffarə kimi versə də belə kifayət etməz.”[1]

## *İmam Səccadın (ə) müsibəti*

Minhal deyir: Şam şəhərinin bazarına daxil oldum. İmam Zeynəlabidini (ə) mübarək boynu zəncirlənmiş halda gördüm. Ayaqları taxta kimi qurumuş və qana boyanmışdı. Yaxınlaşıb salam verib dedim: Ağacan, necəsən? Buyurdu: Minhal! Yezidə əsir olanın halı necə olar? Atam öldürüləndən sonra bu qadın və uşaqlar yemək yeməyiblər. Minhal dedi: Ağacan! Bəs, niyə xarabalıqdan çölə çıxmısınız? Buyurdu: Minhal! Bu xarabalığın örtüyü yoxdur, günəş boynumun zəncirini qızdırır və boynumu yandırır. İstəyirəm ki, gedib bir qədər kölgəlikdə oturum.

Minhal deyir: Həzrətlə söhbət edərkən xanım Zeynəb (əh.) gəlib buyurdu: Ey qardaşımın yadigarı! Qayıt, qorxuram gəlib sənə şallaq vurarlar....[2]

---

[1] “Camiül-əxbar”, səh. 416.
[2] “Məqtəli-Fəlsəfi”, səh. 89.

# Yeddinci məclis

## «ÜNSİYYƏT QAYDALARI (2)»

“Siz gərək yaxşı işlərdə və təqvada bir-birinizə kömək edəsiniz. Günahda və zülümdə yox. Allahdan qorxun. Allahın əzabı çox şiddətlidir.”[1]

İmam Baqir (ə) buyurub:

مَنْ مَشَى فِي حَاجَةِ أَخِيهِ الْمُسْلِمِ أَظَلَّهُ اللَّهُ بِخَمْسَةٍ وَ سَبْعِينَ أَلْفَ مَلَكٍ وَ لَمْ يَرْفَعْ قَدَماً إِلَّا كَتَبَ اللَّهُ لَهُ حَسَنَةً وَ حَطَّ عَنْهُ بِهَا سَيِّئَةً وَ يَرْفَعُ لَهُ بِهَا دَرَجَةً فَإِذَا فَرَغَ مِنْ حَاجَتِهِ كَتَبَ اللَّهُ عَزَّ وَ جَلَّ لَهُ بِهَا أَجْرَ حَاجٍّ وَ مُعْتَمِرٍ

“Hər kəs müsəlman qardaşının istəyini yerinə yetirmək üçün səy etsə, Allah onu yetmiş beş min mələyin kölgəsində saxlayar, onun hər bir addımına Allah bir yaxşılıq yazar, günahını pozar və dərəcəsini yüksəldər. Bu işdən uzaqlaşandan sonra Allah onun əməl dəftərinə həcc və ümrənin savabını yazar.”[2]

Peyğəmbər (s) buyurmuşdur:

مَنْ أَصْبَحَ لَا يَهْتَمُّ بِأُمُورِ الْمُسْلِمِينَ فَلَيْسَ مِنْهُمْ وَ مَنْ سَمِعَ رَجُلًا يُنَادِي يَا لَلْمُسْلِمِينَ فَلَمْ يُجِبْهُ فَلَيْسَ بِمُسْلِمٍ

“Sübh yerindən qalxıb müsəlmanların çətinlikləri barədə fikirləşməyən kəs müsəlman deyil. Hər kəs birinin “ey müsəlmanlar, dadıma yetin”—fəryadına səs verməsə, müsəlman deyil.”[3]

### *Allahın ziyarəti*

İmam Sadiq (ə) buyurub:

---

[1] “Maidə” surəsi, ayə: 2.
[2] “Üsuli-kafi”, c. 3 səh. 283.
[3] Həmin mənbə, səh. 293.

مَنْ زَارَ أَخَاهُ فِي اللّهِ قَالَ اللّهُ عَزَّ وَ جَلَّ إِيَّايَ زُرْتَ وَ ثَوَابُكَ عَلَيَّ وَ لَسْتُ أَرْضَى لَكَ ثَوَاباً دُونَ الْجَنَّةِ

“Hər kim Allaha xatir müsəlman qardaşını ziyarət etsə, Allah ona buyurar: “Sən məni ziyarət etdin və sənə cənnətdən az savab vermərəm.”[1]

إِنَّ مِنْ تَمَامِ التَّحِيَّةِ لِلْمُقِيمِ الْمُصَافَحَةَ وَ تَمَامِ التَّسْلِيمِ عَلَى الْمُسَافِرِ الْمُعَانَقَةَ

“Bütün salamlar qiyam edən, əl ilə görüşən və müsafirlə qucaqlaşan üçündür.”[2]

## *Möminin yeməyinin qalığı yetmiş dərdin dərmanı*

Həzrət Əli (ə) buyurub:

سُؤْرِ الْمُؤْمِنِ شِفَاءٌ مِنْ سَبْعِينَ دَاءً

“Möminin yeməyinin qalığı yetmiş dərdin dərmanıdır.”[3]

Peyğəmbər (s) buyurub:

مَنْ شَرِبَ مِنْ سُؤْرِ أَخِيهِ تَبَرُّكاً بِهِ خَلَقَ اللّهُ بَيْنَهُمَا مَلَكاً يَسْتَغْفِرُ لَهُمَا حَتَّى تَقُومَ السَّاعَةُ

“Hər kim din qardaşının qabağından qalan suyu içsə, Allah onlar arasında mələk yaradar ki, qiyamətə qədər onlar üçün istiğfar etsin.”[4]

---

[1] “Üsuli-kafi”, c. 2, səh. 176.

[2] Həmin.

[3] “Biharul-ənvar”, c. 75, səh. 33. Əlbəttə, burada yolxucu xəstəliklər nəzərə alınmalıdır.

[4] “Müstədrəkül-vəsail”, c. 17, səh.18.

## *Saleh insanların ziyarəti  məsumların ziyarətidir*

İmam Sadiq (ə) buyurub:

مَنْ لَمْ يَقْدِرْ عَلَى صِلَتِنَا فَلْيَصِلْ صَالِحِي شِيعَتِنَا يُكْتَبْ لَهُ ثَوَابُ صِلَتِنَا وَ مَنْ لَمْ يَقْدِرْ عَلَى زِيَارَتِنَا فَلْيَزُرْ صَالِحِي مَوَالِينَا يُكْتَبْ لَهُ ثَوَابُ زِيَارَتِنَا

“Hər kəs bizimlə sileyi-rəhm edə bilməsə, bizim saleh şiələrimizlə sileyi-rəhm etsin ki, bizimlə sileyi-rəhmin savabını qazanar. Hər kim bizi ziyarət edə bilməsə, ancaq saleh dostlarımızı ziyarət etsə, bizim ziyarətin savabına nail olar.”[1]

## *Əmanətdarlıq*

Həzrət Əli (ə) buyurub:

أَدُّوا لْأَمانَةَ وَ لَوْ إِلى قاتِلِ وَلَدِ الاَ نبياء

“Əmanətin sahibi peyğəmbərlərin övladlarının qatili olsa da, onun əmanətini qaytarın.”[2]

## *Müsəlmana xəyanət etməyin əzabı*

Peyğəmbər (s) buyurmuşdur: “Hər kim müsəlman qardaşını aldatsa, Allah onun bərəkətini alar. Onun həyatını məhv edər və onu özbaşına buraxar. Müsəlmana xəyanət edən dünya və axirətdə nə o bizlərdəndir, nə də biz ondanıq.”[3]

## *Xəyanət və dinsiz ölüm*

Peyğəmbər (s) buyurub:

---

[1] “Mən la yəhzurul fəqih”, c. 3, səh. 73.
[2] “Tühəful-uqul”, səh. 217.
[3] “Iqabul-əmal”, səh. 612.

مَنْ خَانَ أَمَانَةً فِي الدُّنْيَا وَ لَمْ يَرُدَّهَا عَلَى أَهْلِهَا مَاتَ عَلَى غَيْرِ دِينِ الْإِسْلَامِ وَ لَقِيَ اللَّهَ وَ هُوَ عَلَيْهِ غَضْبَانُ فَيُؤْمَرُ بِهِ إِلَى النَّارِ فَيُهْوَى بِهِ فِي شَفِيرِ جَهَنَّمَ أَبَدَ الْآبِدِينَ

"Hər kəs əmanətə xəyanət etsə və onun əmanətini qaytarmasa, müsəlman vəfat etməz. Bir halda ki, Allah ona qəzəblənər. Allah onu cəhənnəmə aparmağı əmr edər. Və o, əbədi cəhənnəmdə qalar."[1]

Ustadlarımızdan biri deyirdi: "Keçmişdə dindarlar əmanətə və camaatın malına çox əhəmiyyət verirdilər. Hətta əgər bir nəfər hamamçıdan özünü örtmək üçün fitə belə əmanət alsaydı, ondan kisə və əski kimi istifadə etməzdi. Çünki bu iş bir növ xəyanətdir."

Peyğəmbər (s) buyurub:

مَنْ أَكَلَ وَ ذُو عَينَينِ يَنظُرُ إِلَيهِ وَ لَم يُواسِهِ اِبْتَلي بِداءٍ لا دَواءِ لَهُ

"Hər kəs yemək yeyən zaman bir ac ona baxsa və o, aca heç nə verməsə, Allah onu elə bir bəlayə mübtəla edər ki, dərmanı olmaz."[2]

## *Möminə hörmət*

Peyğəmbər (s) buyurub:

مَنْ سَرَّ مُؤْمِناً فَقَدْ سَرَّنِي وَ مَنْ سَرَّنِي فَقَدْ سَرَّ اللَّهَ

"Hər kim mömini xoşhal etsə, məni xoşhal edib. Məni xoşhal edən, Allahı xoşhal edər."[3]

نَظَرُ الْمُؤْمِنِ فِي وَجْهِ أَخِيهِ الْمُؤْمِنِ حُبّاً لَهُ عِبَادَةٌ

"Mömінin möminə məhəbbətlə baxışı ibadətdir."[4]

İmam Sadiq (ə) buyurub:

[1] "İqabul-əmal", səh. 610.
[2] "Nəhcül-fəsahə", səh. 574.
[3] "Biharul-ənvar", c. 71, səh. 287.
[4] "Müstədrəkül-vəsail", c. 9, səh. 152.

الْمُؤْمِنُ حَسَنُ الْمَعُونَةِ خَفِيفُ الْمَئُونَةِ جَيِّدُ التَّدْبِيرِ لِمَعِيشَتِهِ لَا يُلْسَعُ مِنْ جُحْرٍ مَرَّتَيْنِ

"Mömin yaxşı işlərə yardımçıdır, yaşayışı sadədir, həyatını yaxşı tədbirlə keçirir və iki dəfə aldanmaz."[1]

Allah-təala buyurur:

مَنِ اسْتَذَلَّ عَبْدِيَ الْمُؤْمِنَ فَقَدْ بَارَزَنِي بِالْمُحَارَبَةِ

"Mənim mömin bəndəmi xar edən, mənimlə müharibəyə qalxmış kimidir."[2]

İmam Sadiq (ə) buyurub:

مَنْ زَارَ قَبْرَ الْمُؤْمِنِ فَقَرَأَ عِنْدَهُ إِنَّا أَنْزَلْنَاهُ سَبْعَ مَرَّاتٍ غَفَرَ اللَّهُ لَهُ وَ لِصَاحِبِ الْقَبْرِ

"Hər kim mömininin qəbrin ziyarət etsə və onun qəbrinin üstündə "Qədir" surəsini yeddi dəfə oxusa, Allah onu və qəbir sahibini bağışlayar."[3]

## *Böyüklərə hörmət*

Peyğəmbər (s) buyurmuşdur:

مَنْ لَمْ يَرْحَمْ صَغِيراً وَ لَا يُوَقِّرْ كَبِيراً فَلَيْسَ مِنَّا

"Hər kim (özündən) kiçiklərə rəhm və (özündən) böyüklərə hörmət etməsə, bizdən deyil."[4]

مِنْ إِجْلَالِ اللَّهِ إِجْلَالُ ذِي الشَّيْبَةِ الْمُسْلِمِ

"Saçı din yolunda ağarmış müsəlmana hörmət etmək, Allaha hörmət etməkdir."[5]

مَنْ وَقَّرَ ذَا شَيْبَةٍ فِي الْإِسْلَامِ آمَنَهُ اللَّهُ عَزَّ وَ جَلَّ مِنْ فَزَعِ يَوْمِ الْقِيَامَةِ

---

[1] "Üsuli-kafi", c. 2, səh. 241.
[2] Həmin, səh. 254.
[3] "Müstədrəkül-vəsail", c. 2, səh. 77.
[4] "Biharul-ənvar", c. 71, səh. 227.
[5] "Üsuli-kafi", c. 3, səh. 240.

“Hər kim yaşlılara hörmət etsə, Allah onu qiyamət gününün qorxusundan xilas edər.”[1]

## *İmam Xomeyninin (rəh.) qardaşı ilə görüşü*

İmam Xomeyni (rəh.) 1357-ci ildə Parisdən İrana gələndə Mehrabad hava limanında İmamın ata əvəzi olan qardaşı Ağa Pəsəndidə onu qarşılayanlardan biri idi.Təyyarə enəndə Ağa Pəsəndidə təyyarənin içinə daxil olub qardaşı ilə görüşdü. İmam təyyarədən düşmək istəyəndə buyurdu: “Gərək qardaşım məndən qabaq düşsün. Çünki ona hörmət etmək mənə vacibdir.” Amma bunu qəbul etmək məsullar üçün (siyasi cəhətdən və saatlarla İmamı gözləyən kameralara görə) çətin idi. Buna baxmayaraq, İmam sözündən dönmədi. Mərhum Hacı Əhməd (rəh.) məsləhət bildi ki, əvvəl Ağa Pəsəndidə düşsün. Sonra İmam tək təyyarədən xaric olsun.

## *Mələyin fəryadı*

İmam Sadiq (ə) buyurub: “Gecə-gündüz bir mələk fəryad edir: Ey Allah bəndələri! Günahdan əl çəkin. Çünki heyvanlar, körpələr və qocalar olmasaydı, elə bir bəla nazil olardı ki, sümükləriniz bir-birinə qarışardı.”[2]

Peyğəmbər (s) buyurmuşdur:

الشَّيْخُ فِي أَهْلِهِ كَالنَّبِيِّ فِي أُمَّتِهِ

“Yaşlı şəxs qohumlarının, qövmünün arasında peyğəmbər kimidir.”[3]

---

[1] “Nəvadiri-Ravəndi”, səh. 7.
[2] “Nəsayih”, səh. 142.
[3] “Kənzul-ümmal”, hədis: 42632.

## *İmam Baqirin (ə) müsibəti*

İmam Baqir (ə) Kərbəla hadisəsində atası ilə birgə idi. O, bütün müsibətləri və əsirliyi yaxından görmüş və özü də zülmə məruz qalanlardan biri olmuşdur. İmamın (ə) şəhadətinin necəliyi bir o qədər də məlum deyildir. Bu iş Hişam ibn Əbdül Məlikin gizli planı ilə həyata keçmişdir. Belə ki, Zeyd ibn Həsən Hişamın göstərişi ilə bir atın yəhərinə zəhər sürtüb onu İmamın hüzuruna gətirir və onun ata minməyini israr edir. İmam çarəsiz qalıb ata minir və beləliklə, zəhər onun bədəninə keçir. Bundan sonra İmamın budları zəhərdən şişir və üç gündən sonra şəhid olur.

İmam ömrünün axır saatlarında vəsiyyət etmişdi ki, onu öz ehram paltarı ilə kəfənləsinlər.[1] Amma babası İmam Hüseynin pak və tikə-tikə olmuş bədəni Kərbəlada üç gün yerdə qaldı. O zaman İmam Səccad (ə) Bəni-Əsəd qəbiləsi ilə birgə onu dəfn etmək üçün həsirdən başqa bir şey tapmadılar. Həzrətin bədəni qəbirə qoyulanda üzü qibləyə tərəf qoyulmalı idi. Amma atasının başı və bədəni arasında nə qədər fasilə var idi. Həzrət Zeynəlabidin (ə) nə edə bilərdi! Həzrət qəm-qüssə içrə atasının boğazının kəsilmiş damarlarından öpdü.

Deyirlər ki, bir şəhid anası Mədinədə Bəqi qəbiristanlığında imamların qəbirlərini çıraqsız, günbəzsiz və qəbir daşısız görüb demişdir: "Ey Bəqi imamları, siz lap qərib və məzlumsunuz! Bundan sonra mən daha şəhid övladımın qəbri üstünə nə bir gül qoyacaq və nə də onu siləcəyəm..."

---

[1] "Suqnameyi-Ali Mühəmməd", səh. 80.

# Səkkizinci məclis

### «SİLEYİ-RƏHM»

“Allahla bağladığı əhdə vəfa etməyənlər Allahın birləşdirməyə əmr etdiyi şeyi sındırırlar (Allah sileyi-rəhmə əmr etmişdi, amma onlar buna əməl etmirlər). Onlar yerdə fəsad edirlər. Onlar əsl ziyankarlardır.”[1]

Peyğəmbər (s) buyurub:

**أُوصِي الشَّاهِدَ مِنْ أُمَّتِي وَ الْغَائِبَ مِنْهُمْ وَ مَنْ فِي أَصْلَابِ الرِّجَالِ وَ أَرْحَامِ النِّسَاءِ إِلَى يَوْمِ الْقِيَامَةِ أَنْ يَصِلَ الرَّحِمَ وَ إِنْ كَانَتْ مِنْهُ عَلَى مَسِيرَةِ سَنَةٍ فَإِنَّ...**

“Ümmətimdən hazır və qaib olanlara, kişi və qadınların sülbündən qiyamətə qədər gələcək hər bir kəsə vəsiyyət edirəm ki, sileyi-rəhm edin. Bu iş bir illik səfərlə nəticələnsə də ona əməl edin. Çünki bu dindəndir.”[2]

**ثَلَاثٌ مَنْ كُنَّ فِيهِ حَاسَبَهُ اللَّهُ حِسَاباً يَسِيراً وَ أَدْخَلَهُ الْجَنَّةَ بِرَحْمَتِهِ قَالُوا وَ مَا هِيَ يَا رَسُولَ اللَّهِ قَالَ تُعْطِي مَنْ حَرَمَكَ وَ تَصِلُ مَنْ قَطَعَكَ وَ تَعْفُو عَمَّنْ ظَلَمَكَ**

---

[1] “Bəqərə” surəsi, ayə: 27.

[2] “Biharul-ənvar”, c. 71, səh. 114.

“Hər kimdə üç şey olsa, onun hesabı Allahın yanında asan olar və Allah onu öz fəzli və rəhməti ilə cənnətə daxil edər. Soruşdular: O üç şey nədir? Buyurdu: Pislik edənə yaxşılıq edən, sileyi-rəhmi kəsənə sileyi-rəhm edən və zülm edəni bağışlayan şəxs.”[1]

İmam Əli (ə) buyurub: “Sileyi-rəhm edənin əgər üç il ömrü qalsa, Allah onu otuz il edər. Əgər bir şəxsin otuz il ömrü qalsa, amma sileyi-rəhmi tərk etsə, ömrü üç il olar. (Sonra bu ayəni dedi:) Allah-təala istədiyini məhv edər, dəyişdirər, isbat edər və yaranışın kitabı onun istəyi ilədir.”[2]

## *Ən asan sileyi-rəhm*

İmam Rza (ə) buyurub:

صِلْ رَحِمَكَ وَ لَوْ بِشَرْبَةٍ مِنْ مَاءٍ وَ أَفْضَلُ مَا تُوصَلُ بِهِ الرَّحِمُ كَفُّ الْأَذَى عَنْهَا

“Bir su içmək qədər də olsa sileyi-rəhm et. Ən yaxşı sileyi-rəhm başqasını incitməməkdir.”[3]

İmam Sadiq (ə) buyurub:

عَظِّمُوا كِبَارَكُمْ وَ صِلُوا أَرْحَامَكُمْ وَ لَيْسَ تَصِلُونَهُمْ بِشَيْءٍ أَفْضَلَ مِنْ كَفِّ الْأَذَى عَنْهُمْ

“Böyüklərinizə hörmət edin və sileyi-rəhm edin. Ən yaxşı sileyi-rəhm qohumları incitməməkdir.”[4]

---

[1] Həmin, c. 7, səh. 96.
[2] “Ləalil-əxbar”, c. 3, səh. 10. (“Rəd” surəsi, ayə: 39)
[3] “Biharul-ənvar”, c. 71, səh. 88.
[4] “Üsuli-kafi”, c. 3, səh. 241.

صِلُوا أَرْحَامَكُمْ وَ لَوْ بِالتَّسْلِيم

“Bir salam verməklə də olsa, sileyi-rəhm edin.”[1]

## *Yüz şəhidin savabı*

Peyğəmbər (s) buyurmuşdur: “Hər kim qohumlarını görmək ya mal vermək üçün onlara getsə, Allah ona yüz şəhidin savabını verər və hər addımına görə əməl dəftərinə qırx min savab yazılar və qırx min günah pozular. Allah cənnətdə ona qırx min dərəcə verər. O, yüz il xalis ibadət edən şəxs kimidir.”[2] “Hər kim qohumluq haqqına riayət etsə, Allah cənnətdə ona min dərəcə verər ki, hər dərəcəsinin sayı yüz illik yoldur. Dərəcələr gümüşdən, qızıldan, mirvaridən, müşkdən, xrizolitdən (qızılaçalar yaşılımtıl-sarı rəngli qiymətli daş), kafurdan və sair şeylərdən təşkil olunmuşdur ki, cənnət onlarla tikilmişdir.”[3]

## *Ağır can verməkdən nicat tapmaq*

İmam Sadiq (ə) buyurub:

مَنْ أَحَبَّ أَنْ يُخَفِّفَ اللَّهُ عَنْهُ سَكَرَاتِ الْمَوْتِ فَلْيَكُنْ لِقَرَابَتِهِ وَصُولًا وَ بِوَالِدَيْهِ بَارّاً

فَإِذَا كَانَ كَذَلِكَ هَوَّنَ اللَّهُ عَلَيْهِ سَكَرَاتِ الْمَوْتِ وَ لَمْ يُصِبْهُ فِي حَيَاتِهِ فَقْرٌ أَبَداً

“Hər kim istəyir ki, Allah-təala ölümün çətinliyini onun üçün asanlaşdırsın, gərək qohumlarına sileyi-rəhm etsin və valideyninə yaxşılıq etsin. Belə olan surətdə, Allah ölümü onun üçün asanlaşdırar və o kasıb olmaz.”[4]

---

[1] “Biharul-ənvar”, c. 71, səh. 91.
[2] Həmin mənbə, səh. 90.
[3] “Hilyətül-müttəqin”, səh. 192-193.
[4] “Biharul-ənvar”, c. 71, səh. 66.

## *Qırx addımın soğu-sualı*

دَخَلْتُ عَلَى أَبِي عَبْدِ اللَّهِ ع فَقَالَ لِي مَنْ صَحِبَكَ فَقُلْتُ لَهُ رَجُلٌ مِنْ إِخْوَانِي قَالَ فَمَا فَعَلَ قُلْتُ مُنْذُ دَخَلْتُ لَمْ أَعْرِفْ مَكَانَهُ فَقَالَ لِي أَمَا عَلِمْتَ أَنَّ مَنْ صَحِبَ مُؤْمِناً أَرْبَعِينَ خُطْوَةً سَأَلَهُ اللَّهُ عَنْهُ يَوْمَ الْقِيَامَةِ

Müfəzzəl deyir: İmam Sadiqin (ə) hüzuruna getdim. İmam mənə buyurdu: Mədinəyə kimlə gəlmisən? Dedim: Qardaşlardan biri ilə. Buyurdu: İndi o hardadır və nə edir? Dedim: Mən Mədinəyə daxil olanda o, işinin arxasınca getdi və indi harda olduğunu bilmirəm. Buyurdu: Məgər bilmirsən ki, möminlə qırx addım getsən, onun sənin boynunda haqqı var? Allah qiyamətdə bu haqda bəndələrindən soruşacaq.[1]

## *Kimlər fəzilət əhlidir?*

İmam Səccad (ə) buyurub:

إِذَا كَانَ يَوْمُ الْقِيَامَةِ جَمَعَ اللَّهُ تَبَارَكَ وَ تَعَالَى الْأَوَّلِينَ وَ الْآخِرِينَ فِي صَعِيدٍ وَاحِدٍ ثُمَّ يُنَادِي مُنَادٍ أَيْنَ أَهْلُ الْفَضْلِ قَالَ فَيَقُومُ عُنُقٌ مِنَ النَّاسِ فَتَلَقَّاهُمُ الْمَلَائِكَةُ فَيَقُولُونَ وَ مَا كَانَ فَضْلُكُمْ فَيَقُولُونَ كُنَّا نَصِلُ مَنْ قَطَعَنَا وَ نُعْطِي مَنْ حَرَمَنَا وَ نَعْفُو عَمَّنْ ظَلَمَنَا قَالَ فَيُقَالُ لَهُمْ صَدَقْتُمْ ادْخُلُوا الْجَنَّةَ

“Allah qiyamətdə keçmişləri və gələcəkləri bir yerə toplayacaq. Sonra nida edən fəryad edər: Fəzilət əhli hardadır? Camaatın bir dəstəsi qalxar və mələklər onları qarşılayar və deyərlər: Sizin fəzilətiniz nədədir? Deyərlər: Bizə sileyi-rəhm etməyənə sileyi-rəhm edərdik, bizdən bir şeyi əsirgəyənə bəxşiş edərdik. Bizə zülm edəni bağışladıq. Sonra onlara deyilər: Daxil olun cənnətə!”[2]

---

[1] “Biharul-ənvar”, c. 71, səh. 159.
[2] “Üsuli-kafi”, c. 3, səh. 167.

## *İmam Sadiqin (ə) müsibəti*

Bir gecə Mənsurun əmri ilə İmam Sadiqi (ə) ayaqyalın və əbasız onun hüzuruna gətirdilər. Mənsur qəzəblə Həzrətə dedi: Ey Cəfər! Bu yaşlı vaxtında utanmırsan, hakimiyyət üçün çalışır və müsəlmanlar arasında fitnə yaratmaq istəyirsən? Sonra qılıncını qınından çıxarıb İmamın boynunu vurmaq istədikdə, birdən Peyğəmbəri (s) qarşısında görüb onu qınına qoydu. İkinci dəfə bu işi görmək istədikdə yenə Peyğəmbəri (s) qarşısında gördü. Nəhayət, üçüncü dəfə Həzrəti öldürmək fikrində olsa da bu işdən daşındı. Sonralar o, İmamı zəhərli üzümlə şəhid etdi.[1]

Hədislərin birində deyilir ki, Mənsur Dəvaniqinin əmri ilə İmamın evi yandırılandan sonra şiələrdən biri İmamın hüzuruna gəlmişdi. O, İmamı qəmgin və ağlar görüb bunun səbəbini soruşduqda, Həzrət buyurmuşdu: "Yanğın zamanı mən evdə idim. Birdən ailəm qorxudan şivən qaldırdı. Onların oddan qorunmaq üçün o tərəf-bu tərəfə qaçdıqlarını gördükdə, babam Hüseyni (ə) xatırladım. Aşura günü də onların xeymələrinə hücum edilərək yandırılmışdı..."[2]

---

[1] "Süqnameyi-Ali-Mühəmməd", səh. 85.
[2] Həmin mənbə, səh. 140.

# Doqquzuncu məclis

## «ƏHD-PEYMAN»

“Əhdə vəfa edin, çünki əhd-peymandan sual olunacaq.”[1]

Peyğəmbər (s) buyurmuşdur:

مَنْ كَانَ يُؤْمِنُ بِاللَّهِ وَ الْيَوْمِ الْآخِرِ فَلْيَفِ إِذَا وَعَدَ

“Allah və qiyamətə iman gətirən şəxs vədəsinə əməl etməlidir.”[2]

لا إيمان لمن لا أمانة له و لا دين لمن لا عهد له

“Əmanətə xəyanət edənin imanı və əhdə vəfa etməyənin isə dini yoxdur.”[3]

İmam Sadiq (ə) buyurub:

عِدَةُ الْمُؤْمِنِ أَخَاهُ نَذْرٌ لَا كَفَّارَةَ لَه

“Mömin qardaşa verilən vədə nəzirdir və onun kəffarəsi yoxdur.”[4]

ثَلَاثَةٌ لَا عُذْرَ لِأَحَدٍ فِيهَا أَدَاءُ الْأَمَانَةِ إِلَى الْبَرِّ وَ الْفَاجِرِ وَ الْوَفَاءُ بِالْعَهْدِ لِلْبَرِّ وَ الْفَاجِرِ وَ بِرُّ الْوَالِدَيْنِ بَرَّيْنِ كَانَا أَوْ فَاجِرَيْنِ

“Üç şeydə heç kimdən üzr qəbul olunmaz: 1. Əmanəti qaytarmaq, istər sahibi yaxşı, istər pis insan olsun; 2. Əhdə vəfa etmək, istər pis, istərsə yaxşı insan olsun; 3. Ata-anaya yaxşılıq etmək, istər yaxşı, istər pis insan olsunlar.”[5]

---

[1] “İsra” surəsi, ayə: 34.
[2] “Üsuli-kafi”, c. 2, səh. 364.
[3] “Nəvadiri-Ravəndi”, səh. 5.
[4] “Üsuli-kafi”, c. 2, səh. 364.
[5] “Biharul-ənvar”, c. 75, səh. 92.

## *Vəfa ülgüləri*

Əmmar Yasir deyir: "Məhəmməd (s) hələ peyğəmbərliyə seçilməzdən əvvəl bir müddət camaatın qoyunlarını otarmaq üçün səhraya və dağ ətəyinə aparardı. O vaxtlar mən də çoban idim. Bir gün əhd etdik ki, sabah qoyunlarımızı iki dağın arasındakı otlağa aparaq. Səhəri mən gecikdim. Məhəmməd (s) qoyunları həmin yerə aparmış, amma otlamağa qoymamışdı. Dedim: Niyə qoyunları otlamağa qoymamısan? Buyurdu: Mən səninlə əhd-peyman bağlamışdım ki, qoyunları birlikdə otlağa aparaq. Ona görə belə etdim."[1]

Peyğəmbər (s) bir kişi ilə birlikdə idi. Kişi harasa getmək istədi. Peyğəmbər (s) bir daşın yanında dayanıb buyurdu: Mən səni burda gözləyirəm. Kişinin gedib-gəlməsi uzun çəkdi. Günəşin nuru da birbaşa Peyğəmbərin (s) üstünə düşürdü. Səhabələr dedilər: Ey Allahın Rəsulu! Kölgəyə gəlin ki, günəşin istisindən qorunasınız. Buyurdu: Mən ona burada dayanacağıma vəd vermişəm.[2]

## *Bütpərəstin müsəlman olması*

Əttarın "Təzkirə" kitabında yazılır: "Abdullah Mübarək döyüşə getdi. O, bir kafirlə döyüşməyə başladı. Namaz vaxtı yetişəndə kafirdən namaz qılmaq üçün möhlət istədi və kafir də bütə ibadət etmək üçün ondan izn aldı. O, icazə verdi. Kafir bütə ibadət edəndə Abdullah öz-özünə dedi: Onun ibadəti batil olduğu üçün gərək onu öldürüm. Abdullah onu qılıncla vurmaq

---

[1] "Biharul-ənvar", c. 75, səh. 96.
[2] "Vəsailüş-şiə", c. 12, səh. 165.

istəyəndə birdən bu ayəni eşitdi: “Əhdinizə vəfa edin ki, həqiqətən əhddən sorğu-sual olunacaq!”[1]

O, bu ayəni eşidəndə ağladı. Kafir başını qaldırdı və onu əlində qılınc ağlar halda görüb soruşdu: Sənə nə olub? Abdullah hadisəni danışdı. Kafir fəryad etdi və dedi: Belə bir Allaha iman gətirməmək insafsızlıq olar.”

“Bir dəfə İmam Səccad (ə) birindən pul borc aldı. Dostu həzrətdən vəsiqə və rəhn istədi. İmam əbasından bir sap çıxarıb, ona verdi və buyurdu: Bu, mənim vəsiqəmdir, borcu qaytarana qədər sənin yanında qalsın. O da qəbul etdi və onu kiçik bir qutuya qoydu. Bir neçə müddətdən sonra İmam pulu hazırladı və borc verən şəxsin yanına gəlib, buyurdu: Pul hazırdır və sən də vəsiqəmi gətir. O, sapı itirdiyini dedi. İmam buyurdu: Onda borcunu məndən ala bilməzsən. Əhdi gərək kiçik saymayasan. Kişi sapı tapıb İmama verdi və o da sapı alıb borcu qaytardı.”[2]

Həzrət bu əməli ilə o şəxsə və başqalarına öyrətdi ki, mümkündür bir sapın qiyməti olmasın. Amma əmanət sap da olsa, qiyməti çoxdur.

## *Cənnət əhlinin xüsusiyyətləri*

Peyğəmbər (s) buyurub: “Allah cənnət yaradanda üç dəfə buyurdu: Xoş möminlərin halına (onların yeri cənnətdir)! Ərşin mələkləri də bu sözü üç dəfə təkrar etdilər. Sonra xitab gəldi: Hər kəsdə altı xüsusiyyət olsa, mömin hesab olunur: 1. Düz danışmaq; 2. Əhdə vəfa etmək; 3. Əmanəti qaytarmaq; 4. Ata-anaya yaxşılıq etmək; 5. Sileyi-rəhm; 6. Günahlara görə istiğfar etmək.”[3]

---

[1] “İsra” surəsi, ayə. 34.
[2] “Biharul-ənvar”, c. 46, səh. 147.
[3] “Nəsayih”, səh. 246.

## *İmam Kazimın (ə) müsibəti*

Bu ibarə İmam Kazimın (ə) ziyarətnaməsindədir:

والمعذب في قعرالسجون و ظلم المطامير

Qaranlığa və zülmət yerə, həm də dərəyə "mətmurə" deyirlər. Bağdadda yeri iki metr qazdıqda su çıxır. Çünki Dəclə çayı orda yerləşir. Ona görə də insan iki metr yerin altında dustaq olsa da zindan yaş və nəm olur. İmam elə bir yerdə dustaq idi ki, ora həm qaranlıq, həm nəm və həm də boynunda zəncir var idi. Ona görə İmam daim əzabda idi. Həzrət ömrünün axırlarında Əli (ə) kimi belə buyurdu: "İlahi! Mən insanlardan doymuşam və yorulmuşam. Onlar da məndən yorulub. Məni onlardan al." Nəhayət, bir gün dörd nəfərin ehtiramsızlıqla Həzrətin cənazəsini çölə gətirdiyini gördülər.[1]

[1] "Məqtəli-Fəlsəfi", səh. 95.

# Onuncu məclis

## «GÖZ VƏ İFFƏT»

“Ey Peyğəmbər! Mö’min kişilərə de ki, gözlərini haram edilmiş şeylərdən çevirsinlər (naməhrəmə baxmasınlar), ayıb yerlərini (zinadan) qorusunlar. Bu onların paklığı üçün daha yaxşıdır. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır! Möminə qadınlara da de ki, gözlərini (haram baxışlardan) örtsünlər və ayıb yerlərini (zinadan) qorusunlar...”[1]

### *Gözün ibadəti*

Peyğəmbər (s) buyurub:

نَظَرُ الْوَلَدِ إِلَى وَالِدَيْهِ حُبّاً لَهُمَا عِبَادَةٌ

“Övladın valideynə məhəbbətlə baxışı ibadətdir.”[2]

نَظَرُ الْمُؤْمِنِ فِي وَجْهِ أَخِيهِ حُبّاً لَهُ عِبَادَةٌ

“Möminin mömin qardaşının üzünə məhəbbətlə baxışı da ibadətdir.”[3]

النَّظَرُ فِي وَجْهِ الْعَالِمِ حُبّاً لَهُ عِبَادَةٌ

“Alimin üzünə məhəbbətlə baxmaq ibadətdir.”[4]

---

[1] “Nur” surəsi, ayə: 30-31.
[2] “Müstədrəkül-vasail”, c. 9, səh.153.
[3] Həmin.
[4] Həmin.

نَظَرُالْمَرأَةِ اِلَىٰ زَوجِها عِبادَةٌ وَتَكفِيرٌ لِلذُّنُوب

“Qadının ərininə baxması ibadətdir və onun günahlarının kəffarəsidir.”[1]

النَّظَرُ فِي الْمُصْحَفِ عِبَادَةٌ وَ النَّظَرُ إِلَى الْكَعْبَةِ عِبَادَةٌ

“Quran və Kəbəyə baxmaq ibadətdir.”[2]

النَّظَرُ إِلَى الْإِمَامِ الْمُقْسِطِ عِبَادَةٌ

“Adil rəhbərə baxmaq ibadətdir.”[3]

İmam Səccad (ə) buyurub:

وَ أَمَّا حَقُّ فَرْجِكَ فَحِفْظُهُ مِمَّا لَا يَحِلُّ لَكَ

“Övrətin haqqı onu haram şeylərdən qorumaqdır.”[4]

İmam Baqir (ə) buyurub:

كُلُّ عَيْنٍ بَاكِيَةٌ يَوْمَ الْقِيَامَةِ غَيْرَ ثَلَاثٍ عَيْنٍ سَهِرَتْ فِي سَبِيلِ اللَّهِ وَ عَيْنٍ فَاضَتْ مِنْ خَشْيَةِ اللَّهِ وَ عَيْنٍ غُضَّتْ عَنْ مَحَارِمِ اللَّهِ

“Qiyamətdə üç gözdən başqa bütün gözlər ağlayar: 1. Allaha xatir gecəni oyaq qalan göz; 2. Allah qorxusundan ağlayan göz; 3. Haramlara baxmayan göz.”[5]

## *Gözün xəyanəti*

İmam Sadiq (ə) buyurub:

النَّظَرُ سَهْمٌ مِنْ سِهَامِ إِبْلِيسَ مَسْمُومٌ وَ كَمْ مِنْ نَظْرَةٍ أَوْرَثَتْ حَسْرَةً طَوِيلَةً

“Haram baxış şeytanın oxlarından biridir. Bir haram baxışın uzun həsrəti var.”[6]

أَوَّلُ النَّظْرَةِ لَكَ وَ الثَّانِيَةُ عَلَيْكَ وَ لَا لَكَ وَ الثَّالِثَةُ فِيهَا الْهَلَاكُ

[1] “Ləalil-əxbar”, c. 3, səh. 285.
[2] “Müstədrəkül-vəsail”, c. 9, səh.153.
[3] “Biharul-ənvar”, c. 71, səh. 73.
[4] Həmin, səh. 264.
[5] Həmin, səh. 126.
[6] “Üsuli-kafi”, c. 5, səh. 559.

“Birinci baxış caizdir, ikinci baxış sənin zərərinədir, üçüncü baxış isə həlakətdir.”[1]

مَنْ نَظَرَ إِلَى امْرَأَةٍ فَرَفَعَ بَصَرَهُ إِلَى السَّمَاءِ أَوْ غَمَّضَ بَصَرَهُ لَمْ يَرْتَدَّ إِلَيْهِ بَصَرُهُ حَتَّى يُزَوِّجَهُ اللَّهُ عَزَّ وَ جَلَّ مِنَ الْحُورِ الْعِينِ

“Əgər bir şəxs naməhrəmlə üzləşəndə, ona deyil səmaya baxsa, ya gözünü bağlasa, gözünü bağlamazdan əvvəl Allah onu huri ilə evləndirər.”[2]

فُلَانٌ يَنْظُرُ إِلَى حَرَمِ جَارِهِ فَإِنْ أَمْكَنَهُ مُوَاقَعَةُ حَرَامٍ لَمْ يَرْعَ عَنْهُ فَغَضِبَ رَسُولُ اللَّهِ ص وَ قَالَ ائْتُونِي بِهِ فَقَالَ رَجُلٌ آخَرُ يَا رَسُولَ اللَّهِ إِنَّهُ مِنْ شِيعَتِكُمْ مِمَّنْ يَعْتَقِدُ مُوَالَاتَكَ وَ مُوَالَاةَ عَلِيٍّ وَ يَبْرَأُ مِنْ أَعْدَائِكُمَا فَقَالَ رَسُولُ اللَّهِ ص لَا تَقُلْ إِنَّهُ مِنْ شِيعَتِنَا فَإِنَّهُ كَذِبٌ إِنَّ شِيعَتَنَا مَنْ شَيَّعَنَا وَ تَبِعَنَا فِي أَعْمَالِنَا

Bir kişi Peyğəmbərə (s) dedi: Filan kəs qonşusunun namusuna baxır. Əgər imkan olsa, haram iş də əncam verər. Həzrət qəzəbləndi və buyurdu: Onu mənim yanıma gətirin. Bu vaxt başqa bir kişi dedi: O, sizin şiələrinizdəndir. Sizin və Əlinin (ə) vilayətinə və dostluğuna imanı var. O, sizin düşmənlərinizdən uzaqlaşır. Peyğəmbər (s) buyurdu:

“Demə, sizin şiələrinizdəndir. O, yalan deyir. Bizim əsl şiələrimiz əməldə bizə itaət edənlərdir!”[3]

## *Namuslu olmaq*

İmam Səccad (ə) buyurub:

ما من شيء أحب إلى الله بعد معرفته من عفة بطن و فرج

“Allah yanında onu tanımaqdan sonra ən üstün şey təqva və iffətdir.”[4]

---

[1] “Biharul-ənvar”, c. 101, səh. 37.
[2] Həmin.
[3] “Mizanul-hikmət”, c. 5, səh. 237.
[4] “Tühəful-üqul”, səh. 290.

Süleyman ibn Yəsar təqvalı bir kişi idi və fövqəladə gözəlliyə malik idi. O, Mədinədə yaşayırdı. Bir gün dostu ilə Kəbənin ziyarətinə getdilər. Onlar Əbvaya çatdılar. Dostu yemək almaq üçün bazara getdi. Süleyman xeymədə oturmuşdu. Birdən bir qadının gözü Süleymana sataşdı. O, Süleymana aşiq oldu və üzündəki niqabı açdı. Elə bil hicabın altında bir ay parçası gizlənmişdi. Qadın ona dedi: Mənə bəxşiş et. Süleyman güman etdi ki, o yemək istəyir. Qadın dedi: Yemək istəmirəm. Məni kama yetirməni istəyirəm. Süleyman utandı və dedi: Səni şeytan mənim yanıma göndərib? Sonra ağladı. Qadın yenə də üzünü örtüb getdi. Dostu qayıdıb, nə hadisə baş verdiyini soruşdu. Süleyman "övladlarım yadıma düşüb"—dedi. Dostu dedi: Yox, belə deyil, mütləq bir hadisə baş verib. Çox israr edəndən sonra Süleyman hadisəni danışdı. O da ağlamağa başladı. Süleyman soruşdu: Sən niyə ağlayırsan? Dedi: Çünki əgər mən sənin yerində olsaydım, nəfsimə qalib gələ bilməyib günah edərdim. Sonra da hər ikisi ah-nalə etdilər.

Onlar Məkkəyə gəldilər. Səfa və Mərvənin səyini yerinə yetirdikdən sonra Süleyman hicri-İsmailin yanında bir az yatdı. Yuxuda gözəl və xoş ətirli bir kişi gördü. Ona dedi: Sən kimsən? Buyurdu: Mən Yusifəm. Süleyman soruşdu: Sən Quranda adı çəkilən Yusif-siddiqmisən? Buyurdu: Bəli. Süleyman dedi: Sizin Züleyxanın qarşısındakı iffətiniz çox heyrətli olub. Yusif (ə) buyurdu: Sənin Əbvadakı qadınla olan görüşün mənimkindən də heyrətlidir.[1]

## *İmam Rzanın (ə) müsibəti*

Xəlifə Məmun İmama qalib gələ bilməyəcəyini görüb onu zəhərləmək qərarına gəldi. Buna görə də onu öz hüzuruna çağırdı. İmam onun nə edəcəyini bildiyi üçün Əbasəltə buyurdu: Mən Məmunun sarayına gedirəm. Əgər qayıdanda

[1] "İbrətha dər ayineyi dastanha", səh. 56.

başımda əba olsa, mənimlə danışma. İmam getdi və qayıdanda başında əba var idi. Əbasəlt də ona bir söz demədi. İmam otağına daxil olub qapını bağladı və buyurdu: Otağa heç kimi buraxma.

Əbasəlt deyir: Birdən gözüm otaqda yarşıqlı bir cavana dəydi. Dedim axı, otaq bağlı idi! Siz bura necə daxil oldunuz? Buyurdu: Məni bir göz qırpımında Mədinədən bura gətirən Allah bura da daxil edə bilər. Sonra gedib atasını qollarına aldı. İmam oğlu ilə bir az söhbət edəndən sonra şəhid oldu.

# On birinci məclis

## «İTRƏT—NİCAT GƏMİSİ»

﴿إِنَّمَا يُرِيدُ اللهُ لِيُذْهِبَ عَنكُمُ الرِّجْسَ اَهْلَ الْبَيْتِ وَيُطَهِّرَكُمْ تَطْهِيراً﴾

“Allah siz Əhli-beytdən pislikləri uzaqlaşdırmaq və sizi bütün eyblərdən pak etmək istəyir.”[1]

Peyğəmbər (s) buyurub:

مَنْ قَالَ اللَّهُمَّ صَلِّ عَلَى مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ أَعْطَاهُ اللَّهُ أَجْرَ اثْنَيْنِ وَ سَبْعِينَ شَهِيد

“İlahi! Məhəmməd və ailəsinə salam göndərənə Allah yetmiş iki şəhidin savabın verər.”[2]

سِرَاجُ الْمُؤْمِنِ مَعْرِفَةُ حَقِّنَا أَشَدُّ الْعَمَى مَنْ عَمِيَ عَنْ فَضْلِنا

“Bizim haqqımızı tanımaq mömin çırağıdır. Kor insan bizim fəzilətlərimizi görməyəndir.”[3]

مَثَلَ أَهْلِ بَيْتِي فِي أُمَّتِي كَمَثَلِ سَفِينَةِ نُوحٍ فِي قَوْمِهِ مَنْ رَكِبَهَا نَجَا وَ مَنْ تَخَلَّفَ عَنْهَا غَرِق

“Mənim Əhli-beytim Nuhun gəmisi kimidir. Ona minən nicat tapar, ondan ayrılan isə qərq olar.”[4]

مَنْ لَمْ يُحِبَّ عِتْرَتِي فَهُوَ لِإِحْدَى ثَلَاثٍ إِمَّا مُنَافِقٌ وَ إِمَّا لِزِنْيَةٍ وَ إِمَّا امْرُؤٌ حَمَلَتْ بِهِ أُمُّهُ فِي غَيْرِ طُهْرٍ

“Əhli-beytimi sevməyən ya münafiq, ya zinadan gələn, ya da anası heyz vaxtı ona hamilə olub.”[5] “Hər kim Məhəmməd və Ali-Məhəmmədin (ə) məhəbbəti ilə ölsə,

---

[1] “Əhzab” surəsi, ayə: 33.
[2] “Müstədrəkül-vəsail”, c. 5, səh. 349.
[3] “Camiül-əxbar”, səh. 178.
[4] “Biharul-ənvar”, c. 23. səh. 124.
[5] “Vəsailüş-şiə”, c. 2, səh. 319.

şəhiddir. Qiyamətdə bütün insanlardan üç şey soruşular: 1. Ömrünü hansı yola sərf etdin? 2. Cavanlığını necə sərf etdin? 3. Mal-dövlətini necə qazandın və harda xərclədin? Və Əhli-beytin məhəbbətindən soruşular."[1]

Həmçinin Peyğəmbər (s) buyurub: "Xoş məni görənlərin və mənə iman gətirənlərin halına! Xoş (bu sözü yeddi dəfə təkrar etdi) məni görməyib, mənə iman gətirənlərin halına!"[2]

İmam Sadiq (ə) buyurub:

إِنَّ حُبَّنا أَهلَ الْبَيتِ لَيَحبِطُ الذُّنُوبَ عَنِ العِبادِ كَما تَحبِطُ الرِّيحُ الشَّديدَةُ الْوَرَقَ عَنِ الشَّجَرِ

"Biz—Əhli-beytin məhəbbəti günahları məhv edər. Necə ki, şiddətli külək ağacın yarpaqlarını tökər."[3]

## *Cənnətin yolu*

Bir nəfər Peyğəmbərdən (s) soruşdu: Cənnətə necə daxil ola bilərəm? Buyurdu: Beş vaxtın namazlarını qıl, Ramazanda oruc tut, cənabət qüslünü unutma və Əli (ə) və övladlarını sev. Məni peyğəmbərliyə seçən Allaha and olsun, min rəkət namaz qılsan, min dəfə həccə getsən, min dəfə müharibədə iştirak etsən, min qul azad edib, dörd səmavi kitabı oxusan, bütün peyğəmbərlərlə görüşüb onlarla ibadət etsən və hər bir peyğəmbərlə min müharibəyə gedib, min həcc və ümrə etsən də, əgər qəlbində Əli (ə) və övladına məhəbbətin olmasa, cəhənnəmliklərlə birlikdə cəhənnəmə daxil olacaqsan. Bu xəbəri burada olanlar olmayanlara çatdırsınlar. Çünki bu sözü Cəbrail Allah tərəfindən gətirmişdir.

---

[1] "Xisal", səh. 279.
[2] "Xisal", səh. 279.
[3] "Səvabul-əmal", səh. 405.

Cəbrail Əlini (ə) özünə qardaş seçmişdir. O, Allaha and içmişdir ki, Əlinin (ə) dostları cənnətdə qalana qədər düşmənləri də cəhənnəmdə qalacaqlar.[1]

## *Məhəmməd (s) və onun ailəsinin (ə) məqamı*

İmam Baqir (ə) buyurub: "Bir dəfə anam divarın kölgəsində oturmuşdu. Birdən divar parçalandı və uçularkən anam əli ilə işarə edib dedi: Allah Məhəmməd (s) haqqına sənə uçmağa icazə verməsin. Bu vaxt divar havada asılı vəziyyətdə qaldı və anam da onun altından çəkildi. Sonra atam yüz dinar sədəqə verdi."

İmam Sadiq (ə) buyurub: "Bir yəhudi Peyğəmbərin (s) hüzuruna gəlib, dedi: Sən üstünsən, yoxsa Musa? Halbuki, Allah onunla danışıb, ona Tövrat nazil olub və əsasının möcüzəsi ilə dəniz parçalanıb! Peyğəmbər (s) buyurdu: İnsanın özünü tərifləməsi yaxşı deyil. Amma gərək bunu sənə bildirim ki, Allah Adəmin (ə) tövbəsini bu duaya, görə qəbul etdi:

اَللّٰهُمَّ اِنّي اَسئَلُكَ بِحَقِّ مُحَمَّدٍ وَ آلِ مُحَمَّدٍ لَمَّا غَفَرتَ لِي

"İlahi, Məhəmməd və Ali-Məhəmmədə (s) xatir məni bağışla!"[2]

## *Seyidlərə ehtiram*

Peyğəmbər (s) buyurub: "Hər kim mənim övladlarımı görsə və ona hörmət əlaməti olaraq ayağa qalxmasa, mənə zülm etmişdir. Mənə zülm edənsə, münafiqdir. Hər kim mənim övladımı görəndə hörmət əlaməti olaraq ayağa qalxmasa, Allah onu elə bir bəlaya düçar edər ki, dərmanı olmaz. Hər kim seyidləri görəndə salavat zikr etsə, Allah onun eşitmə və görmə qüvvəsini gücləndirər. Mənim övladımla xörək yeyən şəxsə

[1] "Nəsayih", səh. 242.
[2] "Biharul-ənvar", c. 16, səh. 266.

Allah cəhənnəm odunu haram edər. Hər kim mənim övladımla görüşsə, mən onu qiyamət günü ziyarət edəcəyəm. Mənim övladımın yaxşılarına hörmət edin. Pislərinə isə mənə görə hörmət edin.”[1]

## *İmam Cavadın (ə) müsibəti*

Mötəsim və Cəfər xilafət bəni Abbasdan ələvilərə keçməsin deyə Ümmül-Fəzlə dedilər: Sən xəlifə övladısan. Hamı gərək sənə hörmət etsin. Amma Məhəmməd ibn Əli (ə) isə oğlu Hadinin (ə) anasını (Səmanə)[2] səndən üstün bilir. Bundan sonra Ümmül-fəzl ərini zəhərləmək qərarına gəlir.

Mötəsim və Cəfər bir qədər üzümü zəhərləyib ona göndərdilər.Ümmül-Fəzl də üzümü ərinə verdi. İmam onu yedi. Çox keçmədi ki, zəhər onun ciyərlərində öz təsirini göstərdi və yavaş-yavaş ağrısı şiddətləndi. Bu vaxt Ümmül-Fəzl peşman oldu və ağladı. İmam ona buyurdu: Niyə ağlayırsan? Məni öldürəndən sonra ağlamağının faydası yoxdur. Bu xəyanətinə görə elə bir dərdə mübtəla olacaqsan ki, əlacı olmayacaq. İmamın bu qarğışına görə, Ümmül-Fəzlin gizli üzvündə elə bir xəstəlik tapıldı ki, bütün malını onun müalicəsi üçün sərf etsə də, faydası olmadı. Nəhayət o, çox acınacaqlı bir vəziyyətdə dünyasını dəyişdi və Cəfər isə sərxoş halda quyuya düşüb öldü.[3]

---

[1] “Dəsturate-zindəgi”, səh. 225.

[2] Məlum olduğu kimi, İmamın Ümmül-Fəzldən heç bir uşağı olmamışdır.

[3] “Süqnameyi-Ali-Mühəmməd”, səh. 132.

# On ikinci məclis

**«ƏFV VƏ GÜZƏŞT»**

“Kasıb və varlı vaxtında kasıblara öz malından infaq edən, öz qəzəbini boğan və camaatın pisliyini bağışlayan kəslər salehlərdəndir və Allah salehləri sevir.”[1]

İmam Sadiq (ə) buyurub:

**صِلْ مَنْ قَطَعَكَ وَ أَعْطِ مَنْ حَرَمَكَ وَ أَحْسِنْ إِلَى مَنْ أَسَاءَ إِلَيْكَ وَ سَلِّمْ عَلَى مَنْ سَبَّكَ وَ أَنْصِفْ مَنْ خَاصَمَكَ وَ اعْفُ عَمَّنْ ظَلَمَكَ كَمَا أَنَّكَ تُحِبُّ أَنْ يُعْفَى عَنْكَ فَاعْتَبِرْ بِعَفْوِ اللهِ عَنْكَ أَلاٰ تَرَىٰ أَنَّ شَمْسَهُ أَشْرَقَتْ عَلَى الْأَبْرَارِ وَ الْفُجَّارِ وَ أَنَّ مَطَرَهُ يَنْزِلُ عَلَى الصَّالِحِينَ وَ الْخَاطِئِينَ**

“Sənə sileyi-rəhm etməyənə sileyi-rəhm et. Sənə pislik edənə yaxşılıq et. Səni söyənə salam ver. Düşməninlə insafla rəftar et. Sənə zülm edəni bağışla. Allah səni bağışladığı kimi, sən də bundan ibrət dərsi götür. Görmürsənmi ki, yaratdığı günəşin nurundan  və göndərdiyi yağışdan həm pislər, həm də yaxşılar bəhrələnir?”[2]

---

[1] “Ali-İmran” surəsi, ayə: 134.

[2] “Tuhəfül-üqul”, səh. 305.

## *Bağışlamağın savabı*

İmam Kazim (ə) buyurub:

يُنادِي مُنادٍ يَومَ القِيامَةِ أَلا مَن كَانَ لَهُ عَلَى اللهِ أَجرٌ فَليَقُمْ فَلَا يَقُومُ إلّا مَن عَفَا وَ أَصلَحَ فَأَجْرُهُ عَلَى اللهِ

"Qiyamət günü carçı nida edər: "Kimin Allahda haqqı var?" Əfv edənlərdən və insanlar arasında sülh edənlərdən başqa heç kəs ayağa qalxmaz."[1]

## *Peyğəmbər və Həmzənin qatili*

Vəhşi həzrət Həmzəni öldürəndən sonra gizləndi. Amma Məkkənin fəthindən sonra Peyğəmbər (s) ümumi əfv elan etdiyinə görə o da Peyğəmbərin (s) yanına gəlib əfv dilədi. Həzrət onu bağışladı. Amma ona buyurdu: "Elə et ki, gözümə görünməyəsən. Çünki səni görəndə dərdim təzələnir."[2]

## *Qırx il günahdan danışmadı*

Həzrət Yusif (ə) qardaşlarının etdiklərindən peşiman olduqlarını görüb, onu quyuya atmalarına, qırx il atasından uzaq qalmasına və uzun illər əziz Misrin zindanında yaşamasına baxmayaraq, qardaşlarına qəzəblənmədi. Neçə il onlarla yaşasa da, quyudan danışmadı və onlara tənə vurmadı.

---

[1] "Tuhəfül-üqul", səh. 412.
[2] "Şərhi Nəhcül-bəlağə", c. 17, səh. 16.

Bir şəxs qəbiləsinə tərəf gedirdi. Yolda bir cahil onu söyməyə başladı. O isə buna əhəmiyyət vermədən yoluna davam etdi. Birdən dayanıb ona dedi: İstədiyin qədər söy. Çünki qəbiləmə yaxınlaşanda səni incidəcəklər.

## *Alicənablıq*

Bir cavan oğlanın gözəl bir arvadı var idi. Amma iki ildən sonra arvadı çiçək xəstəliyinə tutuldu. Yavaş-yavaş arvadı xəstəliyə görə çirkinləşdi. Cavan oğlan öz-özünə dedi: Əgər mən çıxış yolu tapmasam, mümkündür ki, arvadım xəcalət çəksin. Ona görə də səhər yuxudan ayılanda özünü korluğa vurdu və uca səslə ağlamağa başladı. Bunun səbəbini soruşanda: “Kor olmuşam”—dedi.O, iyirmi il arvadının narahat olmaması üçün bu vəziyyətdə yaşadı. Arvadı öləndən sonra gözünü açdı.

## *İmam Hadinin (ə) müsibəti*

Mütəvəkkil İmamı (ə) çox incitdi. O, məmurlarına əmr etdi ki, gecə yarısı Həzrətin evinə basqın etsinlər. Məmurlar gəlib İmamı ibadət və Quran oxuyan halda gördülər. Onlar İmamı ayaqyalın Mütəvəkkilin yanına gətirdilər. O, şərab içirdi və utanmadan İmama da şərab təklif etdi. İmam buyurdu: Ətim və qanım şərabla qarışmayıb və qarışmayacaq da. İmam iyirmi il Samirra şəhərində nəzarət altında yaşadı. Nəhayət, Mötəmidin hakimiyyətinin axırlarında ona gizli verilən zəhərin nəticəsində şəhid oldu. Həmin vaxt oğlu İmam Həsən Əskəridən (ə) başqa onun yanında heç kim yox idi. O da İmamı Samirra şəhərində, öz evində dəfn etdi.

Amma İmam Hadiyə (ə) ərz edirəm: Əgər sizi məcbur edərək şərab məclisinə aparmışdılarsa, məzlum və susuz babanızın mübarək başını isə nizəyə sancdılar. Qırx dəfə müxtəlif yığıncaqlarda gəzdirəndən sonra Yezidin məclisinə apardılar. Yezid isə sərxoş halda İmamın başını qızıl teştə qoyub, onun dodaqlarına çubuqla vurmağa başladı...

# On üçüncü məclis

## «SƏXAVƏT XOŞBƏXTLİK NİŞANƏSİDİR»

“Allahı sevdiyinə görə yaxşı insanlar fəqirə, əsirə və miskinə yemək verirlər.”[1]

Ayə Əhli-beyt (ə) haqdadır. Çünki Əlinin (ə) xanımı və övladları oruc olmalarına baxmayaraq, üç gün ardıcıl iftar vaxtı qapıya gələn fəqir, əsir və miskinə yeməklərini verib özləri su ilə iftar etdilər.

Peyğəmbər (s) buyurub:

يَا عَلِيُّ رَأَيتُ عَلَى بَابِ الجَنَّةِ مَكتُوباً أَنتَ مُحَرَّمَةٌ عَلَى كُلِّ بَخِيلٍ وَ مُرآءٍ وَ عَاقٍ وَ نَمّامٍ

“Ey Əli, cənnətin qapısına belə yazılmışdır: Sən paxıl insana, cədəl edənə, valideyninə ağ olana və xəbərçiyə haramsan.”[2]

لَمَّا خَلَقَ اللّهُ الجَنَّةَ قَالَتْ يَا رَبِّ لِمَنْ خَلَقْتَنِي قَالَ لِكُلِّ سَخِيٍّ تَقِيٍّ قَالَتْ رَضِيتُ يَا رَبِّ

“Allah cənnəti yaradanda cənnət dedi: İlahi, məni kimlər üçün yaratmısan? Buyurdu: Səxavətli və təqvalılar üçün. Dedi: Mən də buna razıyam.”[3]

طَعَامُ السَّخِيِّ دَوَاءٌ وَ طَعَامُ الشَّحِيحِ دَاء

“Səxavətli insanın yeməyi dərmandır. Paxılın yeməyi isə dərddir.”[4]

---

[1] “Dəhr” surəsi, ayə: 8.
[2] “Camiül-əxbar”, səh. 84.
[3] “Müstədrəkül-vəsail”, c. 7, səh. 18.
[4] “Biharul-ənvar”, c. 68, səh. 138.

Hədisdə gəlmişdir ki, Musa peyğəmbər (ə) Tur dağına Tövratı almağa gedəndə Samiri onun olmamağından istifadə edib özündən səs icad edən bir buzov düzəltdi. O, bu yolla Musanın (ə) tərəfdarlarının çoxunu kafir etdi. Musa (ə) bu işinə görə onu öldürmək istədi. Amma xitab gəldi:

اِنَّ اللّٰهَ عَزَّ وَ جَلَّ أَوْحَى إِلَى مُوسَى أَنْ لَا تَقْتُلِ السَّامِرِيَّ فَإِنَّهُ سَخِيٌّ

"Ey Musa! O, bəndələrimi azdırsa da, çox səxavətli bir şəxsdir. Ona görə də onu öldürmə."[1]

"Peyğəmbərdən (s) soruşdular: Ən yaxşı əməl nədir? Buyurdu: Səxavət və xoş əxlaq. Əgər bunlar sizdə olsa, nicat taparsınız."[2]

Yəməndən bir dəstə insan Peyğəmbərin (s) hüzuruna gəldi. Onların arasından bir nəfər ədəbsizlik etdi. Peyğəmbər (s) qəzəbləndi. Bu vaxt Cəbrail Peyğəmbərə (s) nazil olub dedi: Allah sənə salam göndərir və buyurur: "Bu kişi çox səxavətlidir və insanlara yemək verir." Peyğəmbər (s) sakitləşdi və ona buyurdu: Əgər Cəbrail sənin səxavətli olduğunu deməsəydi, səninlə çox pis rəftar edərdim ki, insanlara ibrət olsun. Kişi dedi: Məgər sənin Allahın qonaqpərvərliyi sevir? Buyurdu: Bəli. Kişi həmin an müsəlman oldu. Və Peyğəmbərə (s) dedi: Səni məbus edən Allaha and olsun, indiyə qədər heç kimi əliboş yola salmamışam.[3]

İmam Sadiq (ə) buyurub:

شَابٌّ سَخِيٌّ مُرَهَّقٌ فِي الذُّنُوبِ أَحَبُّ إِلَى اللّٰهِ مِنْ شَيْخٍ عَابِدٍ بَخِيلٍ

"Günaha qərq olmuş səxavətli bir cavan, Allah yanında bir paxıl qoca abiddən üstündür."[4]

---

[1] "Mən la yəhzuruhul-fəqih", c. 2, səh. 61.
[2] "İrşadul-qülub", c. 1, səh. 138.
[3] "Səfinətül-bihar", c. 2, səh. 607.
[4] "Üsuli-kafi", c. 4, səh. 41.

## *Çürüməyən əl*

Hatəm Tainin ölümündən bir müddət sonra güclü yağış yağdı və sel onun qəbrini dağıtdı. Oğlu onun cənazəsini qəbristana köçürtmək istədi. Onun qəbrini açanda əlindən başqa bütün üzvlərinin çürüdüyünü gördü. Bu hadisə hamını heyran qoydu. Necə ola bilər ki, onun sağ əli çürüməsin. Ağıllı bir qocadan bunun səbəbini soruşanda dedi: "Burda təəccüblü bir şey yoxdur. O, həmin əli ilə yoxsullara çoxlu bəxşiş vermişdir."[1]

İmam Sadiq (ə) buyurub:

جَاهِلٌ سَخِيٌّ أَفْضَلُ مِنْ نَاسِكٍ بَخِيلٍ

"Səxavətli cahil paxıl abiddən üstündür."[2]

## *Səxavət xilas yolu*

İslamın ilk döyüşlərindən birində bir neçə əsir kafiri Peyğəmbərin (s) yanına gətirdilər. Peyğəmbər (s) bilirdi ki, əgər onlar sağ qalsalar, müsəlmanların canı xətərə düşə bilər. Ona görə də bir nəfərdən başqa hamısının qətlinə fərman verdi. Səhabələr onu öldürməməsinin səbəbini soruşanda, Həzrət buyurdu: "O, müsəlman olmasa da onda beş xislət var. Buna görə Allahın əmri ilə onu öldürmədim. O xislətlər aşağıdakılardır: 1. Qeybət etməməsi; 2. Səxavətli olması; 3. Xoş əxlaqlı olması; 4. Şücaətli olması; 5. Düz danışması."[3]

---

[1] "Pəndhayi-cavid", səh. 183.

[2] "Biharul-ənvar", c. 68, səh. 356.

[3] Həmin mənbə, c. 71, səh. 385.

## *İmam Həsən Əskərinin (ə) müsibəti*

Qeyd etdiyimiz kimi İmam (ə) gizli şəkildə Mötəmidin əmri ilə zəhərləndi və yatağa düşdü. Ömrünün axır saatlarında xəstəlik İmama elə güc gəlirdi ki, hətta dərman belə içə bilmirdi. İmam qulamı Əqidə buyurdu: Get o biri otağa, orada pərdə arxasında səcdədə bir uşaq görəcəksən. Onu bura gətir.

Qulam gedib həmin otaqda nurlu, qıvrımsaç və bir uşaq gördü. Onu İmamın yanına gətirdi. İmam uşağı görəndə ağlayıb buyurdu: Ey ailəmin ağası, mənə su ver. Həqiqətən, mən Allahıma tərəf gedirəm. İmamın oğlu isti suyu atasına içirtdi. Sonra İmam (ə) buyurdu: Mənə namaz qılmaq üçün kömək et. O, atasına dəstəmaz almağa kömək etdi. İmam oğluna buyurdu: Sənə müjdə verirəm ki, sən Sahibəzzaman (ə.c) və Allahın yer üzərindəki höccətisən. Bunu atam, o da atasından onlar da Peyğəmbərdən (s) əxz etmişlər.[1]

---

[1] "Süqnameyi-Ali-Mühəmməd", səh. 152.

# On dördüncü məclis

## «İMAM ƏLİNİN (Ə) MƏQAMI»

“Sizin vəliniz yalnız Allah, Rəsul, namaz qılan möminlər və ruku halında zəkat verənlərdir.”[1]

Çoxlu hədislərə əsasən, bu ayədə nəzərdə tutulan şəxs Əlidir (ə) və Həzrət rukuda öz üzüyünü fəqirə verərkən nazil olmuşdur.

Peyğəmbər (s) buyurub:

عُنوَانُ صَحِيفَةِ الْمُؤمِنِ حُبُّ عَلِيّ بنِ اَبِي طالِب

“Mömininin əməl dəftərinin sərlövhəsi Əliyə (ə) məhəbbətdir.”[2]

وَ الَّذِي بَعَثَنِي بِالْحَقِّ نَبِيّاً لَا يَقْبَلُ اللَّهُ مِنْ عَبْدٍ حَسَنَةً حَتَّى يَسْأَلَهُ عَنْ حُبِّ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ

“Məni məbus edən Allaha and olsun ki, Əlinin (ə) məhəbbəti haqda soruşulmadan heç bir yaxşı əməl qəbul olunmaz.”[3]

İmam Sadiq (ə) buyurub:

لَوْ جَحَدَ أَمِيرَ الْمُؤْمِنِينَ ع جَمِيعُ مَنْ فِي الْأَرْضِ لَعَذَّبَهُمُ اللَّهُ جَمِيعاً وَ أَدْخَلَهُمُ النَّارَ

“Əgər yer üzünün bütün insanları Əlinin (ə) vilayətini inkar etsələr, Allah onları cəzalandırar və cəhənnəmə aparar.”[4]

Peyğəmbər (s) buyurmuşdur:

---

[1] “Maidə” surəsi, ayə: 55.
[2] “Tarixi bağdad”, c. 4, səh. 410.
[3] “Biharul-ənvar”, c. 39, səh. 160.
[4] “İqabul-əmal”, səh. 450.

يَا عَلِيُّ لَوْ أَنَّ عَبْداً عَبَدَ اللَّهَ مِثْلَ مَا قَامَ نُوحٌ فِي قَوْمِهِ وَ كَانَ لَهُ مِثْلُ أُحُدٍ ذَهَباً فَأَنْفَقَهُ فِي سَبِيلِ اللَّهِ وَ مُدَّ فِي عُمُرِهِ حَتَّى حَجَّ أَلْفَ عَامٍ عَلَى قَدَمَيْهِ ثُمَّ قُتِلَ بَيْنَ الصَّفَا وَ الْمَرْوَةِ مَظْلُوماً ثُمَّ لَمْ يُوَالِكَ يَا عَلِيُّ لَمْ يَشُمَّ رَائِحَةَ الْجَنَّةِ وَ لَمْ يَدْخُلْهَا

“Ya Əli! Əgər bir bəndə həzrət Nuhun (ə) ömrü qədər ibadət etsə, Ühud dağı qədər qızılı olsa və onu Allah yolunda ehsan etsə, min dəfə Həccə getsə və Səfa və Mərvə arasında məzlumcasına öldürülsə, amma sənin vilayətini qəbul etməsə, o, cənnətin iyini duymaz və cənnətə daxil olmaz.”[1]

زَيِّنُوا مَجَالِسَكُمْ بِذِكْرِ عَلِيّ بْنِ أَبِي طَالِبٍ (ع)

“Məclislərinizi Əlinin (ə) zikri ilə zinətləndirin.”[2]

ذِكْرُ عَلِيّ عِبَادَة

“Əlinin (ə) zikri ibadətdir.”[3]

## *Əbu Bəkrin baxışı*

Ayişə deyir:

رَأَيْتُ أَبَا بَكْرٍ يَكْثُرُ النَّظَرَ إِلَى وَجهِ عَلِيٍّ فَقُلْتُ يَا أَبَتِ أَرَاكَ تَكْثُرُ النَّظَرَ إِلَى وَجْهِ عَلِيٍّ فَقَالَ يَا بُنَيَّة سَمِعْتُ رَسُولَ اللَّهِ ص يَقُولُ النَّظَرُ إِلَى وَجْهِ عَلِيّ عِبَادَةٌ

“Atamın Əlinin (ə) simasına çox baxdığını görüb ondan soruşdum: Siz niyə Əlinin (ə) üzünə çox baxırsınız? Dedi: Çünki Peyğəmbərdən (s) eşitmişəm ki, Əlinin (ə) üzünə baxmaq ibadətdir.”[4]

Bir hədisdə deyilir ki, camaat namaz qılırdı, amma Əbuzər Əlinin (ə) üzünə baxırdı. Bunun səbəbini

---

[1] “Biharul-ənvar”, c. 27, səh. 194.
[2] Həmin, c. 38, səh. 199.
[3] Həmin, səh. 200.
[4] Həmin, səh. 201.

soruşanda, dedi: Çünki Peyğəmbərdən (s) eşitmişəm ki, Əlinin (ə) üzünə baxmaq ibadətdir.[1]

## *Xızr (ə) və Əlinin (ə) şiəsi*

Əməş deyir: “Mədinədə qara, kor bir kənizin camaata su verdiyini gördüm. O deyirdi: Əlinin (ə) dostluğunun iftixarına görə için. Bir müddətdən sonra Məkkədə gözünün açıldığını gördüm. O, yenə camaata su verirdi və deyirdi: Əlinin (ə) dostluğunun iftixarına su için. O şəxsin iftixarına ki, Allah onun vasitəsi ilə gözümü açdı.O, gözünün açılmasını belə izah etdi: Bir gün bir kişi mənə dedi: Ey kəniz! Sən Əlinin (ə) dostlarından deyilsənmi? Dedim: Bəli. Dedi: İlahi! Əgər o doğru deyirsə və Əlini (ə) doğrudan sevirsə, onun gözlərini aç. Allaha and olsun. Bu duadan sonra gözüm açıldı.Bu kişiyə dedim: Sən kimsən? Dedi: Mən Xızram və Əlinin (ə) şiələrindənəm.”[2]

Doktor Hüseyn Taha Misri kor olsa da, alim və bir çox əsərlərin müəllifi olmuşdur. Bir gün o, xütbəsi əsnasında dedi: “Allahın kitabı bizə bəsdir. Bu Ömərin sözüdür. O, bu sözləri Peyğəmbər (s) vəfat edəndə demişdi.”

Bir vaxt Məhəmməd Cavad Müğniyə ona dedi: “Əgər sən də “Allahın kitabı bizə bəsdir”—deyirsənsə, onda bu ayəni təfsir et:

❼⍀× ♋♍🔔☒✍ ♊♦👌◆❒>
◆❑🡐♑⬧▫ 🗐❻⍓☺⇳⬉❒🕮 🏲🕗⌀■✍⓿🕔⍓♎
🗐❻⍓☺⇳⬉❒🕮 ⌀❑♦❷⬁⌘☞⍓✍✂ ❼⍀×
< ⌖☒⓿⍀⌛⍓♋ ❻✍❁➷❒🕮◆❒

“Bu dünyada kor olan axirətdə də kor olar və (haqq) yoldan daha çox azar.”[3]

---

[1] “Müstədrəkül-vəsail”, c. 9, səh. 153.
[2] “Biharul-ənvar”, c. 42, səh. 10.
[3] “İsra” surəsi, ayə: 72.

Doktor Taha kor olduğundan susdu. Məhəmməd Cavad dedi: Qoy, Əlinin (ə) kəlamı ilə ayənin təfsirini deyim: “Hər kimin ürəyi bu dünyada kor olsa, axirətdə gözü kor olacaq.”

İmam Həsən Müctəba (ə) buyurub:

إِنَّ عَلِيّاً بَابٌ مَنْ دَخَلَهُ كَانَ مُؤْمِناً وَ مَنْ خَرَجَ مِنْهُ كَانَ كَافِرا

“Həqiqətən, Əli (ə) elə bir qapıdır ki, oradan içəri daxil olan mömin, xaric olan isə kafirdir.”[1]

Şafei deyir: “Əlinin (ə) fəzilətləri nadir insanlarda görünmüşdür. Məsələn, elm və əməldə kimsə ona tay deyil. Çox az alim tapılar ki, elm və biliyinə əməl etsin. Kasıb və eyni halda səxavətli, şücaətli və rəhimli, zahid və əxlaqlı, çox-çox iftixar sahibi və həm də təvazökar. Bu xüsusiyyətlər çox az insanda cəm olmuşdur.”[2]

## *İmam Əli (ə) və kimya elmi*

Həzrət Zəhranın (əh.) Fizzə adlı xidmətçisi (deyilənlərə görə o, hind hökmdarlarından birinin qızı olmuş və o zaman kimyagərliyi öyrənmişdir) bir gün qərara gəlir ki, bildiyi fənn üzrə Əlinin (ə) zahidanə yaşayışını qaydaya salsın. Buna görə də bir parça mislə müəyyən bir maddəni qarışdırıb onu qızıla çevirdi. Həzrət Əli (ə) Fizzənin bu bacarığını bəyənib buyurdu: Əgər ona filan maddəni qatsaydın, onun qızılı daha keyfiyyətli olardı. Fizzə soruşdu: Məgər siz də bu elmi bilirsinizmi? Həzrət buyurdu: Məndən əlavə bu uşaq da (İmam Hüseynə (ə) işarə etdi) onu bilir. Sonra mübarək əllərini yerə qoydu və birdən xəzinə göründü. Fizzə qızıl külçələrinin bir-birinin kənarında düzüldüyünü gördükdə, Əli (ə) buyurdu: Düzəltdiyin qızılları da onların üzərinə qoy. O da belə etdi. Birdən yer

[1] “Nasixut-təvarix”, c. 2, səh. 174.
[2] “Nəsayih”, səh. 105.

büküldü və qızıllar yox oldu. Beləliklə, Həzrət Əli (ə) öz sadə yaşayışını üstün tutdu.[1]

## *Əliyə (ə) məhəbbət və yetmiş peyğəmbərin əməli*

Peyğəmbər (s) buyurub:

وَ الَّذِي نَفْسِي بِيَدِهِ لَوْ عَمِلَ أَحَدُكُمْ عَمَلَ سَبْعِينَ نَبِيّاً لَمْ يَدْخُلِ الْجَنَّةَ حَتَّى يُحِبَّ هَذَا أَخِي عَلِيّا

"Canım ixtiyarında olan Allaha and olsun. Bir şəxs yetmiş peyğəmbərin əməlin əncam versə, ancaq qardaşım Əlini (ə) sevməsə, cənnətə daxil olmaz."[2]

Peyğəmbər (s) buyurmuşdur:

لَوْ أَنَّ الرِّيَاضَ أَقْلَامٌ وَ الْبَحْرَ مِدَادٌ وَ الْجِنَّ حُسَّابٌ وَ الْإِنْسَ كُتَّابٌ مَا أَحْصَوْا فَضَائِلَ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ

"Əgər bütün ağaclar qələm, dəryalar mürəkkəb, bütün pərilər mühasib və insanlar yazar olsa, Əlinin (ə) fəzilətlərini saya bilməzlər."[3]

"Allah qardaşım Əli (ə) üçün saysız fəzilət qərar vermişdir. Hər kim onun fəzilətlərindən bəyan etsə və etiqad etsə, Allah onun keçmiş və gələcək günahlarını bağışlayar. Hər kim onun fəzilətlərindən birini yazsa, o yazı qaldıqca mələklər onun üçün məğfirət (bağışlanma) tələb edərlər. Hər kim Əlinin (ə) fəzilətlərinə qulaq assa, Allah onun qulaq vasitəsi ilə etdiyi günahlarını bağışlayar. Hər kim Əlinin (ə) fəzilətlərinə baxsa, onun gözü ilə etdiyi günahları bağışlanar."[4]

---

[1] "Biharul-ənvar", c. 41, səh. 273.
[2] Həmin, c. 27, səh. 196.
[3] Həmin, c. 28, səh. 197.
[4] "Yənabiül-məvəddət", səh. 121.

خَلَقَ اللَّهُ مِنْ نُورِ وَجْهِ عَلِيِّ بْنِ أَبِي طَالِبٍ ع سَبْعِينَ أَلْفَ مَلَكٍ يَسْتَغْفِرُونَ لَهُ وَ لِمُحِبِّيهِ إِلَى يَوْمِ الْقِيَامَةِ

"Allah Əlinin (ə) mübarək nurundan yetmiş min mələk yaratmışdır ki, Əli (ə) və onun dostları üçün qiyamətə qədər istiğfar tələb edərlər."[1]

## *İmam Əlinin (ə) müsibəti*

Həzrət Əli (ə) yaralı halda yatağa düşdüyü zaman övladları bir-bir gəlib Həzrətin əl-ayaqlarından öpərək deyirdilər: Atacan, səni bu halda görməyimiz bizi yaman üzür. Kaş, indi anamız Fatimə (əh.) sağ olaydı və bizə təsəlli verəydi. Kaş, indi Mədinədə babamız Peyğəmbərin (s) qəbri kənarında olaydıq və dərdimizi ona deyəydik. Ah, qürbət əlindən, ah yetimlik əlindən...

Onların dərdli şivənini kim eşidirdisə, ixtiyarsız ağlayırdı. Əli (ə) isə onları bir-bir qucaqlayıb deyirdi: Səbirli olun. Mən sizin babanız Məhəmməd (s) və ananız Fatimənin (əh.) yanına gedirəm. Keçən gecələrin birində yuxuda Peyğəmbərin (s) köynəyi ilə üzümün tozunu sildiyimi gördüm. O, mənə buyurdu: "Ey Əli, sən vəzifəni yerinə yetirdin." Bu yuxu ölümə dəlalət edir.[2]

---

[1] "Kəşfül-ğümmə", c. 1, səh. 103.
[2] "Rövzətüş-şühəda", səh. 170.

# On beşinci məclis

## «İSLAMDA SƏDƏQƏNİN FƏZİLƏTİ»

"Sizlərdən birinə ölüm yetişməmişdən sizə verdiyim ruzidən Allah yolunda infaq edin. Bu vaxt (ölüm yetişən zaman) deyəcəksiniz: İlahi! Ölümümü bir az təxirə sal ki, çox sədəqə və ehsan edim və salehlərdən olum."[1]

Peyğəmbər (s) buyurub: "Sədəqə verməklə ruzinizi tələb edin."[2] Həmçinin buyurub:

لاَ تَرُدُّوا السَّائِلَ وَ لَوْ كانَ كافراً

"Dilənçini naümid etməyin, hətta kafir olsa da."[3]

İmam Sadiq (ə) buyurub:

لاَ تَرُدُّوا السَّائِلَ وَ لَوْ بِظِلْفٍ مُحْرَقٍ

"Dilənçini naümid etməyin, hətta qoyunun yanmış dırnağı da olsa verin."[4]

Həzrət Əli (ə) buyurub:

"Kasıblığa düçar olanda, sədəqə ilə Allahla ticarət edin."[5]

Peyğəmbər (s) buyurub: "Yarım xurma ilə də olsa, dilənçini əliboş qaytarmayın."[6]"İnsan sədəqə verəndə sədəqə öz sahibinə dörd söz deyir: "Mən fani idim, məni əbədi etdin, kiçik idim,

---

[1] "Münafiqun" surəsi, ayə: 10.
[2] "Nəhcül-bəlağə", səh. 494
[3] "Camiül-əxbar", səh. 84.
[4] "Nəvadiri-ravəndi", səh. 4.
[5] "Biharul-ənvar", c. 96, səh. 133.
[6] "Camiül-əxbar", səh. 379.

böyük etdin, düşmənin idim, dostun etdin və məni hifz etdin. İndi qiyamətə qədər səni qoruyacağam.”[1]

[1] “Nəsayih”, səh. 239.

## *Sədəqənin növləri*

Malın sədəqəsi var, məqamın sədəqəsi var, belə ki, başqalarının əlindən tutasan. Peyğəmbər (s) buyurur: "Ən üstün sədəqə dil, fikir və ağlın sədəqəsidir." "Din qardaşlarınıza düz yolu göstərməklə sədəqə verin. Onları fikirlərinizlə həyatda möhkəmləndirin." Dilin sədəqəsi var, yəni fitnəni yatırtmaq üçün susmaq və elmin sədəqəsi var, onu başqalarına öyrətmək.[1]

Seyid Fəzlullah Ravəndinin "Dəəvat" kitabında Peyğəmbərdən (s) belə bir hədis nəql olunur: "Müsəlman olan şəxsin gündəlik sədəqə verməsi vacibdir." Bir nəfər soruşdu? Məgər hər gün bir işi görmək mümkündürmü? Buyurdu: "Müsəlmanın yolunu təmizləmək də sədəqədir. Bu işin savabı dörd yüz Quran ayəsinin savabına bərabərdir. İtmiş əşyanı sahibinə çatdırmaq, xəstənin görüşünə getmək, nəhy əz münkər (pis işlərdən çəkindirmək) və salam vermək sədəqədir."[2]

Peyğəmbər (s) buyurub:

"Camaatı incitməməyin özü bir sədəqədir ki, özünə hədiyyə edirsən."[3]

## *Xəstələri müalicə etməyin yolu*

Bir kişi İmam Kazima (ə) dedi: Ailə üzvlərim on nəfərdir və hamısı xəstədir. Mən nə edim? Həzrət buyurdu: "Onları sədəqə verməklə müalicə et. Çünki heç

---

[1] Həmin, səh. 340.
[2] "Kəlimeyi-təyyibə", səh. 503 (Mühəddis Nuri).
[3] "Biharul-ənvar", c. 72, səh. 54.

nə sədəqə kimi qəbul olmaz və xəstə üçün ən faydalı şey sədəqədir.”[1]

İmam Sadiq (ə) buyurub:

“Xəstə insan üçün müstəhəbdir ki, öz əli ilə kasıba sədəqə versin və ondan şəfa tapması üçün dua istəsin.”[2]

Peyğəmbər (s) buyurub: “Bir dirhəm sədəqə, on gecə müstəhəb namazdan üstündür.”[3] Həmçinin buyurub:

كُلُّ مَعْرُوفٍ صَدَقَةٌ

“Hər bir yaxşı əməl sədəqədir.”[4] “Ey Əli, bir tikə çörəyi sədəqə vermək on min rəkət gecə namazından üstündür.”[5]

## *İtə kömək xoşbəxtliyə səbəb oldu*

Mərhum Ayətullah-üzma Şifti (rəh.) İsfahanın görkəmli müctehidlərindən biri olub. O, elm və təqvada dillər əzbəri idi. O, gecə münacat edəndə xüsusi mənəvi hal tapırdı. Belə ki, münacat edəndə boynuna zəncir salıb Allah-təalaya nalə və peşmançılıqla ibadət edərdi. O, cəmiyyət arasında böyük ictimai nüfuza malik şəxs idi. Bir dəfə əmir Zillus-sultanın dövründə kasıb bir şəxs onun yanına gəlmişdi. Şah kasıba dedi: Niyə mənim yanıma gəlmisən? Əgər elm istəyirsən, seyidin məscidinə get. Pul və qüdrət istəyirsən, yenə də ora get. O, İsfahanda “Seyid” adlı bir məscid tikmişdi. O, bu məqama necə yetişmişdi? Özü bu haqda deyir: Bir itin duası məni bu məqama çatdırmışdır.

Mən Nəcəfdə tələbə idim. Bir müddət mənə pul göndərilmədi. Çətinlik məni sıxırdı. Amma çalışırdım bundan heç kim xəbər tutmasın. Amma aclıqdan ölməmək üçün

---

[1] “Vəsailüş-şiə”, c. 2, səh. 433.
[2] “Üsuli-kafi”, c. 4, səh. 3.
[3] “Kəlimeyi-təyyibə”, səh. 427.
[4] “Müstədrəkül-vəsail”, c. 7, səh. 263.
[5] “Səmaratul-həyat”, c. 3, səh. 404.

məcbur olub dostumdan borc aldım. Bu pula bir qab yemək aldım. Qayıdanda bir itin üç balasının onun südsüz döşlərinə yapışdıqlarını gördüm. Onlara yazığım gəldi. Və yeməyimi onların qabağına qoydum. İt ləzzətlə yeməyi yedi. Bir müddətdən sonra Allah mənə pul yetirdi. Bu hadisədən sonra „Şift" şəhərindən bir şəxs yanıma gəldi və dedi: Filan hacı dünyasını dəyişib, malının üçdə birini sənə bağışlayıb. Sonradan məlum oldu ki, o kişi vəsiyyətnaməsini mən itə yemək verəndə yazıb. Bəli, mənim İslama xidmətim o itin duasının sayəsində oldu. Təəccüb etməyin, Allahın rəhmətini qazanmaq zəminə tələb edir. Zəminələr də müxtəlifdir. Bəzən insan yüz illik yolu bir anda qət edir.[1]

## *İmam Hüseynin (ə) müsibəti*

Möhtəşəm Kaşaninin cavan oğlu xəstələnib ölmüşdü. O, bir gecə yuxuda Peyğəmbəri (s) gördü. Həzrət buyurdu: Niyə mənim oğlum üçün ağlamırsan? Yalnız öz oğlun üçün qəmgin olursan? O, çox səy etdi ki, İmam Hüseyn (ə) haqda rovzə yazsın. Amma yaza bilmədi. Sabah gecə yenə Peyğəmbəri (s) yuxuda gördü. Həzrət buyurdu: Niyə sözümə qulaq asmırsan? Dedim: Nə qədər fikirləşdim yaza bilmədim. Buyurdu: Birinci misrasını mən deyirəm, ardın sən de. O misra bu idi: "Bu nə həyəcandır ki, aləmi bürüyüb." Bunu eşitməklə ardını Allahın lütfü ilə yazdım.

[1] "Qoftare-Nəraqi", c. 1, səh. 340.

# On altıncı məclis

## «VALİDEYNİN MƏQAMI»

"Sənin Allahın əmr edir ki, ondan başqa heç kimə ibadət etməyin və valideynlərinizə yaxşılıq edin. Əgər onlardan biri, ya hər ikisi sizin yanınızda qocalsa, onlara "uf" belə deməyin. Onlara fəryad etməyin. Onlarla yaxşı danışın."[1]

Peyğəmbər (s) buyurub:

نَظَرُ الْوَلَدِ إِلَى وَالِدَيْهِ حُبّاً لَهُمَا عِبَادَةٌ

"Övladın valideynə məhəbbətlə baxışı ibadətdir."[2]

### *Ananın ayağını öpməyin savabı*

Peyğəmər (s) buyurmuşdur:

مَنْ قَبَّلَ رِجْلَيْ اُمِّهِ فَكَانَّمَا قَبَّلَ عَتَبَةَ الكَعبَةَ

"Ananın ayağını öpən şəxs Kəbənin astanasını öpən kimidir."[3]

مَنْ قَبَّلَ بَيْنَ عَيْنَيْ اُمِّهِ كانَ لَهُ سِتْراً مِنَ النّارِ

"Anasının alnından öpən şəxs cəhənnəm odundan amanda qalar."[4]

مَنْ زَارَ قَبْرَ أَبَوَيْهِ أَوْ أَحَدِهِمَا فِي كُلِّ جُمُعَةٍ غُفِرَ لَهُ وَ كُتِبَ بَرّاً

---

[1] "İsra" surəsi, ayə: 23.
[2] "Tühəful-uqul", səh. 44.
[3] "Gəncineyi-cəvahir", səh. 117.
[4] "Nəhcul-fəsahə", səh. 597.

“Hər kim valideynlərinin qəbrini hər cümə ziyarət etsə, günahları bağışlanar və onun üçün saleh əməl yazılar.”[1]

## *Etmədiyim günah yoxdur*

İmam Səccad (ə) buyurub:

جاءَ رَجُلٌ إِلَى النَّبِيِّ ص فَقَالَ يَا رَسُولَ اللَّهِ مَا مِنْ عَمَلٍ قَبِيحٍ إِلَّا قَدْ عَمِلْتُهُ فَهَلْ لِي مِنْ تَوْبَةٍ فَقَالَ رَسُولُ اللَّهِ ص فَهَلْ مِنْ وَالِدَيْكَ أَحَدٌ حَيٌّ قَالَ أَبِي قَالَ فَاذْهَبْ فَبِرَّهُ قَالَ فَلَمَّا وَلَّى قَالَ رَسُولُ اللَّهِ ص لَوْ كَانَتْ أُمُّهُ

“Bir kişi Peyğəmbərin (s) yanına gəlib dedi ki, mən etmədiyim bir günah qalmayıb. İndi mənə tövbə yeri qalıbmı? Həzrət buyurdu: Ata-anan sağdırmı? Dedi: Yalnız atam sağdır. Buyurdu: Atana hörmət və yaxşılıq et ki, Allah günahlarını bağışlasın. O kişi gedəndən sonra Həzrət buyurdu: Kaş, anası sağ olardı.”[2]

## *Atanın duası*

Peyğəmbər (s) buyurub:

دُعاءُ الوالِدِ لِوَلَدِهِ كَدُعاءِ النَّبِيِّ لِأُمَّتِهِ

“Valideynin övladı üçün dua etməsi, peyğəmbərin ümməti üçün etdiyi dua kimidir.”[3]

## *Bir baxışın savabı*

Peyğəmbər (s) buyurub:

---

[1] “Müstədrəkül-vəsail”, səh. 77.
[2] “Biharul-ənvar”, c. 71, səh. 82.
[3] “Nəhcül-fəsahə”, səh. 410.

مَا وَلَدٌ بَارٌّ نَظَرَ إِلَى أَبَوَيْهِ بِرَحْمَةٍ إِلَّا كَانَ لَهُ بِكُلِّ نَظْرَةٍ حِجَّةً مَبْرُورَةً فَقَالُوا يَا رَسُولَ اللَّهِ وَ إِنْ نَظَرَ فِي كُلِّ يَوْمٍ مِائَةَ نَظْرَةٍ قَالَ نَعَمْ اللهُ أَكْبَرُ وَ أَطْيَبُ

"Əgər yaxşı əməlli övlad məhəbbətlə ata-anasının üzünə baxsa, həcc savabı qazanar.

Həzrətdən soruşdular: Əgər bir gündə yüz dəfə baxsa, bu savab artar? Buyurdu: Bəli! Allah üçün bu çox asandır."[1]

رَأَيْتُ بِالْمَنَامِ رَجُلًا مِنْ أُمَّتِي قَدْ أَتَاهُ مَلَكُ الْمَوْتِ لِقَبْضِ رُوحِهِ فَجَاءَهُ بِرُّهُ بِوَالِدَيْهِ فَمَنَعَهُ مِنْهُ

"Yuxuda ümmətimdən bir kişinin Əzrail canını aldığını gördüm. Amma valideyninə etdiyi yaxşılıq onun ruhunun alınmasına mane oldu və ömrü uzandı."[2]

## *Üç dəstə bədbəxt hesab olunar*

Peyğəmbər (s) buyurub:

مَنْ ذَكَرَنِي وَ لَمْ يُصَلِّ عَلَيَّ فَقَدْ شَقِيَ وَ مَنْ أَدرَكَ رَمَضانَ فَلَمْ تُصِبْهُ الرَّحْمَةُ فَقَد شَقِيَ وَ مَنْ أدرَكَ أَبَوَيْهِ أَو أحَدَهُما فَلَم يُبَرَّ فَقَد شَقِيَ

"Üç dəstə bədbəxt hesab olunur: 1. Mənim adımı eşidib, salavat zikr etməyən şəxs; 2. Ramazan ayını keçirib, amma Allahın rəhmətini özünə cəlb etmək üçün bir əməl etməyən şəxs; 3. Valideyni yanında qocalan və ona qarşı səhlənkarlıq edən şəxs."[3]

## *Kafir ata-anaya itaət*

Peyğəmbər (s) buyurub:

---

[1] "Biharul-ənvar", c. 71, səh. 73.
[2] Həmin, səh. 80.
[3] "Camiül-əxlaq", səh. 154.

أَطِعِ الوالِدَيْن وَ لَوْ كانا كافِرَيْن

“Ata-ananız kafir də olsa, onlara hörmət edin.”[1]

Bir şəxs Peyğəmbərdən (s) soruşdu: Atanın övladının boynundakı haqqı nədir? Buyurdu:

لَا يُسَمِّيهِ بِاسْمِهِ وَ لَا يَمْشِي بَيْنَ يَدَيْهِ وَ لَا يَجْلِسُ قَبْلَهُ وَ لَا يَسْتَسِبُّ لَهُ

“Onu adı ilə çağırma. Ondan qabağa keçmə, ondan əvvəl oturma və elə bir iş görmə ki, atanı söysünlər.”[2]

Peyğəmbər (s) buyurub: “Ata-anaya itaət Allaha itaət, onlara qarşı itaətsizlik isə Allaha itaətsizlikdir.”[3]

## *Qəzəbli baxış və namazın batil olması*

İmam Sadiq (ə) yenə buyurub:

مَنْ نَظَرَ إِلَى أَبَوَيْهِ نَظَرَ مَاقِتٍ وَ هُمَا ظَالِمَانِ لَهُ لَمْ يَقْبَلِ اللَّهُ لَهُ صَلَاةً

“Hər kim ata-anasına qəzəblə baxsa, onlar ona zülm etmiş olsalar da belə, onun namazı qəbul deyil.”[4]

## *Cihadı tərk etmək və valideynə hörmət*

Bir şəxs Peyğəmbərin (s) yanına gəlib dedi: “Cihada getmək mənim arzumdur. Buyurdu: Allaha xatir cihada gedib qətlə yetirilsən, diri olacaqsan və Allah yanında ruzi yeyəcəksən. Əgər sağ qalsan günahların bağışlanar və anadan olduğun kimi olarsan. O şəxs dedi: Mənim qoca ata-anam var. Onlar mənə çox bağlanıblar. Əgər onları tərk etsəm, narahat olacaqlar. Buyurdu: Onların yanına qayıt. Allaha and olsun, bir gün

---

[1] “Camiül-əxbar”, səh. 214.
[2] “Ləalil-əxbar”, c. 5, səh. 284.
[3] “Nəhcül-fəsahə”, səh. 410.
[4] “Ləalil-əxbar”, c. 5, səh. 284.

onlarla qalmaq Allaha xatir edilən bir illik cihaddan üstündür."[1]

## *Atanın ayaq izini öpmək*

Həzrət İbrahim (ə) Şamdan Məkkəyə oğlu İsmailin (ə) görüşünə gedəndə oğlu evdə yox idi. İbrahim (ə) Şama qayıtdı. İsmail evə qayıdanda xanımı atasının gəlməyini xəbər verdi. O, atasının ayaq izini tapıb atasına hörmət olaraq, ordan öpdü.

## *Ananın qarğışı*

Böyük alimlərdən biri Zəməxşəri ("Kəşşaf" təfsirinin müəllifi) Xarəzmə etdiyi səfərlərdən birində bərk soyuqla üzləşdi. Güclü soyuqdan donduğu üçün ayağını kəsməli oldular. Zəməxşəri bu hadisənin səbəbini belə bəyan edir: "Bu hadisə anamın qarğışına görə oldu. Mən uşaqlıqda bir sərçə tutub ayağına ip bağladım və tüklərini yoldum. Bu vaxt quş əlimdən çıxdı və bir deşiyə daxil oldu. Amma ayağında ip olduğu üçün deşikdən çöldə qaldı. Mən ipi möhkəm dartdım. Buna görə də quşun ayağı bədənindən ayrıldı. Anam bu hadisəni biləndə əsəbləşdi və dedi: Allah sənin ayağını kəssin. Necə ki, bu dilsiz heyvanın ayağını bədənindən ayırdın."[2]

## *Valideynə dua etməmək ruzini azaldar*

Həzrət Əli (ə) buyurub: "Valideyn üçün dua etməmək ruzini azaldar."[3]

---

[1] "Biharul-ənvar", c. 71, səh. 67.
[2] "Qozərgahe-ibrət", səh. 79.
[3] "Biharul-ənvar", c. 73, səh. 318.

Peyğəmbər (s) buyurmuşdur: "Əgər müstəhəb namaza məşğul olsan və atan səni çağırsa, namazı kəsmə. Əgər anan çağırsa, namazı kəs. Cənnət anaların ayağı altındadır."[1]

## *Atanın ayağını öpmək xoşbəxtlikdir*

Həzrət Ayətullah üzma Mərəşi Nəcəfi buyurmuşdur: Mən Nəcəfdə olan zaman bir gün zöhr namazı vaxtı anam mənə dedi: Get, atanı nahara çağır. Mən ikinci mərtəbəyə qalxdım.Gördüm atam kitab oxuduğu halda yatıb. Bilmədim nə edəm? Bir tərəfdən anamın əmrinə itaət etməliydim, bir tərəfdən isə onu oyadanda narahat olacağından qorxurdum. Əyilib atamın ayağından öpdüm. Ayağının qıdığlanmasından atam yuxudan oyandı və məni gördü. Mənim bu ədəbimi görəndə dedi: Şəhabdin, sənsən? Dedim: Bəli, ata. Atam əllərini qaldırıb, dua etdi: Oğlum! Allah sənin izzətini çoxaltsın və səni Əhli-beytin (ə) xadimlərindən etsin. Mənim bu yerə yetişməyimin səbəbi bu dua oldu.[2]

## *Şəhid Mütəhhərinin valideyninə hörməti*

Şəhid Ayətullah Mürtəza Mütəhhəri deyir: Bəzən özüm və işlərim haqda fikirləşəndə hiss edirəm ki, Allahın mənə qarşı mərhəməti, həyatda qazandığım bir çox xeyir-bərəkətlər valideynimə etdiyim hörmətə, məxsusən, qoca və xəstə vaxtları qayğılarını çəkdiyimə görədir. Hətta yaşayışımın ağır vaxtları belə onlara maddi və mənəvi köməyimi əsirgəmirdim...

Mütəhhərinin övladlarından biri deyir: Mən əksər hallarda atamın öz atasına xüsusi ehtiramının şahidi olurdum. Fərimana gedəndə atam əvvəl ata-anasının evinə getməyi təkid edirdi.

---

[1] "Kəbirə günahlar", c. 1, səh. 127.

[2] "Rəmze müvəffəqiyyəte büzürgan", səh. 116.

Ata-anası ilə görüşəndə onların əlini öpürdü və bizə də tövsiyə edirdi ki, onların əllərini öpək.[1]

## *İnsanların ən yaxşısı*

Peyğəmbər (s) buyurmuşdur:

سَيِّدُ الْأَبْرَارِ يَوْمَ الْقِيَامَةِ رَجُلٌ بَرَّ وَالِدَيْهِ بَعْدَ مَوْتِهِمَا

“İnsanların ən yaxşısı valideyni öləndən sonra onlar üçün xeyir işlər görəndir.”[2]

## *Həzrət Əli Əkbərin (ə) müsibəti*

“Məqtəl”lərin birində yazılır: Əli Əkbər (ə) meydandan qayıdıb atasının yanına gəldi və dedi:

يا أَبَتِ العطَشُ قَدْ قَتلَنِي وَ ثِقْلُ الْحَدِيدِ أَجْهَدَنِي

Ata! Susuzluq məni əldən salıb. Qılıncın və zirehin ağırlığı taqətimi əlimdən alıb. İmam Hüseyn (ə) buyurdu: Əli can, bir az düşmənlə döyüş tezliklə baban Peyğəmbərin (s) əlindən su içəcəksən. O getdi və susuzluqdan və düşmənin çoxluğundan yerə yıxıldı. Düşmənin qılıncları onun bədənini tikə-tikə etdi. İmam Hüseyn (ə) onun yanına gəlib buyurdu: “Səni öldürəni Allah öldürsün!” İmam mübarək əli ilə onun dodağının qanını təmizlədi. Bilmirəm, niyə İmam (ə) Əli Əkbərin (ə) cənazəsini aparmaq üçün Bəni-Haşimin cavanlarından kömək istədi?...

---

[1] “Rəmzi müvəffəqiyyəti büzürgan”, səh. 118.
[2] “Biharul-ənvar”, c. 71, səh. 86.

# On yeddinci məclis

### «ƏDALƏT VƏ İDARƏÇİLİK»

“Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) verməyi buyurar, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edir. (Allah) düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir!”[1]

## *Bir ədalətli rəftar və altmış il ibadət*

Peyğəmbər (s) buyurub:

**عَدْلُ سَاعَةٍ خَيْرٌ مِنْ عِبَادَةِ سَبْعِينَ سَنَةً قِيَامٌ لَيْلُهَا وَ صِيَامٌ نَهَارُهَا وَ جَوْرُ سَاعَةٍ فِي حُكْمٍ أَشَدُّ وَ أَعْظَمُ عِنْدَ اللَّهِ مِنْ مَعَاصِي سِتِّينَ سَنَةً**

“Ədalətli bir rəftar gecələri namaz qılınan və gündüzləri oruc tutulan altmış il ibadətdən üstündür. Bir zülmkarlığın isə hökmü Allah yanında altmış ilin günahından böyükdür.”[2]

## *Bir ədalətli hökm və altmış il ibadət*

Peyğəmbər (s) buyurmuşdur:

“Bir gün ədalətli hökmranlıq, qırx gün yağışdan üstündür. Bir şəri hökmün icrası altmış il ibadətdən üstündür.”[3]

---

[1] “Nəhl” surəsi, ayə: 90.
[2] “Camiül-əxbar”, səh. 154.
[3] “Müstədrəkül-vəsail”, c. 18, səh. 9.

## *İmam Əli (ə) və beytül-mal*

Əlinin (ə) qızlarından biri üç gün müddətinə Qurban bayramında istifadə etmək üçün beytül-malın xəzinədarı ibn Rafedən bir boyunbağı aldı. İmam Əli (ə) bunu eşidəndə qəzəbləndi və qızını yanına çağırıb buyurdu: "Məgər bütün müsəlman qadınlar beytül-maldan birovuz ala bilər?" Əli (ə) ən tez bir zamanda boyunbağını beytül-mala qaytardı və buyurdu: "Əgər birovuz olmasaydı, qızımın əllərini kəsərdim."[1]

## *"Mən ədalətsiz bir işə şahidlik etmərəm"*

Nöman ibn Bəsir deyir: Bir gün atam mənə hədiyyə aldı və qardaş-bacılarıma isə heç nə vermədi. Anam atama dedi: Mən bu ayrıseçkiliyə razı deyiləm. Əgər bunu düz bilirsənsə, qoy Peyğəmbər (s) bu işə şahid dursun.

Atam Peyğəmbərin (s) yanına gedib dedi: Mən yalnız bir oğluma hədiyyə aldığım surətdə xanımım məni vadar etdi ki, onun düzlüyünə sizi şahid tutum. Peyğəmbər (s) buyurdu: Bütün övladlarına belə bir hədiyyə almısanmı? Atam dedi: Yox. Həzrət buyurdu: Allahdan qorx və övladlarınla bərabər dolan! Mən ədalətsiz bir işə şahidlik etmərəm.[2]

## *Ədalət divarı*

Həmsin hakimi Ömər ibn Əbdüləzizə belə bir məktub yazdı: Şəhərin divarları xarab olmaqdadır. Onun təmiri üçün nə əmr verirsiniz? Xəlifə cavab verdi:

---

[1] "Vəsailüş-şiə", c. 28, səh. 262.
[2] "Mizanul-hikmət", c. 10, səh. 707.

Şəhərə ədalətdən divar çək və yollarını zülmdən təmizlə. Bu vaxt daş divara ehtiyac olmaz.[1]

## *İt dərisi ilə ibrət*

İran şahı Bəhram ovu çox sevirdi. O, xalqın vəziyyətindən xəbərsiz idi. Onun yalnız ordudan və saray xadimlərindən xəbəri var idi. Şah, müharibə olanda məcbur olub camaatdan kömək istəyirdi. Amma camaat onun dəvətini soyuq qəbul edirdi. O, bu hadisədən çox təsirləndi və öz məğlubiyyətinin səbəbini axtardı. O bilirdi ki, hakimiyyətində çoxlu iradlar var. Buna görə də camaat dövlətlə soyuq davranır. Bəhram bir gün paltarını dəyişib şəhərdən çıxdı. Gördü ki, bir kişi xeyməsinin qarşısından it dərisi asıb. O, bunun səbəbini soruşdu? O kişi çox isrardan sonra cavab verdi: "Mənim qoyunlarım var idi. Onlar bu otlaqda otlayırdı və bu it onları qorumağı öhdəsinə götürmüşdü. Mən və sürünün çobanı sürünü çoxaltmaq istəyirdik. Bir gün çoban mənə qoyunlarından birinin canavar yediyini dedi. Səhərisi də bu hadisə təkrar olundu. O biri gün də bu hadisə təkrar olundu.Mən itə bədbin oldum. Onu izlədik. Gördük ki, erkək it bir neçə dişi canavarla dost olub. İt qoyunları oğurlamaqda və yeməkdə canavarları azad buraxır. Başa düşdük ki, itə həddən artıq etimad bizim zərərimizə olub. Ona görə də mən də itin başın kəsib dərisini soyaraq buradan asdım. Qoy, camaat da bilsin ki, hər kim ona tapşırılan vəzifəsində xəyanət etsə, onun cəzası budur!"

Bu vaxt Bəhram başa düşdü ki, bunların səbəbi onun həddən artıq ətrafdakılarına etibar etməsindədir. O, bundan sonra camaatla görüşdü və onların çətinlikləri ilə yaxından tanış oldu. O bildi ki, camaat qanunsuz vergini vermədikləri üçün həbsdə

[1] "Hezaro yek hekayete tarixi", səh. 196.

yatır. Beləliklə o, məmurlarının çoxunu işindən kənarlaşdırdı və camaatın razılığını əldə etdi.[1]

## *İmam Hüseynin (ə) müsibəti*

Peyğəmbər (s) Həzrət Zəhranın (əh.) evinə gəldi və onun qapı dalında dayandığını gördü. Peyğəmbər (s) soruşdu: Qızım, niyə burda durmusan? Ərz etdi: Həsən və Hüseyn çölə gediblər, ancaq hələ də qayıtmayıblar. Onları gözləyirəm. Peyğəmbər (s) onları axtarmağa getdi. Onları Mədinənin ətrafında bir dağın yanında tapdı. Onlar orada yatmışdılar və bir ilan başlarının üstündə fırlanırdı. Peyğəmbər (s) əlinə daş götürüb, ilana atmaq istədi. Birdən ilan Peyğəmbərə (s) dedi: “Salam olsun sənə ey Allahın rəsulu! Məni öldürmə. Mən sənin övladlarını qoruyuram.” Sonra Peyğəmbər (s) Həsəni (ə) sağ çiyninə, Hüseyni (ə) isə sol çiyninə aldı. Cəbrail nazil olub Hüseyni (ə) Həzrətdən aldı. Bu hadisədən sonra onlar fəxr edirdilər. İmam Hüseyn (ə) deyirdi: “Məni ən üstün mələk çiynində daşıyır.”[2]

Amma Peyğəmbərə (s) deməliyik ki, Həsəni (ə) zülmkarlıqla zəhərləyib şəhid etdilər, sonra cənazəsini oxladılar! Hüseyni də Kərbəlada susuz başını kəsdilər, övladlarını və dostların məzlumcasına şəhid etdilər, xeymələrini yandırdılar! Məsum uşaqlar canını qurtarmaq üçün xeymələrdən çıxıb ayaqyalın tikanlı səhraya səpələnmişdilər...

---

[1] “Rəmze Piruziye mərdane bözorg” (Cəfər Sübhani), səh. 112-114.
[2] “Musirul-əhzan”, səh. 21.

# On səkkizinci məclis

**«ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MÜNKƏR»**

“Onlar o kəslərdirlər ki, əgər onlara yer üzündə iqtidar versək, namaz qılar, zəkat verər, yaxşı işə əmr edib, pis işdən çəkindirərlər. İşlərin aqibəti Allahın əlindədir.”[1]

“Ey əziz övladım! Namaz qıl, oruc tut və əmr be məruf və nəhy əz münkər et.[2] Bu işdə nadanlar səni incitsə, səbir et. Bu səbir işlərin əmr əlamətidir.”[3]

## *Dinsiz mömin*

Peyğəmbər (s) buyurub:

**إِنَّ اللَّهَ عَزَّ وَ جَلَّ لَيُبْغِضُ الْمُؤْمِنَ الضَّعِيفَ الَّذِي لَا دِينَ لَهُ فَقِيلَ لَهُ وَ مَا الْمُؤْمِنُ الَّذِي لَا دِينَ لَهُ قَالَ الَّذِي لَا يَنْهَى عَنِ الْمُنْكَرِ**

“Allah dini olmayan zəif mömini sevmir. Soruşdular: O kimdir? Buyurdu: Camaatı pis işlərdən çəkindirməyən şəxs.”[4]

İmam Hüseyn (ə) buyurub:

---

[1] “Həcc” surəsi, ayə: 41.
[2] “Yaxşı işə əmr, Pis işdən çəkindirmə”
[3] “Loğman” surəsi, ayə: 17.
[4] “Üsuli-kafi”, c. 5, səh. 59.

اِنِّي لَمْ أَخْرُجْ أَشَراً وَ لاَ بَطِراً وَ لاَ مُفْسِداً وَ لاَ ظَالِماً وَ إِنَّمَا خَرَجْتُ لِطَلَبِ الْإِصْلاَحِ فِي أُمَّةِ جَدِّي ص أُرِيدُ أَنْ آمُرَ بِالْمَعْرُوفِ وَ أَنْهَى عَنِ الْمُنْكَرِ وَ أَسِيرَ بِسِيرَةِ جَدِّي وَ أَبِي عَلِيّ بْنِ أَبِي طَالِب

"Mən məqama, ictimai nüfuza, zülm və fəsad etmək üçün qiyam etməmişəm. Mən cəddimin ümmətini islah, əmr be məruf, nəhy əz münkər etmək, cəddimin və Əli ibn Əbi Talibin sünnəsini davam etdirmək üçün qiyam etmişəm."[1]

İmam Sadiq (ə) buyurub:

لاَ يَنْبَغِي لِلْمُؤْمِنِ أَنْ يَجْلِسَ مَجْلِساً يُعْصَى اللَّهُ فِيهِ وَ لاَ يَقْدِرُ عَلَى تغْيِيرِهِ

"Möminə yaraşmaz ki, bir məclisdə otursun və oradakı şəxslər günah etdikdə onların qarşısını almasın."[2] "Günahı müşahidə edən göz kirpikləri örtülmədən nəhy əz münkər və əmr be məruf etməlidir. Yaşlı və aqil insanlar cahil və dünyapərəstləri moizə etməlidir. Bundan başqa hallarda mən onları lənətləyərəm."[3]

أَيُّمَا نَاشِئٍ نَشَأَ فِي قَوْمِهِ ثُمَّ لَمْ يُؤَدَّبْ عَلَى مَعْصِيَتِهِ كَانَ اللَّهُ أَوَّلَ مَا يُعَاقِبُهُمْ فِيهِ أَنْ يَنْقُصَ مِن أَرْزَاقِهِم

"Bir tayfanın arasında böyüyən bir cavan etdiyi günaha görə ədəbləndirilməsə və nəhy edilməsə, Allah ilk öncə onların ruzisini azaldar."[4]

## *Zahidin cəzalanmasının səbəbi*

İmam Hüseyn (ə) buyurub:

---

[1] "Tarixi-Təbəri", c. 7, səh. 240.
[2] "Biharul-ənvar", c. 71, səh. 199.
[3] "Nəsayih", səh. 10.
[4] "Vəsailüş-şiə", c. 11, səh. 133.

"Allah-təala Cəbrailə buyurdu: Filan abid və zahid kişini fasiq camaatdan əvvəl məhv et. Çünki ona hidayət etməyə imkan verdim. Amma səhlənkarlıq edib, əmr be məruf və nəhy əz münkər etmədi."[1]

İmam Baqir (ə) buyurub: "Allah həzrət Şüeybə (ə) belə vəhy etdi: Ümmətindən altmış min nəfər günahkarlarla həlak olacaq. Çünki onlar günahkarları hidayət etməyiblər." "Əmr be məruf və nəhy əz münkər Allahın iki əziz məxluqu kimidir. Hər kim camaatı hidayət etməyi yaşatsa, Allah onu əziz edər. Onlara qarşı səhlənkarlıq edən isə zəlil olar."

## *Dənizin müqabilində bir damla*

İmam Əli (ə) buyurmuşdur: "Əgər bütün vaciblər tərəzinin bir gözünə, əmr be məruf və nəhy əz münkər başqa bir gözünə qoyulsa, əmr be məruf və nəhy əz münkər o qədər ağır olar ki, dəniz suyu ağız suyunun müqabilində qərar tutar."

Peyğəmbər (s) buyurub: "Mənim ümmətim əmr be məruf və nəhy əz münkəri tərk edən zaman bilsinlər ki, Allahla döyüşə hazırlaşıblar"[2]

Əgər əmr be məruf və nəhy əz münkər cəmiyyətdə azalsa, Allahın hökmləri bir-bir təhrifə məruz qalar və haramların qəbahəti aradan gedər. Məsələn, hal-hazırda üz qırxmaq caiz, hətta bəzən bəyənilən bir iş kimi tanınır. Halbuki fəqihlərin çoxu onu haram etmişlər.

Peyğəmbər (s) buyurub: "Üzü qırxmaq bədəni müslə etmək (yəni, qulaq-burunu kəsmək) kimidir. Allah üzünü qırxana lənət edər və qiyamətdə iki şəxsdən lütf-rəhmət gözünü çəkər: üzünü qırxan və istimna edəndən."[3]

Peyğəmbər (s) buyurub:

---

[1] "Nəsayih", səh. 12.
[2] "Səvabül-əmal", səh. 551.
[3] "Siracuş-şiə", səh. 127.

إِنَّ الْمَجُوسَ جَزُّوا لِحَاهُمْ وَ وَفَّرُوا شَوَارِبَهُمْ وَ إِنَّا نَجُزُّ الشَّوَارِبَ وَ نُعْفِي اللِّحىٰ وَ هِيَ الْفِطْرَةُ

“Məcuslar üzlərini qırxıb, bığlarını uzadırlar. Biz müsəlmanlar bığlarımızı qısaldır, saqqalımızı isə uzadırıq və bu fitrətlə uyğundur.”[1]

## *Başqalarının hidayəti üçün edilən fədakarlıq*

Hacı Şeyx Məhəmməd Təqi Bafiqi hamamda bərbərin bir şəxsin üzünü qırxdığını gördü. Ona dedi: Niyə üzünü qırxırsan? Ordu polkovniki olan şəxs qəzəblənərək Hacı Məhəmməd Təqinin üzünə möhkəm bir sillə vurdu. Hacı dərhal üzünün o biri tərəfini gətirdi və dedi: Bu tərəfə də vur. Bu şərtlə ki, daha üzünü qırxmayasan. Polkovnik onun əxlaqına təəccüb edərək bərbərdən soruşdu: O kimdir? Bərbər deyir: O Ayətullah Bafiqidir. Polkovnik peşiman olub, ondan üzr istədi və üzünü qırxmaqdan tövbə etdi.

Peyğəmbər (s) buyurub: “Münafiqdən başqa üç nəfərin haqqını tapdalamayın: 1. Saçını İslam yolunda ağardan müsəlmanın; 2. Adil rəhbərin; 3. İnsanları xeyir işlərə dəvət edən şəxsin.”

Həmçinin Peyğəmbər (s) buyurub:

إِذَا تَرَكَتْ أُمَّتِي الْأَمْرَ بِالْمَعْرُوفِ وَ النَّهْيَ عَنِ الْمُنْكَرِ فَلْيُؤْذِنْ بِوِقَاعٍ مِنَ اللَّهِ جَلَّ اسْمُهُ

“Mənim ümmətim əmr be mərufu və nəhy əz münkəri tərk edəndə, gərək Allahla müharibəyə hazırlaşsınlar.”[2]

---

[1] “Səfinətül-bihar”, c. 2 səh. 508.
[2] “İqabul-əmal”, səh. 551.

## *Qayğıkeş təbib*

Əmr be məruf və nəhy əz münkər edən şəxs gərək qayğıkeş bir təbib kimi öz insani və islami əxlaqı ilə günahkarları şəriət qanunlarına riayət etmək şərti ilə yaxşı işlərə təşviq edib və pisliklərdən çəkindirsin. Bu haqda Mərhum Şeyx Hadi Nəcm Abadini misal gətirmək olar. O, gecə namazı qılmaq üçün həyətin kənarındakı hovuzdan dəstəmaz almaqla məşğul idi. Birdən bir şəxsin damın üstündən onun evinə oğurluğa daxil olmaq istədiyini gördü. Oğru şeyxi görüb həyəcanlandı, ixtiyarsız damdan yıxıldı və ayağı sındı. Şeyx tez onun yanına gəlib, ondan soruşdu: Deyəsən ayağın yaralandı. Sonra şeyx oğrunu müalicə etdi və ona dedi: Sağalmağın mühüm deyil. Indi sənin üçün çay-çörək gətirim ye və get. Oğrunun dostu onu küçədə gözləyirdi. Bir azdan o dostundan xəbər bilmək üçün damın üstünə çıxdı. Şeyxin dostunu müalicə və nəsihət etdiyini gördü. Şeyx başa düşdü ki, onu dostu gözləyir. Onu da yanına çağırıb dedi: Sən də gəl dostunla çay-çörək ye. Sonra gedin. Şeyx onlara bu işi bir daha təkrar etməmələrini tövsiyə etdi. Onlar xəcalətli halda şeyxin evini tərk etdilər.

## *Əlində xəncəri olan qatili hidayəti*

İmam Hüseynin (ə) Aşura inqilabından məqsədi insanları hidayət və əmr be məruf və nəhy əz münkər etmək olub. O, insanları yalnız zillətli həyatdan ayırmaq istəyirdi. O, müharibədə dəfələrlə düşmənləri moizə etmiş və moizələri nəticəsində neçə nəfər Yezidin ordusunu tərk edib İmamın ordusuna qoşulmuşdu. İmam (ə) hidayət işində heç vaxt səhlənkarlıq etmirdi. Hətta, Şimr onun başını kəsmək istəyəndə onu moizə edərək belə demişdi: “Ey Şimr! Mənim başımı kəssən də, kəsməsən də bu yaraların təsirindən öləcəyəm. Sən mənim başımı kəsməkdən əl çək. Bu pis əməllə

özünü cəhənnəmlik etmə. Mən sənin axirətdəki xoşbəxtliyinə zaminəm.” Amma Şimr cəhənnəmi seçdi.

## *Həzrət Rüqəyyənin (əh.) müsibəti*

Gecə yarısı Yezid (lən.) İmam Hüseynin (ə) kiçik qızının atasını istədiyini və sakitləşmədiyini görüb dedi: “Atasının başını ona verin. Bəlkə sakitləşdi.” Birdən üstü örtülü bir teştdə İmamın başını xarabalığa gətirdilər. Teştin üstünü açdılar. Həzrət Rüqəyyə atasının başını gördü.

Əsirlərin karvanı Şamdan çıxanda Rüqəyyəni xatırladı. Onları yola salanda Həzrət Zeynəb (ə) Şam qadınlarına buyurdu: “Biz sizin aranızdan gedirik. Amma kiçik bir qızı sizin aranızda qoyuram. O, burada qəribdir. Onun qəbrini ziyarət edin və onu unutmayın...”[1]

---

[1] “Süqnameyi-Ali-Mühəmməd”, səh. 497.

# On doqquzuncu məclis

## «ÖZGƏ HÜQUQU»

"Allaha ibadət edin və heç nəyi ona şərik qoşmayın. Ata-ananıza, yetimlərə, uzaq qonşulara, yolçulara və qulluqçularınıza yaxşılıq edin. Allah xudpəsəndləri və təkəbbürlü insanları sevməz."[1]

İmam Rza (ə) buyurub:

صِلَةُ الْأَرْحَامِ وَ حُسْنُ الْجِوَارِ زِيَادَةٌ فِي الْأَمْوَالِ

"Sileyi-rəhm və qonşularla yaxşı rəftar etmək ruzini artırar."[2]

### *Qırx evə qədər qonşu sayılır*

İmam Sadiq (ə) buyurub:

حَدُّ الْجَارِ أَرْبَعِينَ دَاراً مِنْ كُلِّ جَانِبٍ

"Hər tərəfdən qırx ev insanın qonşusu hesab olunur."[3]

أَحْسِنْ مُجَاوَرَةَ مَنْ جَاوَرْتَ تَكُنْ مُسْلِماً

"Qonşularınla yaxşı rəftar et və onlara yaxşılıq et ki, müsəlman hesab olunasan."[4]

---

[1] "Nisa" surəsi, ayə: 36.
[2] "Biharul-ənvar", c. 71, səh. 97.
[3] Həmin, c. 71, səh. 151; "Xisal", c. 2, səh. 113.
[4] Həmin, c. 71, səh. 158.

## *Peyğəmbərin (s) qonşuya hörmət haqda buyruqları*

1. “Qonşu kafir olsa da ona hörmət et.”[1]

2. “Özü tox, amma qonşusu ac yatan şəxs mənə iman gətirməyib.”[2]

3. “Qonşularla yaxşı rəftar evləri abad və ömürləri uzun edir.”[3]

4. “On evdən oğurluq etmək qonşunun evindən oğurluq etməkdən asandır.”[4]

5. “Allah qonşunu incidənə cənnətin iyini haram edər və onun yeri cəhənnəm olar.”[5]

6. “Qonşuya hörmət onun qanına hörmət etmək kimidir.”[6]

7. “Qonşu qonşunun evini almaqda (əgər satarsa) başqalarından irəlidir. Əgər iki qonşu səni qonaq çağırsa, növbə evi sənə yaxın olanındır, amma hansı əvvəl çağırsa, onun dəvətini qəbul et. ”[7]

8. “Qonşunun haqlarından biri də budur ki, xəstələnəndə, görüşünə gedəsən. Əgər səndən borc istəsə səhlənkarlıq etmə. Qonşunun xoş günündə onu təbrik et. Əgər onun başına bir müsibət gəlsə, ona başsağlığı ver. Evini onun evindən hündür tikmə ki, küləyin və havanın qarşısını almasın. Öləndə dəfnində iştirak et.”[8]

---

[1] “Camiül-əxbar”, səh. 214.
[2] “Biharul-ənvar”, c. 71, səh. 151.
[3] “Nəsayih”, səh. 454.
[4] “Nəhcül-fəsahə”, səh. 286.
[5] “Nəhcül-fəsahə”, səh. 286.
[6] “Nəhcül-fəsahə”, səh. 286.
[7] “Nəhcül-fəsahə”, səh. 291.
[8] “Nəhcül-fəsahə”, səh. 291.

9. “Hər kim qonşusuna ehtiyacı olan əşyaları ondan əsirgəsə, Allah qiyamətdə ona xeyir nəsib etməz.”[1]

10. “Cəbrail qonşu haqda o qədər sifariş etdi ki, güman etdim, qonşudan qonşuya irs çatacaq.”

## *Həzrət Zəhranın (əh.) duası*

İmam Həsən (ə) buyurub: Cümə axşamı idi. Anam gecə namazı qılırdı və yalnız qonşulara dua edirdi. Namazdan sonra ondan soruşdum ki, niyə özümüz üçün dua etmirsən? Buyurdu:

اَلْجَارُ ثُمَّ الدَّارُ

“Əvvəl qonşu, sonra ev.”[2]

## *Bəhrul-ülumun qəzəbi*

Bir gecə Seyid Bəhrul-ülum şagirdlərindən birini çağırıb bərk qəzəbli halda ona dedi: Eşitmişəm, qonşuluğunuzda kasıb bir ailə yaşayır və neçə vaxtdır ki, yeməkləri yoxdur. Niyə onlara yetişmirsən? O dedi: Allaha and olsun, bilmirdim. Seyid dedi: Qəzəblənməyi-min səbəbi qonşundan xəbərsiz olmağındır. Əgər bilib kömək etməsəydin, kafir sayılardın.[3]

## *İmam Hüseyn (ə) və borclunun vəzifəsi*

Ravi deyir ki, Kərbəlada İmam Hüseyn (ə) mənə buyurdu:

“Mənə köməyə gələnlərə de ki, borcu olanlar mənim ordumda olmasın. Çünki borcu olub vermək istəməyən cəhənnəmə gedər.”[4]

---

[1] “Nəsayih”, səh. 454.
[2] “Vəsailüş-şiə”, c. 7, səh. 113.
[3] “İbrətha dər ayineyi dastanha”, səh. 27.
[4] “Əhqaqul-həqq”, c. 19, səh. 429.

## *Şəhidin qanı və həqqün-nas*

İmam Baqir (ə) buyurub:

اَوَّلُ قَطرَةٍ مِنَ الشَّهيدِ كَفّارَةٌ لِذَنبِهِ اِلّا الدَّينَ فَاِنَّ كَفّارَتَهُ قَضائُهُ

"Şəhidin qanının birinci damcısı yerə düşəndə bu onun günahlarının kəffarəsi hesab olunur. Amma gərək borclarını ödəsin."[1]

İmam Hüseyn (ə) buyurub: "Qonşularınla yaxşı rəftar et ki, möminlərdən olasan."[2]

İmam Sadiq (ə) buyurub:

مَا عُبِدَ اللَّهُ بِشَيْءٍ أَفْضَلَ مِنْ أَدَاءِ حَقِّ الْمُؤْمِنِ

"Allaha ibadətdə möminin haqqını ödəmək kimi əfzəl bir şey yoxdur."[3]

"Meyit namazı qılmaq üçün bir cənazəni Peyğəmbərin (s) yanına gətirdilər. Namazdan əvvəl camaatdan biri dedi: Ya Rəsulullah! Onun boynunda haqqım var. O, mənə borclu idi. Peyğəmbər (s) bunu eşidəndə namazı saxladı. Bu vaxt Əli (ə) onun borcunu öhdəsinə götürdü. Onun borcu ödənəndən sonra Peyğəmbər (s) ona namaz qıldı."

Bir dəfə operatorlardan biri fonu işıqlandırmaq üçün divardan projektor asmaq istəyirdi. Orada olanlar divara mıx vurmaq istədikdə, bu vaxt İmam Xomeyni (rəh.) etiraz edib buyurdu: "Bu yer kirayədir. Sahibindən icazə almısınızmı?"

## *Hacı Axundun təqvası*

Axund Molla-Abbas Türbəti böyük şəxsiyyətlərdən biri idi. O, çox dindar bir insan olub. O, yaşayışını tarlasından götürdüyü məhsulla təmin edirdi. O, həqqin-nasa çox əhəmiyyət verirdi. Hətta, tarlanı sulayanda çalışırdı ki, su israf

---

[1] "Vəsailüş-şiə", c. 13, səh. 85.
[2] "Üsuli-kafi", c 2, səh. 170.
[3] "Usuli -kafi" c 2, səh. 170.

olmasın. Oğlu mərhum Raşid deyir: Atam vücuhatdan[1] istifadə etmirdi. O, bu barədə çox ehtiyat edirdi. Bir gün anam mənə pul verdi ki, atam onu vücuhatın pulu ilə xırdalasın. Atam dedi: Bu pullar mənim deyil.[2]

## *Yeddi haqq*

İmam Sadiqdən (ə) müsəlmanların bir-birinin boynunda olan haqlarından soruşdular. İmam (ə) buyurdu:

"Müsəlmanın başqa müsəlmanın boynunda yeddi haqqı var. Hər kim onlara əməl etməsə, Allahın vilayətindən və itaətindən xaric olar. Onlar bunlardır: Onların ən asanı özün üçün bəyəndiyini onun üçün bəyənməkdir, özünə rəva bilmədiyini onun üçün də rəva bilməməkdir. Müsəlman qardaşını qəzəbləndirmə, həmişə onu razı et. Onu özünə hidayətçi və güzgü bil. Əgər müsəlman qardaşın ac olsa, sən tox olma. Əgər o susuz olsa, sən sirab olma. Əgər o paltarsız olsa, sən paltarlı olma. Əgər sənin xidmətçin varsa, amma onunki yoxdursa, xidmətçini ona göndər ki, paltarlarını yusun və yeməyini hazırlasın. Onun andını və dəvətini qəbul et. Xəstələnsə, görüşünə get. Dəfnində iştirak et. İstəyini deməmiş yerinə yetir."[3]

## *Bir dirhəm üçün yeddi yüz namaz*

Hədislərin birində belə deyilir: Qiyamətdə bəndələri elə bir yerə gətirərlər ki, hamı onu görər. Sonra nida olunar: "Hər kimin onun boynunda haqqı var, gəlsin alsın." Ən çətin zaman bir kəsin gəlib onun haqqını zay etdiyini idda etməsidir. Hər bir

---

[1] "Zəkat-xums"
[2] "Unudulmuş fəzilətlər", səh. 102.
[3] "Kəlimeyi-Teyyibə", səh. 379.

dirhəmin müqabilində ondan yeddi yüz qəbul olunmuş namaz alınar və haqq sahibinin əməl dəftərinə yazılar.[1]

## *Zəkatı tərk edənin günahı*

Zəkat verməyən kasıbların malını qarət etmiş sayılır. Hədisdə gəlmişdir ki, əgər insanlar xums və zəkat versə, cəmiyyətdə kasıb olmaz.

Peyğəmbər (s) buyurur: "Ey Əli! Hər kim bir qirat[2] qədər zəkat verməsə, həqiqi müsəlman, mömin deyil və onun ehtiramı vacib deyil."[3]

Peyğəmbər (s) buyurur: "Zəkat İslamın körpüsüdür."[4]

Peyğəmbər (s) buyurur: "Zəkat verilməyən evə Allahın rəhməti nazil olmaz."

Peyğəmbər (s) buyurub: "Bir vaxt gələr ki, mənim ümmətim dünya malına həris olar və onun hesabını (xums -zəkatı) unudarlar."[5]

İmam Sadiq (ə) buyurub: "Üç qrup oğru sayılır: Zəkatını verməyən, xanımının mehriyyəsini (onun razılığı olmadan) özünə halal bilən, birinə borcu olub, onu verməK istəməyən."[6]

"Hər kəs bir qirat qədər zəkatını verməsə, dünyadan müsəlman getməz. Bəlkə də yəhudi və xristiyan kimi dünyadan gedər."[7]

Həzrət Məhdi (ə) qiyam edəndə zəkat verməyənləri məhv edəcək.[8]

---

[1] "Əbədi nəsihətlər", səh. 203 (Məhəmməd Iştihardi).
[2] "Qıramın beşdə biri qirat adlanır".
[3] "Nəhcül-fəsahə", səh. 446.
[4] "Nəhcül -fəsahə", səh. 358.
[5] "Nəhcül-fəsahə", səh. 218.
[6] "Xisal", səh. 171.
[7] "Camiül-əxbar", səh. 202.
[8] "Xisal", səh. 187.

## *Üç şeyin, üç şeylə vacib olması*

İmam Rza (ə) buyurub: "Allah üç şeyi üç şeylə bir vacib edib: Namazı zəkatla, çünki namaz qılıb zəkat verməyənin namazı qəbul deyil. Şükürü ata-anaya təşəkkür etməklə, çünki valideynə təşəkkür etməyənin şükürü qəbul olunmaz. Təqvanı sileyi-rəhmlə, çünki sileyi-rəhm etməyənin təqvası yoxdur."

## *Cəhənnəm əqrəbinin fəryadı*

Peyğəmbər (s) buyurub: "Qiyamətdə çox böyük bir əqrəb cəhənnəmdən xaric olar və fəryad edər: "Allah və Peyğəmbərlə (s) müharibə edənlər haradadır, onları cəzalandırım?" Cəbrail ondan soruşdu: "Kim Allahla müharibə edir?" Deyər: "Şərabxorlar və ribaxorlar, namaz qılmayanlar və zəkat verməyənlər, məscidlərdə bihudə danışanlar."[1]

## *Həzrət Əbülfəzlin (ə) müsibəti*

Həzrət Əbülfəzl (ə) Bəni-Haşim cavanlarının bir-bir şəhid olduğunu görəndə qardaşı Hüseynin (ə) hüzuruna gəlib döyüşmək üçün izn istədi. Hüseyn (ə) ağlayaraq buyurdu: Abbascan! Sən mənim arxam və pənahımsan. Ərz etdi: Daha taqətim yoxdur. Həzrət buyurdu: Meydana getməmişdən əvvəl uşaqlar üçün su gətir.

Bundan sonra Abbas uşaqların xeyməsinə getdi. Onların qarınlarını nəm su tuluğlarının üstünə qoyduqlarını gördü. Uşaqlar ağlayırdılar. Abbas buyurdu: Uşaqlar, indi əminiz sizə su gətirəcək. O, düşmənə tərəf getdi və nəsihətlə onlardan su istədi. Nəsihətin onlara təsir qoymadığını görüb xeyməyə qayıtdı və su tuluğunu götürüb Fərat çayına getdi. O, dörd minlik ordunu görsə də, Fərata daxil olub onu doldurmağa

---

[1] "Camiül-əxbar", səh. 425.

başladı. Abbas tulutu sağ çiyninə salıb, xeymələrə tərəf hərəkət etdi. Yolda düşmən onu mühasirəyə aldı. O, tam gücü ilə döyüşdü. Nofəli Əzrəq adlı bir şəxs onun sağ qolunu bədənindən ayırdı. O, tuluğu sol əlinə aldı və yenə döyüşdü. Bu dəfə Zeyd ibn Vəzqa onun sol qolunu bədənindən ayırdı. Sonra başqa bir zalım onu başından yaraladı. Bu vaxt o yerə yıxıldı və belə səsləndi: Ey qardaş! Qardaşının dadına yet!

İmam Hüseyn (ə) bir şahin kimi özünü qardaşının yanına çatdırdı. Hüseyn qardaşını bu vəziyyətdə görüb onun başını dizi üstünə aldı. Sonra fəryad edərək dedi: Qardaşım, Abbas! Səndən sonra belim sındı, qardaşsız qaldım!

İmam qardaşı şəhid olana qədər onun başı üstündə ağladı.[1]

---

[1] "Nəfəsül-məhmum", səh. 177.

# İyirminci məclis

**«HALAL RUZİ»**

“Allahın verdiyi halal və pak ruzilərdən yeyin. İman gətirdiyiniz Allahdan qorxun.”[1]

Peyğəmbər (s) buyurur:

مَنْ أَحَبَّ أَنْ يُسْتَجابَ دُعَاؤُهُ فَلْيُطَيِّبْ مَطْعَمَهُ وَ مَكْسَبَهُ

“Duasının qəbul olmasını istəyən halal və pak ruzi yeməlidir.”[2]

İmam Əli (ə) buyurub:

لَوْ جَرَتِ الْأَرزاقُ بِالْأَلْبابِ وَ الْعُقُولِ لَمْ تَعِشِ الْبَهائِمُ وَ الْحُمْقىٰ

“Əgər ruzi yalnız ağılla kəsb olunsaydı, onda gərək heyvanlar və dəlilər ac qalaydılar.”[3]

Qüdsi (müqəddəs) hədislərdən birində buyurulur:

يَا أَحْمَدُ إِنَّ الْعِبادَةَ عَشَرَةُ أَجْزَاءٍ تِسْعَةٌ مِنْهَا طَلَبُ الْحَلَالِ

“Ey Əhməd! İbadət on qisimdir ki, onun doqquzu halal ruzidədir.”[4]

## *Qəbul olunmuş yetmiş həcc*

İmam Sadiq (ə) buyurub:

رَدُّ دَانِقِ حَرَامٍ يَعْدِلُ عِنْدَ اللَّهِ سَبْعِينَ حِجَّةً مَبْرُورَةً

---

[1] “Maidə” surəsi, ayə: 88.
[2] “Biharul-ənvar”, c. 90, səh. 373.
[3] “Qürərul-hikəm”, c. 1, səh. 590.
[4] “Müstədrəkül-vəsail”, c. 13, səh. 20.

“Hər kim dirhəmin altıda biri qədər haramı öz malından ayırsa, qəbul olunmuş yetmiş həccin savabına nail olar.”[1]

Imam Rza (ə) buyurub:

لَرَدُّ الْمُؤْمِنِ حَرَاماً يَعْدِلُ عِنْدَ اللَّهِ سَبْعِينَ حَجَّةً مَبْرُورَةً

“Əgər mömin haramı özündən uzaqlaşdırsa, yetmiş həccin savabına nail olar.”[2]

İmam Sadiq (ə) buyurub:

تَرْكُ لُقْمَةِ حَرَامٍ أَحَبُّ إِلَى اللَّهِ تَعَالَى مِنْ صَلَاةِ أَلْفَيْ رَكْعَةٍ تَطَوُّعاً

“Bir loğma haram tikədən keçmək iki min rəkət namazdan üstündür.”[3]

## *Şübhəli tikəni tərk etmək*

Müqəddəs Ərdəbilinin anasından soruşdular: Necə oldu belə pak və sağlam övlad dünyaya gətirdin? Dedi: Mən ona şübhəli tikə yedirtməmişəm. Həmişə dəstəmazlı halda ona süd verdim. Səy etdim ki, oğlum yaxşı uşaqlarla oynasın.[4]

## *Riba—ən pis qazanc*

Allah-təala Quranda buyurur:

فَإِنْ لَمْ تَفْعَلُوا فَأْذَنُوا بِحَرْبٍ مِنَ اللَّهِ وَ رَسُولِه

“Əgər ribanı tərk etməsəniz, elə bilin ki, Allah və Peyğəmbərlə müharibəyə qalxmısınız!”[5]

---

[1] “ Biharul-ənvar”, c. 90, səh. 373.
[2] “Müstədrəkül-vəsail”, c. 11, səh. 278.
[3] “Biharul-ənvar”, c. 90, səh. 373.
[4] “Ayineyi-ixlas” (Mərhumun həyatı)
[5] “Bəqərə” surəsi, ayə: 279.

## *Peyğəmbərin (s) sələmçilər haqda buyurduqları*

1. "Riba ilə əldə olunan bir dirhəm Allah yanında otuz altı zinadan pisdir."[1]

2. "Allah riba yeyənin qarnını riba yediyi qədər cəhənnəm odu ilə doldurar. Əgər bu yolla qazanc əldə etsə, Allah onun heç bir saleh əməlini qəbul etməz. Əgər onun yanında bir qirat (qıramın beşdə biri) riba olsa, Allah və mələkər daim ona lənət göndərər."[2]

3. "Ribaxorun qarını odla dolu olar. Ən pis qazanc ribadır. Ribaxorları, şeytan pis işlərə sürükləyir."[3]

4. "Ribaxor axırda kasıb olar."[4]

5. "Ribaxora, riba verəndə yazana və riba müamiləsində iştirak edənə Allah-təala lənət edər."[5]

6. "Ey Əli! Ribaxorun günahı yetmiş növdür. Onun yüngülü anası ilə Kəbədə zina edən kimidir."

7. "Merac gecəsində qarınları böyük evlər qədər və içində ilanlar olan insanlar gördüm. Dedim: Ey Cəbrail, onlar kimlərdir? Dedi: Onlar ribaxorlardır."[6]

## *Borc verməyin savabı*

İmam Sadiq (ə) buyurub:

مَكْتُوبٌ عَلَى بَابِ الْجَنَّةِ الصَّدَقَةُ بِعَشَرَةٍ وَ الْقَرْضُ بِثَمَانِيَةَ عَشَرَ

"Cənnətin qapısı üzərində yazılıb: Sədəqə verməyin on, borc verməyin isə on səkkiz savabı var."[1]

---

[1] "Üsuli-kafi", c. 5, səh. 144.
[2] "Məcmul-bəyan", c. 1, səh. 390.
[3] "Hədisi-merac", səh. 212.
[4] "Nəhcül-fəsahə", səh. 538.
[5] "Camiül-əxbar", səh. 405.
[6] "İqabul-əmal", c. 2, səh. 307.

## *Ühüd dağı qədər savab*

Peyğəmbər (s) buyurub: “Hər kəs din qardaşına bir dirhəm borc versə, Allah Ühüd dağı qədər ona savab verər. Hər kim din qardaşına borc versə və borcu verə bilmədiyini görüb ona fürsət versə, borcunu alana qədər elə bil mələklərlə namaz qılır. Hər kəs qardaşından borc istəsə və onun imkanı olduğu halda borc verməsə, Allah cənnəti ona haram edər.”[2] “Qiyamət günü kəbirə günahlardan sonra ən böyük günah bir şəxsin borclu ölməsi və onu qaytarmağa bir yol qoymaması olacaq.”[3]

مَنْ مَطَلَ عَلَى ذِي حَقٍّ حَقَّهُ وَ هُوَ يَقْدِرُ عَلَى أَدَاءِ حَقِّهِ فَعَلَيْهِ كُلَّ يَوْمٍ خَطِيئَةُ عَشَّارٍ

“Hər kəsin öz borcunu verməyə imkanı olsa, amma səhlənkarlıq etsə, hər gün onun üçün “əşşar”ın (zalım hakim tərəfindən rəiyyətdən xəracın onda birini alan məmur) günahı yazılar.”

## *Rüşvət küfrdür*

Peyğəmbər (s) buyurub:

اَلرّاشِي وَالْمُرتَشِي وَالْماشِي بَينَهُما مَلْعُونُونَ

“Rüşvət verən, alan və onların arasında vasitə olan məlundur.”[4]

إِيَّاكُمْ وَ الرِّشْوَةَ فَإِنَّهَا مَحْضُ الْكُفْرِ وَ لَا يَشَمُّ صَاحِبُ الرِّشْوَةِ رِيحَ الْجَنَّةِ

“Rüşvət almaqdan çəkinin. Çünki bu əməl xalis küfrdür. Rüşvət alan cənnətin iyini duymaz.”[5]

---

[1] “Mən la yəhzuruhul-fəqih”, c. 2, səh. 58.
[2] “Ləalil-əxbar”, c. 3, səh. 193.
[3] “Nəhcül-fəsahə”, səh. 598.
[4] “Camiul-əxbar”, səh. 439.
[5] “Camiul-əxbar”, səh. 440.

لَعَنَ اللّهُ الرَّاشِيَ وَ الْمُرْتَشِيَ وَ الْمَاشِيَ بَيْنَهُمَا

"Allah rüşvət verənə, alana və onlar arasında vasitə olana lənət edər."[1]

## *Təharət və ruzinin artması*

Bir kişi ruzinin azlığından Peyğəmbərə (s) şikayət edərək çarə istədikdə, Rəsulullah buyurdu:

أَدِمِ الطَّهَارَةَ يَدُمْ عَلَيْكَ الرِّزْقُ فَفَعَلَ الرَّجُلُ ذَلِكَ فَوُسِّعَ عَلَيْهِ الرِّزْقُ

"Həmişə təharətli və dəstəmazlı ol ki, ruzin artsın. O, bu sözə əməl etdi və ruzisi artdı."[2]

## *Nəyə lazım?*

Bir kişi İmam Sadiqdən (ə) onu moizə etməyini istədikdə, Həzrət buyurdu:

إِنْ كَانَ اللَّهُ تَبَارَكَ وَ تَعَالَى قَدْ تَكَفَّلَ بِالرِّزْقِ فَاهْتِمَامُكَ لِمَا ذَا وَ إِنْ كَانَ الرِّزْقُ مَقْسُوماً فَالْحِرْصُ لِمَا ذَا وَ إِنْ كَانَ الْحِسَابُ حَقّاً فَالْجَمْعُ لِمَا ذَا وَ إِنْ كَانَ الْخَلَفُ مِنَ اللَّهِ عَزَّ وَ جَلَّ حَقّاً فَالْبُخْلُ لِمَا ذَا وَ إِنْ كَانَتِ الْعُقُوبَةُ مِنَ اللَّهِ عَزَّ وَ جَلَّ النَّارَ فَالْمَعْصِيَةُ لِمَا ذَا وَ إِنْ كَانَ الْمَوْتُ حَقّاً فَالْفَرَحُ لِمَا ذَا وَ إِنْ كَانَ الْعَرْضُ عَلَى اللَّهِ عَزَّ وَ جَلَّ حَقّاً فَالْمَكْرُ لِمَا ذَا وَ إِنْ كَانَ الشَّيْطَانُ عَدُوّاً فَالْغَفْلَةُ لِمَا ذَا وَ إِنْ كَانَ الْمَمَرُّ عَلَى الصِّرَاطِ حَقّاً فَالْعُجْبُ لِمَا ذَا وَ إِنْ كَانَ كُلُّ شَيْءٍ بِقَضَاءٍ مِنَ اللَّهِ وَ قَدَرِهِ فَالْحُزْنُ لِمَا ذَا وَ إِنْ كَانَتِ الدُّنْيَا فَانِيَةً فَالطُّمَأْنِينَةُ إِلَيْهَا لِمَا ذَا

[1] "Camiül-əxbar", səh. 439.
[2] "Müstədrəkül-vəsail", c. 1, səh. 300.

“Əgər Allah ruziyə zamindirsə, bəs onu ələ gətirməkdən ötrü dərd çəkmək nəyə lazım? Ruzi bölünübsə, hərislik nəyə lazım? qiyamətdə hesab-kitab haqdırsa, mal toplamaq (haram yolla) nəyə lazımdır? Allah ehsanın əvəzini verirsə, həsəd nə üçündür? Allahın verdiyi əzab atəşdirsə, niyə günah edək? Əməllərin Allaha göstərilməsi düzdürsə, hiylə nəyə lazımdır? Əgər ölüm haqdırsa, şadlıq (günahla birlikdə) nəyə lazımdır? Əgər sirat körpüsündən keçmək haqdırsa, xudpəsəndlik nəyə lazımdır? Əgər bir şey təyin olunubsa, qəm nəyə lazım? Əgər dünya əbədi deyilsə, ona etimad nəyə lazım?”[1]

## *Varis cənnətdə, vəsiyyət edən cəhənnəmdə*

Həzrət Əli (ə) buyurub: “Qiyamətdə ən çox həsrət o kəslər üçündür ki, haramdan var-dövlət əldə edib, onu övladına vəsiyyət edər və övlad da irsi Allah yolunda ehsan edər. Allah varisi cənnətə, vəsiyyət edəni isə cəhənnəmə aparar.”[2]

## *Çobanın hikmətli sözü*

Bir alim çobanla rastlaşdı və dedi: Nə üçün elm öyrənmirsən? Dedi: Elmlərin xülasəsi beş şeydir ki, mən onları öyrənmişəm. Onlar bunlardır: 1. Yalan danışmamaq; 2. Haram yeməmək; 3. Başqalarının eybini axtarmamaq; 4. Allahda ruzi olduğu halda, bəndə qapısına getməmək; 5. Şeytana aldanmamaq, yoxsa cənnətdən uzaq düşərik.[3]

---

[1] “Xisal”, c. 2, səh. 451.
[2] “Nəhcül-bəlağə”, c. 3, səh. 374.
[3] “İbrətha dər ayineyi dastanha”, səh. 97.

## *Müslümün övladlarının müsibəti*

Müslümün şəhadətindən sonra onun oğulları—İbrahim və Məhəmməd İbn Ziyadın əmri ilə zindana salındı. Onlar bir il onun zindanında qaldılar. Bir gün kiçik qardaş gözətçiyə dedi: Məhəmmədi (s) tanıyırsan? O dedi: Bəli. O mənim peyğəmbərimdir. Dedi: Cəfər ibn Əbu Talibi tanıyırsan? Dedi: Bəli. Allah ona qanad verəcək ki, mələklərlə pərvaz etsin. Yenə soruşdu: Əlinbi (ə) tanıyırsan? Dedi: Bəli. O, Peyğəmbərin (s) əmisi oğlu və qardaşıdır. Uşaq dedi: Biz sənin peyğəmbərinin itrəti, Müslümün oğullarıyıq və indi isə sənin əlində giriftarıq. Gözətçi, onları tanıyandan sonra zindanın qapısını açıb, uşaqları azad etdi. Bu iki uşaq Kufədə bir qadının evinə pənah apardılar. Onun əri Haris İbn Ziyadın əsgərlərindən idi. O, evə gəldi və uşaqları tanıdı. Səhərisi quluna əmr etdi ki, onların başını Fərat çayının kənarında kəssin. Qulam onların Peyğəmbərin itrəti olduğunu biləndə onları öldürmədi. Haris oğluna onları öldürməyi əmr etdi. Oğlu da onları öldürmədi. Haris özü onların başını kəsmək qərarına gəldi. Müslümün uşaqları dedilər: Ey Haris! Bizi apar bazarda sat, amma öldürmə. Peyğəmbərlə düşmən olma. Haris dedi: Yox, mən gərək sizi öldürüb başınızı ibn Ziyada aparım. Dedilər: Ey Haris! Bizə möhlət ver. Namaz qılaq. Onlar namaz qıldılar. Sonra Haris onların başını kəsib ibn Ziyada apardı.İbn Ziyad bu səhnəni görəndə əmr etdi ki, Harisi həmin yerə aparıb başını kəssinlər.

# İyirmi birinci məclis

## «DÜNYA İBRƏT VƏ İMTAHAN EVİDİR»

“Əlbəttə, biz sizi qorxu, aclıq, mal azlığı, nəfslərlə və əkinə dəyən ziyanla imtahan edirik. Səbir edənlərə müjdə ver.”[1]

İmam Sadiq (ə) buyurub:

مَثَلُ الدُّنْيَا كَمَثَلِ الْحَيَّةِ لَيِّنٌ مَسُّهَا وَ السَّمُّ النَّاقِعُ فِي جَوْفِهَا يَهْوِي إِلَيْهَا الْغِرُّ الْجَاهِلُ وَ يَحْذَرُهَا ذُو اللُّبِّ الْعَاقِل

“Dünya ilan kimidir. Zahiri yumşaq və aldadıcıdır. Batini isə öldürücü zəhərlə doludur. Uşaqlar onunla oynayır. Aqillər isə ondan qaçırlar.”[2]

Əli (ə) buyurub:

مَن أسْرفَ فِي طَلَبِ الدُّنيا ماتَ فَقيِراً

“Dünyaya həris olan dünyadan kasıb gedər.”[3]

مَنْ خَدَمَ الدُّنيا اِسْتَخْدَمَتْهُ وَ مَنْ خَدَمَ اللهَ سبُحانَهُ خَدَمَتْهُ

“Hər kim dünyaya yetişmək üçün çalışsa, dünya onu özünə xadim edər. Amma hər kim bəndəlik edib dünyaya rəğbət göstərməsə, Allah dünyanı ona xadim edər.”[4]

اِنَّ الدُّنيا دارٌ أَوَّلُهَا عَنَاءٌ وَ آخِرُهَا فَنَاءٌ فِي حَلَالِهَا حِسَابٌ وَ فِي حَرَامِهَا عِقَاب

---

[1] “Bəqərə” surəsi, ayə: 155.
[2] “Biharul-ənvar”, c. 70, səh. 124.
[3] “Qurərul-hikəm”, səh. 130.
[4] “Qurərul-hikəm”, səh. 130.

“Dünya bir evdir ki, əvvəli əzab-əziyyət, axırı isə fanidir. Onun halalının hesabı, haramının isə əzabı var.”[1]

عَجِبْتُ لِمَن عَرَفَ نَفْسَهُ كَيْفَ يأنِسُ بِدارِ الْفَناءِ! لاخَيْرَ فِي لَذَّةٍ لاتَبقِي

“Özünü tanıyıb, bununla belə dünyaya ürək bağlayana təəccüb edirəm. Əbədi olmayan ləzzətdə xeyir yoxdur.”[2]

İmam Sadiq (ə) buyurur:

ثَلاَثَةَ اَشْياءٍ لَا يَنْبَغِي لِلْعَاقِلِ أَنْ يَنْسَاهُنَّ عَلَى كُلِّ حالٍ فَنَاءُ الدُّنْيَا وَ تَصَرُّفُ الْأَحْوَالِ وَ الْآفَاتُ الَّتِي لَا أَمَانَ لَهَا

“Ağıllı insan gərək üç şeyi unutmasın: 1. Dünyanın faniliyini; 2. Dünyada olan dəyişiklikləri; 3. Çarəsi olmayan çətinlikləri.”[3]

## *Dünya əhlinin nişanələri*

Allah-təala Rəsuli-Əkrəmə dünyaya bağlı olanların nişanələrini buyurdu:

يَا أَحْمَدُ أَبْغِضِ الدُّنْيَا وَ أَهْلَهَا وَ أَحِبَّ الْآخِرَةَ وَ أَهْلَهَا قَالَ يَا رَبِّ وَ مَنْ أَهْلُ الدُّنْيَا وَ مَنْ أَهْلُ الْآخِرَةِ قَالَ أَهْلُ الدُّنْيَا مَنْ كَثُرَ أَكْلُهُ وَ ضِحْكُهُ وَ نَوْمُهُ وَ غَضَبُهُ

“Ey Əhməd! Dünyaya bağlı olanları sevmə. Axirət əhlini sev. Ərz etdi: “Dünya və axirət əhli kimlərdir?” Buyurdu: “Dünya əhli çox yeyənlər, çox gülənlər, çox yatanlar və çox qəzəbli olanlardır.”[4]

Həzrət Loğman oğluna buyurdu:” Oğlum! Dünyanı axirətə sat ki, hər ikisindən qazanc əldə edəsən. Axirəti dünyaya satma ki, hər ikisində zərər edəsən.”[5]

---

[1] “Qürərul-hikəm”, səh. 127.
[2] “Qürərul-hikəm”, səh. 144.
[3] “Tühəful-uqul”, səh. 339.
[4] “Müstədrəkül-vəsail”, c. 16, səh. 212.
[5] “Müstədrəkül-vəsail”, c. 16, səh. 212.

## *Yerin sözü*

Həzrət İsa (ə) səfərlərinin birində iki nəfərin uca səslə bir-birini söydüyünü gördü. O, aralarında sülh yaratmaq üçün onların yanına getdi. Gördü onlar bir-birinə deyir: Bu yer mənimdir.Onlar hakimliyi İsanın (ə) öhdəsinə qoydular. İsa (ə) onlara dedi: Siz belə deyirsiniz. Amma görək yer nə deyir.

Dedilər: Yer nə deyir? Buyurdu: Yer deyir ki, onlar hər ikisi mənimdir. Yəni: Axırda qəbir insanı özünə çəkəcək. Ona görə də yer üstündə dava etməyə dəyməz.

## *Dünya və milçək qanadı*

Peyğəmbərin (s) Mədinədə yaşayan müridlərindən birinin xurma bağı var idi. Yığım vaxtı qulu ilə Peyğəmbərə (s) xurma göndərdi. Amma Peyğəmbərin (s) xanımlarının birində xurmanı tökmək üçün qab tapılmadı. Peyğəmbər (s) əmr etdi ki, xurmanı bərk bir yerə töksünlər. Qul bu işə çox təəccüb etdi. Peyğəmbər (s) ona buyurdu: "Ey qul! Əgər dünyanın qiyməti olsaydı, Allah milçəyin qanadı qədər də kafirlərə ondan verməzdi. Peyğəmbər (s) nübuvvətə yetişəndə şeytanın qoşunu qorxunc halda şeytanın yanına gəlib, bu hadisəni ona xəbər verdi. Şeytan dedi: Onun ümmətinin dünyaya məhəbbəti var? Dedilər: Bəli. Şeytan dedi: Narahat olmayın. Onlar bütpərəst olmasalar da, dünya pərəstdirlər. Ona görə də mən həmişə onları üç şeyə təhrik edirəm: 1. Haram yolla mal qazanmağa; 2. Onu haram yolda sərf etməyə; 3. Allahın vacibatını (xums, zəkat) verməməyə."

## *Üç talaq*

Dünya bir qadına bənzəyir ki, dünyapərəstlər onunla daimi əqd olunublar. Amma axirət aşiqləri isə onunla müvəqqəti əqd

oxuyublar. Allahın həqiqi dostları ona üç təlaq veriblər. Məsələn, Əli (ə) dünyaya deyir:

هَيْهَاتَ غُرِّي غَيْرِي لَا حَاجَةَ لِي فِيكِ قَدْ طَلَّقْتُكِ ثَلَاثاً لَا رَجْعَةَ لِي فِيها

"Ey dünya! Məndən uzaq ol. Başqalarını aldat. Mənim sənə ehtiyacım yoxdur. Sənə üç təlaq verdim ki, qayıdışı yoxdur."[1]

اَلدُّنْيا تَغُرُّ وَ تَضُرُّ وَ تَمُرُّ

"Dünya insanı məğrur edir, zərər verir və tez keçir."[2]

## *Dünya çürümüş qoza bənzəyir*

İki uşaq bir qozun üstündə bir-birləri ilə dava edirdilər. Hər biri onun sahibi olduğunu iddia edirdi. Bu zaman ariflərdən biri onların yanından keçirdi. O, uşaqlara dedi: Onu sındırın, görün içi sağlamdır. Əgər sağlam olsa, onda dava edin. Onu sındıranda qozun içinin xarab olduğunu gördülər. Bəli, dünya da belədir, çünki onun şirinlikləri fanidir. Qiymətsiz bir şeyə görə insanların bir-biri ilə dava etmələrinə dəyərmi?

## *Suyun üzündə yol getmək*

Həvarilər Həzrət İsaya (ə) dedilər: Siz necə olur ki, suyun üzündə yol gedirsiniz, amma biz gedə bilmirik?

İsa (ə) onlardan soruşdu: Dirhəm və dinarın sizin yanınızda dəyəri necədir? Dedilər: Onlar maddi dəyərin sahibidirlər.

İsa (ə) buyurdu: Mənim üçün isə kəsəklə dinarın fərqi yoxdur.[3]

İmam Kazim (ə) buyurub:

---

[1] "Nəhcül-bəlağə", səh. 638.
[2] "Şərhi Nəhcül-bəlağə", c. 20, səh. 51.
[3] "Məcmueyi-vərram", c. 1, səh. 156.

لَا تَفْرَحْ بِكَثْرَةِ الْمَالِ وَ لَا تَدَعْ ذِكْرِي عَلَى كُلِّ حَالٍ فَإِنَّ كَثْرَةَ الْمَالِ تُنْسِي الذُّنُوبَ وَ إِنَّ تَرْكَ ذِكْرِي يُقْسِي الْقُلُوبَ

"Allah-təala Həzrət Musaya (ə) buyurur: Malının çoxluğuna görə şadlanma. Heç vaxt Allahın zikrini unutma. Çünki malın çoxluğu günahların unudulmasına səbəb olur. Hər kim məni unutsa, qəlbi qəsavət bağlayar."[1]

## *Dünyanın əziyyəti və axirətin əcri*

Peyğəmbər (s) dünya çətinliklərinin savabı haqda buyurur: "Qızdırma payızda ağacın yarpaqları töküldüyü kimi, günahları məhv edir. Əgər bir şəxs bir gecə qızdırmalı olsa, Allah onun bir illik günahlarını bağışlayar."[2]

"Xəstəlik Allahın yer üzərindəki şallağıdır ki, onun vasitəsi ilə bəndələrini ədəbləndirir. Bəla, xəstəlik və qəm-qüssə dünyanın əzabıdır. Xəstəlik günahları məhv edir."[3]

## *Həzrət Əbülfəzlin (ə) müsibəti*

İmam Hüseyn (ə) qardaşının başı üstünə gələndə hələ Abbas sağ idi. Abbas dedi: Məni iki şeyə görə xeyməyə aparma, birincisi, Səkinəyə su vədəsi verdiyimə görə, ikincisi isə ordunun bayraqdarı olduğuma görə. Əgər ordu məni belə görsə onların ruhiyyəsi zəifləyər. İmam Hüseyn (ə) göz yaşlarını silən halda xeyməyə qayıtdı. Səkinə yanına gəldi və dedi: Əmimdən nə xəbər var? O bizə su gətirməyə getmişdi.Niyə tək qayıtdın? İmam ağlar halda buyurdu: Qızım! Əmini öldürdülər. Səkinənin, Zeynəbin və başqa qadınların ağlaşma səsi ucaldı. Onlar belə fəryad edirdilər: Vay qardaş, vay Abbas...

---

[1] "Biharul-ənvar", c. 71, səh. 185.
[2] "Nəhcul-fəsahə", səh. 229.
[3] "Nəhcül-fəsahə", səh. 346.

Həzrət Abbas (ə), İmam Hüseynə (ə) qarşı çox vəfalı idi. Onun vəfadarlığı düşməni də özünə cəlb etmişdi. Yezid, Abbasın vəfadarlığı haqda deyir:

**هكذا وفاء الاخ لاخيه**

"Qardaşın qardaşa vəfası belədir!"[1]

[1] "Kibriti-Əhmər", səh. 162.

# İyirmi ikinci məclis

## «TƏKƏBBÜR VƏ HƏSƏD»

“Biz cənnəti yer üzərində böyüklük, fəsad və üsyankarlıq etmək istəməyənlər üçün qərar verdik. Gözəl aqibət təqvalılarındır.”[1]

Peyğəmbər (s) buyurur:

اِنَّ الْعُجبَ لَيُحبِطُ عَمَلَ سَبعِينَ سَنَةً

“Xudpəsədlik və qürur yetmiş illik ibadəti məhv edir.”[2]

İmam Həsən (ə) buyurur:

هَلَاكُ النَّاسِ فِي ثَلَاثٍ الْكِبْرِ وَ الْحِرْصِ وَ الْحَسَدِ فَالْكِبْرُ هَلَاكُ الدِّينِ وَ بِهِ لُعِنَ إِبْلِيسُ وَ الْحِرْصُ عَدُوُّ النَّفْسِ وَ بِهِ أُخْرِجَ آدَمُ مِنَ الْجَنَّةِ وَ الْحَسَدُ رَائِدُ السُّوءِ وَ مِنْهُ قَتَلَ قَابِيلُ هَابِيلَ

“Üç şey insanları həlak edir:Təkəbbür, hərislik, həsəd və xudbinlik. Təkəbbür insanın dinini məhv edir. Necə ki, şeytan təkəbbür edib dinini məhv etdi. Hərislik Adəmin (ə) cənnətdən xaric olmasına səbəb oldu. Həsəd–başqalarının nemətlərinin məhv olunmasını arzu etməkdir. O, bədbəxtliyə səbəb olur. Həsəd Qabilin Habili öldürməsinə səbəb oldu.”[3]

İmam Sadiq (ə) buyurub:

ما مِنْ رَجُلٍ تَكَبَّرَ اَوتَجَبَّرَ اِلّا لِذِلَّةٍ وَجَدَها فِي نَفْسِهِ

---

[1] “Qəsəs” surəsi, ayə: 83.
[2] “Nəhcül-fəsahə”, səh. 131, hədis 656.
[3] “Biharul-ənvar”, c. 75, səh. 112.

“Təkəbbür edən şəxs mütləq özündə həqarət hissi etmişdir.”[1]

لَنْ يَدْخُلَ الْجَنَّةَ مَنْ فِي قَلْبِهِ مِثْقَالُ حَبَّةٍ مِنْ خَرْدَلٍ مِنْ كِبْرٍ

“Ürəyində zərrə qədər təkəbbürlük olan şəxs cənnətə daxil olmaz.”[2]

## *Məclisin başında əyləşməyin şərtləri*

İmam Sadiq (ə) buyurur:

يا هشام كان اميرالمؤمنين يقول: لَا يَجْلِسُ فِي صَدْرِ الْمَجْلِسِ إِلَّا رَجُلٌ فِيهِ ثَلَاثُ خِصَالٍ يُجِيبُ إِذَا سُئِلَ وَ يَنْطِقُ إِذَا عَجَزَ الْقَوْمُ عَنِ الْكَلَامِ وَ يُشِيرُ بِالرَّأْيِ الَّذِي فِيهِ صَلَاحُ أَهْلِهِ فَمَنْ لَمْ يَكُنْ فِيهِ شَيْءٌ مِنْهُنَّ فَجَلَسَ فَهُوَ أَحْمَقُ

“Ey Hişam! Əmirəl-möminin buyurardı: “Hər kəsdə bu üç xislət olmasa, məclisin başında əyləşə bilməz: 1. Ondan sual soruşulanda cavab versin; 2. Camaat susanda o söhbət etsin; 3. Məclis əhlinin xeyrinə olan bir nəzər verə bilsin. Hər kimdə bu şərtlər olmadan məclisin başında otursa, axmaqdır.”[3]

“Həvarilər Həzrət İsadan (ə) soruşdular: Allah-təalanı nə qəzəbləndirər? Həzrət cavab verdi: Təkəbbür və onun bəndələrini kiçik saymaq.”

## *Altı yerdə altı şey*

Allah-təala Həzrət Musaya (ə) vəhy etdi: “Altı şeyi, altı yerdə qərar verdim. Amma camaat onları başqa yerdə axtarır. Heç vaxt tapa bilməyəcək. Rahatlığı cənnətdə qərar verdim, amma camaat onu dünyada axtarır. Elmi

---

[1] “Üsuli-kafi”, c. 2, səh. 312.
[2] “Biharul-ənvar”, c. 2, səh. 141.
[3] “Tuhəfül-üqul”, səh. 410.

aclıqda qərar verdim, onu toxluqda axtarır. İzzəti gecə oyaq qalmaqda qərar verdim, camaat onu şah sarayında axtarır. Uca məqamı təzavökarlıqda qərar verdim, onu təkəbbürlükdə axtarırlar. Duanın qəbulunu halal ruzidə qərar verdim, onu səs-küydə axtarır. Ehtiyacsızlığı qənaətdə qərar verdim. Onu malın çoxluğunda axtarır. Heç vaxt tapmayacaqlar."[1]

İmam Sadiq (ə) buyurub: "Cəhənnəmdə duzəx adlı bir dərə vardır ki, öz istiliyinin çoxluğundan Allaha şikayət edər və nəfəs almaq üçün icazə istəyər. O, nəfəs alanda cəhənnəm alovlanar."[2]

## *Təkəbbürün səbəbləri*

Mümkündür ki, elm, əməl, ibadət, nəsil, gözəllik, sərvət, qüdrət, şagirdlər, tərəfdarlar, qullar və qohumlar təkəbbürlüyə səbəb olsun.

## *Məğrur pəhləvanın aqibəti*

Çox pəhləvanların belini yerə vuran məğrur pəhləvan bir gün bazarda nərə çəkərək özünü öyür. O, səmaya üz tutaraq deyir: "Ey Allah! Bütün pəhləvanların arxasını yerə vurdum. Əgər Cəbraili göndərsən, onun da arxasını yerə vuracağam." Deyilənə görə, o pəhləvan çox ağır bir xəstəliyə tutuldu. O, hətta, ayaq barmaqlarını dişləyən siçanı özündən uzaqlaşdıra bilmirdi.

Filosoflardan biri pələng dərisini atının yəhərinin üstünə atan bir cavan oğlanın təkəbbürlə yol getdiyini gördü. Filosof dedi: "Fələk bu dərini pələngin arxasında saxlamadı. Indi sənin atının belində necə saxlayacaq?"

[1] "Əl-məvaizul-ədədiyyə", səh. 309.
[2] "Üsuli-kafi", c. 4, səh. 424.

## *Təkəbbür qərq olmağa səbəb oldu*

İmam Sadiq (ə) buyurub: “İsa (ə) çox vaxt alçaqboy bir kişi ilə səfərə çıxırdı. İsa (ə) dənizə çatanda „Bismillah“ deyib suyun üzündən keçirdi. O kişi də İsa (ə) kimi tam yəqinliklə „Bismillah“ deyib suyun üzündən keçdi və özünü İsaya (ə) yetirdi. Bu vaxt o təkəbbürlük etdi və öz-özünə dedi: İsa Ruhullahdır. O, suyun üzündə yol gedir. Mən də suyun üzündə yol gedirəm. Onun məndən üstünlüyü yoxdur. O, bu fikirdə idi ki, birdən qərq oldu. O, İsadan (ə) kömək istədi. Həzrət onu xilas etdi. Sonra ondan soruşdu: Nə üçün qərq oldun? Dedi: Məndə təkəbbür yarandı. Buyurdu: Sən özün üçün məqam təsəvvür etdin ki, Allah yanında o məqama layiq deyilsən. Ona görə də öz dediyindən tövbə et.”[1]

## *Fəxr etmək həlakətə səbəb oldu*

İki nəfər Peyğəmbərin (s) yanında fəxr etdilər. Biri dedi: Mən filan böyük şəxsiyyətin oğluyam. Amma sən belə bir nəslə malik deyilsən. Peyğəmbər (s) buyurdu: Musa peyğəmbərin zamanında iki nəfər onun yanına gəlib fəxr etdilər. Biri dedi: Mən filan kəsin oğluyam. O, əcdadından doqquz nəfərin adını saydı. Musaya (ə) vəhy gəldi ki, onlara de: “Sadaladığın doqquz əcdadın cəhənnəm əhlidirlər. Sən də onların yanına gedəcəksən.”[2]

İmam Kazim (ə) buyurub:

**إِنَّ الزَّرْعَ يَنْبُتُ فِي السَّهْلِ وَ لَا يَنْبُتُ فِي الصَّفَا فَكَذَلِكَ الْحِكْمَةُ تَعْمُرُ فِي قَلْبِ الْمُتَوَاضِعِ وَ لَا تَعْمُرُ فِي قَلْبِ الْمُتَكَبِّرِ الْجَبَّارِ لِأَنَّ اللَّهَ تَعَالَى جَعَلَ التَّوَاضُعَ آلَةَ الْعَقْلِ وَ جَعَلَ التَّكَبُّرَ مِنْ آلَةِ الْجَهْل**

---

[1] “Üsuli-kafi”, c. 3, səh. 418.
[2] “Min bir tarixi hekayə”, c. 1, səh. 320.

“Toxum yumşaq yerdə bitir, bərk yerdə yox. Elm və hikmət də təvazökar insanların ürəyində meydana gəlir, təkəbbürlü və zalım insanların ürəyində yox. Çünki Allah təvazönü ağlın vasitəsi, təkəbbürü isə cəhalət qərar vermişdir.”[1]

## *Ustad Məhəmməd Təqi Cəfəridən (rəh.) bir xatirə*

İlahi insanlar elm və təqva cəhətdən böyük məqamlara yetişsələr də, özlərinin məşhurlaşmaqlarına razı olmurlar. Başqalarının onları tərifləməsini istəmirlər. Əllamə Məhəmməd Təqi Cəfəri (rəh.) nəql edir ki, Səqəz şəhərində əhli-sünnə qardaşları tərəfindən məclis təşkil olunmuşdu. Şairlər xahiş etdilər ki, mənim mədhimə yazdığı şeri oxusun. Mən iki yol arasında—onun qəlbini sındırmaq və öz mədhimi eşitmək məcburiyyətində qaldım. Mən Allahdan istədim ki, onun mədhi ilə qulaqlarımın arasında pərdə qərar versin və bu yolla onun qəlbi sınmasın. Allah şahiddir ki, mən onun şerindən bir kəlmə də eşitmədim. Həzrət İmam Baqir (ə) buyurub: “Cəhənnəmdə təkəbbürlülər üçün „Səqər “ adlı bir yer var.O, Allaha özünün istiliyinin çoxluğundan şikayət edər və nəfəs almaq istəyər. O, nəfəs alan zaman cəhənnəm alovlanar.”

Əbuzər Cumhurdan soruşdu: “Öz sahibinə rəhm etməyən bəla varmı? Dedi: O bəla təkəbbürdür.”

Şeytan əsgərlərinə dedi: “Əgər bəni-adəmə üç şeydə qalib gəlsəniz, daha qorxum yoxdur. Çünki bu vaxt onların etdikləri əməlləri Allah qəbul etməz. 1. Yaxşılığı böyük saymaq; 2. Günahı unutmaq; 3. Təkəbbür və özünü bəyənmək.”[2]

---

[1] “Min bir tarixi hekayə”, c. 1, səh. 320.
[2] “Nəsayih”, səh. 140.

## *Həsəd və xəstəlik*

İmam Əli (ə) buyurub:

صِحَّةُ الْجَسَدِ مِنْ قِلَّةِ الْحَسَدِ

"Bədənin sağlamlığı həsədin azlığındandır."[1]

İmam Sadiq (ə) buyurub:

إِنَّ الْمُؤْمِنَ يَغْبِطُ وَ لَا يَحْسُدُ وَ الْمُنَافِقُ يَحْسُدُ وَ لَا يَغْبِطُ

"Mömin nemət sahiblərinə qibtə edər, amma həsəd etməz. Münafiq isə həsəd edər, amma qibtə etməz."[2]

كَانَ رَسُولُ اللَّهِ ص يَتَعَوَّذُ فِي كُلِّ يَوْمٍ مِنْ سِتٍّ مِنَ الشَّكِّ وَ الشِّرْكِ وَ الْحَمِيَّةِ وَ الْغَضَبِ وَ الْبَغْيِ وَ الْحَسَدِ

"Peyğəmbər (s) hər gün bu altı şeydən Allaha pənah aparardı. 1. Şəkk; 2. Şirk; 3. Təəssübkeşlik; 4. Qəzəb; 5. Zülm; 6. Həsəd."[3]

## *İmam Həsənin (ə) müsibəti*

Mərhum Şeyx Əliəkbər Təbrizi deyir: Mübarək Ramazan ayı idi. Mən Təbrizdə moizə edirdim. Ayın axırına üç gün qalırdı. Mən hələ də İmam Həsəndən (ə) danışmamışdım. Həmin gecə yuxuda Həzrət Zəhranı (əh.) gördüm. Ona salam verdim. Amma xanım mənə qəmli cavab verdi. Dedim: Bibican, mən bir günah etmişəmmi? Buyurdu: Hacı Şeyx Əliəkbər! Məgər Həsən mənim oğlum deyil? Nə üçün minbərlərdə onu az yad edirsən? O, qərib və məzlum olduğuna görə belə edirsən?[4]

İmamın arvadı Cədə, Müaviyənin təhriki ilə su kuzəsinə zəhər tökdü və İmam Həsən (ə) iftar vaxtı onu içdi. Zəhər

---

[1] "Nəhcül-bəlağə", səh. 513.
[2] "Üsuli-kafi", c. 2, səh. 307.
[3] "Biharul-ənvar", c. 69, səh. 127.
[4] "Qulçine-Əhmədi", c. 2, səh. 94.

İmamda təsir qoyan vaxt həzrət Zeynəbdən bir teşt istədi. Həzrət laxtalanmış ciyərini onun içinə tökdü. Bir bacı üçün belə bir səhnəni görmək çox çətin və ağır idi. Amma Zeynəb belə müsibətləri çox görmüşdü. Babası Peyğəmbərin (s), anası Fatimənin, atası Əlinin (ə) müsibətini, xeymələrin yandırılması, kəsik başların nizələrdə şəhərdən-şəhərə gəzdirilməsini və Yezidin çubuqla imam Hüseynin (ə) mübarək dodaqlarına vurmasını görmüşdü. İmam Həsən (ə) ölüm yatağında idi. Birdən İmam Hüseyn (ə) ağlamağa başladı. İmam Həsən (ə) soruşdu: Nədən ağlayırsan? Buyurdu: Sizin halınıza ağlayıram. Nədən sizinlə belə rəftar etdilər? Buyurdu: Mən bu zəhərlə dünyadan gedirəm. Lakin siz çox ağır müsibətlərə duçar olacaqsınız. Peyğəmbərin (s) ümmətindən olduqlarını iddia edən otuz min nəfər sənin qətlinə hazır olacaq və səni öldürüb Əhli-beytini əsir edəcəklər. Bu müsibətə hamı ağlayacaq. Hətta, səhranın vəhşi heyvanları və dənizin balıqları belə. Camaat sənin müsibətlərini danışıb, təzim edəcək.[1]

[1] “Misirul-əhzan”, səh. 23.

# İyirmi üçüncü məclis

## «TƏVAZÖKARLIQ»

“Allahın bəndələri yer üzündə təvazökarlıqla gəzənlərdir. Cahillər onlara qarşı ədəbsizlik edəndə salam deyərlər.”[1]

İmam Sadiq (ə) buyurur:

مَنْ تَوَاضَعَ لِلّٰهِ رَفَعَهُ اللّٰهُ وَ مَنْ تَكَبَّرَ وَضَعَهُ اللّٰهُ

“Hər kəs Allaha xatir təvazökarlıq etsə, Allah onu uca məqamlara yetirər. Hər kim təkəbbür etsə, Allah onu alçaldar.”[2]

İmam Əli (ə) buyurub:

رَأْسُ الْعِلْمِ التَّوَاضُعُ وَ بَصَرُهُ الْبَرَاءَةُ مِنَ الْحَسَدِ وَ سَمْعُهُ الْفَهْمُ وَ لِسَانُهُ الصِّدْقُ وَ قَلْبُهُ حُسْنُ النِّيَّةِ وَ عَقْلُهُ مَعْرِفَةُ أَسْبَابِ الْأُمُورِ وَ مِنْ ثَمَرَاتِهِ التَّقْوَى وَ اجْتِنَابُ الْهَوَىٰ

“Elmin başı təvazökarlıq, gözü həsəddən qorumaq, qulağı dərk etmək, dili düz danışmaq, ürəyi pak niyyət, ağlı isə işlərin (hadisələrin) səbəblərindən agah olmaqdır. Elmin nəticəsi isə təqva və həvayi-nəfsdən uzaq olmaqdır.”[3]

Gərək təvazökarlığı gözdən öyrənək. O, özündən başqa hamını görür. İmam Rza (ə) ömrünün axırına qədər qulu ilə bir süfrədə yemək yedi.

---

[1] “Furqan” surəsi, ayə: 63.
[2] “Vəsailüş-şiə”, c. 14, səh. 516.
[3] “Biharul-ənvar”, c. 75, səh. 7.

## *Böyük şəxsiyyətlər*

İnsani fəzilət və səciyyələr baxımından uca məqam sahibləri həmişə təvazökar olmuş, özlərini daxilən heç vaxt böyük görməmiş və başqalarından üstün bilməmişlər. Necə deyərlər, daş üstə ot göyərməz. Belə insanların həyat tərzi hamıya örnək olmalıdır.

## *Əllamə Məhəmməd Təqi Cəfərinin (rəh.) təvazökarlığı*

Əllamənin 1342-ci hicri-şəmsi ilində böyük qərb filosofu Bertrand Rasellə olan münazirəsin qazetlərdən biri işıqlandırmaq istəyir. Buna görə də qəzet ağa ilə əlaqə saxlayıb, ondan iki ədəd şəklinin onlara göndərməsini istəyir. Sabahı gün ustad şəxsən özü iki şəkil götürüb redaksiyaya gedir. Dövrün hakimiyyəti ruhaniyə hörmət etmədiyinə görə, redaksiya heyəti də ustada qarşı etinasızlıq göstərir. Ustad uzun axtarışdan sonra müdirin otağını tapır. Müdir 45 dəqiqə başqa bir şəxslə söhbətdən sonra hörmətsizcəsinə ustada deyir: Nə istəyirsiniz? Məhəmməd Təqi Cəfəri deyir: Məhəmməd Təqi Cəfərinin şəkillərini gətirmişəm. Müdir şəkilləri alandan sonra deyir. Gedə bilərsiniz. Bu anda müdirin gözü şəkillərə sataşır. Ağaya deyir: Siz özünüz ağa Cəfərisiniz? Ağa deyir: Bəli. Müdir öz rəftarından xəcalət çəkir.

Ayətullah Əraki, İmam Xomeynidən on yaş böyük idi. Amma təvazökarlıqla ona buyurardı: Əssəlamu Ələykə yəbnə rəsulullah.

## *Tanınmayan şəxslərdən bir nişanə*

Bir gün "Hacı İmran"da qərargahda idim. Həmin gün günorta yeməyi toyuq idi. Ağa Mehdi Bakiri yorğun halda yeməkxanaya daxil oldu. Bizə yemək verdilər. Yeməyə başlamaq istəyəndə qardaşlardan biri Ağa Mehdiyə dedi: Ye! Acsan. Səhər də heç nə yeməmisən. Mehdi Bakiri dedi: İndi əsgərlər də səngərlərdə toyuq yeyir? O, bizim sakit qaldığımızı görüb toyuq yemədi. İki-üç qaşıq düyü yedi.

## *"Mən könüllü əsgərəm"*

Bu həqiqi İslam sərkərdəsi həmişə çiynindən əziyyət çəkirdi. Ona görə də ağır yük qaldıra bilmirdi. Bir gün anbardakı çatışmazlıqlardan xəbərdar olmaq üçün ora getdi. Anbarın rəisi Hacı Əmirullah ağsaqqal bir kişi idi. Şəhid Bakiri anbara gələndə Haçı Əmirullah səkkiz cavan əsgərlə kamyonun yükünü boşaldırdı. Hacı Əmirullah, Bakirini üzdən tanımırdı. Onun bir tərəfdə durduğunu görüb dedi: Ey cavan! Niyə kənarda dayanıb baxırsan? Gəl kömək elə. Cəbhəyə gəlmisən, gərək işləyəsən. Yadda saxla, bu gündən sonra və vaxt lazım olsa, gərək bu səkkiz nəfərə kömək edəsən. Başa düşdün, ya yox? Müharibələr görmüş bu əsgər səmimiyyətlə cavab verdi: Bəli, gözüm üstə. O, yaralı çiyni ilə çox çətinliklə də olsa, yükləri boşaltdı. Günortaya yaxın Ağa Teyyub statistikanı vermək üçün ora gəldi. Salamdan sonra Hacı Əmirullah ona dedi: Bu gün bir cavan bizə yaxşıca kömək etdi. Amma hansı bölükdə olduğunu bilmirəm. İstəyirəm gedib, Bəsirətiyə deyim ki, onu bizim bölüyə keçirtsin. Teyyub soruşdu: Hansı əsgəri deyirsən? O, Mehdini göstərdi. Teyyub tez gedib yükü onun çiynindən aldı və narahatlıqla Hacıya dedi: Heç bilirsən bu kimdir? Bu bizim komandirimizdir. Hacı Əmirullah və əsgərlər

təəccübləndilər. Şəhid Bakiri onların üzündən öpüb dedi: Mən də bir könüllü əsgərəm.

## *Həqiqi dəli*

Bir gün Peyğəmbər (s) bir neçə nəfərin bir şəxsin başına toplaşdığını gördü. Həzrət soruşdu: Bu şəxs kimdir? Dedilər: O dəlidir. Buyurdu: O, dəli deyil. Bəlkə xəstədir. Çünki həqiqi dəli o kəsdir ki, təkəbbürlə yol gedə və günah edə. Cənnətə getmək arzusu da ürəyində ola. Amma halbuki, camaat onun şərindən amanda deyil.[1]

## *Həzrət Səkinənin (əh.) müsibəti*

İmam Hüseyn (ə) vidalaşmaq üçün xeymələrə gəldi. Hamı ilə vidalaşdı. Amma elə bil Səkinə çox narahat idi və ağlayırdı. Onun ağlamağı İmamı çox narahat etdi və təsirləndirdi. İmam qızına buyurdu: "Qızım! Sənin göz yaşların ürəyimi parçalayır. Nə qədər ki, mən sağam, ağlama. O vaxt ki, məni öldürdülər, mənə əza saxlayarsan. Amma mən deyirəm: Ey imam Hüseyn! Düşmən icazə vermədi ki, Səkinə və başqa əzizlərin sizə matəm saxlasınlar." İmam Səccad (ə) buyurub: "Əgər bizdən bir nəfər ağlasaydı, nizə ilə vurardılar."[2] İmam Hüseyn (ə) buyurub: "İstəmirəm bir qızın adı Səkinə olsun və ona sillə vursunlar."[3]

---

[1] "Nəsayih", səh. 245.
[2] "Məqtəli-fəlsəfi", səh. 88.
[3] "Qızların İslamdakı məqamı", səh. 93.

# İyirmi dördüncü məclis

## «DİL NİCAT VƏ HƏLAKƏT ÜZVÜ»

“Dediyi hər sözü (yazmaq üçün) insanın yanında hazır durub gözləyən (iki mələk) vardır.”[1]

Həzrət Əli (ə) buyurur:

مَنْ كَثُرَ كَلَامُهُ كَثُرَ خَطَؤُهُ وَ مَنْ كَثُرَ خَطَؤُهُ قَلَّ حَيَاؤُهُ وَ مَنْ قَلَّ حَيَاؤُهُ قَلَّ وَرَعُهُ وَ مَنْ قَلَّ وَرَعُهُ مَاتَ قَلْبُهُ وَ مَنْ مَاتَ قَلْبُهُ دَخَلَ النَّارَ

“Çox danışanın xətaları çox olar. Həyası az olanın təqvası az olar. Təqvası az olanın qəlbi ölər. Qəlbi ölən isə cəhənnəmlik olar.”[2]

İmam Səccad (ə) buyurub:

ثَلَاثٌ مُنْجِيَاتٌ لِلْمُؤْمِنِ كَفُّ لِسَانِهِ عَنِ النَّاسِ وَ اغْتِيَابِهِمْ وَ إِشْغَالُهُ نَفْسَهُ بِمَا يَنْفَعُهُ لِآخِرَتِهِ وَ دُنْيَاهُ وَ طُولُ الْبُكَاءِ عَلَى خَطِيئَتِهِ

“Üç şey möminin nicatına səbəb olar: Dilini camaatı incitməkdən və qeybətdən qorumaq, dünyası və axirəti üçün faydalı olan işlə məşğul olmaq, günahları və xətaları üçün çoxlu ağlamaq.”[3]

---

[1] “Qaf” surəsi, ayə: 18.
[2] “Şərhi Nəhcül-bəlağə”, c. 19, səh. 264.
[3] “Biharul-ənvar”, c. 75, səh. 140.

İmam Sadiq (ə) buyurub:

لَا يَزَالُ الْعَبْدُ الْمُؤْمِنُ يُكْتَبُ مُحْسِناً مَا دَامَ سَاكِتاً فَإِذَا تَكَلَّمَ كُتِبَ مُحْسِناً أَوْ مُسِيئاً

“Mömin insan sakit qalarsa, onun üçün yaxşı əməl yazılar. Amma danışanda isə həm yaxşı əməl və həm də pis əməl yazılar.”[1]

## *Üç yaxşı əməlin tövsiyəsi*

Həzrət Əli (ə) buyurub:

إِذَا أَرَادَ اللَّهُ سُبْحَانَهُ صَلَاحَ عَبْدِهِ أَلْهَمَهُ قِلَّةَ الْكَلَامِ وَ قِلَّةَ الطَّعَامِ وَ قِلَّةَ الْمَنَامِ

“Hər zaman Allah bəndəsinin xeyrini istəsə, ona az danışmağı, az yeməyi və az yatmağı əta edər.”[2]

Bir gün Peyğəmbər (s) Məscidün-Nəbidə dili bihudə sözlərdən qorumaq haqda söhbət edirdi. Bir nəfər soruşdu. Dil də cəhənnəmə getməyə səbəb olur? Buyurdu: Məgər ondan başqa bir şey insanı cəhənnəmə aparar!

Peyğəmbər (s) buyurub:

مِنَ الْإِيمَانِ حِفْظُ اللِّسانِ

“Dili qorumaq imandandır.”[3]

---

[1] “Üsuli-kafi”, c. 2, səh. 116.
[2] “Müstədrəkül-vəsail”, c. 16, səh. 214.
[3] “Qurərul-hikəm”, səh. 214.

## *Yaxşı söz və ruzinin artması*

Peyğəmbər (s) buyurub:

طِيبُ الْكَلَامِ يَزِيدُ فِي الرِّزْقِ

"Gözəl danışıq ruzini artırar."[1]

مَنْ حَفِظَ لِسَانَهُ سَتَرَ اللَّهُ عَوْرَتَهُ

"Allah dilini qoruyan şəxsin eyblərini örtər."[2]

Höte deyir: "Danışmaq bir növ ehtiyac, amma qulaq asmaq isə məharətdir."

Sokrat deyir: "Yerli danışıb və susmaq düşüncənin əlamətidir."

## *Dörd peyğəmbərdən dörd hədis*

Həzrət Musa (ə) buyurub: "Özünə yaxşı dost seçən şəxs elə bil Tövrata əməl edib."

Həzrət Davud (ə) buyurub: "İzzəti-nəfsdən uzaqlaşan şəxs Zəbura əməl etmiş kimidir."

Həzrət İsa (ə) buyurub: "Allahın təqdirinə və qismətinə razı olan elə bil İncilə əməl edib."

Həzrət Məhəmməd (s) buyurub: "Dilin zinası bihudə danışmaqdır."

Bir hədisdə nəql olunur ki, İsa (ə)nın yanından bir donuz keçirdi. İsa (ə) ona dedi: Salamatlıqla keç! Bu vaxt Həzrətin yanındakılardan biri təəccüblə soruşdu: Ey Ruhullah! Heyvana da belə söz deyərlər? Buyurdu: Bəli! İstəyirəm dilimi yaxşı sözlərə adət etdirəm ki, pis söz danışmayım.[3]

Peyğəmbər (s) buyurub:

---

[1] "Biharul-ənvar", c. 73, səh. 318.

[2] "Müstədrəkül-vəsail", c. 19, səh. 183.

[3] "Meracus-səadət", səh. 401.

“O vaxt ki, camaat bir şəxsin pis danışmağından qorxsa, həmin şəxs cəhənnəmlik olar.”

“Əqrəb kobud danışan bir kişi idi ki, heç kəs onun dilinin zəhərindən amanda deyildi.”

“Ən yaxşı sədəqə yaxşı söz danışmaqdır. Hikmətli söz isə ən yaxşı hədiyyə hesab olunur.”[1]

İmam Baqir (ə) buyurub:

“Zarafat və çox gülmək insanın imanını və abrını məhv edər.”

İmam Sadiq (ə) buyurub:

“Dava etmə, çünki şəxsiyyətin aradan gedər. Zarafat etmə, çünki bu vaxt başqaları sənə qarşı cəsarət etməyə cürət tapır.”[2]

Həzrət Əli (ə) buyurub:

“Dili qorumaqdan yaxşı dostluq görmədim. Təqvadan yaxşı paltar, qənaətdən qiymətli mal, mehribanlıqdan yaxşı ehsan və səbirdən yaxşı yemək görmədim.”[3]

## *Böhtan günahı*

Peyğəmbər (s) buyurub: “Möminə böhtan atanın günahı (o şəxs onu bağışlamayana qədər) bağışlanmaz.”[4]

Həzrət Adəmin (ə) övladı çox idi. O, həmişə susurdu. Yalnız zəruri hallarda danışırdı. Bir gün övladları ona dedilər: Nə üçün siz bizim aramızda az danışıb, ancaq zəruri hallarda söhbət edirsiniz? Buyurdu: Çünki cənnətdən qovulanda mənə xitab olundu: “Ey Adəm! Əgər dilini bihudə sözlərdən qorusan, biz səni bir daha bu cənnətə qaytararıq.”

Həzrət Əli (ə) buyurub:

---

[1] “Nəhcul-fəsahə”, səh. 632.
[2] “Üsuli-kafi”, c. 4, səh. 488.
[3] “Nəsayih”, səh. 223.
[4] “Nəhcul-fəsahə”, səh. 308.

طُوبَى لِمَنْ كَانَ صَمْتُهُ فِكْراً وَ نَظَرُهُ عَبَراً وَ وَسِعَهُ بَيْتُهُ وَ بَكَى عَلَى خَطِيئَتِهِ وَ سَلِمَ النَّاسُ مِنْ يَدَيْهِ وَ لِسَانِهِ

"Xoş o kəsin halına ki, sükutu, fikri və baxışı ibrətdir və günahlarına görə ağlayır. Camaat onun əlindən və dilindən amandadır."[1]

## *Həzrət Zeynəbin (əh.) müsibəti*

İmam Hüseynin (ə) əhli-beyti üçün ən böyük və dözülməz müsibətlərdən biri düşmənin dil yarası və məzəmmətləri idi. Onlar əhli-beytə xarici (dindən çıxmış) və kafir deyirdilər. Bəzən onlara yeməyi sədəqə kimi verirdilər. Amma Həzrət Zeynəb (əh.) bunu qəbul etməyib buyururdu: "Bizə sədəqə haramdır." Bəzən gəlib deyirdilər: "Bu qızları əsir kimi bizə satın." Yenə də Zeynəb xanım (əh.) bu işin qarşısını alır və buyururdu: "Qoymaram qardaşım Hüseynin (ə) qızlarını kəniz etsinlər!" Bir gün İmam Zeynəlabidin (ə) bibisi Zeynəbin gecə namazını oturan halda qıldığını görüb səbəbini soruşdu. Həzrət Zeynəb (əh.) buyurdu: "Çünki bizə çox az çörək gətirirlər və mən öz payımı uşaqlara verirəm. Ona görə də ayaq üstə namaz qılmağa taqətim yoxdur."

---

[1] "Biharul-ənvar", c. 67, səh. 109.

# İyirmi beşinci məclis

## «EYİBAXTARMA VƏ XƏBƏRÇİLİK»

“(Dalda) qeybət edib, (üzdə) tənə vuran hər kəsin vay halına!”[1]

İmam Baqir (ə) buyurub:

يَجِبُ لِلْمُؤْمِنِ عَلَى الْمُؤْمِنِ أَنْ يَسْتُرَ عَلَيْهِ سَبْعِينَ كَبِيرَةً

“Mömin gərək mömin qardaşının yetmiş böyük günahını örtsün.”[2]

Əlbəttə, bu iş günahın gizlində baş verdiyi zamandır. Bundan başqa vaxtda gərək əmr be məruf və nəhy əz münkər cəhətdən öz vəzifəsinə əməl etsin.

İmam Sadiq (ə) buyurub:

أَحَبُّ إِخْوانِي إِلَيَّ مَنْ أَهْدى إِلَيَّ عُيُوبِي

“Mənim ən yaxşı qardaşlarım eyibimi mənə deyənlərdir.”[3]

### *Dörd yerdə dörd şey*

İmam Hüseyn (ə) buyurub:

إنَّ اللهَ عَزَّ وَ جَلَّ أخْفى أَرْبَعَةً فِي أَرْبَعَةٍ: أَخْفَى رِضاهُ فِي الْحَسَنَاتِ فَلا يَسْتَصغِرَنَّ أحَدٌ مِنْكُمْ حَسَنَةٌ لِأَنَّهُ لايَدْرِي فِيْمَ رِضَى اللهِ تَعَالَى وَ أَخْفَى سَخْطَهُ فِي السَّيِّئَاتِ فَلا يَسْتَصْغِرَنَّ أَحَدُكُمْ سَيِّئَةً فَإِنَّهُ لايَدْرِي فِيْمَ سُخْطُ اللهِ وَ أَخْفَى أولِيَاءَهُ فِي النَّاسِ فَلا يَسْتَصْغِرَنَّ أَحَدُكُمْ أحَدًا فَإِنَّهُ يُوْشَكُ أنْ يَكُوْنَ وَلِيًّا للهِ وَ أَخْفَى إجَابَتَهُ فِي الدُّعَاءُ فَلا يَسْتَصْغِرَنَّ أَحَدُكُمْ دَعْوَةً فَإِنَّهُ لايُدْرِي لَعَلَّ دُعَاءَهُ مُسْتَجَابٌ

---

[1] “Hüməzə” surəsi, ayə: 1.
[2] “Üsuli-kafi”, c. 2, səh. 207.
[3] “Müstədrəkul vəsail”, c. 8, səh. 329.

“Allah dörd şeyi dörd yerdə gizlətmişdir. Razılığını yaxşı işlərdə; ona görə də heç bir yaxşı işi kiçik sayma. Çünki Allahın razılığının onların hansında olduğu məlum deyil. Qəzəbini günahlarda qərar verib; bəs, heç bir günahı kiçik sayma. Allahın qəzəbinin onların hansında olduğu məlum deyil. Öz dostlarını camaatın arasında qərar verib; buna görə də heç kimi kiçik sayma. Mümkündür ki, sənin kiçik saydığın şəxs, Allahın yanında müqərrəblərdəndir. (Allahın ən əziz bəndəsi) İcabətini (duanı qəbul etmək) duada qərar verib; buna görə də heç bir duanı kiçik sayma. Çünki onlardan hansını qəbul etməsi məlum deyil. Bəlkə də insanın süstlük və tənbəlliklə etdiyi dua qəbul olunur.”[1]

Peyğəmbər (s) buyurub:

الْمُؤْمِنُ مِرْآةٌ لِأَخِيْهِ الْمُؤْمِنِ يَنْصَحُهُ إِذَا غَابَ عَنْهُ

“Mömin mömin qardaşının güzgüsüdür. O olmayanda isə onun xeyirxahıdır.”[2]

Bu oxşatmada bir neçə ibrətli mətləb var: Əgər güzgü özü çirkli olsa, başqasını aydın göstərə bilməz. Biz də minlərlə eyiblərə aludə olsaq, başqalarını kamilliyə tərəf hidayət edə bilmərik. Bəs, gərək əvvəl öz nəfsimizi paklayaq, sonra başqalarını hidayət edək. Güzgünün başqa bir xüsusiyyəti budur ki, hər kəsin eyibini onun

---

[1] “Mədinul-cəvahir”, səh. 42.
[2] “Müstədrəkul-vəsail”, c. 8, səh. 320.

özünə göstərir. Biz də gərək camaatın eyibini onlar olmayan yerdə söyləməyək. Lazım gələrsə, onun özünə deyək.

## *Üç qiymətli iş*

Cəbrail Peyğəmbərə (s) ərz etdi: “Əgər biz yer üzündə ibadət etsəydik, üç işi tərk etməzdik: 1. Müsəlmana su verməyi; 2. Ailəlilərə kömək etməyi; 3. Camaatın günah və eyiblərini örtməyi.”[1]

Peyğəmbər (s) buyurub: “Allah və qiyamət gününə iman gətirən şəxs müsəlmanı qorxutmamalıdır. Hər kim öz qardaşını bir günaha görə məzəmmət etsə, həmin şəxs o günaha mürtəkib (düçar) olmadan dünyadan getməz.”[2]

Peyğəmbər (s) buyurub: “Möminin hörməti Kəbənin hörmətindən yetmiş dəfə üstündür.”[3]

## *Xızır peyğəmbərin (ə) axırıncı vəsiyyəti*

İmam Səccad (ə) buyurub:

كانَ آخِرُ ما أَوْصى بِهِ خِضْرٌع مُوسيع أَنَّهُ قالَ: لَا تُعَيِّرَنَّ أَحَداً بِذَنْبٍ

“Xızır peyğəmbərin (ə) Musaya (ə) axırıncı vəsiyyəti bu idi: “Heç kimi günahına görə məzəmmət etmə.”[4]

Peyğəmbər (s) buyurub: “Hər kəs qardaşının eyibini görüb onu gizlədərsə, sanki, diri-diri basdırılmış qızı (cahillik dövrünün adəti) dirildən kimidir.” “Hər kəs din qardaşının eyibini örtsə, Allah da axirətdə onun eyiblərini örtər.”[5]

“Hər kəs bir kəsin pis əməlini başqalarının yanında aşkar etsə, elə bil özü o işi yerinə yetirib. Hər kim mömini etdiyi

---

[1] “Nəsayih”, səh .159.
[2] “Nəhcul-fəsahə”, səh. 595.
[3] “Meracus-səadəi”, səh. 390.
[4] “Müstədrəkül-vəsail”, c. 9, səh. 234.
[5] “Nəhcül-fəsahə”, səh. 571.

günaha görə məzəmmət etsə, özü o günaha mübtəla olmadan dünyadan getməz.”

## *Xəbərçiliyin əzabı*

Peyğəmbər (s) buyurub:

مَنْ مَشى فِي نَمِيْمَةٍ بَيْنَ اثْنَيْنِ سَلَّطَ اللَّهُ عَلَيْهِ فِي قَبْرِهِ ناراً تُحْرِقُهُ إِلى يَوْمِ الْقِيامَةِ وَ إِذَا خَرَجَ مِنْ قَبْرِهِ سَلَّطَ اللَّهُ عَلَيْهِ تِنِّيْناً أَسْوَدَ يَنْهَشُ لَحْمَهُ حَتّى يَدْخُلَ النَّارَ

“Hər kəs iki nəfərin arasında xəbərçilik etmək üçün bir addım atsa, Allah qəbirdə ona bir od hakim edər ki, qiyamətə qədər onu yandırar. Qiyamət günü qəbirdən xaric olanda Allah qara bir əjdahanı ona hakim edər ki, cəhənnəmə qədər onun ətini sancsın.” “Üç nəfər qəbir əzabından qurtulmaz; qeybət edən, xəbərçi və pakizəliyinə (burada idrar nəzərdə tutulur) əhəmiyyət verməyən şəxs.”

Bir nəfər öz qulunu satırdı. Müştəriyə xəbərdarlıq etdi ki, bunun yalnız bir eybi var. O da xəbərçiliyidir. Müştəri qulu aldı. Qul bir müddət onun evində xidmət etdi. Bir gün ağası olmayan zaman onun xanımına dedi: “Ərin səni sevmir. Başqa bir qadınla evlənmək istəyir. Bu fikirdən dönməsini istəyirsənsə, gərək onun boğazının altındakı tükündən ülgüclə kəsib mənə gətirəsən ki, mən bir dua yazım. O, sənə qarşı məhəbbət göstərsin.” Bir tərəfdən də onun ərinə gizlicə dedi: “Arvadının aşnası var. Onunla xoş gün keçirir. Hətta, səni öldürmək istəyir. Bu gün özünü yuxuluğa vur ki, həqiqəti özün görəsən.” Gecə kişi özünü yuxuya vurdu. Qadın məqsədinə çatmaq üçün ülgüclə yatağa gəldi. Kişi birdən qalxdı və arvadını vurub öldürdü. Qadının qohumları da kişini öldürdülər.

Bəli, xəbərçiliyin beləcə acı aqibəti vardır.[1]

---

[1] “Səfinətül-bihar”, c. səh. 613.

## *İmam Hüseynin (ə) müsibəti*

Bir şəxs İmam Sadiqin (ə) xidmətinə yetişdi. İmam ona buyurdu: Sənin dünən keçirtdiyin gecə Qədir gecəsindən üstündür. Dedi: Yəbnə Rəsulullah! Mən bütün gecəni yatmışam. İmam buyurdu: Sən gecə yarısı qalxdın və su içdin. Sonra imam Hüseynin (ə) susuzluğunu xatırladın. Bunun fəziləti Qədir gecəsindən üstündür.

İbn Abbas deyir: "Peyğəmbərin (s) xidmətinə yetişdim. Bu vaxt Həzrət sağ dizinin üstündə Hüseyni (ə), sol dizində isə oğlu İbrahimi oturtmuşdu. Peyğəmbər (s) bəzən Hüseyni (ə), bəzən isə İbrahimi öpürdü. Bu vaxt Cəbrail nazil oldu və dedi: "Allah sənə salam göndərir və buyurur: "Bunlardan biri vəfat etməlidir. İstədiyini seç. Peyğəmbər (s) onlara baxıb, ağladı və buyurdu: "Əgər İbrahim vəfat etsə, yalnız mən qəmgin olacağam. Amma Hüseyn dünyadan getsə məndən əlavə Fatimə və Əli də qəmgin olacaqlar. Ona görə də gərək Hüseyn sağ qalsın. Ondan üç gün sonra İbrahim vəfat etdi."[1]

İmam Hüseyn (ə) axırıncı dəfə ailəsi ilə vidalaşanda onlardan köhnə köynək istədi ki, paltarının altından geyinsin. Çünki şəhid olandan sonra bədəni lüt olmasın. Amma o köhnə köynəyi də İmamın bədənindən çıxartdılar. Həzrətin başını kəsəndən sonra düşmən Zəhra balasının paltarlarını və qılıncını qarət etmək üçün hücum etdi. Bununla kifayətlənmədilər. Ömər ibn Səd fəryad etdi ki, kim hazırdı Hüseynin bədəninin üstündə at çapsın? On nəfər (Tarixə əsasən, onlar hamısı zinadan dünyaya gələnlər idi) bu işi öhdəsinə götürdü. Onlar bu işdən sonra mükafat almaq üçün ibn Ziyadın yanına getdilər.[2]

---

[1] "Musirul-əhzan", səh. 21.
[2] "Suqnameyi-Kərbəla", səh. 250.

# İyirmi altıncı məclis

**«QEYBƏTİN GÜNAHI»**

“Bir-birinizin qeybətini etməyin, sizdən biriniz ölmüş qardaşının ətini yeməyə hazır olarmı?! Bu sizdə ikrah hissi oyadar. Allahdan qorxun. Həqiqətən, Allah tövbələri qəbul edəndir, rəhmlidir.”[1]

Allahın rəsulu buyurub:

يا أَباذَرُ: إِيّاكَ وَ الْغِيْبَةَ فَإِنَّ الْغِيبَةَ أَشَدُّ مِنَ الزِّنا قُلْتُ: يَا رَسُولَ اللَّهِ وَ لِمَ ذَالِكَ بِأَبِي أَنْتَ وَ أُمِّيْ؟ قَالَ: لِأَنَّ الرَّجُلَ يَزْنِي وَ يَتُوبُ إِلَى اللَّهِ فَيَتُوبُ اللَّهُ عَلَيْهِ وَ الْغِيْبَةُ لا تُغْفَرُ حَتّىٰ يَغْفِرَها صاحِبُها

“Ey Əbuzər! Qeybətdən uzaq ol. Çünki qeybət etmək zinadan şiddətlidir. Dedim: Ya Rəsulullah! Atam-anam sənə fəda olsun. Nə üçün? Buyurdu: Çünki zinakar tövbə edir. Allah da onun günahını bağışlayır. Amma qeybət edənin günahı qeybətini etdiyi onu bağışlamayınca, bağışlanmaz.”[2]

## *Qeybət və qəbir əzabı*

Peyğəmbər (s) buyurub:

عَذابُ الْقَبْرِ ثَلاثَةُ أَثْلاثٍ، ثُلْثٌ لِلْغِيْبَةِ

[1] “Hücurat” surəsi, ayə: 12.
[2] “Müstədrəkul-vəsail”, c. 9, səh. 150.

“Qəbir əzabı üç şeyə görədir. Onun üçdə biri qeybətə şamildir.”[1]

سِبَابُ الْمُؤْمِنِ فُسُوقٌ وَ قِتَالُهُ كُفْرٌ وَ أَكَلُ لَحْمِهِ مَعْصِيَةٌ وَ حُرْمَةُ مَالِهِ كَحُرْمَةِ دَمِهِ

“Mömini söymək fisq, onu öldürmək küfrdür. Onun ətini yemək (qeybətini etmək) günahdır. Onun malının ehtiramı, canının və qanının ehtiramı kimidir.”[2]

## *Qeybəti tərk etmək və on min namaz*

Peyğəmbər (s) buyurub:

تُرْكُ الْغِيْبَةِ أَحَبُّ اِلَي اللهِ عَزَّ وَجَلَّ مِنْ عَشْرَةِ آلافِ رَكْعَةٍ طَوْعًا

“Müsəlmanın qeybətini etməmək on min rəkət namazdan üstündür.”[3]

İmam Əli (ə) buyurub:

اَلْغَيْبَةُ جُهْدُ الْعَاجِزِ

“Qeybət aciz insanın son cəhdidir.”[4]

Peyğəmbər (s) buyurub:

مَنْ اغْتِيْبَ عِنْدَهُ أَخُوْهُ الْمُسْلِمُ فَاسْتَطَاعَ نَصْرَهُ فَلَمْ يَنْصُرْهُ خَذَلَهُ اللهُ فِي الدُّنْيَا وَ الآخِرَةِ

“Əgər bir şəxsin yanında müsəlman qardaşının qeybəti edilsə və həmin şəxs qeybəti ediləni müdafiə edə bildiyi halda, onu müdafiə etməsə, Allah dünyada və axirətdə həmin şəxsi xar edər.”[5]

---

[1] “Müstədrəkül-vəsail”, c. 9, səh. 117.
[2] “Üsuli-kafi”, c. 2, səh. 359.
[3] “Müstədrəkül-vəsail”, c. 9, səh. 117.
[4] “Qürərul-hikəm”, səh. 293.
[5] “Vəsailuş-şiə”, c. 12, səh. 291.

## *Qeybət münafiqin işidir*

İmam Əli (ə) buyurub: “Möminlərin və müsəlmanların qeybətini etmək cəhənnəm itlərinin qidasıdır. Din qardaşının arxasınca qeybət etmək münafiqlərin nişanələrindəndir. Qeybət edən ən alçaq insan sayılır.”[1]

Peyğəmbər (s) buyurub:

مَنْ رَدَّ عَنْ عِرْضِ اَخِيْهِ وَجَبَتْ لَهُ الْجَنَّةُ اَلْبَتَّةَ

“Hər kəs din qardaşının abrını hifz etsə, cənnət ona vacib olar.”[2]

Əli (ə) buyurub: “Allah yanında ən pis insanlar qeybət edənlərdir. Başqasının sözünü sənin yanında deyən şəxs, sənin də sözünü başqasının yanında deyər. Qeybət eşidən də qeybət edən kimi günahkardır. Qeybət etməyə adət edənin günahı böyükdür.”[3]

İmam Baqir (ə) buyurub: “Əgər bir şəxsin yanında mömin qardaşının qeybəti olunsa və o, qardaşını müdafiə etsə, Allah dünya və axirətdə ona yar olar. Amma qardaşını müdafiə etməsə, Allah dünya və axirətdə onu xar edər.”[4]

İmam Sadiq (ə) buyurub:

سُئِلَ رَسُولُ اللهِ ص: ما كَفَّارَةُ الاِغْتِيابِ؟ قَالَ: فَتَسْتَغْفِرُاللهَ لِمَنْ اغْتَبْتَهُ كُلَّمَا ذَكَرْتَهُ

“Peyğəmbərdən (s) soruşdular: Qeybətin kəffarəsi nədir? Buyurdu: Qeybətini etdiyin şəxsi xatırlayanda, onun üçün istiğfar et.”[5]

---

[1] “Qürərul-hikəm”, səh. 221.
[2] “Vəsailüş-şiə”, c. 12, səh. 293.
[3] “Qürərul-hikəm”, səh. 221.
[4] “ Səvabul-əmal” (Şeyx Səduq), səh. 541.
[5] “Ləalil-əxbar”, c. 5, səh. 233.

## *Qeybətin kəffarəsi*

Peyğəmbər (s) buyurub:

مَنِ اغْتابَ أَخاهُ الْمُسْلِمَ بَطَلَ صَوْمُهُ وَ نُقِضَ وُضُوئُهُ فَإِنْ ماتَ وَ هُوَ كَذلِكَ ماتَ وَ هُوَ مُسْتَحِلٌّ لِما حَرَّمَ اللَّهُ

“Hər kim müsəlmanın qeybətini etsə, onun orucu və namazı batildir. Əgər bu halda ölsə, Allahın haramını halal sayan halda ölmüş kimidir.”[1]

Əlbəttə, bu hədis şəri cəhətdən qeybət edənin oruc və namazının batil olduğunu demir. Amma bu əməlin savabı və əcri yoxdur.

Paskal deyir: “Əgər insanlar bir-birinin qeybətini etdiklərini bilsəydilər, dünyada hətta dörd nəfər dost qalmazdı.”

## *Yalan*

Peyğəmbər (s) buyurub:

اِنَّ الْكِذْبَ لَيُكْتُبُ حتَّى الْكِذْبَةِ

“Həqiqətən, yalan çox kiçik olsa da, insanın əməl dəftərində yazılır.”[2]

İmam Kazim (s) buyurub:

أداءُ الأَمَانَةِ وَ الصِّدْقُ يَجْلِبانِ الرِّزْقَ، وَ الْخِيانَةُ وَ الْكِذْبُ يَجْلِبَانِ الْفَقْرَ وَ النِّفاقَ

“Əmanətdarlıq və düz danışmaq ruzinin artmasına səbəb olar. Xəyanət və yalan isə kasıbçılığa və nifaqa səbəb olar.”[3]

“Nə vaxt mömin üzürsüz səbəbdən yalan danışsa, yetmiş min mələk onu lənətləyər. Onun ağzından pis iy gələr. Allah yalan deyənin əməl dəftərinə yetmiş zinanın günahını yazar ki, onların ən asanı ana ilə edilən zinadır.”[4]

---

[1] “İqabul-əmal”, səh. 608.
[2] “Səfinətül-bihar”, c. 2, səh. 473.
[3] “Tühəful-uqul”, səh. 402.
[4] “Meracus-səadət”, səh. 216.

İnsanların arasında tez-tez belə bir şey müşahidə olunur. Birinə yemək təklif edəndə o, onu yemək istəsə də, utandığı üçün yalandan deyir ki, istəmirəm. Bu da yalan və günahdır.

İmam Sadiq (ə) oğlu İsmail ilə bir məclisə getmişdi. İmamın dostlarından biri daxil oldu və salam verdi. İmam qalxanda, o da qalxdı və İmamı evə qədər müşayiət etdi. İsmail evdə İmamdan soruşdu: Nə üçün onu (dildə də olsa) evə dəvət etmədin? Həzrət buyurdu: Oğlum, istəmirəm Allah-təala məni istəməyə-istəməyə bir işi əncam verənlərdən hesab etsin."[1]

Müctəhidlərdən birinin xadimi onun tərəfindən qohumlarından birini əldən vermiş bir nəfərə başsağlığı məktubu yazdı. Məktubda deyilirdi: "Mən bu hadisədən çox narahat oldum." Müctəhid bunu görüb dedi: Məktubdakı bu cümlə yalandı. Çünki mən bu müsibətdən çox narahat olmadım. Ona görə də göstəriş verdi ki, onu silsinlər.

İmam Baqir (ə) buyurub: "Yalan danışmaq imanı zay edər."[2]

İmam Əli (ə) buyurub: "Doğru danışmaq imanın başı və insanın zinətidir."

Hədisdə gəlmişdir ki, Peyğəmbəri (s) bir nəfər qonaq çağırdı. Həmin evdə uşaq ağlamağa başladı. Anası onu sakitləşdirmək üçün uşağa dedi: Ağlama, sənə xurma verəcəyəm. Həzrət öz elmi-qeybi ilə dedi: Ey xanım! Evdə xurma olmadığı halda niyə yalandan ona xurma vəd verirsən? Mənim dinimdə yalan danışmaq caiz deyil. Hətta uşaqlara belə.

## *Əli Əsgərin (ə) müsibəti*

İmam Hüseyn (ə) xeyməyə gəldi. Əli Əsgər çox susuz idi. Anasının da südü yox idi. Həzrət su almaq üçün onunla düşmənə tərəf getdi. Amma Hərmələ oxla nişan alıb Əli

---

[1] "Böyük günahlar", səh. 287.
[2] "Üsuli-kafi", c. səh. 339.

Əsgərin boğazını parçaladı. Həzrət ovcunu onun qanı ilə doldurub səmaya səpdi.[1]

Deyilənə görə, Əli Əsgər ömrünün axır dəqiqələrində atasının üzünə təbəssüm etdi.O, bəlkə də demək istəyirdi, çox şadam ki, mən də Kərbəla şəhidlərindən hesab oluram. Ya da demək istəyirdi, yaxşı oldu ki, şəhadət şərbətini içdim. "Çünki Şimrin silləsinə dözə bilmərəm."

Əli Əsgərin anası Rübab „Aşura inqilabından sonra" çölə çıxmırdı. Qureyşin böyükləri ona elçilik edəndə də o, qəbul etmədi. Rübab qəm-qüssədən o qədər ağladı ki, vəfat etdi.[2]

İmam Hüseyn (ə) əhli-beyti narahat etməmək üçün Əli Əsgəri xeymələrin arxasında qılıncı ilə qazdığı qəbirdə dəfn etdi. Bəlkə İmam bu əməli ilə demək istəyirdi ki, bu altı aylıq körpənin atların ayaqları altında qalmağa taqəti yoxdur.

---

[1] "Musirul-əhzan", səh. 70.
[2] "Müntəhul-amal", c. 1, səh. 325.

# İyirmi yeddinci məclis

**«KASIBLARA YARDIM»**

“Onların mallarında kasıb və məhrumlar üçün bir haqq nəzərdə tutulmuşdur.”[1]

Peyğəmbər (s) buyurub:

**اَبْغُونِي الضُّعَفاءَ فَاِنَّما تُرْزَقُونَ وتُنْصَرُونَ بِضُعَفائِكُمْ**

“Zəifləri mənim yanıma gətirin. Çünki siz onların bərəkətinə ruzi yeyirsiniz və kömək olunursunuz.”[2]

İmam Kazim (ə) buyurub:

**مَنْ لَمْ يَسْتَطِعْ أَنْ يَصِلَنا فَلْيَصِلْ فُقَراءَ شيعَتِنا**

“Bizə qarşı məhəbbət və yaxşılıq edə bilməyən şəxs, bizim fəqirlərimizə kömək və yaxşılıq edə bilməz.”[3]

## *Yetmiş min mələyin istiğfarı*

İmam Sadiq (ə) buyurub:

**مَنْ كَسي احداً مِنْ فُقَراءِ الْمُسْلِمينَ ثَوْباً مِنْ عَرْيٍ أوْ أعانَهُ شَيئاً مِمّا يَفُوتُهُ مِنْ مَعيشَةٍ وَكَّل اللهُ عَزَّوَجَلَّ بِهِ سَبْعَةَ آلافِ مَلَكٍ مِنَ الْمَلائِكَةِ يَسْتَغْفِرونَ لِكُلِّ ذَنْبٍ عَمَلَهُ اِلي أنْ يَنْفَخَ فِي الصُّورِ**

“Hər kəs müsəlman kasıblarından birinə ehtiyacı olan paltarı versə ya da yaşayışını təmin etsə, Allah yetmiş min mələyə əmr verər ki, qiyamət gününə qədər onun hər bir günahı üçün istiğfar etsin.”[4]

---

[1] “Zariyat” surəsi, ayə: 19.
[2] “Nəhcul-fəsahə”, səh. 4, hədis 20.
[3] “Biharul-ənvar”, c. 71, səh. 311.
[4] “Üsuli-kafi”, c. 1, səh. 204.

Peyğəmbər (s) buyurub:

مَنْ واسيَ الْفَقيرَ مِنْ مالِهِ وَ أنصَفَ النّاسَ مِنْ نَفْسِهِ فَذالِكَ الْمُؤْمِنُ حَقّاً

"Kasıba mal cəhətdən kömək edən və camaatla insaflı rəftar edən şəxs həqiqi mömindir."[1]

İmam Sadiq (ə) buyurub:

مَنْ كانَتْ لَهُ دارٌ فَاحْتاجَ مُؤْمِنٌ اِلي سُكْناها فَمَنَعَهُ اِيّاها قالَ اللهُ عَزَّوَجَلَّ: يَا مَلاَئِكَتِي أبْخَلَ عَبْدي عَليَ عَبديِ بِسُكْنَي الدَّارِ الدُّنْيَا وَعِزَّتِي وَ جَلاَلِي لاَ يَسْكُنُ جِنَانِي أبَداً

"Hər kəsin evi olsa (ona ehtiyacı olmasa) və bir möminin evə ehtiyacı varsa, birini mömine verməsə, Allah mələklərinə buyurar: "İzzətimə və cəlalıma and olsun! O, bəndəmə paxıllıq edib ona dünyada ev vermədiyinə görə onu heç vaxt cənnətdə sakin etməyəcəyəm."[2]

Həzrət Əli (ə) buyurub:

مَنْ أيْقَنَ بِالْخَلَفِ جادَ بِالْعَطِيَّةِ

"Əgər insan əmin olsa ki, Allah ona etdiyi yaxşılıqların əvəzini verəcək, yaxşılıq və ehsandan çəkinməz."[3]

İmam Sadiq (ə) buyurub:

يَأْتي يَوْمَ الْقِيامَةِ شَيْءٌ مِثْلُ الْكُبَّةِ فَيَدْفَعُ فِي ظَهْرِ الْمُؤْمِنِ فَيُدْخِلُهُ الْجَنَّةَ فَيُقَالُ: هَذَا الْبِرُّ

"Qiyamətdə oxa və gülləyə bənzər bir şey arxadan ona dəyər və onu sürətlə cənnətə aparar. Ona deyərlər: "Bu sənin yaxşı əməllərinə görədir."[4]

مَنْ أشْبَعَ مُؤْمِناً وَجَبَ لَهُ الْجَنَّةُ

---

1 "Üsuli-kafi", c. 2, səh. 147.
2 "Üsuli-kafi", c. 2, səh. 367.
3 "Nəhcul-bəlağə", səh. 494.
4 "Üsuli-kafi", c. 2, səh. 169.

“Mömini doyuran şəxsə cənnət vacib olar.”[1]

Həzrət Əli (ə) buyurub: “Hər kəs mehribanlıqla yetimin başına əl çəksə, onun əlinin altında olan tüklərin sayı qədər həmin şəxsin əməl dəftərinə savab yazılar.”[2]

مِنَ الايْمَانِ حُسْنُ الْخُلْقِ وَ اِطْعامُ الطَّعَامِ

“Yaxşı əxlaq və yemək vermək imandandır.”[3]

## *Edilməyən əməlin savabı*

İmam Sadiq (ə) buyurub:

اِنَّ العَبْدَ الْمُؤمِنَ الْفَقِيرَ لَيَقُولُ: يَا رَبَّ اُرْزُقْنِي حَتَّيَ أفْعَلُ كَذَا وَ كَذَا مِنَ البِرِّ وَ وُجُوهُ الْخَيْرِ فَاِذا عَلِمَ اللهُ عَزَّوَجَلَّ ذالِكَ مَنْهُ يَصْدُقُ نِيَّتُهُ كَتَبَ اللهُ لَهُ مِنَ الاَجْرِ مِثْلَ مَا يَكْتُبُ لَهُ لَوْ عَمَلَهُ اِنَّ اللهَ واسِعٌ كَرِيمٌ

“Əgər fəqir mömin bəndə “İlahi! Mənə çoxlu ruzi və imkan ver ki, yaxşı işlər görüm”—deyərsə, Allah onun bu xalis niyyətinə görə arzu etdiyi yaxşı əməlin savabını onun əməl dəftərinə yazar.”[4]

İmam Kazim (ə) buyurub: “Alim Allah buyurur: “Mən varlını şərafətinə görə varlı etmədim. Və kasıbı zəlilliyinə görə kasıb etmədim. Bəlkə, varlıları kasıbların vasitəsi ilə imtahan etdim. Əgər kasıblar olmasaydı, varlılar cənnətə layiq olmazdı.”[5]

Hədisdə gəlmişdir ki, qiyamətdə zahidlər və abidlər Allahdan üzr istəyərlər. Amma Allah kasıblardan üzr istəyər və buyurar: “Ey bəndəm! Sənə dünya malı vermədim. Dünya sənin üçün azdı. Sənin məqamın çox ucadır. Kasıblıq−insanı

---

[1] “Biharul-ənvar”, c. 71, səh. 369.
[2] “Səvabul-əmal”, səh. 429.
[3] “Biharul-ənvar”, c. 71, səh. 365.
[4] “Üsuli-kafi”, c. 2, səh. 85.
[5] “Üsuli-kafi”, c. 3, səh. 364.

imtahan etmək üçün bir əmanətdir. Ona düçar olan və gizlədən şəxs elə bil ibadət edir.”

## *Qabaqcadan olunan ehsan*

Bir gün Əli (ə) kasıblar üçün bir az xurma göndərmək istədi. Bir nəfər Həzrətə dedi: Ya Əli! Onlar sizdən xurma istəməyib. Bununla belə onlara xurma göndərirsiniz? Buyurdu: Allah sənin kimiləri möminlərin arasında çoxaltmasın. Mən istəyirəm öz malımdan ehsan edim. Sən niyə paxıllıq edirsən?! Əgər istəyəndən sonra xurma göndərsəm, xəcalət çəkərlər. Ona görə də istəməmişdən qabaq xurma göndərirəm.

İmam Kazim (ə) buyurub: “Allah-təala buyurur: Əgər kasıblar olmasaydı, varlılar cənnətə getməzdilər.”[1]

İmam Səccad (ə) bir dilənçini görüb buyurur: “Afərin o kəsə ki, mənim azuqəmi cənnətə aparır.”[2]

İmam Sadiq (ə) buyurub: “Kasıb möminlər varlılardan qırx min il əvvəl cənnətə gedəcəklər.”

Peyğəmbər (s) buyurub: “Nə vaxt kasıb və varlı “Sübhənallahi, vəlhəmdulillahi və la ilahə illəllahu vallahu əkbər”—desə, varlının savabı kasıbın savabı qədər olmaz, hətta varlı Allaha xatir on min dirhəm ehsan etsə də. İlahi, məni kasıblarla məhşur et.” “Varlılar qiyamət günü deyərlər: Kaş, dünyada gücüm çatdığı qədər dünya malından istifadə edəydim.”

## *Daimi həcc*

Abdullah ibn Mübarək adlı bir şəxs əlli il ərzində iyirmi beş dəfə həccə getmişdir. Səfərlərin birində, yemək üçün ölü quşu təmizləyən bir qadınla rastlaşdı. Onun yanına gedib soruşdu:

---

[1] “Meracus-səadə”, səh. 271-275.
[2] “Kəliməyi-təyyibə”, səh. 373.

Ey xanım! Bu ölmüş quşu təmizləyirsən? Qadın dedi: Bu sualın cavabının sənin üçün heç bir faydası olmaz. Abdullah israr etdi. Qadın dedi: Mən seyidəm və dörd qızım var. Ərim öləndən sonra çox pis vəziyyətdə yaşayırıq. Bu gün dörd gündür ki, yemək yemirik. Mən artıq əlacsızam. Ona görə də ölü yeməyi yemək bizə halaldır. Abdullah deyir ki, öz-özümə dedim: Vay olsun sənə! Niyə bu qızıl fürsəti əldən verirsən? Bütün pullarımı ona verdim və həccə getmədim. Hacılar ziyarətdən qayıdandan sonra məni həcdə gördüklərini dedilər. Mən təəccüb etdim. Onlar məni necə həcdə görə bilərlər? Sonra yuxuda Peyğəmbəri (s) gördüm. Həzrət mənə buyurdu: "Abdullah! Mənim övladlarıma kömək etdiyinə görə Allahdan istədim ki, bir mələk yaratsın. O mələk sənin surətində qiyamətə qədər hər il sənin yerinə həcc ziyarətini yerinə yetirəcək və onun savabı sənin əməl dəftərində yazılacaq."

Peyğəmbər (s) buyurub: "Ümmətim sədəqə verməyəndə xəstəlik çoxalar. Qohumlara verilən sədəqənin savabı neçə bərabərdir."[1]

Həzrət Salmana dedilər: Siz imanın yüksək dərəcəsinə necə yetişmisiniz? Buyurdu: Üç əməli yerinə yetirdiyimə görə: 1. Alimlərə hörmət; 2. Kasıblara hörmət; 3. Həmişə Mövla Əlinin (ə) istəyini yerinə yetirməyə çalışdım.

## *"Vay olsun sənə!"*

İmam Sadiqin (ə) səhabələrindən biri Hüseyn ibn Əbul-Əla təxminən iyirmi beş dostu ilə həccə getdi. O, hər gün öz pulu ilə bir qoyun alıb dostlarına ehsan edirdi. Həccdən sonra Hüseyn Mədinədə İmamın(ə) xidmətinə yetişdi. Hüseyn deyir: İmam (ə) salamımın cavabını verəndən sonra buyurdu: Vay olsun sənə! Sən möminləri xar etdin. Dedim: Ağa, mən nə etmişəm? Buyurdu: Eşitmişəm ki, səfərdə hər gün bir qoyun

---

[1] "Nəhcul-fəsahə", səh. 128.

alıb onlara yemək verirdin. Dedim: Allah şahiddir ki, mən bu işi Allaha xatir etmişəm. Buyurdu: Bilirəm. Amma onların arasında sən etdiyini etmək istəyənlər var idi. Amma pulları yox idi. Onlar xəcalət çəkirdilər. Sən onları bu işinlə təhqir etmisən. Ey Hüseyn! Allah yanında möminin hörməti yerlərdən, göylərdən, dağlardan və bütün yaranışdan böyükdür, hətta Kəbədən də!

Kərbəla hadisəsindən sonra İmam Səccad (ə) Bəni-Əsəd qəbiləsi ilə birlikdə şəhidləri dəfn etdilər. Onlar İmam Hüseynin (ə) çiynində köhnə bir yara gördülər. Səbəbini soruşanda Səccad (ə) buyurdu: "Bu kisələrin təsirindəndir. Atam o kisələri Mədinədəki kasıbların, yetimlərin və dul qadınların evinə aparırdı."[1]

## *İmam Hüseynin (ə) müsibəti*

Yezidin qoşunu otuz min nəfər idi. Onlar İmam Hüseynə (ə) yetmiş iki yara vurmuşdular. Həzrət bir az istirahət etmək istədi. Birdən düşmən İmamın (ə) mübarək alnını yaraladı. Həzrət istədi ki, köynəyini qaldırıb alnının qanını silsin. Birdən üç şöbəli bir ox Həzrətin sinəsinə dəydi.

[1] "Mənaqib" (ibn Şəhraşub), c. 2, səh. 66.

# İyirmi səkkizinci məclis

## «NEMƏTLƏRİN ŞÜKRÜ»

"Allah buyurdu ki, əgər nemətlərin şükrünü etsəniz, nemətinizi artıraram. Əgər nemətə küfr etsəniz, sizi şiddətli bir əzaba düçar edərəm."[1]

İmam Səccad (ə) buyurub:

نِعْمَةٌ لاَ تُشْكَرُ كَسَيِّئَةٍ لاَ تُغْفَرُ

"Şükrü edilməyən nemət, bağışlanmayan günah kimidir."[2]

İmam Sadiq (ə) buyurub:

ثَلاَثٌ لاَ يَضُرُّ مَعَهُنَّ شيْءٌ اَلدُّعَاءُ عِنْدَ الْكَرْبِ وَ الاِسْتِغْفَارُ عِنْدَ الذَّنْبِ وَ الشُّكْرُ عِنْدَ النَّعْمَةِ

"Üç şeylə insana zərər yetişməz. Sıxıntıda dua etmək, günah edəndən sonra tövbə etmək, nemətin şükrünü yerinə yetirmək."[3]

شُكْرُ النِّعْمَةِ اجْتِنَابُ الْمَحَارِمِ وَ تَمَامُ الشُّكْرِ قَوْلُ الرَّجُلِ الْحَمْدُ لِلَّهِ رَبِّ الْعَالَمِينَ

"Nemətin şükrünü etmək, günahdan uzaqlaşmaqdır. Tamam şəkildə şükür etmək "Əlhəmdu lillahi rəbbil-aləmin"— deməkdir."

### *"Şükür" səcdəsi*

Peyğəmbər (s) səfərlərinin birində dəvəsinə minərkən qəfildən düşüb beş dəfə səcdə etdi. Orada olanlar bunun səbəbini soruşdular. Həzrət buyurdu: "Cəbrail beş şeyi mənə

---

1 "İbrahim" surəsi, ayə: 7.
2 "Səfinətül-bihar", c. 1, səh. 700.
3 "Üsuli-kafi", c. 2, səh. 95.

müjdə verib. Mən də onların hər biri üçün bir səcdə yerinə yetirirəm.

Bu hədisin oxşarı İmam Kazim (ə) haqda da nəql olunmuşdur. Həzrətdən bunun səbəbini soruşanda buyurdu: "Allahın mənə verdiyi nemətləri xatırladım. Onların şükrünü yerinə yetirmək istədim."[1]

İmam Kazim (ə) buyurub: "Mən hər gün beş min dəfə istiğfar edirəm."[2]

İmam Əli (ə) buyurub: "Qüdrətin zəkatı insafdır. Gözəlliyin zəkatı iffətli olmaqdır. Qələbənin zəkatı yaxşılıq və güzəşt etməkdir. Asanlıq və rahatlığın zəkatı qonşulara yaxşılıq etmək və qohumlarla görüşməkdir. Sağlamlığın zəkatı Allaha itaətdə çalışmaqdır. Şücaətin zəkatı Allah yolunda cihad etməkdir. Elmin zəkatı onu təhqiqatçılara bağışlamaqdır. Gözün zəkatı dünyaya ibrətlə baxıb şəhvətə göz yummaqdır. Qulağın zəkatı elm, hikmət və Quran eşitməkdir. Nemətlərin zəkatı Allah bəndələrinə yaxşılıq etməkdir. Məqamın zəkatı başqalarına şəfaət etməkdir. Bədənin zəkatı oruc tutmaqdır."[3]

İmam Baqir (ə) buyurub:

لَا وَ اللَّهِ مَا أَرَادَ اللَّهُ تَعَالَى مِنَ النَّاسِ إِلَّا خَصْلَتَيْنِ أَنْ يُقِرُّوا لَهُ بِالنِّعَمِ فَيَزِيدَهُمْ وَ بِالذُّنُوبِ فَيَغْفِرَهَا لَهُمْ

"Allaha and olsun! Allah insanlardan iki xislətdən başqa bir şey istəməmişdir: 1. Nemətləri etiraf etmək, ki, Allah onları artırsın; 2. Günahları etiraf etmək ki, Allah onları bağışlasın."[4]

---

[1] "Üsuli-kafi", c. 2, səh. 98.
[2] "Biharul-ənvar", c. 48, səh. 119.
[3] "Mizanul-hikmət", c. 4, səh. 226.
[4] "Üsuli-kafi", c. 4, səh. 185.

İmam Sadiq (ə) buyurub:

وَ مَا عَبْدٌ أَنْعَمَ اللَّهُ عَلَيْهِ نِعْمَةً فَعَرَفَ أَنَّهَا مِنْ عِنْدِ اللَّهِ إِلَّا غَفَرَ اللَّهُ لَهُ قَبْلَ أَنْ يَحْمَدَهُ

"Elə bir bəndə yoxdur ki, Allah ona nemət verməsin. Və bəndə onu Allahdan bilsin. Allah da onu nemətə şükür etdiyindən bağışlasın."[1]

## *Nemətə qarşı küfr və qıtlıq*

Biz gərək nemətlərə şükür edək və onları lazımlı yerdə xərcləyək. İnsanın həyatında çox mühüm rolu olan nemətlərdən biri də çörəkdir. İmamlarımız həmişə bizə çörəyə hörmət etməyi tövsiyə ediblər. Peyğəmbər (s) buyurub: "Çörəyə hörmət edin." Bu haqda bir hekayə nəql edir: Həzrət Danyal (ə) ilahi peyğəmbərlərdən biri idi. O, bir gün körpünü təmizləməklə məşğul olan bir fəhlənin yanından keçirdi. Hörmət əlaməti olaraq fəhləyə bir tikə çörək verdi. Amma o təşəkkür əvəzinə çörəyi bir tərəfə atıb, dedi: Sən mənə elə bir şey verirsən ki, bizim yanımızda qiyməti yoxdur. Biz onunla oynayırıq. Həzrət Danyal (ə) bu hadisəni görəndə əllərini göyə qaldırıb buyurdu: İlahi! Bu insanlar çörəyə hörmət etmirlər. Sən onun qiymətini bunlara bildir. Onun duası qəbul oldu. Allah göyə əmr etdi, yağış yağmasın və yerə əmr etdi ki, öz bərəkətini onlardan alsın. Buna görə də onlar qıtlığa düçar oldular. Onlar aclıqdan öz uşaqlarının ətini yeyirdilər. Hətta, bir qadın başqa bir qadına dedi: Bu gün mənim övladımı yeyək, sabah isə sənin övladını. İkinci qadının övladına növbə çatanda o, vədəsindən boyun qaçırtdı. Onlar dava etdilər. Qadınlar bu çətinliyi həll etmək üçün Danyala (ə) müraciət etdilər. Danyal (ə) bu hadisədən çox qəmləndi və Allaha dua etdi ki, öz lütf və rəhmətini yenidən onlara göndərsin. Allah

---

[1] "Üsuli-kafi", c. 4, səh. 159.

həzrətin duasını qəbul etdi. Camaat da nemətə şükür etmədiklərinə görə tövbə etdi."[1]

## *Həzrət Zəhranın (əh.) müsibəti*

Həzrət Zəhra (əh.) Əliyə (ə) belə vəsiyyət etdi: "Öləndən sonra məni qüsl-kəfəndən sonra gecə dəfn et. Xilafətini qəsb edənlər mənim dəfnimdə iştirak etməsinlər. Səni Allaha tapşırıram."[2]

Həzrət Zəhra (əh.) vəfatına az qalmış belə dua etdi: "Ilahi! Fatiməyə əzablardan nicat ver. Tezliklə məni atamla qovuşdur."

Əli (ə) xanımın vafat etdiyini görəndə nə hala qaldı. Bir neçə kiçik uşağı olan bir kişi üçün xanımını itirmək çox çətindir. O da Zəhra (əh.) kimi bir xanım ki, dünya qadınlarının xanımı idi. Bəli, əhd sındıran camaat Peyğəmbərin (s) vəfatından sonra Fədəki qəsb etdilər. Cəbrailin icazəsiz daxil olmadığı Fatimənin (əh.) evinin qapısını yandırdılar və üzünə sillə vurdular. Bətnindəki, Möhsünü öldürdülər. Əlinin (ə) boynuna ip salıb məscidə apardılar. Zəhra (əh.) vilayəti və imaməti müdafiə etmək istəyəndə düşmənin şallağı ilə üzləşdi. Səlim ibn Qeys deyir ki, bir gün Əli (ə) buyurdu: Xəlifənin Qonfuzdan vergi almamağının səbəbini bilirsənmi? Dedim: Yox. Buyurdu: Çünki o, xəlifənin əmri ilə məni müdafiə edəndə Fatiməni (əh.) şallağla vurdu.[3]

---

[1] "Üsuli-kafi", c. 6, səh. 303.
[2] "Müstədrəkül-vəsail", c. 2, səh. 291.
[3] "Əsrari-Ali Muhəmməd", səh. 674.

# İyirmi doqquzuncu məclis

**«DUA»**

"Məni çağırın ki, sizi qəbul edim. Mənim ibadətimdən boyun qaçıranlar tezliklə cəhənnəmə daxil olacaqlar."[1]

İmam Baqir (ə) buyurub:

مَا مِنْ شَيْءٍ أَفْضَلَ عِنْدَ اللّٰهِ عَزَّ وَ جَلَّ مِنْ أَنْ يُسْئَلَ وَ يُطْلَبَ مِمَّا عِنْدَهُ

"Allah yanında bəndəsinin ondan öz hacətini istəməsindən qiymətli bir şey yoxdur."[2]

İmam Sadiq (ə) buyurub:

مَنْ أُعْطِيَ أَرْبَعاً لَمْ يُحْرَمْ أَرْبَعاً مَنْ أُعْطِيَ الدُّعَاءَ لَمْ يُحْرَمِ الْإِجَابَةَ وَ مَنْ أُعْطِيَ الِاسْتِغْفَارَ لَمْ يُحْرَمِ التَّوْبَةَ وَ مَنْ أُعْطِيَ الشُّكْرَ لَمْ يُحْرَمِ الزِّيَادَةَ وَ مَنْ أُعْطِيَ الصَّبْرَ لَمْ يُحْرَمِ الْأَجْرَ

"Hər kim dörd şeyə sahib olsa, dörd şeydən məhrum olmaz. 1. Dua edən onun qəbul olmasından məhrum olmaz; 2. İstiğfar edən tövbədən məhrum olmaz; 3. Nemətə şükür edən onun artmasından məhrum olmaz; 4. Səbir edən səbir edənlərin savabından məhrum olmaz."[3]

Peyğəmbər (s) buyurub:

لَيْسَ شَيْءٌ أَسْرَعَ إِجَابَةً مِنْ دَعْوَةِ غَائِبٍ لِغَائِبٍ

"Ən tez qəbul olan dua, qaib insanın qaib olan bir şəxs üçün (yaxud qürbətdə olanın qürbətdə olan üçün) etdiyi duadır."[4]

İmam Rza (ə) buyurub:

دَعْوَةُ الْعَبْدِ سِرّاً دَعْوَةً وَاحِدَةً تَعْدِلُ سَبْعِينَ دَعْوَةً عَلَانِيَةً

"Gizlində edilən dua, yetmiş aşkarda olunan duaya bərabərdir."[1]

---

[1] "Ğafir" surəsi, ayə: 60.
[2] "Üsuli-kafi", c. 4, səh. 210.
[3] "Üsuli-kafi", c. 4, səh. 210.
[4] "Nəvadiri-Ravəndi", səh. 6.

Peyğəmbər (s) buyurub:

يُرَدُّ دُعاءٌ أَوَّلُهُ بِسْمِ اللَّهِ الرَّحْمٰنِ الرَّحِيمِ

“Əvvəlində “Bismillahir-rəhmanir-rəhim” olan dua geri qaytarılmaz.”[2]

ثَلَاثُ دَعَوَاتٍ مُسْتَجَابَاتٌ لَا شَكَّ فِيهِنَّ دَعْوَةُ الْمَظْلُومِ وَ دَعْوَةُ الْمُسَافِرِ وَ دَعْوَةُ الْوَالِدِ عَلَى وَلَدِهِ

“Üç nəfərin duası mütləq qəbul olunur: 1. Məzlumun duası; 2. Müsafirin duası; 3. Atanın oğul üçün etdiyi dua.[3]

İncildə belə buyurulur:

إِذَا قَلَّ الدُّعَاءُ نَزَلَ الْبَلَاءُ

“Dualar azaldıqda bəla nazil olar.”[4]

Peyğəmbər (s) buyurub:

إِذَا فَرَغَ الْعَبْدُ مِنَ الصَّلَاةِ وَ لَمْ يَسْأَلِ اللَّهَ تَعَالَى حَاجَةً يَقُولُ اللَّهُ تَعَالَى لِمَلَائِكَتِهِ انْظُرُوا إِلَى عَبْدِي فَقَدْ أَدَّى فَرِيضَتِي وَ لَمْ يَسْأَلْ حَاجَتَهُ مِنِّي كَأَنَّهُ قَدِ اسْتَغْنَى عَنِّي خُذُوا صَلَاتَهُ فَاضْرِبُوا بِهَا وَجْهَهُ

“Əgər bir şəxs namazdan sonra Allahdan bir şey istəməsə, Allah mələklərə buyurar: “Bəndəmə baxın,

---

[1] “Nəvadiri-Ravəndi”, səh. 266.
[2] “Biharul-ənvar”, c. 93, səh. 313.
[3] “Müstədrəkül-vəsail”, c. 5, səh. 256.
[4] “Müstədrəkül-vəsail”, c. 8, səh. 360.

vacibatı yerinə yetirdi. Amma məndən heç nə istəmədi. Elə bil mənə ehtiyacı yoxdur. Onun namazını götürüb, üzünə vurun!”[1]

## *Duanın qəbul olmasının səbəbləri*

Allah-təala bir hədisi-qüdsidə buyurur:

فَمِنْكَ الدُعَاءُ وَ عَلَيَّ الإِجَابَةُ فَلا تَحْتَجِبْ عَنِّي دَعْوَةً إلا دَعْوَةً آكلِ الحْرَام

“Səndən dua etmək, məndən qəbul etmək. Yalnız haram yeyən şəxsin duası qəbul olmaz.”[2]

Duanın qəbul olmasına mane olan səbəblərdən biri haram tikənin qarına getməsidir. Rəvayətlərdə deyilir ki, bir tikə haram yeyənin qırx gün duası qəbul olmaz və səmimi dua halını ondan alar.

Peyğəmbər (s) buyurub:

إن اللهَ لا يَقْبَلُ دُعاءً عَنْ قَلْبٍ غافِلٍ

“Allah qafil kəsin duasını qəbul etməz.”

Duanın qəbul olmamasının səbəblərindən biri də insanın Allahdan istədiyi şeyin onun xeyirinə olmamasıdır. Nəql edirlər ki, bir oğru bir ilan oğurladı və nadanlıq üzündən onu qənimət saydı. Həmin ilan onu çaldı və oğru öldü. İlanın sahibi oğrunun cəsədini görəndə onu tanıdı və dedi: “O ilan mənim idi ki, onu yoxluq dənizinə göndərdi. Bir halda ki, ilanım itəndə çox narahat oldum. Allahdan ilanın mənə qayıtmasını istədim. İndi Allaha şükür edirəm ki, duamı qəbul etmədi. Mən güman edirdim ki, duamın qəbul olmamasının mənə zərəri var. Amma indi görürəm ki, mənim xeyrimə imiş.”

Peyğəmbər (s) buyurub:

أرْبَعَةٌ لا تُرَدُّ لَهُمْ دَعْوَةٌ وَ تُفْتَحُ لَهُمْ أبْوابُ السَّماءِ وَ تَصيرُ إلَى الْعَرْشَ: دُعاءُ الوالِدِ لِوَلَدِهِ، وَ الْمَظْلُومِ عَلى مَنْ ظَلَمَهُ وَ الْمُعْتَمِرِ حَتّى يَرْجِعَ وَ الصّائِمِ حَتّى يَفْطُرَ

---

[1] “Müstədrəkül-vəsail”, c. 5, səh. 29.
[2] “İddətud-dai”, səh. 128.

“Dörd nəfərin duası rədd olunmaz, onlar üçün səmanın qapıları açılar və onların duası Allahın ərşinə gedər: 1. Atanın övladı üçün etdiyi dua; 2. Məzlumun zalıma qarşı etdiyi dua; 3. Kəbəni ziyarət edənin qayıdana qədər etdiyi dua; 4. Oruc tutanın iftar edənə qədər etdiyi dua.”[1]

## *İmam Hüseynin (ə) müsibəti*

Zülcənah yəhəri dağılmış və kəkili qana bulanmış halda xeymələrə tərəf gəldi. Səkinə atı bu halda görəndə fəryad çəkdi: “Vay Məhəmməd! Vay qərib! Vay Hüseyn! Vay Səccad!” Hamı xeymədən çölə çıxdı və Zülcənahı dövrəyə aldılar. Hər kəs bir söz dedi. Biri dedi: “Ey at, nə üçün atamı apardın, amma qaytarmadın?” Başqa birisi dedi: Nə üçün bədənin qanlıdır. Qardaşıma nə olub?” Səkinə dedi: “Atam gedəndə susuz idi. Görəsən su verdilər, yoxsa onu susuz şəhid etdilər?” Bu qadın və uşaq Hüseyni (ə) axtarırdılar. Birdən Həzrətin qətlgahda uzandığını gördülər. Şimr də onun sinəsinin üstündə oturaraq qılıncı Hüseynin (ə) boğazına qoyub istəyirdi Həzrətin başını kəssin.

---

[1] “Ləalil-əxbar”, c. 5, səh. 175.

# Otuzuncu məclis

## «SƏBİRLİLƏRİN MƏQAMI (1)»

“Allaha və Onun peyğəmbərinə itaət edin. Bir-birinizlə çəkişməyin, yoxsa qorxub zəifləyər və gücdən düşərsiniz. Səbir edin, çünki Allah səbir edənlərlədir.”[1]

Həzrət Əli (ə) buyurub:

لا يُنْعَمُ بِنَعيمِ الآخِرَةِ إلاّ مَنْ صَبَرَ عَلى بَلاءِ الدُّنْيا

“Axirət nemətlərinə yalnız dünyanın çətinlikləri və imtahanlarının qarşısında səbir edən şəxs sahib olar.”[2]

Peyğəmbər (s) buyurub:

اَلصَّبْرُ عَلَى الطّاعَةِ جِهادٌ وَ أفْضَلُ مِنْ عِبادَةِ سِتّينَ سَنَةً

“İbadət və itaətlərin qarşısında edilən səbir cihada bərabərdir və altmış il ibadətdən üstündür.”[3]

ثَلاثٌ مَنْ كُنَّ فيهِ فَقَدْ تَمَّتْ مُرُوئَتُهُ مَنْ تَفَقَّهَ فِي دينِهِ وَ اقْتَصَدَ فِي مَعيشَتِهِ وَ صَبَرَ عَلَى النّائِبَةِ إذا نابَتْهُ

“Hər kəs üç şeyə malik olsa, comədliyi kamil olar: 1. Din tanıyan olsa; 2. Yaşayışda ifrat-təfrit etməyən şəxs; 3. Çətinliklərin qarşısında səbir edən.”[4]

---

[1] “Ənfal” surəsi, ayə: 46.
[2] “Qurərul-hikəm”, səh. 284.
[3] “Biharul-ənvar”, c. 73, səh. 16.
[4] “Mədinul-cəvahir”, səh. 53.

Həzrət Əli (ə) buyurur:

إِنْ لَمْ تَكُنْ حَلِيماً فَتَحَلَّمْ فَإِنَّهُ قَلَّ مَنْ تَشَبَّهَ بِقَوْمٍ إِلَّا وَ أَوْشَكَ أَنْ يَكُونَ مِنْهُمْ

“Əgər səbirli deyilsənsə, zahirdə özünü səbirli göstər ki, onlardan olasan. Çünki hər kim özünü bir tayfaya oxşatsa, onlardan olar.”[1]

İmam Kazim (ə) buyurub:

مَثَلُ الْمُؤْمِنِ مَثَلُ كَفَّتَيِ الْمِيزَانِ كُلَّمَا زِيدَ فِي إِيمَانِهِ زِيدَ فِي بَلَائِهِ لِيَلْقَى اللَّهَ عَزَّ وَ جَلَّ وَ لَا خَطِيئَةَ لَهُ

“Mömin tərəzinin iki gözünə oxşayır. İmanı kamilləşdikcə bəlaları və çətinlikləri artar ki, Allahın hüzuruna gedəndə əməl dəftərində heç bir xəta və günah olmasın.”[2]

## *Əyyubun (ə) səbiri*

Əyyub (ə) dözülməz bəlaların və müsibətlərin qarşısında səbir etdi və Allahın imtahanından yaxşı çıxdı. O, Allahın çətin imtahanlarına düçar olmamışdan qabaq qırx il müxtəlif nemətlərdən istifadə etdi. Hər gün min nəfərə ehsan edirdi. Onun əkin sahələri o qədər çox idi ki, insanlar və heyvanlar azad surətdə bu tarlalardan istifadə edirdilər. Onun dəvələrinin dörd yüz bələdçisi var idi. Bir gün Cəbrail nazil oldu və dedi: “Ey Əyyub! Nemətinin və rifahının vaxtı bitdi. İndi çətinlik və imtahan vaxtıdır. Hazır ol!” Həzrət Əyyub (ə) bəlanın nazil olmasını gözləyirdi. Bir gün sübh namazından sonra çobanın fəryadı onun diqqətini özünə cəlb etdi. Həzrət Əyyub (ə) soruşdu: Nə olub? O dedi: Sel gəlib, bütün sürüləri məhv etdi.

---

[1] “Nəhcul-bəlağə”, səh. 506.
[2] “Biharul-ənvar”, c. 67, səh. 243.

Bu vaxt bələdçi gəlib dedi: İldırım bütün dəvələri öldürdü. Elə bu vaxt bağban qorxan halda gəlib dedi: Ağaclara bəla gəldi və onların hamısı məhv oldu. Həzrət Əyyub (ə) bu xoşagəlməz sözləri eşidəndə Allahın zikrinə məşğul oldu. Birdən oğlanlarının müəllimi gəlib dəhşətli bir xəbər verdi. O dedi: On iki oğlun böyük qardaşlarının qonağı idilər. Birdən evin tavanı üçdu və onların hamısı vəfat etdilər. Bu vaxt həzrət Əyyub (ə) səcdə etdi və dedi: "İlahi! Sənin bəndən olduğuma görə deməк hər şeyə sahibəm." Bundan sonra Allah onu ağır bir xəstəliyə düçar etdi. Bir bu hadisə onun qəlbini yaraladı. Bəni İsrail rahiblərindən bəziləri onun görüşünə gəldilər. Onlar Əyyubə (ə) dedilər: Məgər günah etmişdinmi ki, belə bir əzaba düçar oldun? Buyurdu: Allaha and olsun ki, heç bir pis iş görməmişəm. Həmişə Allaha itaət etmişəm. Yeməyimi yetimlərlə və kasıblarla bölüşmüşəm.[1]

## *Çiy ət və naqis insan*

Bir alim demişdir: "Əgər çiy ət odla bişməsə, süfrəyə gəlməyə layiq deyil. Həmçinin, naqis insan bəlaların və müsibətlərin odu ilə bişməsə, Allahın büsatına layiq deyil. Ona görə də Allahın dostlarının bəlası çox olur. Çünki hədislərdə deyilir:

أَشَدُّ النَّاسِ بَلَاءً الْأَنْبِيَاءُ ثُمَّ الَّذِينَ يَلُونَهُمْ ثُمَّ الْأَمْثَلُ فَالْأَمْثَلُ

"Dünyada ən çətin bəlalar peyğəmbərlərin, sonra vəsilərin, sonra yuxarıdan aşağıya doğru onlara tabe olanların başına gəlir."[2]

Səbbah ibn Səyabət deyir: "İmam Sadiqdən (ə) soruşdum ki, insana nazil olan bəla yalnız günaha görədirmi? Buyurdu: Xeyr. Allahın insanın naləsini eşitməsi və onun üçün xeyir

---

[1] "Meracus-səadət", səh. 740.
[2] "Vəsailüş-şiə", c. 3, səh. 263.

əməl yazması və günahını bağışlaması üçün də bəla nazil olur. Bu qiyamət üçün zəxirədir."[1]

İbn Cumhurdan soruşdular: Çətinliyə düşəndə nə edirsən? Dedi: Dörd şeyə etimad edirəm ki, işlər asanlaşsın. Öz-özümə deyirəm ki, qəzavü-qədərin çarəsi yoxdur. Səbir etməyim nə edim. Bundan da pis ola bilərdi. Bəlkə fərəc yaxındadır.

## *İbrətli hekayə*

İmam Sadiq (ə) buyurub: "Bir kişi Peyğəmbəri (s) evinə qonaq çağırdı. Peyğəmbər (s) kişinin evinə daxil olanda bir toyuq onun diqqətini özünə cəlb etdi. Toyuq divarın üstündə yumurtlamışdı və yumurta diyirlənib düşmək istəyirdi ki, birdən divarda olan mıxın üstündə dayandı. Ev sahibi Peyğəmbərə (s) dedi: Yumurtanın sınmamasına təəccüb edirsiniz? Ey Allahın Rəsulu, mən indiyə qədər heç bir bəlaya düçar olmamışam. Bu vaxt Peyğəmbər (s) evinə qayıtdı. Onun yeməyindən yemədi və buyurdu: Hər kim bu dünyada bəlaya dözməsə, Allahın rəhməti ona şamil olmaz."[2]

İmam Sadiq (ə) buyurub: "Çox günahı olan bəndənin yaxşı əməli də olmaz ki, günahlarının kəffarəsi olsun. Allah-təala belə bir şəxsin günahlarını bağışlamaq istəsə, onu qəm-qüssəyə düçar edər."[3]

Peyğəmbər (s) buyurub:

مَنْ صَبَرَ عَلَى مُصِيبَةٍ فَلَهُ مِنَ الْأَجْرِ بِوَزْنِ جِبَالِ الدُّنْيَا

"Hər kəs müsibətlərin qarşısında səbir etsə, Allah dünyanın dağlarının ağırlığı qədər ona savab verər."[4]

İmam Sadiq (ə) buyurub:

لَوْ يَعْلَمُ الْمُؤْمِنُ مَا لَهُ فِي الْمَصَائِبِ مِنَ الْأَجْرِ لَتَمَنَّى أَنْ يُقْرَضَ بِالْمَقَارِيضِ

---

[1] "Müstədrəkül-vəsail", c. 2, səh. 62.
[2] "Müstədrəkül-vəsail", c. 2, səh. 434.
[3] "Üsuli-kafi", c. 3, səh. 355.
[4] "Üsuli-kafi", c. 4, səh. 178.

"Əgər mömin bilsəydi, dünyanın müsibətlərinə görə axirətdə ona necə savablar veriləcək, onda arzu edərdi ki, bədənini qayçı ilə tikə-tikə etsinlər."[1]

## *Həzrət Müslümün (ə) müsibəti*

Əvvəl Müslimlə qırx mindən çox adam beyət etdi. Amma ibn Ziyadın hədələməsi və tamahlandırmasının nəticəsində onunla on nəfər qaldı. Müslim (ə) məscidə namaza gələndə o on nəfər də onu tərk etdi. Müslim tək-tənha məsciddən xaric oldu və Kufənin küçələrində dolanmağa başladı.

Həzrət gəlib bir qarının evinə çatdı və dedi: Ey xanım! Mənə bir az su ver. Qarı su gətirdi və Müslim içdi. Qarı gördü ki, o, çaşqın halda dayanıb getmir. Dedi: Niyə getmirsən? Həzrət özünü tanıtdırdı. Qarı onun imam Hüseynin (ə) elçisi olduğunu biləndə onu hörmətlə evinə dəvət etdi və ona yemək gətirdi. Amma Müslim (ə) yemədi. Həzrət gecə ibadətlə məşğul idi. Sübh qarı dəstəmaz üçün ona su gətirəndə soruşdu: Nə üçün gecə yatmadın? Buyurdu: Bir az yatdım və yuxuda əmim Əlini (ə) gördüm. O mənə buyurdu: "Tələs, tez yanımıza gəl! Elə bil bu gecə mənim axırıncı gecəmdir. Sübh namazından sonra qarının oğlu Bilalın satqınlığı nəticəsində evi mühasirəyə alıb, Müslimi (ə) tutdular və ibn Ziyadın sarayına apardılar. İbn Ziyad onun məntiqli sözlərini eşidəndən sonra qətlinə fərman verdi. Həzrəti sarayın damında şəhid etdilər.[2]

---

[1] "Üsuli-kafi", c. 22, səh. 434.
[2] "İrşadın-tərcüməsi", c. 2, səh. 61.

# Otuz birinci məclis

## «SƏBİRLİLƏRİN MƏQAMI (2)»

"Ey iman gətirənlər! Səbir və namazla Allahdan kömək diləyin.Çünki Allah səbir edənlərlədir."[1]

Peyğəmbər (s) buyurub:

ثَلاثٌ مَنْ كُنَّ فيهِ جَمَعَ اللهُ فيهِ خَيْرَ الدُّنْيا وَ الْآخِرَةِ: أَلرِّضاءُ بِالْقَضاءِ وَ الصَّبْرُ عِنْدَ الْبَلاءِ وَ الدُّعاءُ عِنْدَ الشِّدَّةِ وَ الرَّخاءِ

"Hər kəsdə üç şey olsa, dünya və axirətini qazanar: Qəzavi-qədərə razı olsa, bəlanın qarşısında səbir etsə, çətinlikdə və asudəlikdə duanı tərk etməsə."[2]

Həzrət Əli (ə) buyurub:

ثَلاثٌ مَنْ كُنَّ فيهِ كَمُلَ إِيمانُهُ العَقْلُ وَ الْحِلْمُ وَ الْعِلْمُ

"Hər kəsdə üç keyfiyyət olsa, imanı kamil olar: 1. ağıl; 2. səbir; 3. elm."[3]

### *Min şəhidin savabı*

İmam Sadiq (ə) buyurub:

مَنِ ابْتُلِيَ مِنَ الْمُؤْمِنِينَ بِبَلَاءٍ فَصَبَرَ عَلَيْهِ كَانَ لَهُ مِثْلُ أَجْرِ أَلْفِ شَهِيدٍ

"Əgər mömin bəlaya düçar olsa və səbir etsə, min şəhidin savabı onun əməl dəftərində yazılar."

İmam Səccad (ə) buyurub:

---

[1] "Bəqərə" surəsi, ayə: 153.
[2] "Biharul-ənvar", c. 68, səh. 156.
[3] "Qürərul-hikəm", səh. 88.

إِذَا جَمَعَ اللَّهُ الْأَوَّلِينَ وَ الْآخِرِينَ يُنَادِي مُنَادٍ أَيْنَ الصَّابِرُونَ لِيَدْخُلُوا الْجَنَّةَ بِغَيْرِ حِسَابٍ

"Qiyamətdə insanlar bir yerə cəm olanda carçı fəryad edər: Səbir edənlər hardadırlar? Onlar sorğusuz cənnətə daxil olacaqlar." [1] "Kamilliyin əlaməti beş şeydir: 1. Bihudə danışmamaq; 2. Mübahisədən uzaq olmaq; 3. Dözümlü olmaq; 4. İşlərdə səbirli olmaq; 5. Xoş rəftar."[2]

İmam Sadiq (ə) buyurub:

وَلَدٌ وَاحِدٌ يُقَدِّمُهُ الرَّجُلُ أَفْضَلُ مِنْ سَبْعِينَ وَلَداً يَبْقَوْنَ بَعْدَهُ يُدْرِكُونَ الْقَائِمَع

"Övladlarından birini itirənin (səbirli olsa) əcri, ondan sonra qalaraq İmam Zamanın (ə) hüzurunda olan yetmiş övladının savabından üstündür."[3]

Peyğəmbər (s) buyurub: "Səbirli şəxs peyğəmbər kimidir."[4] "Səbir imanın yarısıdır."[5] "İman iki qismdir: Səbir və şükür."[6]

## *Əziyyətə dözmək kamala doğru addım*

Allah-təala Həzrət Davud (ə)-a belə vəhy etdi: "Ovsun qızı Xəlladənin yanına get, onu cənnətlə müjdələ və ona xəbər ver ki, cənnətdə səninlə bir məqamda olacaq. Həzrət Davud (ə) onun evinə getdi. O, Həzrəti görəndə dedi: Mənim haqqımda bir şeymi nazil olub? Buyurdu: Bəli. Xəllada dedi: O nədir? Buyurdu: Allah mənə vəhy etdi ki, sən cənnətdə mənimlə bir yerdə olacaqsan. Xəllada dedi:

[1] "Müstədrəkul-vəsail", c. 2, səh. 426.
[2] "Nəsayih", səh. 227.
[3] "Səvabul-əmal", səh. 422.
[4] "Nəhcul-fəsahə", səh. 449.
[5] "Meracus-səadət", səh. 618.
[6] "Nəhcul-fəsahə", səh. 215.

O şəxs mən deyiləm. Bəlkə mənimlə adaş olan bir qadındır. Davud (ə) buyurdu: O sənsən. Dedi: Ey Allahın peyğəmbəri! Mən sənə yalan demirəm. Mən özümdə belə bir ləyaqət görmürəm.

Davud (ə) buyurdu: Özünün gizli olan ruhiyyəndən mənə xəbər ver. Bəlkə onun səbəbini sənə deyim. Dedi: Mən nə qədər dözülməz dərdə düçar olsam da səbir edirəm. Allaha şükr edirəm və İlahi, razıyam, deyirəm. HəzrətiDavud (ə) buyurdu: Sən bu xislətinə görə bu məqama nail olmusan. İmam Sadiq (ə) bu hadisəni nəql edəndən sonra buyurdu: “Bu Allahın dinidir ki, onu salehlər üçün seçmişdir.”[1]

## *Musanı (ə) təəccübləndirən abid*

Bir gün Musa (ə) Allahla minacat edəndə Allaha dedi: “İlahi! Bəndələrinin ən sevimlisini ki, hamıdan çox sənə ibadət edir, mənə göstər.” Allah ona vəhy etdi: “Filan yerə get. Bizim sevimli bəndəmiz oradadır.” Həzrət Musa (ə) ora getdi və Cəbrailin köməyi ilə o kişini tapdı. O, çox xəstə olmasına baxmayaraq, Allaha zikr edirdi. Musa Cəbrailə buyurdu: Mən onu həmişə namazla və orucla məşğul olduğunu təsəvvür edirdim. Cəbrail dedi: Bu kişi Allahın ən sevimli və abid bəndəsidir. O, həmişə namaza və oruca məşğuldur. İndi mən əmr edəcəyəm ki, onun gözləri kor olsun. Gör o, nə deyəcək.” Cəbrail işarə etdi və onun gözləri kor oldu. Həzrət Musa (ə) gördü ki, bu iş ona təsir göstərmədi. O, yenə də minacatına davam etdi. Həzrət Musa (ə) o kişiyə buyurdu: Mən bir şəxsəm ki, duam qəbul olur. Istəyirsənmi ki, dua edim gözlərin açılsın və sağlam olasan? Dedi: Mən Allahdan heç nə istəmirəm. O, nə istəsə, mənim üçün əzizdir. Həzrət Musa (ə) buyurdu:

---

[1] “Biharul-ənvar”, c. 71, səh. 89.

Eşitdim ki, sən ey çox əta edən Allah!"—deyirsən. Allah sənə hansı neməti vermişdir ki, belə dua edirsən? Dedi: Allahın mənə əta etdiyi şey odur ki, bu ərazidə məndən başqa Allaha ibadət edən olmamışdır. Musa (ə) təəccüblü halda oradan getdi və dedi: Bu kişi dünyanın ən abid insanıdır.[1]

## *Həzrət Zeynəbin (əh.) müsibəti*

Məhərrəmin on birinci gecəsi idi. Pak bədənlər qanlı və başsız halda Kərbəlanın isti torpaqları üstünə düşmüşdü. Zəhra (ə)-ın əzizi Hüseyn ibn Əli (ə)-ın başsız və lüt bədəni qətlgahda düşmüşdü. Bir tərəfdən də həzrət Zeynəb (ə) qəlbi yaralı qadınları və uşaqları yarı yanmış xeymədə cəm etmişdir. Ata, qardaş və əmi, dağı görmüş qızları təsəlli vermək əvəzinə, şallaqlamışdılar. Mallarını qarət etmişdilər. Qulaqlarından sırğalarını çəkmişdilər. Xeymələri yandırandan sonra onları səhrada tikanların üstündə qaçırtdılar. Amma bütün müsibətlərdə bibi Zeynəb (ə) öndə idi. Qadınları sakitləşdirir və qızlara təsəlli verirdi. Onlara tövsiyə edirdi ki, ucadan ağlamasınlar. Bütün bu müsibətlərə baxmayaraq, Zeynəb (ə) gecə namazını tərk etmədi.

İmam Səccad (ə) buyurub: "Bibim on birinci gecə namazını oturan halda qıldı."[2]

---

[1] "Səfinətül-bihar", c. 1, səh. 524-525.
[2] "Süqnameyi-Ali-Mühəmməd", səh. 202.

# Otuz ikinci məclis

## «QƏZƏB»

“O müttəqilər ki, bolluqda da, qıtlıqda da (mallarını yoxsullara) xərcləyər, qəzəblərini udar, insanların günahlarından keçərlər. Allah yaxşılıq edənləri sevir.”[1]

İmam Kazim (ə) buyurub: “Hər kim qəzəbini udsa, Allah-təala qiyamətdə ona qarşı olan qəzəbini udar.”[2]

Bu bir adətdir ki, it adama sarı hücum çəksə, yerə oturmaq lazımdır, qoy bilsin ki, kiminsə onunla işi yoxdur, yaxud o şəxs oğru deyil, yaxud da qonaq gəlmişdir. Qəzəb barəsində də deyilir ki, insan qəzəblənərkən yerə oturmalıdır, qoy, nəfsin iti ona həmlə edə bilməsin. Ya da dəstəmaz almalıdır ki, şeytan ondan uzaqlaşsın. Çünki şeytan oddan yaranmış və su onu söndürə bilir.

## *Üç şəxsi üç yerdə tanımaq*

İmam Sadiq (ə) buyurub: “Üç şəxs üç halda tanınar: 1. Səbir—qəzəbli halda; 2. Şücaət—müharibədə; 3. Həqiqi qardaşlıq—lazım olan zamanda.”[3]

“Hər kimdə üç şey olsa, o, böyük insandır. 1. Qəzəbi udmaq; 2. Başqalarının günahlarını bağışlamaq; 3. Malı və canı ilə möminlərə kömək etmək.”[4]

---

[1] “Ali-Imran” surəsi, ayə: 134.
[2] “Vəsailüş-şiə”, c. 11, səh. 289.
[3] “Tuhəfül-üqul”, səh. 316.
[4] “Tuhəfül-üqul”, səh. 317.

"Bir kişi Peyğəmbərə (s) dedi: Ya Rəsulullah! Mənə nəsihət et. Buyurdu: Heç kimə qəzəblənmə. Kişi dedi: Bu elə mənə bəsdir."[1]

Lənətlənmiş İblis demişdir: "Adəm övladı mənə qalib gələ bilər, qəzəbli halda isə yox. Çünki o halda ona nə əmr versəm, itaət edər, nə istəsəm yerinə yetirər."

Əlbəttə, bu İslamda mütləq qadağan edilməmişdir.

## *Qəribə nəzir*

Mərhum Ayətullah Burucerdi Burucerd şəhərində olanda nəzir etmişdi ki, əgər qəzəbini cilovlaya bilməyib bir kəslə acıqlı rəftar etsə, bir il oruc tutacaq. Bir gün elmi mübahisə vaxtı dərsi yaxşı başa düşməyən şagirdi ilə hirsli rəftar etdi və bunun üçün bir il oruc tutdu.

## *Fatiməyi-Zəhranın (əh.) müsibəti*

Həzrət Zəhranın (əh.) "məni gecə dəfn edin" deməsinin səbəbi bu idi ki, Əlinin (ə) xilafətini qəsb edənlərin onun dəfnində iştirak etməsini istəmədi. Amma "məni gecə qüsl və kəfən edin" buyurmasının səbəbi isə Əlinin (ə) onun yaralarını görməsini istəmədiyi üçün idi.

Məclisi yazır: "Əli (ə), Həzrət Zəhranı (əh.) dəfn edəndən sonra bir hədisə əsasən yeddi, ya qırx qəbrin üstünə su səpdi ki, xanımın qəbri bilinməsin. Başqa bir hədisə görə, xanımın qəbrini yerlə bərabər etdi ki, düşmən onun yerini tanımasın."[2]

---

[1] "Üsuli-kafi", c. 3, səh. 415.

[2] "Səfinətül-bihar", c. 15, səh. 280.

# Otuz üçüncü məclis

## «TƏVƏKKÜL TƏKAMÜL RƏMZİ»

"Allaha təvəkkül et. Həqiqətən, Allah təvəkkül edənləri sevir."[1]

İmam Əli (ə) buyurub: "İmanın dörd sütunu var: 1. Allaha təvəkkül etmək; 2. Bütün işləri Allahın öhdəsinə qoymaq; 3. Allahın əmirlərinə tabe olmaq; 4. Allahın qəza-qədərinə razı olmaq."[2]

Allah-təala Peyğəmbərə (s) buyurdu:

يا أَحْمَدُ! لَيْسَ شَيْءٌ أَفْضَلَ عِنْدِي مِنَ التَّوَكُّلِ عَلَيَّ وَ الرِّضَى بِمَا قَسَمْتُ

"Ey Əhməd! Mənim yanımda təvəkküldən və təqdirə razı olmaqdan üstün bir şey yoxdur."[3]

Peyğəmbər (s) buyurub: "Hər kim (zəruri haldan başqa) dilənçilik etsə, Allah yetmiş ehtiyac və kasıblıq qapısını onun üzünə açar."[4]

Ənsarın bəziləri Peyğəmbərə (s) dedilər: İstəyirik, sizi zamin edək ki, biz cənnət əhli olacağıq. Həzrət bir az fikirləşəndən sonra buyurdu: Mən cənnəti sizə zəmanət verirəm. Amma bu şərtlə, siz də vəd verməlisiniz ki, heç kimdən kömək istəməyəcəksiniz.

İmam Səccad (ə) Ərəfə günü bir neçə nəfərin diləndiyini görüb buyurdu: "Bunlar ən pis məxluqlardır. Çünki, xalq Allahdan kömək istəyir, bunlar isə xalqdan."

---

[1] "Ali-İmran" surəsi, ayə: 159.

[2] "Tühəful-uqul", səh. 223.

[3] "Müstədrəkül-vəsail", c. 11, səh. 221.

[4] "Camiül-əxbar", səh. 379.

## *Qulun təvəkkülü*

Harun Ər-Rəşidin zamanında bərk qıtlıq oldu. Harun camaatı ağlamağa, nalə etməyə, musiqi alətlərini sındırmağa dəvət etdi. Hamı aclıqdan ölməmək fikrində ikən bir qulun şadlıqla rəqs etdiyini gördülər. Onu xəlifənin yanına apardılar. Harun onun bu hərəkətinin səbəbini soruşdu. O dedi: "Ey xəlifə! Mənim ağamın bir anbar buğdası var. Ona görə rahatam." Harun öz-özünə dedi: "Məxluqun məxluqa təvəkkülü gör, onu necə ümidvar edib. Gör, Allaha təvəkkül etmək necə müşkülləri həll edər."

Əlbəttə, təvəkkül çalışmağı tərk etmək demək deyil.

## *Həqiqi kor*

Kasıb bir kişi varlının qapısına gedib ona dedi: Eşitmişəm, nəzir etmisən ki, malını Allah yolunda kasıblara verəcəksən. Mən də kasıbam. Varlı şəxs dedi: Mən bu nəziri kor kasıblar üçün etmişəm. Sən isə kor deyilsən. Bu zaman kişi özünə gəlib dedi: Həqiqi kor mənəm ki, Allahın qapısını qoyub, sənin qapına gəlmişəm. O, bu sözü deyib getdi. Varlı bu sözdən çox narahat oldu və gedib onu tapdı. Amma nə qədər israr etdisə, kasıb ondan pul almadı.[1]

Davud (ə) buyurub: "Əli dirsəyə qədər əjdahanın ağzına salmaq dilənməkdən yaxşıdır. Diləndiyin şəxs də əvvəllər sənin kimi idi."[2]

---

[1] "İbrətha dər ayineyi dastanha", səh. 92.
[2] "Meracus-səadət", səh. 275.

## *Uşağın dili ilə tövhid dərsi*

Ayətullah-üzma Behcət deyirmiş: “Bir gün otaqda oturmuşdum. Bu vaxt həyət qapısının səsini eşitdim. Qonşunun uşağı qapının ağzında oynayırdı. Bir kasıb gəlib ona dedi: Get, evdən mənim üçün bir şey gətir. Uşaq ona söylədi: Get, anandan al. Kasıb dedi: Axı, mənim anam yoxdur. Sən get, anandan al. Mən onların söhbətindən bir mətləbi dərk edərək öz-özümə dedim: Bu uşaq anasına güvənir və şükür edir ki, nə istəsə, ondan alacaq. Əgər biz də uşağın anasına güvəndiyi qədər Allaha güvənib bilsək ki, nə istəsək, O verəcək, onda heç bir çətinliyimiz olmaz və işlərimiz düzələr.”[1]

## *Şüşəni daşın qucağında saxlayır*

İslam inqilabından əvvəl Təbəs şəhərində baş verən zəlzələnin şiddətindən bütün binalar uçdu və minlərlə insan öldü. Camaat hər tərəfdən zərər çəkənlərə köməyə gəldilər. Bu vaxt ata – anasını və bütün qohumlarını itirmiş altı yaşlı bir qız yerin altında sağ qalır. Xilasedicilər onun səsini eşidib dörd gündən sonra onu babasının qucağında yerin altından sağlam halda çıxarırlar. O qız uşağı deyirdi ki, yerin altında qaldığım müddətdə hər gün bir qoca kişi mənə su gətirərdi. Bəlkə o kişi Allahın məmuru idi.

Varlı bir ailənin dörd oğlu var idi. Onlar beşincinin qız olmasını istəyirdilər. Onlar buna görə çox həkimə müraciət etdilər. Hətta, xarici həkimlərlə də məsləhətləşdilər. Bütün həkimlər (daxili və xarici) aparılan müalicələrin nəticəsində körpənin qız olacağını demişdilər. Hətta aparatlar da körpənin qız olacağını göstərmişdi. Amma uşaq oğlan oldu.

---

[1] “İbrətha dər ayineyi dastanha”, səh. 102.

## *Əgər möcüzə baş versə*

Varlı bir şəxsin övladı olmurdu. O, buna görə ölkə daxili və xarici həkimlərə müraciət etsə də, faydası olmadı. Hətta, həkimlərdən biri demişdi: "Əgər daş övlad sahibi olsa da, sən övlad sahibi olmayacaqsan. Sənin övladının olması möcüzə olar." O şəxs İmam Rzanın (ə) ziyarətinə getdi və Həzrətə təvəssül edib dedi: "Ey İmam Rza! Həkim mənə deyibdir ki, mənim övladım olmayacaq. Əgər möcüzə baş versə, bu mümkündür. İndi gəlmişəm ki, siz möcüzə edəsiniz, Allah mənə övlad versin." Bu təvəssülün və ziyarətin bərəkətilə onun bir neçə oğlu və qızı oldu.

## *Həzrət Qasimın (ə) müsibəti*

Aşura gününün gecəsi bu on üç yaşlı uşaq əmisindən soruşdu: Əmican, sabah mən də şəhid olacağam? İmam Hüseyn (ə) qardaşının yadigarına yanıqlı bir baxışla baxıb buyurdu: Qardaşım oğlu! Ölüm sənin üçün nədir? O dedi: Baldan da şirindir. İmam buyurdu: Sabah sən də şəhid olacaqsan! O, Aşura günü əmisindən icazə alandan sonra meydana getdi və döyüşdü. Düşmən ona qılınc zərbəsi endirdi. O, yerə yıxıldı. İmam (ə) narahat halda xeymənin qapısında durub gözləyirdi. Birdən ″Əmican″ səsi fəzanı bürüdü. Həzrət tez özünü Qasimin yanına yetirdi və buyurdu: "Ey qardaşım oğlu! Əmin üçün sənə kömək edə bilməmək çox çətindir."[1]

---

[1] " Məqtəli-Mütəhhər", səh. 215.

# Otuz dördüncü məclis

## «İSLAMDA NAMAZ»

“Namaz qıl. Həqiqətən, namaz insanı pisliklərdən uzaqlaşdırır.”[1]

“Cəhənnəm əhlindən soruşarlar: Hansı əməl sizi cəhənnəmlik etdi? Cavabında deyərlər: Biz namaz qılanlardan və ehsan edənlərdən olmadıq.”[2]

İmam Sadiq (ə) buyurub:

اِنَّ الصَّلَاةَ سِتْرٌ وَ كَفَّارَةٌ لِلذُّنُوبِ

“Namaz insanlarla cəhənnəm odu arasında bir qalxandır və günahların kəffarəsidir.”[3]

### *Ölülərin arzusu*

Peyğəmbər (s) buyurub:

مَا مِنْ يَوْمٍ إِلَّا وَ مَلَكٌ يُنَادِي فِي الْمَقَابِرِ مَنْ تَغْبِطُونَ فَيَقُولُونَ أَهْلَ الْمَسَاجِدِ يُصَلُّونَ وَ لَا نَقْدِرُ وَ يَصُومُونَ وَ لَا نَقْدِرُ

“Hər gün bir mələk qəbiristan əhlinə xitab edir: Sizdən bir kəsin arzusu və ya qibtə etdiyi varmı? Onlar cavab verərlər: Biz namaz qılanlara və oruc tutanlara qibtə edirik ki, nə üçün biz də onlar kimi bu əməlləri yerinə yetirə bilmirik.”[4]

---

[1] “Ənkəbut” surəsi, ayə: 45.
[2] “Müdəssir” surəsi, ayə: 42-44.
[3] “İstibsar”, c. 3, səh. 12.
[4] “Müstədrəkül-vəsail”, c. 3, səh. 363.

إِنَّ فِي جَهَنَّمَ وَادِياً يَسْتَغِيثُ أَهْلُ النَّارِ كُلَّ يَوْمٍ سَبْعِينَ أَلْفَ مَرَّةٍ مِنْهُ إِلَى أَنْ قَالَ فَقِيلَ لَهُ لِمَنْ يَكُونُ هَذَا الْعَذَابُ قَالَ لِشَارِبِ الْخَمْرِ مِنْ أَهْلِ الْقُرْآنِ وَ تَارِكِ الصَّلَاةِ

"Cəhənnəmdə bir yer vardır ki, cəhənnəm əhli hər gün istinin şiddətindən yetmiş dəfə fəryad edirlər. Həzrətdən soruşdular: Bu yer kimlərin yeridir? Buyurdu: Quran əhlindən olan şərabxorların və namaz qılmayanların."[1]

الصَّلَاةُ عِمَادُ الدِّينِ فَمَنْ تَرَكَ صَلَاتَهُ مُتَعَمِّداً فَقَدْ هَدَمَ دِينَهُ

"Namaz dinin sütunudur. Ona görə də hər kim qəsdən namaz qılmasa, dinini məhv etmişdir."[2]

## *Möminin şərəfi*

İmam Sadiq (ə) buyurub:

شَرَفُ الْمُؤْمِنِ قِيَامُ اللَّيْلِ وَ عِزُّهُ اسْتِغْنَاؤُهُ عَنِ النَّاسِ

"Möminin şərəfi onun gecə namazında və izzəti isə camaata ehtiyacı olmamasındadır."[3]

Peyğəmbər (s) buyurub:

يا عَلِيُّ! عَلَيكَ بِصَلاةِ اللَّيلِ و عَلَيكَ بِصَلاةِ اللَّيلِ وَ عَلَيكَ بِصَلاةِ اللَّيلِ

"Ey Əli! Gecə namazı qıl, gecə namazı qıl, gecə namazı qıl!"[4]

Salman Farsi deyir: "Bir kişi Əlinin (ə) yanına gəlib dedi: Mən gecə namazından məhrum olmuşam. Bunun üçün nə edim? Buyurdu:

أَنْتَ رَجُلٌ قَدْ قَيَّدَتْكَ ذُنُوبُكَ

---

[1] "Vəsailüş-şiə", c. 4, səh. 43.
[2] "Camiul-əxbar", səh. 185.
[3] "Üsuli-kafi", c. 2, səh. 147.
[4] "Mən la yəhzuruhul-fəqih", c. 1, səh. 484.

Günahların sənin əl-ayağını bağlayıb.”[1]

## *Namazı tərk edənin məzəmməti*

Peyğəmbər (s) buyurub:

مَنْ تَرَكَ الصَّلاةَ ثَلاثَةَ أيّامٍ فَإذا ماتَ لا يُغَسَّلُ وَ لا يُكَفِّنُ وَ لا يُدْفَنُ فِي قُبورِ الْمُسْلِمينَ

“Hər kim qəsdən üç gün namaz qılmasa və tövbə etmədən ölsə, qüsl, kəfən və müsəlmanların qəbiristanlığında dəfn olunmağa layiq deyil.”[2]

لا صَلوةَ لِمَنْ لا يُقيمُ رُكُوعَها وَ لا سُجُودَها

“Namazın rukusunu və səcdəsini düz yerinə yetirməyən şəxs, namaz qılmayan kimidir.”[3]

“Qəsdən namaz qılmayan müsəlman hesab olunmur.”[4]

## *On beş bəla*

Həzrət Fatiməyi-Zəhra (s) buyurur ki, atamdan namaza qarşı süstlük və səhlənkarlıq edən kişi və qadınlar haqda soruşdum. Buyurdu: “Namazına qarşı süstlük və səhlənkarlıq edəni Allah on beş bəlaya düçar edər: 1. Ömrünün və ruzisinin bərəkətini ondan alar; 2. Zahiri salehlər kimi olmaz; 3. Əməlləri savabsız olar; 4. Duası qəbul olmaz; 5. Salehlərin duasından faydalanmaz; 6. Xar və zəlil olar; 7. Ac və susuz can verər. Belə ki, dünyanın çaylarının suyu onun susuzluğunu yatırtmaz; 8. Allah bir mələyi qəbirdə onun rahatlığını əlindən almaq üçün məmur edər; 9. Qəbri dar olar. 10. Qəbri qaranlıq olar; 11. Allah bir mələk məmur edər ki, onu camaatın gözü qabağına

---

[1] “Biharul-ənvar”, c. 84, səh. 151.
[2] “Camiul-əxbar”, səh. 187.
[3] “Nəvadiri-Ravəndi”, səh. 5.
[4] “Vəsailüş-şiə”, c. 3, səh. 28.

sürüsün; 12. Onun hesabı ağır olar; 13. Allah ona rəhmət nəzəri ilə baxmaz; 14. Onu pak etməz; 15. Onu dərdli bir əzaba düçar edər.”[1]

## *Namazı ilk vaxtda qılmağın savabı*

İmam Sadiq (ə) buyurub:

فَضْلَ الْوَقْتِ الْأَوَّلِ عَلَى الْآخِرِ كَفَضْلِ الْآخِرَةِ عَلَى الدُّنْيَا

“Namazı əvvəl vaxtda qılmağın fəziləti axirət nemətlərinin dünyaya olan fəziləti kimidir.”[2]

Peyğəmbər (s) buyurub:

لا تَنَالُ شَفَاعَتِي غداً مَن اَخَّرَ الصَّلاةَ الْمَفْرُوضَةَ

“Namazı (səhlənkarlıq və ya tənbəllik üzündən) təxirə salana mənim şəfaətim yetişməz.”[3]

İmam Sadiq (ə) buyurub:

“Diqqətlə iki rəkət namaz qılanın (yəni namazda fikri dağılmayanın) namazdan sonra bütün günahları bağışlanar.”[4]

## *Bir rəkət namaz qırx ilin namazından üstündür*

Peyğəmbər (s) buyurub:

صَلَاةُ الرَّجُلِ فِي جَمَاعَةٍ خَيْرٌ مِنْ صَلَاتِهِ فِي بَيْتِهِ أَرْبَعِينَ سَنَةً قِيلَ يَا رَسُولَ اللَّهِ صَلَاةُ يَوْمٍ فَقَالَ صَلَاةٌ وَاحِدَةٌ

“Camaatla qılınan namaz qırx il fərdi qılınan namazdan üstündür. Həzrətdən soruşdular: Bir günün namazının bu qədər savabı var? Buyurdu: Hətta, bir namazın da bu qədər savabı

---

[1] “Müstədrəkül-vəsail”, c. 3, səh. 24.
[2] “Camiul-əxbar”, səh. 78.
[3] “Müstədrəkül-vəsail”, c. 3, səh. 63.
[4] “Vəsailüş-şiə”, c. 2, səh. 687.

var.”[1]“Bəndə camaat namazından sonra Allahdan hacət istəsə, Allah onun hacətini yerinə yetirməməkdən həya edər.”[2]

## *Həcc qədər savabı olan oturmaq*

Peyğəmbər (s) buyurub:

يَا عَلَي اِذَا صَلَّيْتَ الصُّبحَ فَاقْعَدْ مَكَانَكَ حَتَّي تَطَّلِعَ الشَّمْسَ فَاِنَّ اللهَ يَكْتُبُ لِمَنْ جَالَسَ مَكَانَهُ حَجَّةً وَ عُمْرَةً وَ عِتْقَ رَقَبَةٍ وَصَدَقَةَ اَلْفَ دِيْنَارٍ فِي سَبِيْلِ اللهِ

“Ey Əli! Sübh namazından sonra yerində oturub günəş çıxana qədər zikr və dua et. Çünki Allah belə edən şəxsə həcc, ömrə, qul azad etmək və min dinar sədəqənin savabını verər.”[3]

## *Günahların kəffarəsi*

İmam Baqir (ə) buyurub: “Üç şey günahların kəffarəsi olar: 1. Qışda şad halda dəstəmaz almaq; 2. Gecə-gündüz məscidə getmək; 3. Camaat namazı.” [4] “Namazda ətir vuranın hər rükətinin savabı min bərabər olar.”[5]

Peyğəmbər (s) buyurub: “Hər kəs hər bir namazdan sonra “Ayətəl-kürsü” oxusa, onunla cənnət arasında ölümdən başqa heç nə fasilə salmaz. Əgər yatmazdan qabaq oxusa, Allah onu və qonşularını bəlalardan qoruyar.”[6]

## *Üzüklə namaz qılmağın fəziləti*

Peyğəmbər (s) buyurub:

---

[1] “Ləalil-əxbar”, c. 5, səh. 197.
[2] “İrşadul-qulub”, c. 1, səh. 183.
[3] “Ləalil-əxbar”, c. 4, səh. 83.
[4] “Nəsayih”, səh. 151.
[5] “Adabuş-şəriət”, səh. 132.
[6] “Biharul-ənvar”, c. 89, səh. 269.

صَلاةُ رُكعَتَينِ بِخاتَمِ عَقِيقٍ أفضَلُ مِن سَبعِينَ رَكعَةً بِغَيرِهِ

"İki rəkət əqiq üzüklə qılınan namaz, yetmiş rəkət üzüksüz qılınan namazdan üstündür."[1]

İmam Sadiq (ə) buyurub: "Əqiq üzüklə Allaha uzanan əllər ən üstün əllərdir. Əqiq üzük taxan şəxs kasıb olmaz və səfərdə amanda olar."[2]

## *Əli Əsgərin (ə) müsibəti*

Ümmü Külsüm (Zeynəb Suğra) dedi: "Qardaşım! Bu körpə üç gündür ki, susuzdur. Düşməndən onun üçün bir az su istə. İmam Hüseyn (ə), Əli Əsgəri qucağına alıb, düşmənin qarşısına gətirib onlara buyurdu: "Siz mənim qardaşlarımı, övladlarımı və dostlarımı öldürdünüz. Onlardan bu körpədən başqa heç kim qalmayıb. Körpə susuzluqdan ağzını toyuq kimi açıb-bağlayır. Bu məsum körpəni sizin yanınıza gətirdim ki, ona su verəsiniz. Ey camaat! Əgər mənə rəhm etmirsinizsə, bu körpəyə rəhm edin. Məgər görmürsünüzmü ki, susuzluqdan necə ağzını açıb-bağlayır?!" İmamın sözü tamam olmamış Hərmələ ibn Kahil Əsədi, Ömər Sədin əmri ilə körpənin boğazından üç şöbəli oxla vurdu.[3]

---

[1] "İrşadul-qülub", c. 1, səh. 154.
[2] "İrşadul-qülub", c. 1, səh. 154.
[3] "Süqnameyi-Ali-Mühəmməd", səh. 325.

# Otuz beşinci məclis

## «QURAN—HİDAYƏT VƏ SƏADƏT KİTABI»

﴿إِنَّ هذَا الْقُرْآنَ يَهْدِي لِلَّتِي هِيَ أَقْوَمُ وَ يُبَشِّرُ الْمُؤْمِنِينَ الَّذِينَ يَعْمَلُونَ الصَّالِحَاتِ أَنَّ لَهُمْ أَجْراً كَبِيراً﴾

"Həqiqətən, bu Quran (bütün bəşəriyyəti) doğru yola yönəldir. Yaxşı işlər görən möminlərə böyük bir mükafata nail olacaqları ilə müjdə verir."[1]

### *Quran oxumağın savabı*

Peyğəmbər (s) buyurub:

يَا سَلْمَانُ عَلَيْكَ بِقِرَاءَةِ الْقُرْآنِ فَإِنَّ قِرَاءَتَهُ كَفَّارَةٌ لِلذُّنُوبِ وَ سِتْرٌ مِنَ النَّارِ وَ أَمَانٌ مِنَ الْعَذَابِ وَ يُكْتَبُ لِمَنْ يَقْرَأُ بِكُلِّ آيَةٍ ثَوَابُ مِائَةِ شَهِيدٍ وَ يُعْطَى بِكُلِّ سُورَةٍ ثَوَابَ نَبِيٍّ مُرْسَلٍ وَ تَنْزِلُ عَلَى صَاحِبِهِ الرَّحْمَةُ وَ تَسْتَغْفِرُ لَهُ الْمَلَائِكَةُ وَ اشْتَاقَتْ إِلَيْهِ الْجَنَّةُ وَ رَضِيَ عَنْهُ الْمَوْلَى

"Ey Salman! Quran oxu. Çünki Quran oxumaq günahların kəffarəsidir. cəhənnəm odunun qarşısında sipər və ilahi əzabdan qurtuluşdur. Hər kim Quranın bir ayəsini oxusa, Allah ona yüz şəhidin savabını verər. Hər kim Quranın bir surəsini oxusa, Peyğəmbərin savabı onun əməl dəftərində yazılar. Hər kim Quran oxusa, Allahın rəhməti ona nazil olar. Və mələklər onun üçün istiğfar edərlər. Cənnət ona müştaq olub Allah ondan razı qalar."[2]

---

[1] "İsra" surəsi, ayə: 9.
[2] "Camiül-əxbar", səh. 113.

## *Qurana baxmağın savabı*

Peyğəmbər (s) buyurub:

النَّظَرَ فِي الْمُصْحَفِ عِبَادَةٌ

“Qurana baxmaq ibadətdir.”[1]

İmam Sadiq (ə) buyurub:

قِرَاءَةُ الْقُرْآنِ فِي الْمُصْحَفِ تُخَفِّفُ الْعَذَابَ عَنِ الْوَالِدَيْنِ وَ لَوْ كَانَا كَافِرَيْنِ

“Quran oxumaq ata-ananın əzabının azalmasına səbəb olar. Əgər kafir olsalar da belə.”[2]

İmam Əli (ə) buyurub: “Hər kim hər gün Qurandan xüzu və xüşu ilə yüz ayə oxusa, Allah-təala yer əhlinə etdiyi əməllərə görə verdiyi savabı verər. Hər kim üç yüz ayə oxusa, Allah ona yer və göy əhlinin savabını verər.”[3]

İmam Hüseyn (ə) buyurub:

كِتابُ اللهِ عَلى أَربَعةَ أَشياءٍ عَلى العِبارَةِ وَ الإشارَةِ وَ اللَّطائِفِ وَ الحَقائِقِ فَالعِبارةُ لِلعَوامِ وَ الإشارَةُ لِلخَواصِّ وَ اللَّطائِفُ لِلأَولياءِ وَ الْحَقائِقُ لِلأَ نْبِياءِ

“Quran dörd hissəyə bölünür: 1. Mətn. 2. İşarələr. 3. Lütflər. 4. Həqiqətlər. Avamlar onun mətnindən, məxsus insanlar işarələrindən, ilahi övliyalar lütflərdən və peyğəmbərlər həqiqətlərdən faydalanırlar.”[4]

## *Əməlsiz qarilərin məzəmməti*

Peyğəmbər (s) buyurub:

رُبَّ تالِ الْقُرآنِ وَ القُرآنُ يَلعَنَهُ

---

[1] “Müstədrəkül-vəsail”, c. 9, səh. 153.
[2] “Üsuli-kafi”, c. 2, səh. 613.
[3] “Camiül-əxbar”, səh. 116.
[4] “Biharul-ənvar”, c. 89, səh. 20.

"Çox qarilər vardır ki, Quran onlara lənət edir."[1]

يَا عَلِيُّ إِنَّ فِي جَهَنَّمَ رَحًى مِنْ حَدِيدٍ تُطْحَنُ بِهَا رُءُوسُ الْقُرَّاءِ وَ الْعُلَمَاءِ الْمُجْرِمِينَ

"Ey Əli, cəhənnəmdə bir dəyirman vardır ki, günahkar alimlərin və qarilərin başlarını üyüdəcək."[2]

## *Qiyamət günü kor*

Peyğəmbər (s) yenə buyurub:

مَنْ قَرَأَ الْقُرْآنَ وَ لَمْ يَعْمَلْ بِهِ حَشَرَهُ اللَّهُ يَوْمَ الْقِيَامَةِ أَعْمَى فَيَقُولُ يَا رَبِّ لِمَ حَشَرْتَنِي أَعْمى وَ قَدْ كُنْتُ بَصِيراً قالَ كَذلِكَ أَتَتْكَ آياتُنا فَنَسِيتَها وَ كَذلِكَ الْيَوْمَ تُنْسى فَيُؤْمَرُ بِهِ إِلَى النَّارِ

"Hər kim Quran oxuyub ona əməl etməsə, qiyamətdə Allah onu kor halda məhşur edər. O deyər: Nə üçün məni kor etdin? Allah-təala buyurar: Bizim ayələrimizə əməl etmədiyin üçün. Onun cəzası budur ki, bu gün unuduldun.

Sonra əmr gələr ki, onu cəhənnəmə aparın."[3]

## *"Bismillah"ın savabı*

Peyğəmbər (s) buyurub:

إِذَا قَالَ الْمُعَلِّمُ لِلصَّبِيِّ قُلْ بِسْمِ اللَّهِ الرَّحْمنِ الرَّحِيمِ فَقَالَ الصَّبِيُّ بِسْمِ اللَّهِ الرَّحْمنِ الرَّحِيمِ كَتَبَ اللَّهُ بَرَاءَةً لِلصَّبِيِّ وَ بَرَاءَةً لِأَبَوَيْهِ وَ بَرَاءَةً لِلْمُعَلِّمِ

"Əgər müəllim dərs deyəndə uşağa "Bismillahir-rəhmanir-rəhim" öyrətsə, uşaq bunu oxusa, Allah o uşağın ata-anasına və müəllimə cəhənnəm odundan nicat verər."[4]

---

[1] "Müstədrəkül-vəsail", c. 4, səh. 249.
[2] Həmin mənbə.
[3] "İqabul-əmal", səh. 612.
[4] "Məcməul-bəyan", c. 1, səh. 19.

## *Sübhə qədər savab yazılar*

Peyğəmbərdən (s) soruşdular ki, şeytan da insanla yemək yeyirmi? Buyurdu:

نَعَم، مائِدةٌ لَمْ يُذكَر «بِسمِ اللهِ» عَلَيها يَأكُلُ الشَّيطانُ مَعَهُم وَ يَرفَعُ اللهُ الْبَرَكَةَ عَنها

وقال: اذا قالَ العَبدُ عِندَ مَنامِهِ «بِسمِ اللهِ الرّحمنِ الرَّحِيمِ» يَقُولُ اللهُ: مَلائِكَتِي

اُكتُبُوا بِالحَسَناتِ نَفسَهُ اِلَي الصَّباحِ

"Bəli, əgər "bismillah"sız yemək yeməyə başlasa, şeytan da insanla yemək yeyər və Allah o süfrədən bərəkətini götürər. Hər kim yatanda "Bismillahir-rəhmanir-rəhim" desə, Allah mələklərə əmr edər ki, onun nəfəslərinin sayı miqdarında sübhə qədər ona savab yazsınlar."[1]

## *"Ayətəl-kürsü"nün savabı*

İmam Sadiq (ə) buyurub:

مِنْ قَرَأَ آيَةَ الْكُرْسِيّ مَرَّةً صَرَفَ اللَّهُ عَنْهُ أَلْفَ مَكْرُوهٍ مِنْ مَكَارِهِ الدُّنْيَا وَ أَلْفَ مَكْرُوهٍ

مِنْ مَكَارِهِ الْآخِرَةِ أَيْسَرُ مَكْرُوهِ الدُّنْيَا الْفَقْرُ وَ أَيْسَرُ مَكْرُوهِ الْآخِرَةِ عَذَابُ الْقَبْرِ

"Hər kim bir dəfə "Ayətəl-kürsü"nü ("Bəqərə" surəsi, ayə 255-257) oxusa, Allah onu dünyanın min bəlasından (onların ən asanı kasıblıqdır) və min axirət bəlalarından (onların ən asanı qəbir əzabıdır) nicat verər."[2]

## *"İxlas" surəsinin savabı*

Peyğəmbər (s) buyurub: "Hər kim "İxlas" surəsini yatmazdan qabaq oxusa, Allah onun əlli illik günahlarını bağışlayar."[3]

---

[1] "Camiul-əxbar", səh. 120.
[2] "Vəsailüş-şiə", c. 11, səh. 396.
[3] "Üsuli-kafi", c. 2, səh. 620.

İmam Baqir (ə) buyurub: “Hər kim yatmazdan qabaq “müsəbbəhat”ı [1] oxusa, İmam Zamanı (ə) görməmiş vafat etməz. Əgər ölsə, axirətdə Peyğəmbərin (s) yanında olacaq.”[2]

Peyğəmbər (s) buyurub:

مَنْ أَطَاعَ اللَّهَ فَقَدْ ذَكَرَ اللَّهَ وَ إِنْ قَلَّتْ صَلَاتُهُ وَ صِيَامُهُ وَ تِلَاوَتُهُ لِلْقُرْآنِ وَ مَنْ عَصَى اللَّهَ فَقَدْ نَسِيَ اللَّهَ وَ إِنْ كَثُرَتْ صَلَاتُهُ وَ صِيَامُهُ وَ تِلَاوَتُهُ لِلْقُرْآنِ

“Allaha itaət edən həqiqətdə, Allahı zikr edir. Onun əgər namazı, orucu və Quran oxuması az olsa da, belə. Günah edən isə, həqiqətdə, Allahı unutmuşdur. Onun namazı, orucu və Quran oxumağı çox olsa belə.”[3]

İmam Həsən (ə) buyurub: “Qurandan başqa hər şey məhv olacaq. Ona görə də Qurandakılara əməl edin ki, sizi himayət etsin. Qurana ən yaxın olanlar ona əməl edənlərdir. (Quran hafizi olmasa da). Qurandan çox uzaq olanlar ona əməl etməyənlərdir (qari olsalar da).”[4]

## *Həzrət Əlinin(ə) müsibəti*

İmam Həsən (ə) və imam Hüseyn (ə) Əlini (ə) dəfn edib qayıdırdılar. Kufənin qapısının yaxınlığındakı xarabalıqda kor bir fəqirin nalə etdiyini gördülər. Ondan soruşdular: Nə üçün belə ağlayıb nalə edirsən? Fəqir dedi: Bir ildir ki, bu şəhərdəyəm. Heç kimim yoxdur. Hər gün mehriban bir kişi mənim yanıma gəlib halımı soruşar və mənə yemək verərdi. Amma üç gündür ki, ondan xəbərim yoxdur və yanıma gəlmir. Soruşdular: Onun adını bilmirsən?

Dedi: Adını soruşdum, amma mənə cavab vermədi. Dedilər: Ey fəqir! Onun zahiri görünüşü haqda danış. Dedi: Mən axı koram. Onun necə olduğunu görməmişəm. Dedilər: Onun

---

[1] “Hədid”, “Həşr”, “Səf”, “Cümə” və “Təğabun” surələri.

[2] “Üsuli-kafi”, c. 2, səh. 620.

[3] “ Vəsailuş-şiə”, c. 15, səh. 257.

[4] “İrşadul-qulub”, c. 1, səh. 79.

hansısa bir əlaməti yadında qalıbmı? Dedi: Bəli. O, həmişə Allahı zikr edirdi və mənim yanımda oturanda deyirdi: Miskin miskinlə oturub və qərib qəriblə durmuşdur. Bu vaxt imam Həsən və imam Hüseyn (ə) bildilər ki, o şəxs onların atası olub. Onlar kora dedilər: Ey fəqir! Həmin şəxs bizim atamız Əmirəl-möminin Əlidir (ə). Kor soruşdu: Onun başına nə hadisə gəlib? Üç gündür ki, mənim yanıma gəlmir. Dedilər: Ey qərib! Bədbəxt bir insan onu yaralayıb şəhid etdi. Biz onun qəbrinin üstündən gəlirik. Qərib bu sözü eşidəndə nalə etdi və başına torpaq töküb dedi: Mənim nə ləyaqətim var ki, Əmirəl-möminin (ə) məni öz himayəsinə götürsün?! Onu nə səbəbə öldürdülər? Həsən və Hüseyn (ə) ona nə qədər ürək-dirək verdilərsə də, o sakit olmadı. O dedi: Sizi and verirəm babanıza məni onun qəbrinin üstünə aparın. İmam Həsən və İmam Hüseyn (ə) onu Əlinin (ə) qəbri üstünə apardılar. O, özünü qəbrin üstünə atıb, ah-nalə etdi və dedi: İlahi, mən bu mehriban atanın ayrılığına dözə bilmərəm. Səni and verirəm bu qəbrin sahibinə mənim canımı al! Allah onun duasını qəbul etdi. Həsən və Hüseyn (ə) onu Əlinin (ə) qəbrinin yaxınlığında dəfn etdilər.[1]

[1] "Rövzətüş-şühəda", səh. 172.

# Otuz altıncı məclis

## «ƏMƏLLƏRİN CƏZASI (1)»

“Zülm edənlər tezliklə hansı dönüşə qayıdacaqlarını biləcəklər.”[1]

Peyğəmbər (s) buyurub:

مِن أَفْضَلُ الْجِهَادِ مَنْ أَصْبَحَ لَا يَهُمُّ بِظُلْمِ أَحَدٍ

“Ən üstün cihad sübh yerindən qalxarkən başqalarına zülm etmək fikrində olmamaqdır.”[2]

İmam Əli (ə) buyurub:

مَنْ سَلَّ سَيفَ الْبَغْيِ قُتِلَ بِهِ وَمَنْ حَفَرَ بِئراً لِأَخِيهِ وَقَعَ فِيها

“Hər kəs zülm qılıncını qınından çıxarsa, özü də onunla öldürülər və kim başqasına quyu qazsa, özü onun dibinə yuvarlanar.”[3]

İmam Baqir (ə) buyurub:

قَالَ فِي كِتَابِ عَلِيٍّ ثَلَاثُ خِصَالٍ لَا يَمُوتُ صَاحِبُهُنَّ أَبَداً حَتَّى يَرَى وَبَالَهُنَّ الْبَغْيُ وَ قَطِيعَةُ الرَّحِمِ وَ الْيَمِينُ الْكَاذِبَةُ يُبَارِزُ اللَّهَ بِهَا

“İmam Əlinin (ə) kitabında yazılır ki, hər kim üç xislətə sahib olsa, onların mükafatını almayınca dünyadan getməz: 1. Zülm; 2. Qohumluq əlaqələrini kəsmək; 3. Yalandan and içmək. Hər kim bu əməlləri etsə, elə bil ki, Allahla müharibə edir.”[4]

---

[1] “ Şüəra” surəsi, ayə: 227.
[2] “Vəsailüş-şiə”, c. 15, səh. 162.
[3] “Müstədrəkül-vəsail”, c. 12, səh. 102.
[4] “Üsuli-kafi”, c. 4, səh. 47.

## *Cəbrailin gülüşü*

"Ər-rəhman" surəsi nazil olanda Peyğəmbər (s) öz səhabələrinə buyurdu: "Kim bu surəni kafirlərin arasında oxumağa hazırdır?" Bədən cəhətdən zəif və alçaqboy olan Əbdürrəhman ibn Məsud buna hazır olduğunu bildirdi. Amma Peyğəmbər (s) bədən cəhətdən güclü bir şəxs istəyirdi. Çünki birdən düşmən ona hücum etsə, müqavimət göstərə bilsin. Amma ibn Məsud bu iş üçün münasib deyildi. İbn Məsud, Peyğəmbərə (s) israr etdi və Həzrəti razı saldı. Peyğəmbər (s) ona icazə verdi. O, Kəbənin kənarına, Qureyş bütpərəstlərinin cəm olduqları yerə gəldi və surəni oxumağa başladı. Surəni oxuyub qurtarmamış onu bərk döydülər. İbn Məsud qanlı halda Peyğəmbərin (s) hüzuruna gəldi. Peyğəmbər (s) onu bu halda görüb qəmləndi. Bu vaxt Cəbrail nazil oldu. Cəbrail gülürdü. Peyğəmbər (s) ona buyurdu: "Səni şad görürəm. Amma İbn Məsud çox pis vəziyyətdədir." Cəbrail buyurdu: "Gülməyimin səbəbi gələcəkdə sənə aşkar olacaq."

Bu hadisədən bir müddəd keçdi, sonra Bədr döyüşü baş verdi. İbn Məsud Peyğəmbərin (s) hüzuruna yetişdi və dedi: "Mən istəmirəm ki, cihadın fəzilətindən məhrum olam." O, Həzrətin icazəsi ilə müharibəyə getdi. Bu döyüşdə düşmən məğlub oldu. İbn Məsud müharibə meydanında gəzəndə birdən Əbu Cəhli qanlı halda gördü. O, Əbu Cəhlin sinəsi üstündə oturdu. Əbu Cəhl ona dedi: Ey çoban! Uca bir yerdə oturmusan. İbn Məsud dedi: Yalnız İslam qalib və ucadır. Ondan üstün bir şey yoxdur. Əbu Cəhl dedi: Dostun Məhəmmədə de ki, ömrümün son anında onu özümə qatı düşmən bilirəm. Bu qılınc sənin nizəndən itidir, götür və boğazımın aşağısından başımı kəs ki, başımı Məhəmmədin yanına aparanda

onu böyük görüb təəccüb etsin. İbn Məsud onun vəsiyyətinin əksinə, başını boğazının yuxarı hissəsindən kəsdi ki, kiçik görünsün. Amma yorğun olduğundan onu özü ilə apara bilmədi. Buna görə də o, Əbu Cəhlin qulağını deşib ip saldı və onun başını yerlə sürüyərək Peyğəmbərin (s) hüzuruna gətirdi. Bu vaxt Cəbrail nazil oldu. Peyğəmbər (s) yenə də onu gülən halda gördü. Cəbrail Həzrətə dedi: "Əbu Cəhlin bu deşik qulağı İbn Məsudun qanlı qulağının əvəzidir. Mənim Kəbənin kənarında baş verən hadisəyə gülməyimin səbəbi İbn Məsudun bu günkü intiqamına görə idi."

İbn Məsud Peyğəmbərə (s) dedi: "Əbu Cəhl ömrünün axır anlarında dedi ki, Məhəmməd mənim qatı düşmənimdir." Peyğəmbər (s) buyurdu: Mənim Fironum Musanın Fironundan inadkardır. Çünki Firon ölümün əlamətlərini görəndə, dedi: "Musanın Allahına iman gətirdim." Amma bu Firon öləndə şirk etdi.

## *Zülm çubuğu ilə mükafat*

İsfəndiyar və Rüstəm, Zalın şücaətli oğulları idi. Rüstəmlə İsfəndiyarın arasında dava oldu. Bir neçə dəfə bir-birlərinə hücum etdilər. Hər dəfə Rüstəm məğlub oldu. Hətta, İsfəndiyar onu yaraladı. Bir gün Rüstəm atası ilə məsləhətləşib dedi: Mən nə edim? Nə qədər İsfəndiyarla mübarizə aparıramsa, hamısında da məğlub oluram. Zal dedi: İkibaşlı ox hazırla və onun gözlərini nişan alıb kor et. Sən yalnız bu vaxt ona qalib gələrsən. Rüstəm atasının göstərişiylə qardaşını məğlub etdi.

Onun kor olmasının səbəbi bu idi ki, İsfəndiyar cavanlıqda bir yetimi budaqla kor etmişdi. İsfəndiyar həmin budağı sonra əkdi və budaq böyük bir ağaca çevrildi. Bir gün gəldi ki, Rüstəm ondan ikibaşlı ox düzəldib qardaşı İsfəndiyarı kor etdi.[1]

---

[1] "Müntəxəbut-təvarix", səh. 815.

## *Bir-birinin ardınca mükafat*

Mərhum Ayətullah Bəhauddin buyururub: Kim zülm etsə, özünə qayıdar. Bir qəssab iki qoyunu kəsməyə apararkən yolda onlardan birinin gözü bir yaşıllığa düşdü və ona tərəf getdi. Qəssab əsəbiləşib kərpiclə qoyunun başına vurdu. Bir həftə keçmədi ki, qəssabın məhəlləsinin sakinləri arasında dava düşdü. Onun başına çubuq və daşla o qədər vurdular ki, axırda bihuş oldu.[1]

## *Həzrət Abbasın (ə) müsibəti*

Həzrət Abbas (ə) ömrünün axır anlarına qədər İmam Hüseynin (ə) ordusunun bayraqdarı oldu. Onun əlləri dirsəkdən kəsiləndə kəsik qolunun köməyi ilə bayrağı sinəsinə basdı. Bu vəziyyətdə düşmənə hücum etdi. Nəhayət, onu başından yaraladılar və o arxası üstə atdan yıxıldı. Mərhum Fazil Dərbəndi "Əsrarus-şəhadət" kitabında belə nəql edir: “İmam Hüseyn (ə), Abbasın qanlı bədənini xeymələrə gətirmək istədi. Abbas gözünü açıb gördü ki, Hüseyn (ə) onu xeymələrə aparmaq istəyir. Bu zaman Abbas dedi: Məni xeymələrə aparma. Çünki qızın Səkinədən xəcalət çəkirəm. Ona su vədəsi vermişdim. İmam Hüseyn (ə) buyurdu: Qardaşın tərəfdən sənə xeyirli cəza yetişsin. Çünki sağlığında da, öləndə də, mənə kömək etdin.”[2]

---

[1] “Ayəte-bəsirət”, səh. 100.
[2] “ Suqnameyi-Ali Mühəmməd”, səh. 312.

# Otuz yeddinci məclis

## «ƏMƏLLƏRİN CƏZASI (2)»

“Kim zərrə qədər yaxşı iş görsə, onu görəcək. Kim də zərrə qədər pis iş görsə, onu görəcək.”[1]

İmam Baqir (ə) buyurub:

مَنِ ارْتَكَبَ أَحَداً بِظُلْمٍ بَعَثَ اللَّهُ مَنْ ظَلَمَهُ مِثْلَهُ أَوْ عَلَى وُلْدِهِ أَوْ عَلَى عَقِبِهِ مِنْ بَعْدِهِ

“Əgər bir şəxs başqasına zülm etsə, Allah onun özünü, ya övladlarını və ya nəsildən hesab olunanları zalıma düçar edər.”[2]

Peyğəmbər (s) buyurub:

ثَلَاثٌ مِنَ الذُّنُوبِ تُعَجَّلُ عُقُوبَتُهَا وَ لَا تُؤَخَّرُ إِلَى الْآخِرَةِ عُقُوقُ الْوَالِدَيْنِ وَ الْبَغْيُ عَلَى النَّاسِ وَ كُفْرُ الْإِحْسَانِ

“Üç günahın əzabı tezliklə bu dünyada insana yetişər və axirətə qalmaz: 1. Valideynlə pis rəftar etmək; 2. Camaata zülm etmək; 3. Yaxşılığa təşəkkür etməmək.”[3]

### *Rəhimsiz polisin cəzası*

Ağa Bəhlul (Gövhərşad məscidinin axundu) Əfqanıstanda olan bir hadisəni belə nəql edir: Əfqanıstanda xoruz döyüşdürmə dəb düşmüşdü. Cavanlar cümə və bayram günlərində iki kəkliyi, ya da xoruzu vuruşdurur və camaat da buna tamaşa edirdi. Amma bu

---

[1] “Zilzal” surəsi, ayə: 7-8.
[2] “ İqbalul-əmal”, səh. 585.
[3] “Vəsailüş-şiə”, c. 16, səh. 312.

işi şəhərin rəhbəri qadağan etmişdi. Əgər polis görsəydi, qarşısını alardı. Bir gün küçədən keçirdim. Polisin cavan bir oğlanla kəkliyə görə dava etdiyini gördüm. Polis deyirdi: Bu quşu dalaşdırmaq istəyirsən? Ya mənə pul ver, ya da onu səndən alacağam. Cavan dedi: Mən bu quşu oxumağına görə saxlayıram. Nə vaxt onu dalaşdırdığımı gördün, məni tut və hər nə istəyirsən elə. Mən dayanıb gözləyirdim ki, görüm, işin axırı necə olacaq. Polis quşu oğlanın əlindən aldı və əli ilə onun başını bədənindən ayırıb, küçənin ortasına atdı. Sonra oğlana dedi: Hara istəyirsən, get, məndən şikayət et. Polis əlli addım getməmişdi ki, bir avtomobil gəlib polisi vurdu və onun üstündən keçdi. Maşın polisi iki yerə böldü.[1]

## *Qəlbiqırıq polkovnik*

Bir gün Rza şah şimaldakı mülkünə baş çəkmək və at yarışmasında iştirak etmək üçün Qorqana getmişdi. Öz səltənətinə daxil olanda o işçilərin bir neçəsini toplayıb, onlarla söhbət edirdi. Bu vaxt ordu komandiri olan bir polkovnik sənədlərlə daxil oldu. O, lazımı məlumatları verdi. O, bu məlumatların əsnasında bir pis hadisəni də nəql etdi. O, quldurların qonaqlarla çəkişdiyini və iki-üç nəfərin bu çəkişmədə öldüyünü xəbər verdi. Şah bu xəbərdən bərk qəzəblənərək onun üzünə möhkəm bir sillə vurdu. Və onu qovdu. Şah, qışqıraraq dedi: "Köpək oğlu! Bu nə xəbər idi mənə verdin?" Yazıq polkovnik günahsız yerə vuruldu və məclisdəkilərin qarşısında xəcalət çəkdi. O, narahat halda bir guşəyə çəkilib heç nə demədi. At yarışması başa çatdı və şah Qorqandan qayıtdı. Yolda şah bir

[1] "Bəhlulun xatirələri", səh. 265.

körpünü görmək üçün maşından düşdü. Bir neçə dəqiqədən sonra yenidən maşına mindi. Bu vaxt onun sürücüsü Yədullah, Əlahəzrətin əlinin qapının arasında olmasına diqqət etmədən qapını bağladı və onun əli yaralandı. Orada olanlar başa düşdülər ki, şahın əli polkovniki vurduğu üçün yaralandı.[1]

Peyğəmbər (s) buyurub: “Hər kəs müştərinin xəbəri olmadan ona eyibli mal satsa, Allah onu elə bir şəxsə düçar edər ki, satdığının müqabilində satıcının mallarını tələf edər.”[2]

## *Həzrət Zəhraya (əh.) təvəssül*

Həzrət Ayətullah üzma Hacı Seyid Məhəmməd Hadi Milaninin (rəh.) mərcəiyyət dövründə bir neçə xarici vətəndaş onunla görüşüb dedilər: “Biz də istəyirik ki, İslam dinini qəbul edək və müsəlman olaq.” Ayətullah Milani (rh) bunun səbəbini soruşdu. Onların arasında ən yaşlı olan bir kişi belə cavab verdi: “Biz Almaniyadan gəlmişik. Qızımın qabırğaları elə sınmışdı ki, həkimlər onu müalicə edə bilmirdilər. Xeyli pul xərcləndikdən sonra dedilər ki, gərək qabırğasında cərrahiyyə əməliyyatı aparaq. Amma qorxuludur. Qızım razı olmadı və dedi ki, yataqda ölmək, əməliyyat etdirməkdən yaxşıdır. Ona görə də onu evə gətirdik. Bizim Bibi adlı xadiməmiz var idi. Bir gün qızım onu çağırıb dedi: “Bibi! Bu dərd çox pis dərddir. Hazıram, xərclənmiş on iki milyonun üstünə səkkiz milyon da atamdan, qardaşımdan alıb əlavə edəm və bir həkimə verəm ki, məni sağaltsın. Amma məni sağalda biləcək bir həkimin olmasına inanmıram. Mən bu dünyadan nakam və qəmli gedəcəyəm.” Qız ağlayıb nalə etməyə başladı. Bibi dedi: Xanım, mən bir həkim tanıyıram. Xanım dedi: Bu pulu onda ona verirəm. Bibi söylədi: Pul lazım deyil. Mən seyidəm və Fatiməyi-Zəhranın (əh.) nəvəsiyəm. Onun da sənin kimi

[1] “Qozərqahe-ibrət”, səh. 117.
[2] “Nəhcül-fəsahə”, səh. 555.

qabırğaları sınmışdı. Əgər sağalmaq istəyirsənsə, ağlar halda de: “Ey qabırğası sınmış Fatimə!” Qızım ağlamağa və bu cümləni deməyə başladı: “Ey qabırğası sınmış Fatimə.” Bibi də evin bir küncünə çəkilib ağlayaraq dedi: “Ey Fatimeyi-Zəhra! Mən bu alman xəstəsini sənin qapına gətirmişəm.” Mən də gəlib həyətdə ağlar halda dedim ki, ey qabırğası sınmış Fatimə! Hamımız qəribə bir hal tapmışdıq. Birdən qızım qışqıraraq dedi: Ata gəl! Mən qorxu içində qızımın yanına getdim. Gördüm ki, qızım tamamilə sağalıb. Qızım söyləməyə başladı: “Gözəl bir xanım gəldi və qabırğama əlini çəkib buyurdu: Sağalacaqsan! Soruşdum: Siz kimsiniz? Buyurdu: Mən həmin şəxsəm ki, indi onu çağırdın. Mən qabırğası sınmış Fatiməyəm! İndi biz bu səbəbə görə gəlmişik ki, müsəlman olaq!”[1]

---

[1] “Ataş dər Hərəm”, səh. 106.

# Otuz səkkizinci məclis

## «TƏLAŞ—MÜVƏFFƏQİYYƏT RƏMZİ»

“İnsana ancaq öz zəhməti qalar! Şübhəsiz ki, onun zəhməti görünəcəkdir.”[1]

وَلاَ تَنسَ نَصِيبَكَ مِنَ الدُّنْيَا

“Dünyadakı nəsibini unutma.”[2]

Əli (ə) bu ayənin təfsirində buyurur:

وَلا تَنْسَ صِحَّتَكَ وَقُوَّتَكَ وَفراغَكَ وَشَبابَكَ وَنَشاطَكَ أَن تَطلُبَ بِها الْآخِرَةَ

“Yəni, sağlamlığını, gücünü, istirahətini, cavanlığını və əhval-ruhiyyəni unutma ki, onlarla əsl məqsədi—axirəti qazanmalısan.”[3]

## *Çalışmaq qələbənin rəmzi*

Peyğəmbər (s) buyurub:

بَادِرْ بِأَرْبَعٍ قَبْلَ أَرْبَعٍ شَبَابِكَ قَبْلَ هَرَمِكَ وَ صِحَّتِكَ قَبْلَ سُقْمِكَ وَ غِنَاكَ قَبْلَ فَقْرِكَ وَ حَيَاتِكَ قَبْلَ مَوْتِكَ

“Dörd şeyi, dörd şeyə yetişməzdən əvvəl qənimət bil: 1. Cavanlığı qocalmazdan əvvəl; 2. Sağlamlığı xəstələnməzdən əvvəl; 3. Dövləti kasıblıqdan əvvəl; 4. Həyatı ölümdən əvvəl.”[4]

İmam Kazim (ə) buyurub:

إِيَّاكَ وَ الْكَسَلَ وَ الضَّجَرَ فَإِنَّكَ إِنْ كَسِلْتَ لَمْ تَعْمَلْ وَ إِنْ ضَجِرْتَ لَمْ تُعْطِ الْحَقَّ

---

[1] “Nəcm” surəsi, ayə: 39-40.
[2] “Qəsəs” surəsi, ayə: 77.
[3] “Məcmueyi-vərram”, c. 2, səh. 165.
[4] “Vəsailüş-şiə”, c. 16, səh. 83.

“Tənbəllikdən pəhriz et. Çünki əgər tənbəllik etsən, heç nəyə nail olmazsan. Əgər yorğun olsan, Allahın haqqını əda edə bilməzsən.”[1]

Əli (ə) buyurub:

قَدْ سَعَدَ مَنْ جَدَّ

“Çalışan şəxs səadətə və müvəffəqiyyətə çatar.”[2]

## *Əbu Cərananin uğuru*

Dözümlülükdə ad qazanan Əbu Cəranə bunu “cəranə” adlı bir həşəratdan öyrənmişdir. O deyir: “Dəməşq şəhərinin cümə məscidində hamar bir sütunun yanında oturmuşdum. Gördüm, bir böcək istəyir ki, sütunun hamar daşının üstü ilə qalxıb, sütunun yuxarısındakı çırağın kənarında otursun. Mən getdiyim vaxtdan sübhə qədər sütunun yanında oturub bu mənzərəyə tamaşa etməyə başladım. O, düz yeddi yüz dəfə yuxarı qalxsa da, amma yarı yola çatanda ayağı sürüşüb yerə düşürdü. Mən namaz vaxtı dəstəmaz alıb namaz qıldım. Namazdan sonra onun məqsədinə çatıb çırağın kənarında oturduğunu gördüm.”[3]

Həzrət Əli (ə) buyurub:

اَرْبَعَةُ اَشياءٍ لا يعرِفُ قَدرَها اِلّا اَربَعةٌ: اَلشَّبابُ لا يَعْرِفُ قَدرَهُ اِلّا الشُّيوخُ، وَالْعافِيَةُ لا يَعْرِفُ قَدرَها اِلّا اَهلُ البَلاءِ، وَالصِّحَةُ لا يعرِفُ قَدرَها اِلّا الْمَرضيٰ، وَالحَيٰوةُ لا يَعرِفُ قَدرَها اِلّا الْمَوتيٰ

“Dörd şeyin qədrini dörd kəsdən başqa heç kim bilməz: 1. Cavanlığı qocalar; 2. Rahatlığı çətinliyə düşənlər; 3. Sağlamlığı xəstələr; 4. Həyatı ölülər.”[4]

---

[1] “Əlkafi”, c. 5, səh. 85.
[2] “Qürərul-hikəm”, səh. 444.
[3] “Rəmze müvəffəqiyyəte büzürgan”, səh. 202.
[4] “Əl-Məvaizil-ədədiyyə”, səh. 218.

## *Padşah qızının elçiliyi*

Bir neçə dərviş ağıllı və insaflı padşahı olan bir şəhərə daxil oldular. Onlar şəhərin divarında bu sözlərin yazıldığını gördülər: “İnsan səy və təlaşla istədiyi arzuya çata bilər.” Onlar öz-özlərinə dedilər: Gərək bu sözü sınayaq görək düzdürmü? Buna görə də qərara aldılar ki, padşahın qızına elçilik etsinlər. Onlar şahın sarayına gəlib əyanlara dedilər: Biz sizin şahın qızına elçi gəlmişik. Onlar bu sözü eşidəndə təəccüb etdilər. Çox israr edəndən sonra onları şahın hüzuruna buraxdılar. Onlar şaha ehtiram edəndən sonra dedilər ki, biz sizin qızınıza elçi gəlmişik. Şah insaflı və ağıllı olduğundan onları narahat etməmək məqsədi ilə dedi: Mən bir şərtlə qızımı sizlərdən birinizə verərəm. Mən üzüyümü dənizin ən dərin yerinə atıram. Əgər siz onu tapıb gətirsəniz, qızımı sizlərdən birinizə ərə verəcəyəm. Şah üzüyünü dənizə atdı. Dərvişlər çox axtardılar, amma üzüyü tapa bilmədilər. Bu vaxt onlar bir neçə dalğıcla rastlaşdılar. Dalğıclar tez bir zamanda üzüyü tapıb şahın hüzuruna gətirdilər. Şah üçün çox çətin olsa da, vədəsinə əməl edəcəyini bildirdi. Onlar şahın bu işi görəcəyini yəqin edəndə dedilər: “Bizimlə sənin qızının arasında uyğunluq yoxdur. Biz sənin qızınla evlənmək istəmirdik. Bilmək istəyirdik ki, insan əgər səy və təlaş etsə, məqsədinə yetişə bilərmi. Indi bu mətləbin doğruluğu bizə sübut oldu.”

Edisson deyir: “Mənim ixtiralarımın heç biri təsadüfi olmayıb. O vaxt ki, bir işin nəticə verəcəyinə inanıram, özümü əziyyətə salıb səy və təlaş edirəm. Axırda müvəffəq oluram.”

Nyuton deyir: “Mənim bu yerə çatmağım səy və təlaşın nəticəsidir.” Ondan soruşdular: Necə bu kəşfləri etməyə nail oldunuz? O dedi: Daimi fikir və təfəkkürlə.

Belə deyirlər: “Bir mövzu haqda o qədər fikirləşirdi ki, həmin mövzu onun üçün gün kimi aydın olurdu.”

## *Şeyx Ənsarinin müvəffəqiyyətinin sirri*

Əlbəttə, hər işdə çalışmaq və səy etmək mütləq şərtdir, amma kifayət deyil. Gərək Allaha təvəkkül və imamlara təvəssül unudulmaya. Çünki bunlar insanın müvəffəqiyyətində əsas rol oynayır. Şeyx Ənsari (rh) haqda yazırlar: "O, həddi-buluğa çatandan sonra vacibatdan əlavə aşağıdakı müstəhəb əməlləri hər gün yerinə yetirirdi: 1. Bir cüz Quran oxumaq; 2. Cəfər Təyyar namazı; 3. Ziyarəti Came; 4. Ziyarəti Aşura."[1]

## *Masqara olunan yeddi şey*

İmam Rza (ə) buyurub: "Yeddi şey masqara olunur: 1. Dildə tövbə edib əməldə tövbə etməyən şəxs; 2. Allahdan uğur istəyib, təlaş etməyən şəxs; 3. Cənnət müştağı olub, bəlaların və çətinliklərin qarşısında səbir etməyən şəxs; 4. Cəhənnəm odundan Allaha pənah aparan, amma dünyanın qeyri-şəri ləzzətlərini edən şəxs; 5. Ölümü xatırlayıb, ona hazır olmayan şəxs; 6. Allahı yad edib, onun görüşünə müştaq olmayan; 7. Günahı israr edib, tövbə etmədən Allahdan əfv tələb edən şəxs."[2]

Əli (ə) buyurub:

لَو صَحَّ الْعَقْلُ لَاغْتَنَمَ كُلُّ امْرِئٍ مُهَلَهُ

"Ağıllı şəxs fürsətləri qənimət bilər və ondan yaxşı istifadə edər."[3]

---

[1] " Şeyx Ənsarinin həyatı və şəxsiyyəti", səh. 90.

[2] "Nəsayih", səh. 272.

[3] " Qürərül-hikəm", 604.

## *Alimlərin müvəffəqiyyətlərindəki sirr*

Məşhur filosof İbn Rüşd haqda yazırlar: "O, bütün ömrünü yazı-pozuya həsr etmişdir. Yalnız iki gecə—zifaf[1] gecəsi və anasının vəfat etdiyi gecədən başqa."

Ayətullah Gülpayqani (rəh.) deyir: "Feyziyyə mədrəsəsində oxuyanda bərk xəstələnmişdim və qızdırmam var idi. Dostlarıma dedim ki, məni yataqla birlikdə minbərin arxasına aparın, ustadın dərsindən məhrum olmayım."

Ayətullah Bürucerdi (rəh.) ilə birlikdə dərs oxuyan alimlərdən biri nəql edir: "Mən mədrəsədə ağanı heç vaxt kitabsız görmədim. Onun əlində həmişə kitab var idi. Hətta, tətillərdə də mütaliə edirdi."

## *İmam Kazimın (ə) müsibəti*

İmam Kazimın (ə) məqamı həzrət Yusifdən (ə) üstündür. Çünki Yusif (ə) zindanda olanda yalnız oradan çıxmaq fikrində idi. Amma imam Kazim (ə) Harun Ər-rəşidin zindanında olanda həmişə Allaha şükür edirdi ki, Allaha ibadət etmək üçün xəlvət bir yer tapıb. Baxmayaraq ki, Yusif (ə) özü zindanı seçmişdi. Amma dustaqlardan biri azad olanda ona sifariş edirdi ki, onun da azadlığının fikrində olsun. Amma imam Kazim (ə) belə etmirdi. Hədisdə gəlmişdir ki, Harunun əmri ilə bir az xurma alıb gətirdilər. Harun, ondan iyirmi birini ayırıb onlara zəhərli iynə batırdı. Xadimə dedi: "Musa ibn Cəfərə de ki, Harun bunlardan yeyib və bir az da sizə göndərib yeyəsiniz!"[2] Nəql olunmuşdur ki, İmamın axır saatlarında camaatın gözündən pərdə asmaq üçün həkim gətirdilər. Həkim soruşdu: Halınız necədir? İmam cavab vermədi. Həkim israr edəndən sonra İmam əlinin içinin sarısını ona göstərdi. Həkim Harunun yanına gəlib dedi: Allaha and olsun, ona zəhər

[1] Toy gecəsi.
[2] "Biharul-ənvar", c. 48, səh. 247.

verdiyinizi sizdən yaxşı bilir. İmam həmin zəhərin təsirindən şəhid oldu. Onun cənazəsini tabuta qoyub qəribcəsinə zindandan xaric etdilər. Cənazənin qarşısında bir şəxs fəryad edirdi: “Bu Rafizilərin imamının cənazəsidir, onu tanıyın.”[1]

[1] “İrşad” (Şeyx Müfid), c. 2, səh. 234.

# Otuz doqquzuncu məclis

**«TÖVBƏ»**

"O müttəqilər ki, bir günah işi gördükləri, yaxud özlərinə zülm etdikləri zaman Allahı yada salıb (tövbə edərək) günahlarının bağışlanmasını istəyirlər. Axı, günahları Allahdan başqa kim bağışlaya bilər? Və onlar etdiklərini bildikdə bir daha ona qayıtmazlar."[1]

İmam Sadiq (ə) buyurub:

**التَّائِبُ مِنَ الذَّنْبِ كَمَنْ لَا ذَنْبَ لَه**

"Günahdan tövbə edən şəxs günah etməmiş kimidir."[2]

## *Allah necə "səttar"dır?*

İmam Sadiq (ə) buyurub:

**إِذَا تَابَ الْعَبْدُ تَوْبَةً نَصُوحاً أَحَبَّهُ اللَّهُ فَسَتَرَ عَلَيْهِ فِي الدُّنْيَا وَ الْآخِرَةِ فَقُلْتُ وَ كَيْفَ يَسْتُرُ عَلَيْهِ قَالَ يُنْسِي مَلَكَيْهِ مَا كَتَبَا عَلَيْهِ مِنَ الذُّنُوبِ وَ يُوحِي إِلَى جَوَارِحِهِ اكْتُمِي عَلَيْهِ ذُنُوبَهُ وَ يُوحِي إِلَى بِقَاعِ الْأَرْضِ اكْتُمِي مَا كَانَ يَعْمَلُ عَلَيْكِ مِنَ الذُّنُوبِ فَيَلْقَى اللَّهَ حِينَ يَلْقَاهُ وَ لَيْسَ شَيْءٌ يَشْهَدُ عَلَيْهِ بِشَيْءٍ مِنَ الذُّنُوبِ**

"Bir bəndə xalis tövbə edən zaman Allah onu sevir və günahlarını örtür." Ravi soruşdu: Allah necə

---

[1] "Ali-İmran" surəsi, ayə: 135.
[2] "İrşadi-qlub", c. 1, səh. 183.

“səttar”dır? Buyurdu: “İnsanın əməllərini yazan mələklər tövbə edənin günahlarını unudur. Allah günahkarın bədəninə, günah etdiyi yerə əmr edir ki, onun günahını gizlətsin. Allahın hüzuruna gedəndə onun günah etməsinə heç bir şahid olmasın.”[1]

İmam Əli (ə) buyurub:

عَجِبْتُ لِمَنْ يَقنُطُ وَمَعَهُ الْاِسْتِغْفارُ

“Təəccüb edirəm o kəsə ki, istiğfar etmə mümkün olduğu halda Allahın rəhmətindən naümiddir.”[2]

Peyğəmbər (s) buyurub:

يا عَلِيُّ! مَنْ صَلَّىٰ عَلَيَّ كُلَّ يَوْمٍ أَوْ كُلَّ لَيْلَةٍ وَجَبَتْ لَهُ شَفَاعَتِي وَ لَوْ كَانَ مِنْ أَهْلِ الْكَبَائِرِ

“Ey Əli! Hər kəs hər səhər, yaxud hər gecə mənə salavat göndərsə, mənim şəfaətim ona vacib olar, hətta böyük günahların sahibi olsa da (şəfaətin şərti tövbə edib, günahı tərk etməkdir).”[3]

Quranda təqribən tövbənin qəbulu və Allahın bəndələrinə olan rəhməti haqda altı yüz ayə vardır. Şəriət cəhətdən ən böyük günah Allahın məğfirətindən və bağışlamağından ümidsiz olmaqdır. Buna görə də günah nə qədər böyük olsa, tövbə ilə insan özünə nicat verə bilər. Peyğəmbər (s) bu haqda buyurub: “İnsanların ən yaxşısı günahdan sonra peşiman olub, Allahdan bağışlanmaq diləyən şəxslərdir.” “Tövbə edən cavanın əcri Həzrət Zəkəriyyanın (ə) əcri kimidir.” “Ali – Mühəmmədin (s) məhəbbəti ilə ölən, tövbə edən hesab olunur.”[4]

İmam Sadiq (ə) buyurub:

---

[1] “Üsuli-kafi”, c. 2, səh. 436.
[2] “Nəhcül-bəlağə”, səh. 482.
[3] “Müstədrəkül-vəsail”, c. 5, səh. 334.
[4] “Nəsayih”, səh. 330.

لَا يَكُونُ الْعَبْدُ مُؤْمِناً حَتَّى يَكُونَ خَائِفاً رَاجِياً

"Qorxu və ümid arasında yaşamayan mömin sayılmaz."[1]

## *Saleh və fasiqin aqibəti*

Bir qadının iki oğlu var idi. Onların biri fasiq, o birisi isə saleh və zahid idi. Saleh övlad xəstələnib, vəfat etdi. Hərçənd ki, hər ana oğlunu əldən verəndə ah-nalə edir. Amma onun anası ah-nalə etmədi. Təsadüfən, o biri övladı da xəstələndi və can verən halda gördü ki, anası ahu-zar edir. Anasına dedi: Niyə görə qardaşımın saleh olmasına baxmayaraq, onun ölümünə mənim ölümüm qədər kədərlənmədin? Ana dedi: Çünki sənin saleh əməlin yoxdur. Ona görə də qorxuram ki, pis əməllərinə görə əzaba düçar olasan. Oğlu dedi: Ey ana! Qəmgin olma, çünki, mən, inşaallah cənnət əhli olacağam. Anası soruşdu: Bu necə ola bilər? Dedi: Çünki sən yalnız məni doqquz ay qarnında gəzdirib, iki il mənə süd vermisən bu qədər narahatsan və mənə ürəyin yanır. Gör, onda mənim xaliqim olan Allah nə qədər mənim fikrimdədir! O vəfat etdi. Anası onu yuxuda gördü. O, çox şad idi. Ondan bunun səbəbini soruşdular. O, dedi: Mənim Allahın rəhmətinə ümidim olduğuna görə bağışlandım.

## *Tövbənin şərtləri*

Həzrət Əli (ə) buyurub: "Həqiqi tövbənin altı şərti var: 1. Etdiyin əməlinə görə peşiman olmaq və o günahı bir daha etməmək qərarına gəlmək; 2. Camaatın haqqını qaytarmaq. Ölüm vaxtı gərək boynunda heç kimin haqqı olmasın; 3.Tərk etdiyin vacibatı yerinə yetirmək; 4. Günahlardan bədənində əmələ gələn əti itaətlə məhv etmək; 5. İbadətin əziyyətini və

---

[1] "Müstədrəkül-vəsail", c. 11, səh. 224.

çətinliyini duymaq necə ki, günahın şirinliyini duyub; 6. Bu qeyd olunanlarla birlikdə desin: Əstəğfirullah.” “Günaha görə ağlamaq, günahların kəffarəsidir. Allah –təala buyurur: “Əgər bəndələrim tövbə edib daha günahı təkrarlamasalar, onları dünyadan elə pak apararam ki, elə bil təzə dünyaya gəlib.”[1]

## *Xoşbəxtlik və bədbəxtliyin səbəbləri*

İblis beş xüsusiyyətə görə bədbəxt oldu: 1. Günahını etiraf etmədi; 2. Etdiyindən peşiman olmadı; 3. Özünü məzəmmət etmədi; 4. Tövbə etmək qərarına gəlmədi; 5. Allahın rəhmətindən naümid oldu.

Amma Həzrət Adəm (ə) beş xüsusiyyətə görə xoşbəxt oldu: 1. Əməllərini etiraf etdi; 2. Etdiyi əməldən peşman oldu; 3. Özünü məzəmmət etdi; 4. Tövbə etməyə tələsdi; 5. Allahın rəhmətinə ümidvar oldu.

## *İblisin andı*

İblis Allahın rəhmətindən uzaqlaşanda Allaha dedi: Əzəmətinə and olsun ki, insanı ölənə qədər günaha sövq edəcəyəm. Allah-təala da buyurdu: “İzzət və cəlalıma and olsun, tövbə qapısını canı çıxana qədər bəndəmin üzünə bağlamayacağam!”[2]

Peyğəmbər (s) buyurub: “Hər kim ölümündən bir il əvvəl tövbə etsə, Allah onun tövbəsini qəbul edər.” Sonra buyurdu: “Bir il çoxdur. Əgər bir ay qabaq tövbə etsə, Allah onu bağışlayar.” Yenə də buyurdu: “Bir ay da çoxdur. Hər kim bir həftə əvvəl tövbə etsə, Allah tövbəsini qəbul edər.” Peyğəmbər

---

[1] “Nəsayih”, səh. 267.
[2] “Biharul-ənvar”, c. 6, səh. 16.

(s) yenə buyurdu: “Bir həftə də çoxdur. Hər kim bir gün qabaq tövbə etsə, bağışlayan Allah onun tövbəsini qəbul edər.”[1]

Həzrət Loğman (ə) oğluna buyurdu:

يَا بُنَيَّ لَا تُؤَخِّرِ التَّوْبَةَ فَإِنَّ الْمَوْتَ يَأْتِي بَغْتَةً

“Ey oğul! Tövbəni təxirə salma. Çünki ölüm gözlənilmədən gəlir.”[2]

## *Hürrün müsibəti*

Bəzi hədislərdə belə gəlmişdir: İmam Hürrün tövbəsini qəbul edəndən sonra Hürr Həzrətdən onun ailəsindən üzr istəmək üçün icazə aldı. İmam icazə verdi. Hürr xeymənin yanına gəlib ağlar halda dedi: “Ey Peyğəmbərin (s) ailəsi, salam olsun sizə. Mən sizin yolunuzu kəsən, qəlbinizi sındıran və sizi qorxudan şəxsəm. İndi peşmanam, bağışlanmaq ümidi ilə sizə pənah gətirmişəm. Məni bağışlayın. Fatimənin (əh.) yanında məndən şikayət etməyin.” Onun qəmli sözləri qadınlarda elə təsir qoydu ki, onlar nalə və ahu-zar etdilər. Hürr bu vəziyyəti görəndə ucadan ağladı və başına torpaq tökərək dedi: Kaş əlim-ayağım şikəst olaydı, bu işi görməyəydim. Kaş yolunuzu kəsməyəydim. Əhli-beytdən bəziləri ona ürək dirək verdilər və onun üçün dua etdilər ki, o sakit olsun.[3]

Hürr İmama dedi: “Sizin yolunuzda ilk şəhid şəxs olmaq istəyirəm. Bəlkə qiyamətdə baban Peyğəmbərlə (s) görüşən şəxslərdən olam.” İmam ona döyüşə getmək üçün icazə verdi. Hürr əvəzedilməz bir şücaətlə döyüşdü. Qarşı tərəfdən qırxdan çox döyüşçü öldürəndən sonra şəhid oldu. Səhabələr onun cənazəsini İmamın hüzuruna gətirdilər. Həzrət onun üzünün qanını silib buyurdu: “Sən azadsan. Necə ki, anan səni belə adlandırıb. Sən dünya və axirətdə azadsan.”

---

[1] “Üsuli-kafi”, c. 2, səh. 441.

[2] “Biharul-ənvar”, c. 71, səh. 307.

[3] “ Süqnameyi-Ali Məhəmməd”, səh. 253.

# Qırxıncı məclis

**«MƏAD»**

"Bütün insanlar ölüm şərbətini dadacaq və sonra hamı bizə tərəf qayıdacaq."[1]

Peyğəmbər (s) buyurub:

**غَمُّ الْمَوْتِ كَفَّارَةُ الذُّنُوب**

"Ölüm qəmi günahların kəffarəsidir."[2]

İmam Baqirdən (ə) soruşdular: Ölüm nədir? Buyurdu:

**هُوَ النَّوْمُ الَّذِي يَأْتِيكُمْ كُلَّ لَيْلَةٍ إِلَّا أَنَّهُ طَوِيلٌ مُدَّتُهُ لَا يُنْتَبَهُ مِنْهُ إِلَّا يَوْمَ الْقِيَامَةِ**

"Ölüm, həmin yuxudur ki, hər gecə müəyyən bir vaxtda sizin sorağınıza gəlir. Amma ölüm isə uzun bir yuxudur və bu yuxudan ayılmaq qiyamət günündədir."

Həzrət Əli (ə) buyurub:

**مَا أَكْثَرَ الْعِبَرَ وَ أَقَلَّ الِاعْتِبَارَ**

"İbrətlər nə qədər çox, ibrət götürən isə çox azdır."[3]

**إِذاْ أَرَدْتَ صَّاحِباً فَاللَّهُ يَكْفِيكَ وَ إِنْ أَرَدْتَ الرَّفِيقَ فَالْكِرَامُ الْكَاتِبُونَ تَكْفِيكَ وَ إِنْ أَرَدْتَ الْمُونِسَ فَالْقُرْآنُ يَكْفِيكَ وَ إِنْ أَرَدْتَ الْعِبْرَةَ فَالدُّنْيَا تَكْفِيكَ وَ إِنْ أَرَدْتَ الْعَمَلَ فَالْعِبَادَةُ تَكْفِيكَ وَ إِنْ أَرَدْتَ الْوَعْظَ فَالْمَوْتُ يَكْفِيكَ وَ إِنْ لَمْ يَكْفِكَ مَا ذَكَرْتُ فَالنَّارُ يَوْمَ الْقِيَامَةِ تَكْفِيكَ**

"Əgər həmsöhbət istəyirsən, Allah sənə kifayətdir. Əgər dünyanı istəyirsən, ibrət götürmək sənə kifayət edər. Əgər dost istəyirsən, kiraməl-katibin (pis və

---

[1] "Ənkəbut" surəsi, ayə: 57.
[2] "Biharul-ənvar", c. 73, səh. 16.
[3] "Nəhcül-bəlağə", səh. 528.

yaxşı əməlləri yazan mələklər) sənə kifayətdir. Əgər iş və sənət istəyirsən, ibadət sənə kifayət edər. Əgər munis istəyirsən, Quran sənə kifayətdir. Əgər moizə istəyirsən, ölüm sənə bəsdir. Əgər qeyd olunanlar sənə kifayət deyilsə, bu vaxt cəhənnəm odu sənə kifayət edər."[1]

## *Qəribə ölüm*

Məşhur xətiblərdən biri deyib: "Bir məclisə moizə etmək üçün dəvət olunmuşdum. Məni ora aparan sürücü maraqlı bir hadisə nəql etdi. O belə söylədi: Mənim bir dostum var idi. Bir gün bərk xəstələndiyini eşidib onun görüşünə getdim. Halını soruşdum O dedi: Mənim ömrüm qurtarıb. Bu xəstəlik məni məhv edəcək. Ona görə də sizdən halallıq istəyirəm. Məni bağışla. Ona ürək-dirək verdim və onu halal etdiyimi bildirdim. Onunla xudahafizləşib otağından çıxdım. Həyətdə onun həyat yoldaşının qənd doğradığını gördüm. Ondan soruşdum ki, bu qədər qəndi neyləyirsən? "Özün də gördün ki, ərimin vəziyyəti necədir. Onun yaşamasına ümidim yoxdur. Bu qəndləri onun yas məclisi üçün hazırlayıram,"—dedi. Bu sözü eşidəndə çox narahat oldum. Səkkiz gündən sonra qapısına çatanda qapının üstündəki qara parça ilə rastlaşdım. Amma qapını açan şəxs məni çox təəccübləndirdi. O, mənim dostum idi. O mənə dedi: Təəccüb etmə! Sən bizim evdən çıxandan sonra, xanımım qəndi doğradığı vaxt infarkt keçirtdi və öldü. Amma mən Allahın istəyi ilə sağaldım."

Peyğəmbər (s) bu barədə belə buyurub: "Hər kim sabahı ömürdən saysa, ölümü yaxşı tanımamışdır."[2]

Allah-təala Quranda buyurur:

---

[1] "Müstədrəkül-vəsail", c. 8, səh. 244.
[2] "Nəhcül-fəsahə", səh. 598.

إِذَا جَاء اَجَلُهُمْ لاَ يَسْتَاْخِرُونَ سَاعَةً وَلاَ يَسْتَقْدِمُونَ

"O zaman ki, onların əcəli yetişdi, bir an gecikməz və irəli getməz."

## *Altı kəlmədə altı yüz min kəlmə*

Peyğəmbər (s) buyurub:

يا عَلِيُّ! تُرِيْدُ سِتَّمِأَةِ اَلْفِ شاةٍ او سِتَّمِأَةِ اَلْفِ دِيْنارٍ اَوْسِتَّمِأَةِ اَلْفِ كَلِمَةٍ؟ قالَ: يا رَسُولَ اللهِ، سِتَّمِأَةِ اَلْفِ كَلِمَةٍ. فَقالَ: اَجْمَعُ سِتَّمأةِ اَلْفِ كَلِمَةٍ فِي سِتِّ كَلِماتٍ، ياعليُّ! اِذا رَأَيْتَ النّاسَ يَشْتَغِلُونَ بِالفَضائِلِ (بِالنَّوافِلِ) فَاشْتَغِلْ اَنْتَ بِاِتْمامِ الفَرائِضِ، وَاذا رَأَيْتَ النّاسَ يَشْتَغِلُونَ بِعَمَلِ الدُّنيا فَاشْتَغِلْ اَنتَ بِعَمَلِ الآخِرَةِ، وَاذا رَأيتَ النّاسَ يَشْتَغِلُونَ بِعُيُوبِ النّاسِ فَاشْتَغِلْ اَنْتَ بِعُيوبِ نَفْسِك، واذا رَأيتَ النّاسَ يَشتَغِلُونَ بِتَزْيِينِ الدُّنيا فَاشْتَغِلْ اَنتَ بِتَزيِينِ الآخِرةِ، وَاِذا رَأيتَ النّاسَ يَشتَغِلُونَ بِكَثْرَةِ العَمَلِ فَاشْتَغِلْ اَنتَ بِصَفوَةِ العَمَلِ، وَاذا رَأيتَ النّاسَ يَتَوَسَّلُونَ بِالْخَلْقِ فَتَوَسَّلْ اَنتَ بِالْخَالِقِ

"Ey Əli! Altı yüz min qoyun istəyirsən, ya altı yüz min dinar, yaxud, altı yüz min kəlmə? Ərz etdi: Altı yüz min kəlmə istəyirəm. Peyğəmbər (s) buyurdu: Altı yüz min kəlməni altı kəlmədə xülasə edirəm. Ey Əli! Camaat müstəhəb işlərlə məşğur olarkən, sən vacib işləri yerinə yetir. Camaat dünya üçün çalışarkən, sən axirət üçün çalış. Camaat başqalarının eyiblərini axtararkən, sən öz eyiblərinlə məşğul ol. Camaat dünyasını bəzəyərkən, sən axirətini bəzə. Camaat əməllərini artırarkən, sən xalis əməl üçün zəhmət çək. Camaat məxluqa əl açarkən, sən isə Xaliqə əl uzat."[1]

## *Vəsiyyət edib ölən şəxs şəhiddir*

Peyğəmbər (s) buyurub:

[1] "Əl-Məvaizül-ədədiyyə", səh. 293.

مَنْ مَاتَ عَلَى وَصِيَّةٍ حَسَنَةٍ مَاتَ شَهِيداً

"Hər kim yaxşı vəsiyyət edib ölsə, şəhiddir."[1]

لَا يَنْبَغِي أَنْ يَبِيتَ إِلَّا وَ وَصِيَّتُهُ تَحْتَ رَأْسِهِ

"Müsəlman üçün yaxşı deyil ki, gecəni səhərə çıxa, amma vəsiyyəti başının altında olmaya."[2]

مَنْ مَاتَ بِغَيْرِ وَصِيَّةٍ مَاتَ مِيتَةً جَاهِلِيَّةً

"Vəsiyyətsiz ölən şəxs, cahiliyyət dövründə ölmüş kimidir."[3]

Peyğəmbər (s) buyurub: "Ölünün vəsiyyətinə əməl olunmayan evə Allahın rəhməti nazil olmaz."[4]

## *Ölünün gözünün açıq qalmasının səbəbi*

Bəzilərinin gözü ölən vaxt açıq qalır. Hədislərdə onun səbəbi belə qeyd olunur. İnsanın əcəli çatanda əcəl, ona bir an da olsun belə yaşamaq icazəsi vermir. Hətta, gözü açıb-bağlamaq qədər. Ona görə də əgər can verənin gözü açıq qalsa, onu bağlamağa macal tapmır.

## *Ölüm və min qılınc zərbəsi*

Peyğəmbər (s) buyurub: "Əzrailin can almasının ağrısı min qılınc zərbəsindən daha çoxdur."[5]

Əlbəttə, ölüm mömin insanlar üçün xoş ətirli bir gülü iyləmək kimidir. Peyğəmbər (s) bu barədə buyurur:

الْمَوتُ رِيحا نَةُ الْمُؤمِن

---

[1] "Müstədrəkül-vəsail", c. 2, səh. 118.
[2] "Vəsailüş-şiə", c. 19, səh. 258.
[3] "Vəsailuş-şiə", c. 19, səh. 259.
[4] "Nəsayih", səh. 268.
[5] "Nəhcül-fəsahə", səh. 484.

“Ölüm möminin ətirli gülüdür.”[1]

Bəzi möminlərin çətin can verməsinin səbəbi, onları bu dünyada gördüyü bəzi xəta və günahlardan paklamaq üçündür.

## *Qəbir sıxıntısının səbəbləri*

Həzrət Əli (ə) buyurub:

عَذَابُ الْقَبْرِ يَكُونُ مِنَ النَّمِيمَةِ وَ الْبَوْلِ وَ عَزَبِ الرَّجُلِ عَنْ أَهْلِهِ

“Qəbir əzabı və sıxıntısının səbəbi üç şeydir; 1. Xəbərçilik; 2. İdrar və nəcasətə əhəmiyyətsiz yanaşmaq; 3. Kişinin ailəsindən uzaqlaşması.”[2]

Peyğəmbər (s) buyurub:

ضَغْطَةُ الْقَبْرِ لِلْمُؤْمِنِ كَفَّارَةٌ لِمَا كَانَ مِنْهُ مِنْ تَضْيِيعِ النِّعَمِ

“Möminin qəbir sıxıntısı zay etdiyi nemətlərin kəffarəsidir.”[3]

## *Qəribə və daha qəribə*

Bir şəxs İmam Əliyə (ə) dedi: Dörd sualım var. Həzrət buyurdu: Qırx sualın da olsa, soruş. Dedi: Vacib nədir, vacibdən də vacib nədir? Yaxın nədir və ən yaxın nədir? Qəribə nədir və qəribədən də qəribə nədir? Çətin nədir və ən çətin nədir? Həzrət cavab verdi: “Allaha itaət etmək vacibdir, ondan da vacibi günahı tərk etməkdir. Qiyamət yaxındır, ondan da yaxını ölümdür. Dünya qəribədir, ondan da qəribəsi dünyaya bağlanmaqdır. Qəbir əzabı çətindir, ondan da çətini azuqəsiz dünyadan getməkdir.[4]

---

[1] “Nəvadiri-Ravəndi”, səh. 10.
[2] “İləlüş-şəraye”, c. 1, səh. 310.
[3] Həmin mənbə.
[4] “Nəsayih”, səh. 219.

Peyğəmbər (s) buyurub: “Müsəlmanların ən yaxşısı çox qənaət edən, ibadətini yaxşı yerinə yetirən və axirətə görə səy və təlaş edən şəxsdir.”

## *Yeddi yüz alimdən beş sual*

Şəqiq ibn İbrahim deyir: Yeddi yüz alimdən beş sual soruşdum. Hamısı eyni cavabı verdi. Soruşdum: Ağıllı kimdir? Dedilər: Dünyaya məhəbbət bəsləməyən şəxs. Dedim: Ən çevik insan kimdir? Dedilər: Dünyaya aldanmayan şəxs. Dedim: Ən varlı kimdir? Dedilər: Allahın verdiyinə razı olan şəxs. Soruşdum: Kasıb kimdir? Dedilər: Həmişə artıq istəyi olan şəxs. Soruşdum: Paxıl kimdir? Dedilər: Allahın haqqını ödəməyən şəxs.[1]

## *Səkkiz tələbkar*

**كَيْفَ أَصْبَحْتَ يَا اباالحسنِ فقَالَ يا رسول الله أَصْبَحْتُ مُطالَباً بِثَمانِ خِصَالٍ: اللَّهُ تَعَالىٰ يُطالِبُنِي بِالْفَرَائِضِ وَ انتَ بِالسُّنَّةِ وَ الْمَلَكانِ بِصِدقِ اللِّسانِ وَ مَلَكُ الْمَوْتِ بِالرُّوحِ وَ الْعِيَالُ بِالْقُوتِ وَ الشَّيْطَانُ بِالْمَعْصِيَةِ وَ النَّفْسُ بِالشَّهْوَةِ وَ الدُّنيا بِالرَّغبَةِ**

Bir gün Peyğəmbər (s) Əlidən (ə) soruşdu: “Necəsiniz?” Əli (ə) ərz etdi: “Mənim halım səkkiz tələbkarı olan şəxs kimidir. Allah-təala məndən vacibləri tələb edir. Siz sünnəyə əməl etməyi tələb edirsiniz. Mələklər doğru danışmağı istəyirlər. Ölüm mələyi ruhu tələb edir. Ailə onların xərcini ödəməyi istəyir. Şeytan günah tələb edir. Nəfsi-əmmarə şəhvət tələb edir. Dünya isə ona rəğbət bəsləməməyi tələb edir.”[2]

---

[1] “Əlməvaziul-ədədiyyə”, səh. 278.
[2] “Əl-Məvaizul-ədədiyyə”, səh. 340.

İmam Sadiq (ə) buyurub:

مَنْ كَانَ مَعَهُ كَفَنُهُ فِي بَيْتِهِ لَمْ يُكْتَبْ مِنَ الْغَافِلِينَ وَ كَانَ مَأْجُوراً كُلَّمَا نَظَرَ إِلَيْهِ

“Hər kəs kəfən hazırlayıb evində saxlasa, qafillərdən yazılmaz ( hesab edilməz ). Hər vaxt ona baxsa, onun üçün əcr və savab yazılar.”[1]

## *Həzrət Zəhranın (əh.) müsibəti*

Bəşşar Məkari, İmam Sadiqə (ə) bir hadisə nəql etdi: Yolda hökumət məmurunun bir qadının başına vuraraq, zindana apardığını gördüm. Qadın uca səslə deyirdi: “Allahdan və peyğəmbərlərdən başqa heç kimə pənah aparmaram.” İmam Sadiq (ə) buyurdu: Nə üçün o qadını vurub zindana aparırdılar? Camaatdan eşitdim ki, onun ayağı büdrəyib yıxılarkən, belə deyibmiş: “Ey Fatimə! Allah sənə zülm edənləri öz rəhmətindən uzaq etsin!” Məmurlar da bu sözə görə onu tutub vururdular. İmam bu sözü eşidəndə o qədər ağladı ki, mübarək saqqalı və dəsmalı islandı. Sonra buyurdu: Ey Bəşşar! Qalx, gedək Səhlə məscidinə, o qadının azad olması üçün dua edək və Allahdan onu qorumasını istəyək...

---

[1] “Üsuli-kafi”, c. 3, səh. 256.

# İKİNCİ FƏSİL

## «HƏR MƏSUMDAN QIRX HƏDİS»

# Həzrət Peyğəmbərdən (s) qırx hədis

**-1-**

**ياعليُّ، لِلْاَحْمَقِ ثَلاثُ عَلاماتٍ: اَلتَّهاوُنُ في فَرائِضِ اللهِ وَالاِسْتِهْزاءُ بِعبادِ اللهِ وَكَثْرَةُ الْكَلامِ في غَيرِ ذِكْرِ اللهِ**

“Ey Əli! Axmağın üç əlaməti var: Vacibləri yerinə yetirməyə süst yanaşar, Allahın bəndələrini masqara edər və çox danışar (Allahın zikrindən qafildir).”[1]

**-2-**

**إِذَا وَجَّهْتُ إِلَى عَبْدٍ مِنْ عَبِيدِي مُصِيبَةً فِي بَدَنِهِ أَوْ مَالِهِ أَوْ وَلَدِهِ ثُمَّ اسْتَقْبَلَ ذَلِكَ بِصَبْرٍ جَمِيلٍ اسْتَحْيَيْتُ مِنْهُ يَوْمَ الْقِيَامَةِ أَنْ أَنْصِبَ لَهُ مِيزَاناً أَوْ أَنْشُرَ لَهُ دِيوَاناً**

“Allah-təala buyurur: “O vaxt ki, bəndələrimdən biri cism, mal-dövlət və övlad cəhətdən müsibətə düçar olsa və onlara görə səbir etsə, mən qiyamətdə onun üçün əməl tərəzisi qoymağa və ya əməl dəftəri açmağa həya edərəm.”[2]

**-3-**

**إِذَا مَاتَ الْمُؤْمِنُ انْقَطَعَ عَمَلُهُ إِلَّا مِنْ ثَلَاثٍ صَدَقَةٍ جَارِيَةٍ أَوْ عِلْمٍ يُنْتَفَعُ بِهِ أَوْ وَلَدٍ صَالِحٍ يَدْعُو لَهُ**

“İnsan vəfat edəndən sonra üç əməlinin savabı kəsilməz: 1. Sədəqəyi-cariyə;[3] 2. Faydalı olan kitab və elmi; 3. Ona dua edən övladı varsa.”[4]

**-4-**

**اتَّقِ اللَّهَ حَيْثُمَا كُنْتَ وَ خَالِقِ النَّاسَ بِخُلُقٍ حَسَنٍ وَ إِذَا عَمِلْتَ سَيِّئَةً فَاعْمَلْ حَسَنَةً تَمْحُوهَا**

“Harada olsan, təqvaya riayət et. Camaatla yaxşı dolan. Günahın olsa, onu saleh əməllə islah et.”[5]

---

[1] “Əl-Məvaizul-ədədiyyə”, səh. 134.

[2] “Müstədrəkul-vəsail”, c. 2, səh. 59.

[3] Özündən sonra qoyduğu məscid, mədrəsə, məktəb, xəstəxana və sair kimi xidmətlərə sədəqəyi-cariyə deyilir.

[4] Həmin mənbə, səh. 138.

[5] “Vəsailüş-şiə”, c. 16, səh. 104.

-5-

مِنْ مُوجِبَاتِ مَغْفِرَةِ اللَّهِ تَبَارَكَ وَ تَعَالَى إِطْعَامُ الطَّعَامِ

"Allahın lütf və məğfirətinə səbəb olan şeylərdən biri insanlara təam verməkdir."[1]

-6-

يا عَليُّ، لِلسَّعِيدِ ثَلاثُ علامات: قُوتُ الحَلالِ فِي بَلَدِهِ، وَمُجالِسَةُ العُلماءِ وَالصَّلوةُ الخَمسِ بِالْإِمامِ

"Ya Əli! Xoşbəxt insanın üç əlaməti var: 1. Öz vətənində işləyən şəxs; 2. Alimlərlə rabitəsi olan şəxs; 3. Namazlarını camaatla qılan şəxs."[2]

-7-

ثلاثَةٌ يُحِبُّهَا الله قِلَّةَ الْكَلَامِ وَ قِلَّةَ الطَّعَامِ وَ قِلَّةَ الْمَنَامِ

"Allah üç şeyi sevir: 1. Az danışmağı; 2. Az yatmağı; 3. Az yeməyi."[3]

-8-

الدُّعَاءُ مِفْتَاحُ الرَّحْمَةِ، الوضوء مفتاح الصلاة والصلاة مفتاح الجنة

"Dua rəhmətin, dəstəmaz namazın, namaz isə cənnətin açarıdır."[4]

-9-

ثَلاثٌ لَيسَ لِاَحَدٍ مِنهُمْ رُخْصَةٌ اَلوَفاءُ لِمُسلِمٍ كانَ أو كافِرٍ وَ بِرُّ الوالِدَيْنِ مُسلِمَينِ كانا أو كافِرَينِ وَ اَداءُ الاَمانَةِ لِمُسلِمٍ كانَ اَو كافِرٍ

"Üç əməldə heç kimə qarşı müxalif olmağa icazə verilməyib: Əhdə vəfa etmək vacibdir. İstər kafir olsun, istər müsəlman. Ata-ana ilə yaxşı rəftar etmək vacibdir. İstər kafir olsun, istərsə də müsəlman. Əmanəti sahibinə çatdırmaq vacibdir. İstər müsəlmanın malı olsun, istərsə də kafirin."

-10-

مَا يَزَالُ الْهَمُّ وَ الْغَمُّ بِالْمُؤْمِنِ حَتَّى مَا يَدَعُ لَهُ ذَنْباً

"Mömin həmişə qəm-qüssəyə düçar olur ki, günahları məhv olsun."[5]

---

[1] "Biharul-ənvar", c. 71, səh. 361.
[2] "Biharul-ənvar", c. 71, səh. 146.
[3] "Əl-Məvaizul-ədədiyyə", səh. 147.
[4] "Nəhcul-fəsahə", səh. 332.
[5] "Üsuli-kafi", c. 2, səh. 446.

**-11-**

**يَا عَلِيُّ، أَنْهَاكَ عَنْ ثَلَاثِ خِصَالٍ الْحَسَدِ وَ الْحِرْصِ وَ الْكِبْرِ**

"Ey Əli! Üç şeydən uzaq ol! Həsəddən, hərislikdən, (dünyaya həris olmaq) lovğalıqdan."[1]

**-12-**

**حُسْنُ الْخَطِّ مِنْ مَفَاتِيحِ الرِّزْقِ**

"Ruzinin açarlarından biri gözəl xəttdir."

**-13-**

**يا علي، سَيِّدُ الْأَعْمَالِ ثَلَاثَةٌ إِنْصَافُ النَّاسِ مِنْ نَفْسِكَ حَتَّى لَا تَرْضَى بِشَيْءٍ إِلَّا رَضِيتَ لَهُمْ مِثْلَهُ وَ مُوَاسَاتُكَ الْأَخَ فِي الْمَالِ وَ ذِكْرُ اللَّهِ عَلَى كُلِّ حَالٍ**

"Ey Əli! Əməllərin ən yaxşısı üç xislətdir: 1. Camaatla insaflı rəftar etmək; 2. Allaha xatir qardaşlara xeyir verib kömək etmək; 3. Həmişə Allahı zikr etmək."[2]

**-14-**

**ياعليُّ، ثَلَاثَةٌ مَنْ لَمْ يَكُنَّ فِيهِ لَمْ يَتِمَّ لَهُ عَمَلٌ وَرَعٌ يَحْجُزُهُ عَنْ مَعَاصِي اللَّهِ وَ خُلُقٌ يُدَارِي بِهِ النَّاسَ وَ حِلْمٌ يَرُدُّ بِهِ جَهْلَ الْجَاهِلِ**

"Ey Əli! Əgər hər kimdə üç şey olmasa, əməlləri qəbul deyil: 1. Onu günahlardan saxlayan təqva; 2. Xoş əxlaq ki, camaatla mehriban ola bilsin; 3. Cahillərin nadanlığını özündən uzaqlaşdıra biləcək səbir."[3]

**-15-**

**يَا عَلِيُّ، ثَلَاثٌ فَرَحَاتٌ لِلْمُؤْمِنِ فِي الدُّنْيَا لِقَاءُ الْإِخْوَانِ وَ تَفْطِيرُ الصَّائِمِ وَ التَّهَجُّدُ مِنْ آخِرِ اللَّيْلِ**

"Ey Əli! Mömin üç vaxt xoşhal olur: 1. Din qardaşı ilə görüşəndə; 2. İftar vaxtı; 3. Gecə namazı qılanda."

**-16-**

**مَنْ مَشيٰ اِلي مَسجدٍ يَطلُبُ فِيهِ الْجَماعَةَ كانَ لَهُ بِكُلِّ خُطوَةٍ سَبعُونَ اَلفَ حَسَنَةٍ وَيُرفَعُ لَهُ مِنَ الدَّرَجاتِ مِثلَ ذلِكَ فَاِنْ ماتَ وَهُوَ عَلي ذلكَ وَكَّلَ اللهُ بِهِ تِسعِينَ اَلفَ مَلَكٍ يَعُودُونَهُ في قَبرِهِ ويُبَشِّرُونَهُ ويُؤنِسُونَهُ في وَحدَتِهِ وَيَستَغفِرُونَ لَهُ حَتّي يُبعَثَ**

"Hər kim camaat namazında iştirak etmək üçün məscidə getsə, Allah-təala onun hər bir addımına yetmiş min həsənə

---

[1] "Mən la yəhzuruhul-fəqih", c. 4, səh. 360.
[2] " Biharul-ənvar", c. 73, səh. 318.
[3] "Üsuli-kafi", c. 2, səh. 117.

(yaxşı əməl) yazar, ona savab verər və ölçüdə onun dərəcəsi ucalar. Əgər bu halda ölsə, Allah-təala min mələyi məmur edər ki, qəbirdə onun görüşünə gedib ona müjdə versinlər və qəbirin təkliyində onun munisi olsunlar. Qiyamət gününə qədər onun üçün bağışlanmaq istəsinlər.”[1]

**-17-**

**مَنْ تَوَضَّأَ فَأَحْسَنَ الْوُضُوءَ خَرَجَتْ خَطاياهُ مِنْ جَسَدِه**

“Kim yaxşı dəstəmaz alsa, günahları bağışlanar.”[2]

**-18-**

**مَن تَفَقَّهَ في دِينِ اللهِ كَفاهُ اللهُ هَمَّهُ وَرَزَقَهُ مِنْ حَيْثُ لا أَحْتَسِبُ**

“Hər kim Allahın dini haqda təfəkkür etsə, Allah qəm-qüssə və narahatlığı ondan uzaq edər. Onun ruzisini güman edilməyən yerdən yetirər.”[3]

**-19-**

**يا علي، ثلاثٌ كَفّاراتٌ إِطْعَامُ الطَّعَامِ وَ إِفْشَاءُ السَّلَامِ وَ الصَّلَاةُ بِاللَّيْلِ وَ النَّاسُ نِيَامٌ**

“Ey Əli! Üç şey günahların aradan getməsinə səbəb olar. 1. Salam vermək və onu camaat arasında yaymaq; 2. Başqalarına tçam vermək; 3. Camaat yatan vaxt gecə namazı qılmaq.”

**-20-**

**نَوْمُ الصَّائِمِ عِبَادَةٌ وَ نَفَسُهُ تَسْبِيحٌ**

“Oruc tutanın yuxusu ibadət, onun nəfəsi isə Allahı zikr etməkdir.”[4]

**-21-**

**حُسْنُ الْخُلُقِ يَبْلُغُ بِصَاحِبِهِ دَرَجَةَ الصَّائِمِ الْقَائِمِ فَقِيلَ لَهُ مَا أَفْضَلُ مَا أُعْطِيَ الْعَبْدُ قَالَ حُسْنُ الْخُلُقِ**

“Xoş əxlaq, sahibini oruc tutanların və gecə namazı qılanların məqamına çatdırar. Həzrətə dedilər: İnsana əta olunan ən üstün şey nədir? Buyurdu: Xoş əxlaq.”[5]

**-22-**

**افْتَتِحْ بِالْمِلْحِ وَ اخْتِمْ بِالْمِلْحِ فَإِنَّ فِيهِ شِفَاءً مِنِ اثْنَيْنِ وَ سَبْعِينَ دَاء**

---

[1] “Vəsailüş-şiə”, c. 5, səh. 372.
[2] “Riyazus-salehin”, səh. 296.
[3] “Məhəccətul-bəyza”, c. 1, səh. 15.
[4] “Vəsailüş-şiə”, c. 10, səh. 403.
[5] “Tuhəfül-üqul”, səh. 44.

"Yeməyi duzla başla və duzla qurtar. Çünki bu iş yetmiş dərdin dərmanıdır."[1]

**-23-**

**مَنْ آذَىٰ وَالِدَيْهِ فَقَدْ آذَانِي وَ مَنْ آذَانِي فَقَدْ آذَى اللَّهَ وَ مَنْ آذَى اللَّهَ فَهُوَ مَلْعُونٌ**

"Valideynini incidən, məni incidib. Məni incidən Allahı incidib. Allahı incidən isə məlun və Allahın rəhmətindən uzaqdır."[2]

**-24-**

**لِلمَرِيضِ اَربَعُ خِصالٍ: يُرفَعُ عَنهُ القَلَمُ وَيَأمُرُ اللهُ المَلَكَ فَيَكتُبُ لَهُ كُلَّ فَضلٍ كانَ يَعمَلُ فِي صِحَّتِهِ وَيَتّبِعُ مَرُضُهُ كُلَّ عُضوٍ فِي جَسَدِهِ فَيَستَخْرِجُ ذُنوبَهُ مِنَهُ فَإِنْ ماتَ، ماتَ مَغفُوراً لَهُ وَاِن عاشَ، عاشَ مَغفُوراً لَهُ**

"Xəstənin dörd xisləti var: Təklif ondan götürülür. Onun əməllərini yazan mələyə deyilər: "Sağlam olan vaxtda etdiyi bütün yaxşı əməllərini xəstəlik halında olanda da yazsın." Onun bütün üzvləri ağrıyar ki, günahları məhv olsun. Əgər xəstəlik halında ölsə, bağışlanar. Əgər sağ qalsa, bağışlanmışlardan hesab olunar."[3]

**-25-**

**مَنْ خَالَفَتْ سَرِيرَتُهُ عَلَانِيَتَهُ فَهُوَ مُنَافِقٌ**

"Batini ilə zahiri eyni olmayan münafiqdir."[4]

**-26-**

**مَنْ أَمَّ قَوْماً وَ فِيهِمْ مَنْ هُوَ أَعْلَمُ مِنْهُ لَمْ يَزَلْ أَمْرُهُمْ إِلَى السَّفَالِ إِلَى يَوْمِ الْقِيَامَةِ**

"Hər kəs camaata rəhbərlik etsə və onların arasında ondan da alimi olsa, həmin camaatın vəziyyəti qiyamətə qədər yaxşılaşmaz."[5]

**-27-**

**يَا عَلِيُّ، سَبْعَةٌ مَنْ كُنَّ فِيهِ فَقَدِ اسْتَكْمَلَ حَقِيقَةَ الْإِيمَانِ وَ أَبْوَابُ الْجَنَّةِ مُفَتَّحَةٌ لَهُ مَنْ أَسْبَغَ وُضُوءَهُ وَ أَحْسَنَ صَلَاتَهُ وَ أَدَّى زَكَاةَ مَالِهِ وَ كَفَّ غَضَبَهُ وَ سَجَنَ لِسَانَهُ وَ اسْتَغْفَرَ لِذَنْبِهِ وَ أَدَّى النَّصِيحَةَ لِأَهْلِ بَيْتِ نَبِيِّهِ**

---

[1] "Mən la yəhzuruhul-fəqih", c. 4, səh. 368.
[2] "Müstədrəkül-vəsail", c. 15, səh. 193.
[3] "Vəsailüş-şiə", c. 2, səh. 402.
[4] "Biharul-ənvar", c. 69, səh. 208.
[5] "Təhzib", c. 2, səh. 297.

"Ey Əli! Hər kimdə yeddi keyfiyyət olsa, imanı kamildir və cənnətin qapıları onun üzünə açılar: 1. Kamil surətdə dəstəmaz alsa; 2. Kamil surətdə namaz qılsa; 3. Qəzəbini udsa; 4. Lazımsız söz danışmasa; 5. Günahına görə tövbə etsə; 6. Zəkat versə; 7. Peyğəmbərin (s) əhli-beytinin xeyirxahı olsa."[1]

-28-

**الطَّعَامُ إِذَا جَمَعَ أَرْبَعَ خِصَالٍ فَقَدْ تَمَّ إِذَا كَانَ مِنْ حَلَالٍ وَ كَثُرَتِ الْأَيْدِي وَ سُمِّيَ فِي أَوَّلِهِ وَ حُمِدَ اللَّهُ عَزَّ وَ جَلَّ فِي آخِرِهِ**

"Kamil yeməyin dörd xüsusiyyəti var: 1. Halal ola; 2. Çox insanlar ondan meyl edə; 3. Yeməkdən əvvəl "bismillah" deyilə; 4. Yeməkdən sonra Allaha həmd oluna."[2]

-29-

**ما مِن بَيْتٍ فِيهِ البَناتُ إلّا نَزَلَتْ كُلَّ يومٍ عَلَيهِ اِثْنَتا عشرَةَ بَركَةٍ وَ رَحمَةٍ مِنَ السَّماءِ وَ لا تَنقَطِعُ زيارةُ الْمَلائِكةِ مِن ذلكَ الْبَيتُ يَكْتبِونَ لابيهم كل يومٍ وَ لَيلَةٍ عِبادَة**

"Qızları olan evə hər gün səmadan on iki bərəkət nazil olar və o evdən mələklərin gediş-gəlişi kəsilməz. Onların atası üçün hər gün bir ilin ibadəti yazılar."[3]

-30-

**ساوُوا بَينَ اَولادِكُم فِي الْعَطِيةِ، فَلَوكُنتُ مُفضِّلاً اَحداًلَفَضَّلتُ النِّساءَ**

"Övladlarınızın arasında hədiyyələri ədalətlə bölüşdürün. Əgər bu işdə fəzilət əldə etmək istəyirsinizsə, qızlara və qadınlara hörmət edin (hədiyyəni əvvəl onlara verin)."[4]

-31-

**مَنْ عَالَ ثَلَاثَ بَنَاتٍ أَوْ مِثْلَهُنَّ مِنَ الْأَخَوَاتِ وَ صَبَرَ عَلَى الاَوَائِهِنَّ حَتَّى يَبِنَّ إِلَى أَزْوَاجِهِنَّ أَوْ يَمُتْنَ فَيُصِرْنَ إِلَى الْقُبُورِ كُنْتُ أَنَا وَ هُوَ فِي الْجَنَّةِ كَهَاتَيْنِ (وَ أَشَارَ بِالسَّبَّابَةِ وَ الْوُسْطَى) فَقِيلَ يَا رَسُولَ اللَّهِ وَ اثْنَتَيْنِ؟ قَالَ وَ اثْنَتَيْنِ قِيلَ وَ وَاحِدَةً؟ قَالَ وَ وَاحِدَةً**

"Hər kəs üç qızı və ya bacını himayəsinə götürüb, onları evləndirənə, yaxud öldükdə onları dəfn edənə qədər səbir etsə, o şəxsin mənimlə cənnətdə bu ikisi qədər (ortancıl və şəhadət

---

[1] "Mən la yəhzuruhul", hədis c. 4, səh. 359.
[2] "Üsuli-kafi", c. 6, səh. 274.
[3] "Cameul-əxlaq", səh. 285.
[4] "Nəhcul-fəsahə", səh. 365.

barmaqlarını göstərərək) arası olacaq. Həzrətdən soruşdular: Əgər iki nəfəri himayəyə götürsə, yenə də həmin savaba nail olacaqmı? Buyurdu: Bəli. Bir daha soruşdular: Əgər bir qızı himayəsinə götürsə, necə? Buyurdu: Hətta, bir nəfəri də.”[1]

**-32-**

**فَقُلْ لِآبَاءِ الْبَنَاتِ لا تَضِيقَنَّ صُدُورُكُمْ عَلَى بَنَاتِكُمْ فَإِنِّي كَمَا خَلَقْتُهُنَّ أَرْزُقُهُنَّ**

“Merac gecəsi “Sidrətüs-müntəha”dan keçəndən sonra Allahdan xitab gəldi: “Ey Məhəmməd! Qızı olan atalara de: Qəmgin olmasınlar. Mən onları yaratdığım kimi ruzilərini də verəcəyəm.”[2]

**-33-**

**والَّذِي نَفْسِي بِيَدِهِ لَوْ عَمِلَ أَحَدُكُمْ عَمَلَ سَبْعِينَ نَبِيّاً لَمْ يَدْخُلِ الْجَنَّةَ حَتَّى يُحِبَّ هَذَا أَخِي عَلِيّاً**

“Canım ixtiyarında olan Allaha and olsun. Əgər bir şəxs yetmiş peyğəmbərin əməlini yerinə yetirsə də cənnətə daxil olmayacaqdır, əgər qardaşım Əlini (ə) sevməsə.”[3]

**-34-**

**صَلاَةُ الرَّجُلِ فِي جَمَاعَةٍ خَيْرٌ مِنْ صَلاَتِهِ فِي بَيْتِهِ أَرْبَعِينَ سَنَةً قِيلَ يَا رَسُولَ اللَّهِ صَلاَةُ يَوْمٍ فَقَالَ صَلاَةٌ وَاحِدَةٌ**

“Camaatla qılınan namaz qırx il evdə fərdi qılınan namazdan yaxşıdır. Həzrətdən soruşdular: Məqsədiniz bir günün bütün namazlarıdırmı? Buyurdu: Camaatla qılınan bir namazın belə bu qədər fəziləti var.”[4]

**-35-**

**مَنْ خَانَ أَمَانَةً فِي الدُّنْيَا وَ لَمْ يَرُدَّهَا عَلَى أَهْلِهَا مَاتَ عَلَى غَيْرِ دِينِ الْإِسْلَامِ وَ لَقِيَ اللَّهَ وَ هُوَ عَلَيْهِ غَضْبَانُ فَيُؤْمَرُ بِهِ إِلَى النَّارِ فَيُهْوَى بِهِ فِي شَفِيرِ جَهَنَّمَ أَبَدَ الْآبِدِينَ**

“Əmanətə xəyanət edib, onu sahibinə qaytarmayan şəxs, dünyadan müsəlman kimi getməz. Axirətdə Allah ona qəzəb

[1] “Biharul-ənvar”, c. 101, səh. 99.
[2] “Müstədrəkül-vəsail”, c. 2, səh. 614.
[3] “Biharul-ənvar”, c. 27, səh. 196.
[4] “Ləailil-əxbar”, c. 5, səh. 197.

edər. Əmr verər ki, onu cəhənnəmə aparsınlar. Sonra həmişəlik cəhənnəmə atılar.”[1]

**-36-**

**مَنْ تَوَاضَعَ لِلّٰهِ رَفَعَهُ اللَّهُ وَ مَنْ تَكَبَّرَ خَفَضَهُ اللَّهُ وَ مَنِ اقْتَصَدَ فِي مَعِيشَتِهِ رَزَقَهُ اللَّهُ وَ مَنْ بَذَّرَ حَرَمَهُ اللَّهُ وَ مَنْ أَكْثَرَ ذِكْرَ الْمَوْتِ أَحَبَّهُ اللَّهُ**

“Hər kəs Allaha xatir təvazökarlıq etsə, Allah onu böyük edər. Allah təkəbbür edəni kiçildər. Hər kim yaşayışda ifrat və təfrit etməsə, Allah onun ruzisini verər. Allah israf edəni nemətlərindən məhrum edər. Hər kim ölümü və məadı çox yad etsə, Allah onu sevər.”[2]

**-37-**

**الْمُؤْمِنُ إِذَا مَاتَ وَ تَرَكَ وَرَقَةً وَاحِدَةً عَلَيْهَا عِلْمٌ تَكُونُ تِلْكَ الْوَرَقَةُ يَوْمَ الْقِيَامَةِ سِتْراً فِيمَا بَيْنَهُ وَ بَيْنَ النَّارِ وَ أَعْطَاهُ اللَّهُ تَبَارَكَ وَ تَعَالَى بِكُلِّ حَرْفٍ مَكْتُوبٍ عَلَيْهَا مَدِينَةً أَوْسَعَ مِنَ الدُّنْيَا**

“Mömin özündən sonra faydalı elmdən yazdığı bir vərəq qoysa, qiyamətdə həmin vərəq onunla cəhənnəm odunun arasında fasilə salar və yazdığı hər bir hərfin müqabilində Allah-təala ona genişliyi dünyadan böyük olan bir şəhər verər.”[3]

**-38-**

**مَلْعُونٌ مَنْ جَلَسَ طَائِعاً عَلَى مَائِدَةٍ يُشْرَبُ عَلَيْهَا الْخَمْرُ**

“Şərab içilən süfrənin kənarında oturan şəxs məlundur.”[4]

**-39-**

**يَا عَلِيُّ، مَنْ مَاتَ وَ هُوَ مُبْغِضٌ لَكَ مَاتَ يهودِيّاً أَوْ نَصْرَانِيّاً**

“Ey Əli! Səninlə düşmənçilik edən şəxs, dünyadan müsəlman kimi getməz. Bəlkə də yəhudi və nəsrani kimi dünyadan gedər.”[5]

**-40-**

**يَا عَلِيُّ، اَربَعُ خِصالٍ مِنَ الشَّقاوَةِ جُمُودُ العَينِ وَقَساوَةُ الْقَلبِ وَبُعدُ الاَمَلِ وَحُبُّ البَقاءِ**

---

[1] “İqabul-əmal”, səh. 610.
[2] “Vəsailuş-şiə”, c. 15, səh. 278.
[3] “Biharul-ənvar”, c. 2, səh. 144.
[4] “Ləalil-əxbar”, c. 5, səh. 217.
[5] “İrşadul-qlub”, c. 2, səh. 236.

“Ey Əli! Dörd şey bədbəxtliyin nişanəsidir. 1. Göz yaşının quruması (etdiyi günahlardan peşman olmayan şəxs); 2. Qəlbin qəsavət bağlaması; 3. Uzun arzular; 4. Dünyada daimi qalmaq məhəbbəti.[1]

[1] “Mən la yəhzuruhul-fəqih”, c. 4, səh. 360.

# Həzrət Əlidən (ə) qırx hədis

**-1-**

**غَسْلُ الْيَدَيْنِ قَبْلَ الطَّعَامِ وَ بَعْدَهُ زِيَادَةٌ فِي الْعُمُر**

“Yeməkdən əvvəl və sonra əlləri yumaq ömrü çoxaldır.”[1]

**-2-**

**مَنْ لَمْ يُزَكِّ مَالَهُ فَلَيْسَ بِمُسْلِمٍ**

“Zəkat verməyən, bizdən deyil.”[2]

**-3-**

**لَذَّةُ الْكِرامِ في الإِطْعامِ وَ لَذَّةُ اللِّئَامِ في الطَّعام**

“Kərim insanlar camaata yemək verməkdən ləzzət alır. Paxıl insanlar isə yeməkdən ləzzət alır.”[3]

**-4-**

**مَن اَبصَرَ عَيبَ نَفسِهِ لَم يَعِبْ اَحداً**

“Hər kəs öz eybini bilsə, başqalarının eyblərini axtarmaqdan uzaq olar.”[4]

**-5-**

**مَنِ اسْتَقصىٰ عَلى صَدِيقِهِ اِنقَطَعَتْ مَوَدَّتُهُ**

“Hər kəs dostunun bütün əməllərinə nəzarət etsə, onların dostluğu pozular.”[5]

**-6-**

**لَا تَعْمَلْ شَيْئاً مِنَ الْخَيْرِ رِيَاءً وَ لَا تَتْرُكْهُ حَيَاءً**

“Yaxşı əməli nə başqalarına görə et, nə də utanıb onu tərk et.”[6]

**-7-**

**لا تَرُدَّ سائِلاً وَ لَو مِن شَطرِ حُبَّةٍ (عِنَبٍ) أو شَقِّ تَمرَةٍ فَإنَّ الصَّدَقَةَ تَنْمُو عِندَ اللهِ**

---

[1] “Üsuli-kafi”, c. 6, səh. 290.

[2] “Müstədrəkül-vəsail”, c. 7, səh. 240.

[3] “Qurərul-hikəm”, səh. 377.

[4] “Müstədrəkül-vəsail”, c. 11, səh. 316.

[5] “Qürərul-hikəm”, c. 1, səh. 54.

[6] “Qürərul-hikəm”, c. 1, səh. 44.

“Üzüm və ya xurma dənəsinin yarısı ilə də olsa sənə əl açanı rədd etmə ki, Allah dərgahında sədəqə artır.”[1]

**-8-**

**اَرْبَعٌ مَنْ اُعْطِيَهُنَّ فَقَدْ اُعْطَى خَيْرَ الدُّنْيَا وَ الْآخِرَةِ صِدْقُ حَدِيثٍ وَ اَدَاءُ اَمَانَةٍ وَ عِفَّةُ بَطْنٍ وَ حُسْنُ خُلْقٍ**

“Hər kəsdə dörd xislət olsa, dünya və axirət xeyri ona verilmiş olar: Düz danışmaq, əmanəti (sahibinə) qaytarmaq, bətnin iffətli, pak olması və əxlaqın gözəlliyi.”

**-9-**

**إِنَّ اللَّهَ يُعَذِّبُ السِّتَّةَ بِالسِّتَّةِ الْعَرَبَ بِالْعَصَبِيَّةِ وَ الدَّهَاقِينَ بِالْكِبْرِ وَ الْأُمَرَاءَ بِالْجَوْرِ وَ الْفُقَهَاءَ بِالْحَسَدِ وَ التُّجَّارَ بِالْخِيَانَةِ وَ أَهْلَ الرَّسَاتِيقِ بِالْجَهْلِ**

“Allah altı şəxsi altı xislətə görə cəzalandıracaq: Ərəbi batil təəssübkeşliyinə görə, kəndxudaları təkəbbürünə görə, padşahları zülmünə görə, tacirləri xəyanətə görə, kəndçiləri[2] dini vəzifələrini və tapşırıqlarını bilmədiklərinə görə.”[3]

**-10-**

**لَا يَجِدُ عَبْدٌ طَعْمَ الْإِيمَانِ حَتَّى يَتْرُكَ الْكَذِبَ هَزْلَهُ وَ جِدَّهُ**

“Yalan danışmağı istər zarafatla olsun, istərsə də ciddi tərk etməyən şəxs imanın ləzzətini dadmaz.”[4]

**-11-**

**أَدُّوا الْأَمَانَةَ وَ لَوْ إِلَى قَاتِلِ وُلْدِ الْأَنْبِيَاءِ**

“Əmanəti peyğəmbərlərin övladlarının qatilinə belə olsa, qaytarın.”[5]

**-12-**

**لَو اَنَّ قَطرَةً مِنَ الخَمرِ قَطَرَتْ في بِئرٍ وَنُزِحَ ماءُ ذٰلكَ البِئرُ وَسُقِيَ بِهِ اَرضٌ فَاَنبَتَتْ حَشيشاً وَيَبُسَ ذلكَ الْحَشيشُ ثُمَّ اِنَّ شاةً رَعَتْ مِن ذالكَ الْحَشِيش، فَاختَلَطَتْ في قطيعِ غَنمٍ وَاشْتَبَهَت ثُمَّ ذُبِحَتْ تِلكَ الشّاةُ كُلّها لَم آكِلْ مِن لُحُومِها شَيئاً**

“Əgər bir şərab damlası quyuya düşsə, onun suyu ilə bir yeri suvarsalar, bir müddətdən sonra o yerdən ot çıxsa, ot

---

[1] “Tühəful-uqul”, səh. 166.

[2] “Məqsəd dini vəzifəni öyrənməkdə səhlənkarlıq edənlərdir. ”

[3] “Tuhəfül-üqul”, səh. 221.

[4] “Həmin mənbə”, səh. 217.

[5] “Tuhəfül-üqul”, səh. 218.

quruyandan sonra bir qoyun onu yesə və onun ətinə qarışsa, həmin o qoyunu bir sürüyə daxil etsələr, sonra qoyunların hamısını kəssələr, mən onların heç birinin ətindən yemərəm!”[1]

**-13-**

**العِلمُ لايَحصِلُ اِلّا بِخَمسَةِ اَشياءٍ: اَوَّلُها بِكَثرةِ السُّؤالِ، وَالثّانِي بِكَثرةِ الاِشتِغالِ، وَالثّالثُ بِتَطهِيرِ ٱلاَفعالِ وَالّرابِعُ بِخِدمَةِ الرِّجالِ، وَالْخامِسُ بِاستعانةِ ذي الجلالِ**

“Elm beş şeylə hasil olar: Çox soruşmaqla, çox mütaliə ilə, əməllərini pis sifətlərdən təmizləməklə, müəllimlərin və alimlərin qarşısında təvazökarlıq etməklə, Allah-təaladan kömək istəməklə.”[2]

**-14-**

**الْعُبُودِيَّةُ خَمْسَةُ أَشْيَاءَ خَلَاءُ الْبَطْنِ وَ قِرَاءَةُ الْقُرْآنِ وَ قِيَامُ اللَّيْلِ وَ التَّضَرُّعُ عِنْدَ الصُّبْحِ وَ الْبُكَاءُ مِنْ خَشْيَةِ اللَّهِ**

“Allaha bəndəliyin beş əlaməti var: Az yemək, Quran oxumaq, gecə namazı qılmaq, sübh vaxtı Allah qarşısında yalvarmaq, Allahın qorxusundan ağlamaq.”[3]

**-15-**

**قَرَأتُ التَّوراةَ وَالاِنجِيلَ وَالزّبُورَ وَالفُرقانَ وَاخْتَرتُ مِن كُلِّ كِتابٍ كَلِمَةٍ: فَمِنَ التّوراةِ: مَن صَمُتَ نَجا وَمِنَ الاِنجِيلِ: مَن قَنَعَ شَبُعَ وَمِن الزبورِ: مَنْ تَرَكَ الشَّهَواتِ سَلّمَ مِنَ الافاتِ وَمِنَ الفُرقانِ: وَمَنْ يَتَوَكَّلْ عَلي اللهِ فَهُوَ حَسْبُهُ**

“Tövratı, İncili, Zəburu və Quranı oxudum. Hər kitabdan bir kəlam seçdim. Tövratdan: “Sükutu seçən nicat tapar.” İncildən: “Qənaət edənin başqalarına ehtiyacı olmaz.” Zəburdan: “Şəhvətləri (hər şeyə tamah) tərk edən bəlalardan amanda qalar.” Qurandan: “Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər.[4],[5]

**-16-**

**لِلمُرائِي أَربَعُ عَلاماتٍ يَكسِلُ إذا كانَ وَحدَه وَ يَنشُطُ إذا كانَ فِي النّاسِ وَ يَزِيدُ فِي الْعَمَلِ إذا أُثنِيَ عَلَيهِ وَ يَنقُصُ مِنهُ إذا لَم يُثنَ عَلَيهِ**

---

[1] “Ləalil-əxbar”, c. 5, səh. 207.

[2] “Əl-Məvaizul-ədədiyyə”, səh. 264.

[3] “Əl-Məvaizul-ədədiyyə”, səh. 264.

[4] “Talaq” surəsi, ayə: 3.

[5] “Əl-Məvaizul-ədədiyyə”, səh. 221.

“Riyakarın dörd əlaməti var: Xəlvətdə vacibləri süstlüklə yerinə yetirir, camaatın arasında isə şad və gümrahlıqla ibadət edir. Onu tərifləyəndə işini yaxşı yerinə yetirər, amma tərifləməyəndə işini naqis görər.”[1]

**-17-**

**الْعِلْمُ فِي الصّغَرِ كالنَّقْشِ فِي الْحَجَرِ**

“Uşaqlıqda öyrənilən elm, daşın üstündəki naxışa bənzəyir.”[2]

**-18-**

**إنّمَا الشَّرَفُ بِالْعَقلِ وَالاَدبِ لا بِالمالِ وَ الحَسَبِ**

“İzzət və şərəf ağıl və ədəblədir, mal və nəsillə deyil.”[3]

**-19-**

**العِلمُ أرَبعَ كلِماتٍ أن تَعبُدَ اللهَ بِقَدرِ حاجَتِكَ إلَيهِ وَ أن تَعصِيهِ بِقَدرِ صَبرِكَ عَلى النّارِ وَ أن تَعملَ لِدُنياكَ بِقَدرِ عُمرِكَ فيها وَ أن تَعمَلَ لِآخِرتِكَ بِقدرِ بَقائِكَ فيهِم**

18. Elm dörd kəlmədir: 1. İnsanın Allaha ehtiyacı qədər ibadət (əlbəttə ki, ehtiyacsızlığı mümkün deyil); 2. İnsanın cəhənnəmə dözümü qədər günah etmək (bu da ki mümkün deyil); 3. Ömrü qədər dünya üçün çalışmaq (əlbəttə, dəyməz); 4. Axirətdə qalacağı qədər azuqə toplamaq (bəs, gecə-gündüz çalışmalıdır).”[4]

**-20-**

**مَنْ صَنَعَ شَيْئاً لِلْمُفَاخَرَةِ حَشَرَهُ اللَّهُ يَوْمَ الْقِيَامَةِ أَسْوَدَ**

“Hər kəs fəxr üçün bir iş görərsə, Allah onu üzüqara məhşur edər.”[5]

**-21-**

**مَرَضُ الصَّبِيّ كَفَّارَةٌ لِوَالِدَيْه**

“Körpənin xəstəliyi, ata-ananın günahlarının kəffarəsidir.”[6]

---

[1] “Əl-Məvaizul-ədədiyyə”, səh. 221.
[2] “Biharul-ənvar”, c. 1, səh. 224.
[3] “Qürərul-hikəm”, c. 1, səh. 697.
[4] “Qürərul-hikəm”, c. 1, səh. 697.
[5] “İqabul-əmal”, səh. 551.
[6] “Savabul-əmal”, səh. 419.

-22-

مَن يَضمِنُ لِي خِصلَةً واحِدَةً اَضمِنُ لَهُ اَربَعةً: مَن يَضمِنُ لِي صِلَةُ الرَّحِمِ اَضمِنُ بِحُبِّ اَهلِهِ، وَبِكَثرَةِ مالِهِ، وَبِطُولِ عُمرِهِ وَ بِدُخُولِهِ جَنَّةَ رَبِّهِ

"Hər kim mənə bir şeyi zəmanət versə, mən ona dörd şeyi zəmanət verirəm. Sileyi-rəhm edənə zəmanət verərəm ki, qohumları onu sevəcək; malı artacaq; ömrü uzun olacaq; cənnətə daxil olacaq."[1]

-23-

لا خَيرَ فِي صَلاةٍ لا خُشُوعَ فِيها، وَ لا خَيرَ في صَومٍ لا اِمتِناعَ فِيهِ مِنَ اللَّغوِ، و لا خَيرَ فِي قِرائَةٍ لا تَدَبَّرَ فِيها، وَ لا خيرَ في عِلمٍ لا وَرعَ فِيهِ و لا خَيرَ فِي مالٍ لا سَخاءَ فِيه و لا خيرَ فِي خَلوةٍ لا حِفظَ فِيها، وَ لا خَيرَ فِي نِعمَةٍ لا بَقاءَ فِيها وَ لا خَيرَ فِي دُعاءٍ لا اِخلاصَ فِيهِ وَ لا اِجلال

"Xüzusuz (Allah qarşısında qorxu) namazın faydası yoxdur. İnsanı əbəs işlərdən saxlamayan orucun faydası yoxdur. Təbərrük və təfəkkürsüz Quran oxumağın faydası yoxdur. Təqvasız əməlin xeyri yoxdur. Səxavətsiz malın faydası yoxdur. Günah edilən xəlvətin faydası yoxdur. Aradan gedən nemətin xeyri yoxdur. İxlassız duanın faydası yoxdur."[2]

-24-

كان اميرالمؤمنين(ع) إِذَا أَرَادَ أَنْ يُوَبِّخَ الرَّجُلَ يَقُولُ لَهُ وَ اللَّهِ لَأَنْتَ أَعْجَزُ مِنْ تَارِكِ الْغُسْلِ يَوْمَ الْجُمُعَةِ

Həzrət Əli (ə) bir şəxsi etdiyi səhlənkarlığa görə məzəmmət etmək istəyəndə, buyurardı: "Sən cümə günü cümə qüslunu tərk edən şəxsdən də aciz bir insansan."[3]

-25-

مَن لَمْ يَتحَمَّلْ زَلَلَ الصّديقِ ماتَ وَحِيداً

"Dostunun xətalarına səbir edə bilməyən şəxs tənha ölər."[4]

-26-

لا إيمانَ مَعَ سُوءُ الظَّنِّ

"İman bədgümanlıqla uyğun gəlmir."[5]

---

[1] "Əl-Məvaizul-ədədiyyə", səh. 219.
[2] "Əl-Məvaizul-ədədiyyə", səh. 339.
[3] "Rövzətul-vaizin", c. 2, səh. 333.
[4] "Mizanul-hikmət", c. 1, səh. 56.
[5] "Qürərul-hikəm", səh. 264.

-27-

إيّاكَ وَ الْـمَلَقَ فَإِنَّ الْـمَلَقَ لَيسَ مِن خَلائِقِ الإيمانِ

"Yaltaqlıqdan uzaq ol, çünki bu sifət imandan deyil."[1]

-28-

طُوبَى لِمَنْ اَخْلَصَ لِلّهِ عَمَلَهُ وَ عِلْمَهُ وَ حُبَّهُ وَ بُغْضَهُ وَ اَخْذَهُ وَ تَرْكَهُ وَ كَلاَمَهُ وَ صَمْتَهُ وَ فِعْلَهُ وَ قَوْلَهُ

"Xoş o kəsin halına ki, əməlini, elmini, istəyini, düşmənçiliyini, aldığını, verdiyini, danışdığını, sükutunu, işini və sözünü Allaha görə xalis edə!"

-29-

عَلَى الْمُتَعَلِّمِ أن يُودَّبَ نَفسَهُ فِي طَلَبِ العِلمِ وَ لا يَمُلَّ مِن تَعَلُّمِهِ وَ لا يَستَكْثِرُ ما عَلِمَ

"Təhsil almaq istəyən özünü məcbur etsin və elm öyrənməkdən yorulmasın. Öyrəndiyini isə çox saymasın."[2]

-30-

اذا ظَهَرَتِ الخِياناتُ اِرتفَعَتِ البَركاتُ

"Camaat bir-birinə xəyanət edəndə bərəkət onlardan alınar."[3]

-31-

إِذَا طُفِّفَتِ الْمِكْيَالُ أَخَذَهُمْ بِالسِّنِينَ وَ النَّقْصِ

"Camaatın arasında tərəzidə aldatmaq yarananda Allah onları qıtlığa düçar edər."[4]

-32-

إِذَا مَنَعُوا الزَّكَاةَ مَنَعَتِ الْأَرْضُ بَرَكَتَهَا مِنَ الزَّرْعِ وَ الثِّمَارِ وَ الْمَعَادِنِ

"Nə vaxt insanlar zəkat verməsə, yer öz bərəkətini əkindən, meyvələrdən və mədənlərdən alar."[5]

-33-

إِنَّ الْبَلَاءَ لِلظَّالِمِ أَدَبٌ وَ لِلْمُؤْمِنِ امْتِحَانٌ وَ لِلْأَنْبِيَاءِ دَرَجَةٌ وَ لِلْأَوْلِيَاءِ كَرَامَةٌ

---

1 "Nəhcul-bəlağə" qısa kəlamlar 347-ci hədis.

2 "Qürərul-hikəm", 51-ci fəsil, 26-cı hədis.

3 "Qürərul-hikəm", c. 1, səh. 312.

4 "Qürərul-hikəm", c. 1, səh. 324.

5 "Qürərul-hikəm", c. 1, səh. 312.

“Bəlalar və çətinliklər zalımı ədəbləndirmək, möminlər üçün imtahan, peyğəmbərlər üçün dərəcə, övliyalar üçün isə kəramətdir.”[1]

**-34-**

**اَلعِبادَةُ الخالِصَةُ أن لا يَرجُو الرَّجُلُ إلا رَبَّهُ وَ لا يَخافُ إلّا ذَنبَهُ**

“Xalis ibadət Allahdan başqasına ümidvar olmamaq və ondan başqa bir varlıqdan qorxmamaqdır.”[2]

**-35-**

**مَنْ قَبَّلَ وَلَدَهُ كَتَبَ اللَّهُ عَزَّ وَ جَلَّ لَهُ حَسَنَةً وَ مَنْ فَرَّحَهُ فَرَّحَهُ اللَّهُ يَوْمَ الْقِيَامَةِ**

“Övladını öpmənə Allah savab yazar. Kim övladını sevindirsə, Allah da onu qiyamətdə sevindirər.”[3]

**-36-**

**أَبْصَرَ رَسُولُ اللَّهِ رَجُلا لَهُ وَلَدَانِ فَقَبَّلَ أَحَدَهُمَا وَ تَرَكَ الْآخَرَ فَقَالَص فَهَلَّا وَاسَيْتَ بَيْنَهُمَا**

“Peyğəmbər (s) bir kişinin övladlarından yalnız birini öpdüyünü və digərlərini isə öpmədiyini gördü. Ona buyurdu: “Nə üçün bərabərliyə riayət etmirsən?”[4]

**-37-**

**شاوِرْ قَبلَ أن تَعزِمَ وَ فَكِّرْ قَبلَ أن تَقدُمَ**

“Bir iş görməzdən əvvəl məşvərət et. Bir işə başlamazdan əvvəl fikirləş.”[5]

**-38-**

**لا تُبْدِيَنَّ عَنْ وَاضِحَةٍ وَ قَدْ عَمِلْتَ الْأَعْمَالَ الْفَاضِحَةَ وَ لا تَأْمَنِ الْبَيَاتَ وَ قَدْ عَمِلْتَ السَّيِّئَاتِ**

“Əgər rüsvayedici bir əməli yerinə yetirsən, heç olmasa arsızcasına gülmə. Hər kim günaha batsa, rahat olmamalıdır.”[6]

**-39-**

**قُمْ عَنْ مَجْلِسِكَ لِأَبِيكَ وَ مُعَلِّمِكَ وَ لَوْ كُنْتَ أَمِيراً**

“Hakim olsan da atan və müəlliminin ehtiramına ayağa qalx.”[1]

---

[1] “Biharul-ənvar”, c. 67, səh. 235.
[2] “Qürərul-hikəm”, hədis. 21-27.
[3] “Biharul-ənvar”, c. 104, səh. 99.
[4] “Biharul-ənvar”, c. 74, səh. 84.
[5] “Qürərul-hikəm”, 54-cü kəlam.
[6] “Üsuli-kafi”, c. 3, səh. 371.

**-40-**

**قال رَسُولُ اللهِ^ص: إِصْلَاحُ ذَاتِ الْبَيْنِ أَفْضَلُ مِنْ عَامَّةِ الصَّلَاةِ وَ الصِّيَامِ**

“İki nəfərin arasındakı ixtilafı aradan qaldırmaq və onları barışdırmaq bir illik namazdan və orucdan üstündür.”[2]

---

[1] “Müstədrəkül-vəsail”, c. 15, səh. 203,hədis. 21.

[2] “Nəhcül-bəlağə”, 47-ci xütbə.

# Həzrət Zəhradan (əh.) qırx hədis

**-1-**

**دَخلَ عَلَيَّ رسولُ اللهِ<sup>ص</sup> وَقد اِفتَرشتُ فِراشِي لِلنَّومِ، فَقالَ: يا فاطمه (س) لاتَنامِي اِلّاوَقَد عَمِلتَ اَربعةً: خَتَمتَ القرآنَ وَجَعَلتَ الانبياءَ شُفَعائُكِ، وَاَرضَيتِ المؤمنينَ عَن نَفسِكِ وَحَجَجتِ وَاعتَمَرتِ، قالَ هذا وَاخَذَ فِي الصَّلوةِ فَصَبرتُ حَتّي اَتَمَّ صَلاتَهُ، قُلتُ: يارسول اللهِ<sup>ص</sup> اَمَرتَ بُاربعةٍ لااَقدِرُعَلَيها فِي هذالحالِ! فَتَبَسَّمَ وَقالَ: اِذاقرأتِ « قُل هُوالله احدٌ» ثَلاثَ مَراتٍ فَكاَنّكِ خَتَمتِ القُرآنَ وَاذاصَلَيْتِ عَليَّ وَعَلَي الاَنبياءِ قَبلِي كُنا شُفعائُكِ يومَ القِيامَةِ، وَاِذااِستَغفرتِ لِلمُومِنينَ رَضُواكُلُّهُم عَنكِ، وَاذا قُلتِ: سُبحانَ اللهِ وَالحمدُ لِلهِ ولااِلهَ اِلا اللهُ واللهُ اكبُر فَقَد حَجَجتِ وَاعتَمَرتِ**

“Yatmağa hazırlaşdığım vaxt Peyğəmbər (s) otağıma daxil olub buyurdu: Ey Fatimə! Dörd işi görməmiş yatma! Quran xətm et, peyğəmbərləri öz şəfaətçin qərar ver, möminləri özündən razı et, həcc və ümrəni yerinə yetir. Həzrət bunları deyib namaz qılmağa başladı. Gözlədim, namazını qurtardı. Dedim: Ya Rəsulullah! Mənə dörd işi yerinə yetirməyi əmr etdin. Amma mən onları etməyə qadir deyiləm. Həzrət gülümsəyib buyurdu: Əgər “İxlas” surəsini üç dəfə oxusan, elə bil, Quran xətm etmisən. Əgər mənə və məndən əvvəlki peyğəmbərlərə salavat göndərsən, onlar qiyamətdə sənə şəfaət edəcəklər. Möminlər üçün istiğfar etsən, onlar hamısı səndən razı olacaqlar. Əgər: “Subhanəllahi, vəlhəmdulillahi və la ilahə illəllahu, vəllahu əkbər!”—desən, həcc və ümrəni yerinə yetirmiş olacaqsan.”[1]

**-2-**

**أَدْنَى مَا تَكُونُ مِنْ رَبِّهَا أَنْ تَلْزَمَ قَعْرَ بَيْتِهَا**

“Qadının evdə qalması (ev işləri ilə məşğul olması) Allahın razılığına daha yaxındır.”[2]

**-3-**

**إِنْ لَمْ يَكُنْ يَرَانِي فَأَنَا أَرَاهُ وَ هُوَ يَشَمُّ الرِّيحَ**

---

[1] “Səhifətuz-Zəhra”, səh. 164.

[2] “Müstədrəkül-vəsail”, c. 14, səh. 182.

Kor bir şəxs Həzrət Zəhranın (əh.) evinə daxil olanda xanım gizləndi. Peyğəmbər (s) buyurdu: Nə üçün gizlənirsən, bir halda ki, o kordur? Ərz etdi: "O məni görməsə də, mən onu görürəm və o, mənim iyimi duyur."[1]

**-4-**

**جَعَلَ اللهُ الزَّكَاةَ تَزْكِيَةً لِلنَّفْسِ، وَ نَمَاءً فِي الرِّزْقِ، وَ الصِّيَامَ تَثْبِيتاً لِلْإِخْلَاص**

"Allah zəkatı insanların paklanması və ruzinin artması üçün, orucu isə ixlas kəsb etmək üçün qərar verib."[2]

**-5-**

**مَا أَحْسَنَ هَذَا وَ أَجْمَلَهُ لَا تُعْرَفُ بِهِ الْمَرْأَةُ مِنَ الرَّجُل**

Əsma bint Əms Həzrət Zəhra (əh.) üçün tabut düzəldəndə xanım xoşhal oldu. Buyurdu: "Bu tabut nə qədər yaxşıdır. Onun içindəki cənazənin kişi və qadın olduğu məlum olmur."[3]

**-6-**

**فَالْبَيْتُ بَيْتُكَ وَ النِّسَاءُ تَتْبَعُ الرِّجَالَ لَا أُخَالِفُ عَلَيْكَ بِشَيْء**

Həzrət Zəhra (s), Həzrət Əlidən (ə) olan istəyə belə cavab verdi: "Ev sənin evindir. Qadınlar kişilərin arxasıncadır. Mən heç bir işdə səninlə müxalifət etmirəm."[4]

**-7-**

**أَوْصَانِي رَسُولُ اللهِ<sup>ص</sup> أَنْ تَكُونَ الْخِدْمَةُ لَهَا يَوْماً فَكَانَ أَمْسِ يَوْمَ خِدْمَتِهَا**

Bir gün Salman Farsi, Həzrət Zəhraya (əh.) dedi: Fizzənin sizə xidmət etməsinə baxmayaraq, nə üçün sizin əlləriniz işləməkdən və dəyirmanın təsirindən yaralanıb? Buyurdu: "Peyğəmbər (s) mənə tövsiyə etmişdir ki, ev işlərini bir gün mən, bir gün Fizzə görsün. Dünən onun növbəsi idi. Bu gün mənim növbəmdir."[5]

**-8-**

**قَالَ لِي رَسُولُ اللهِ<sup>ص</sup> يَا فَاطِمَةُ مَنْ صَلَّى عَلَيْكِ غَفَرَ اللَّهُ لَهُ وَ أَلْحَقَهُ بِي حَيْثُ كُنْتُ مِنَ الْجَنَّةِ**

[1] "Biharul-ənvar", c. 43, səh. 91.
[2] "Biharul-ənvar", c. 43, səh. 91.
[3] "Biharul-ənvar", c. 43, səh. 189.
[4] "Büytul-ənzan", səh. 144.
[5] "Büytul-əhzan", səh. 20.

“Peyğəmbər (s) mənə buyurdu: Ey Fatimə! Hər kim sənə salavat göndərsə, Allah onu bağışlayar. Mən cənnətin hansı yerində olsam, onu mənə qovuşdurar.”[1]

**-9-**

**جَعَلَ اللهُ الْوَفَاءَ بِالنَّذْرِ تَعَرُّضاً لِلْمَغْفِرَةِ، وَ تَوْفِيَةَ الْمَكَايِيلِ وَ الْمَوَازِينِ تَغْيِيراً لِلْبَخْسَةِ**

“Nəzirə vəfa etmək Allahın məğfirətinə səbəb olar. Müamilədə, tərəzidə düzlük paxıllıqdan uzaqlaşmağa səbəb olar.”[2]

**-10-**

**مَنْ أَصْعَدَ إِلَى اللَّهِ خَالِصَ عِبَادَتِهِ أَهْبَطَ اللَّهُ عَزَّ وَ جَلَّ إِلَيْهِ أَفْضَلَ مَصْلَحَتِهِ**

“Hər kəs xalis ibadətlərini Allaha göndərsə, Allah da ən üstün məsləhəti ona nazil edər.”[3]

**-11-**

**مَا يَصْنَعُ الصَّائِمُ بِصِيَامِهِ إِذَا لَمْ يَصُنْ لِسَانَهُ وَ سَمْعَهُ وَ بَصَرَهُ وَ جَوَارِحَهُ**

“Əgər oruc tutan dilini, qulağını, gözünü və bütün üzvlərini günahdan çəkindirməsə, orucunun faydası yoxdur.”[4]

**-12-**

**قالَتْ: اِنَّ اَبِيص نَظَرَ اِلي عَلِيٍّع وَقالَ: هذا وَشِيعَتُهُ فِي الجَنَةِ**

Həzrət Fatimə (s) buyurub: “Peyğəmbər (s), Əliyə (ə) baxıb buyurdu: Bu şəxs və onun şiələri cənnət əhlidirlər.”[5]

**-13-**

**أَبَوَا هَذِهِ الْأُمَّةِ مُحَمَّدٌ وَ عَلِيٌّ يُقِيمَانِ أَوَدَهُمْ وَ يُنْقِذَانِهِمْ مِنَ الْعَذَابِ الدَّائِمِ إِنْ أَطَاعُوهُمَا وَ يُبِيحَانِهِمُ النَّعِيمَ الدَّائِمَ إِنْ وَافَقُوهُمَا**

“Həzrət Məhəmməd (s) və Əli (ə) bu ümmətin atalarıdır ki, əgər insanlar itaət etsələr onları zəlalət və həmişəlik əzabdan qoruyacaqlar. Və əgər onlarla müvafiq olsalar əbədi nemətlərə qovuşduracaqlar.”[6]

**-14-**

**جَعَلَ اللهُ اِجتِنابَ السِّرقَةِ ايجاباً لِلعِفَةِ وَالعَدلَ فِي الأَحكامِ اِيناساً لِلرَّعِيةِ**

---

[1] “Müstədrəkül-vəsail”, c. 10, səh. 211.
[2] “Biharul-ənvar”, c. 96, səh. 225.
[3] “Biharul-ənvar”, c. 68, səh. 184.
[4] “Müstədrəkül-vəsail”, c. 7, səh. 367.
[5] “İhqaqul-həqq”, c. 7, səh. 307.
[6] “Biharul-ənvar”, c. 23, səh. 259.

“Allah oğurluqdan uzaqlaşmanı iffət və hökmlərə ədalətlə riayət etməyi camaatın hakimlərlə ünsiyyət vasitəsi qərar verdi.”[1]

**-15-**

**يَا أَبَا الْحَسَنِ إِنِّي لَأَسْتَحْيِي مِنْ إِلَهِي أَنْ أُكَلِّفَ نَفْسَكَ مَا لَا تَقْدِرُ عَلَيْهِ**

“Ey Əli! Mən Allahdan xəcalət çəkirəm ki, sənin qadir olmadığın şeyi səndən istəyim.”[2]

**-16-**

**بِشْرٌ فِي وَجهِ المُؤمِنِ يُوجِبُ لِصاحِبِهِ الجَنةَ وَبِشرٌ فِي وَجهِ المُعانِدِ يَقِي صاحِبَهُ عذابَ النارِ**

“Möminə xoş üz göstərməyin savabı cənnətdir. Düşmənə və zalımlara xoş üz göstərmək insanı cəhənnəm əzabından saxlayır.”[3]

**-17-**

**قالَ لِي أَبِي رسُولُ اللهِ ص إيّاكَ وَ البُخلَ فَإنّهُ عاهَةٌ لا تَكونُ فِي كَريمٍ إياكَ وَ البُخلَ فَإنَهُ شَجَرَةٌ فِي النّارِ وَ أغْصانُها فِي الدُّنيا فَمَن تَعَلَقَ بِغُصنٍ مِن أغصانِها أَدخَلَهُ النارَ وَالسَّخاءُ شَجَرَةٌ فِي الجَنةِ و أغصانُها فِي الدُّنيا فَمَن تَعَلَّقَ بِغُصنٍ مِن أغصانِها أَدخَلَهُ الجَنَّةَ**

“Peyğəmbər (s) buyurub: Paxıllıqdan uzaq ol. Çünki paxıllıq bir bəladır ki, kərim şəxsdə tapılmaz. Paxıllıqdan uzaq ol. Çünki paxıllıq cəhənnəmdə bir ağacdır ki, budaqları dünyadadır. Hər kim özünü paxıllıq ağacının budaqlarının birindən assa, onu cəhənnəmə daxil edər. Bağışlamaq cənnətdə bir ağacdır ki, onun budaqları dünyadadır. Hər kim özünü onun budaqlarından assa, onu cənnətə daxil edər.”[4]

**-18-**

**وَ نَحنُ وَسِيلَتُه فِي خَلقِهِ وَ نَحنُ خاصَّتُهُ وَ مَحَلُّ قُدسِهِ وَ نَحنُ حُجَّتُهُ فِي غَيبِهِ وَ نَحنُ وُرَثةُ أنبيائِه**

---

[1] “Mizanul-hikmət”, c. 5, səh. 52.
[2] “Mənaqibi ibn Şəhraşub”, c. 2, səh. 77.
[3] “Təfsiri İmam Həsən Əskəri”, səh. 354.
[4] “Yase-ismət”, səh.72.

"Biz Əhli-beyt, Allahla bəndələr arasında vasitə, Allahın seçilmiş bəndələri və paklığın məkanıyıq. Biz Allahın aydın dəlilləri və ilahi peyğəmbərlərin varisləriyik."[1]

**-19-**

**جعل الله الْقِصَاصَ حَقْناً لِلدِّمَاء**

"Allah qisası qanları qorumaq üçün qərar verib."[2]

**-20-**

**ما جَعَلَ اللهُ لِأَحَدٍ بَعدَ غَديرِ خُم مِن حُجَّةٍ وَ لا عُذرٍ**

"Allah Qədir-xum hadisəsindən sonra heç kim üçün üzr və bəhanə qoymamışdır."[3]

**-21-**

**قال رَسُول اللّهِ<sup>ص</sup>: أَيُّمَا رَجُلٍ اصْطَنَعَ إِلَى رَجُلٍ مِنْ وُلْدِي صَنِيعَةً فَلَمْ يُكَافِئْهُ عَلَيْهَا فَأَنَا الْمُكَافِئُ لَهُ عَلَيْهَا**

"Peyğəmbər (s) buyurub: "Hər kim mənim övladlarım üçün bir iş görsə, o işə görə ona əcr verilməz. Mən onun əcrini verəcəyəm."[4]

**-22-**

**قال رسول الله هَذَا جَبْرَئِيلُ يُخْبِرُنِي أَنَّ السَّعِيدَ كُلَّ السَّعِيدِ حَقَّ السَّعِيدِ مَنْ أَحَبَّ عَلِيّاً فِي حَيَاتِه وَ بَعْدَ مَوْتِهِ وَ أَنَّ الشَّقِيَّ كُلَّ الشَّقِيِّ حَقَّ الشَّقِيِّ مَنْ أَبْغَضَ عَلِيّاً فِي حَيَاتِهِ وَ بَعْدَ وَفَاتِهِ**

"Rəsulullah buyurmuşdur: "Cəbrail mənə xəbər vermişdir ki, hər kim Əlini onun sağlığında və vəfat edəndən sonra sevsə, xoşbəxtdir. Hər kim Əli ilə onun sağlığında və vəfatından sonra düşmənçilik etsə, bədbəxtdir."[5]

**-23-**

**الَهِي أَنْتَ الْمُنَى وَ فَوْقَ الْمُنَى أَسْأَلُكَ أَنْ لَا تُعَذِّبَ مُحِبِّي وَ مُحِبِّي عِتْرَتِي بِالنَّارِ فَيُوحِي اللَّهُ إِلَيْهَا يَا فَاطِمَةُ وَ عِزَّتِي وَ جَلَالِي وَ ارْتِفَاعِ مَكَانِي لَقَدْ آلَيْتُ عَلَى نَفْسِي مِنْ قَبْلِ أَنْ أَخْلُقَ السَّمَاوَاتِ وَ الْأَرْضَ بِأَلْفَيْ عَامٍ أَنْ لَا أُعَذِّبَ مُحِبِّيكِ وَ مُحِبِّي عِتْرَتِكِ بِالنَّارِ**

---

[1] "Şərhi Nəhcül-bəlağə", c. 10, səh. 211.
[2] "Biharul-ənvar", c. 43, səh. 91.
[3] "Dəlailul-imamət", səh. 37.
[4] "Biharul-ənvar", c. 93, səh. 225.
[5] "Biharul-ənvar", c. 39, səh. 257.

Peyğəmbər (s) buyurub: “Qiyamətdə Allah tərəfindən nida gələr: “Ey Fatimə! Nə istəyirsən məndən dilə ki, qəbul edim, səni şad edim.” Həzrət Zəhra (s) deyər: “İlahi! Sən mənim ümidim və arzumsan, bəlkə ümiddən də üstün. Mən səndən istəyirəm ki, mənim dostlarıma və ailəmin dostlarına cəhənnəm odu ilə əzab etmə.” Allah onun cavabında buyurar: “İzzət və cəlalıma and olsun, sənin və ailənin dostlarına əzab etməyəcəyəm!”

**-24-**

**اِلـهِي وَسَيدِي اَسئَلُك َبالَّذِينَ اِصْطَفَيتَهُم وَبِبُكاءِ وَلَدِيَّ فِي مُفارَقَتِي اَن تَغفُرَ لِعُصاةِ شِيعَتِي وَشِيعةِ ذُرِيتِي**

“İlahi! Səni and verirəm Peyğəmbərinin haqqına və məndən ayrıldıqları üçün Həsən və Hüseynin tökdükləri göz yaşlarına, mənim və övladlarımın şiələrinin günahlarını bağışla.”[1]

**-25-**

**قالَ رَسُولُ الله: اَما اِنَّ◌َك يَابنَ اَبي طالبٍ وَشِيعَتُكَ في الجنه**

“Peyğəmbər (s) buyurub: “Ey Əli! Sən və şiələrin cənnət əhlidir.”[2]

**-26-**

**فَلَا يَعْلَمُ مَا دَاخَلَنِي مِنَ السُّرُورِ إِلَّا اللَّهُ بِإِكْفَائِي رَسُولُ اللَّهِ^ص^ تَحَمُّلَ رِقَابِ الرِّجَالِ**

Peyğəmbər (s) ev işlərini Həzrət Zəhraya və çöl işlərini Əliyə (ə) tapşıranda, buyurmuşdu: “Allahdan başqa heç kim bilmir ki, Peyğəmbərin (s) evin kişiyə aid olan işlərini mənə tapşıranda nə qədər şadam oldum.”[3]

**-27-**

**قال رسول اللهِ^ص^ إِنَّ فِي الْجُمُعَةِ لَسَاعَةً لَا يُوَافِقُهَا رَجُلٌ مُسْلِمٌ يَسْأَلُ اللَّهَ^عَزَّ وَ جَلَّ^ فِيهَا خَيْراً إِلَّا أَعْطَاهُ إِيَّاهُ. فَقُلْتُ يَا رَسُولَ اللَّهِ أَيَّةُ سَاعَةٍ هِيَ؟ قَالَ إِذَا تَدَلَّىٰ**

“Peyğəmbər (s) buyurub: Cümə günü bir vaxt vardır ki, hər bir xeyir iş həmin anda qəbul olar. Soruşdum: O hansı vaxtdır? Buyurdu: Günəşin yarısının üfüqdə gizləndiyi vaxt.”[4]

---

[1] “Kokəbul-durri”, c. 1, səh. 254.
[2] “Biharul-ənvar”, c. 39, səh. 267.
[3] “Vəsailüş-şiə”, c. 14, səh. 123.
[4] “Vəsailüş-şiə”, c. 5, səh. 29.

-28-

يارَسُولَ اللهِ اِن بَناتَ الناسِ يَتَزَوجنَ بِالدَّراهِمِ فَمالفَرقُ بَينِي وَبَينَهُنَّ اَسَئَلُكَ اَن تَرُدَّها وَتَدعُوالله اَن يَجعلَ مَهرِي، اَلشَّفاعَةَ فِي عُصاةِ اُمتِكَ

Həzrət Zəhra (əh.) atasına demişdir: “Ya Rəsulullah! Camaatın qızları öz mehriyəsini dirhəm və dinar ilə istəyirlər, bəs mənim onlarla fərqim nədir? Mən sizdən istəyirəm ki, mənim mehriyəm dirhəm və dinar olmasın. Allahdan istəyin ki, mehriyəmi sənin ümmətinin günahkarlarına şəfaət qərar versin.”

-29-

اِنْ كُنتَ تَعمَلُ بِمَا اَمَرنَاكَ وَتَنهيٰ عَمَّا زَجَرنَاكَ عَنهُ فَاَنتَ مِن شِيعَتِنَا وَاِلّا فَلا

Bir kişi xanımına dedi: Həzrət Zəhradan (əh.) soruş ki, mən sizin şiələrinizdənəm, ya yox? Həzət Fatimə (s) cavabında buyurdu: “Əgər sən bizim əmrlərimizə əməl edib pis işlərdən çəkinsən, bizim şiələrimizdənsən. Yoxsa, xeyr.”[1]

-30-

يا رَسُولَ اللهِ إنَّ سَلمانَ تَعَجَّبَ مِن لِباسِي فَوَ الَّذِي بَعَثَكَ بِالْحَقّ ما لِي وَ لِعَلِيٍّ مُنذُ خَمَسَ سِنِينَ إلّا مَسكُ كَبشٍ نَعلِفُ عَليها بِالنَّهارِ بَعيرَنا فَإذا كانَ اللَّيلُ اِفتَرَشناهُ وَ إنَّ مَرفقَتَنا لمِنَ أدمٍ حَشْوَها لِيفٌ

Salman Farsi Həzrət Zəhranın (əh.) yamaqlı və köhnə çadrasını görəndə təəccüb etdi. Zəhra (əh.) Peyğəmbərə (s) dedi: “Salman mənim paltarımı görəndə təəccüb etdi. Səni peyğəmbərliyə seçənə and olsun! Beş ildir ki, Əli ilə yaşayıram. Xalçamız yalnız qoyun dərisindəndir ki, gündüzlər onun üstündə dəvəmizə ot verir və gecələr onun üstündə yatırıq. Balışımız da dəridəndir ki, onun içi xurma lifindəndir.”[2]

-31-

قارِئُ الحَديدِ وَالرَّحمنِ يُدعيٰ فِي السَّمَواتِ وَالارضِ مَساكينَ الفِردَوسِ

“Hədid” və “Ər-rəhman” surələrini oxuyan şəxs göylərdə və yerdə cənnət əhli hesab olunar.”[3]

---

[1] “Biharul-ənvar”, c. 68, səh. 155.
[2] “Biharul-ənvar”, c. 43, səh. 88.
[3] “Kənzul-ummal”, c. 1, səh. 582.

-32-

حُـبِّبَ اِلَـيَّ مِـن دُنياكُـم ثَلاثٌ: تِلاوةُ كِـتابِ اللهِ وَ النَّظَرُ فِي وَجهِ رَسُولِ اللهِ وَ الانفاقُ فِي سَبِيلِ اللهِ

"Sizin dünyanızdan üç şeyi sevirəm: 1. Quran oxumağı; 2. Peyğəmbərin (s) simasına baxmağı; 3. Allah yolunda etiraf və ehsan etməyi."[1]

-33-

لا تُصلِّي عَلَيَّ أُمَّةٌ نَقَضَت عَهدَ اللهِ وَ عَهدَ أبِي رَسُولِ اللهِ صَلَّى اللهُ عَليهِ وَ آلِهِ فِي أمِيرِ المؤمِنينَ عليٍّ عليه السلام وَ ظَلَمُوني حَقِّي وَ أخَذُوا إرثِي وَ حَرَّقُوا صَحِيفَتِي الَّتي كَتَبها بي أبي بِمِلكٍ فَدكٍ

"Əlinin (ə) canişinliyinə dair Allah və Peyğəmbərin əhdini sındıran kəslər mənim cənazəmə namaz qılmasınlar. Onlar mənə zülm, irsimi qəsb etmiş və atamın yazdığı Fədəkin (bağ) sənədini məndən oğurlayıb, yandırmışlar."[2]

-34-

كانَ رَسُولُ اللهِ ص نَهاني أن أسألُكَ شَيئاً فَقالَ لا تسألِي اِبنَ عَمِّكَ شَيئاً إن جاءَكَ بِشَيءٍ عفْراً وَ إلّا فلا تسألِيهِ

Həzrət Zəhra (əh.) Əliyə (ə) demişdir: "Peyğəmbər (s) məni sizdən bir şey istəməkdən çəkindirib və mənə sifariş edib ki, əmim oğlundan bir şey istəmə. Əgər sənin üçün bir şey gətirsə, qəbul et."[3]

-35-

خِيارُكُم أَلْيَنُكُم مَناكِبُهُم وَ أَكرَمُهُم لِنسائِهِم

"Sizin ən yaxşılarınız təvazökar olanlar və xanımına hörmət edənlərdir."[4]

-36-

اذا حَشَرَتْ يَومَ القِيامةِ اَشفَعُ عُصاةِ اُمةِ النَّبِي ص

"Peyğəmbər (s) qiyamətdə ümmətinin günahkarlarına şəfaət edəcək."[5]

---

[1] "Vəqayeul-əyyam", səh. 295.
[2] "Biharul-ənvar", c. 43, səh. 204.
[3] "Təfsiri-əyyaşi", c. 1, səh. 171.
[4] "Nəhcul-həyat", səh. 157.
[5] "Ehqaqul-həqq", c. 1, səh. 367.

**-37-**

**خَيْرٌ لِلنِّسَاءِ أَنْ لَا يَرَيْنَ الرِّجَالَ وَ لَا يَرَاهُنَّ الرِّجَالُ**

"Qadınlar üçün ən xeyirlisi budur ki, naməhrəmi görməsinlər və naməhrəm də onu görməsin."[1]

**-38-**

**مَا عِنْدَنَا إِلَّا قُوتُ الصَّبِيَّةِ لَكُنَّا نُؤْثِرُ ضَيْفَنَا بِهِ**

"Bizim yanımızda qız uşağının yeyəcəyi qədər olan yeməkdən başqa yeməyimiz yoxdur. Amma biz onu qonaqla bölüşürük."[2]

**-39-**

**قَالَ رسول اللهص: وَيْلٌ لِامْرَأَةٍ أَغْضَبَتْ زَوْجَهَا وَ طُوبَى لِامْرَأَةٍ رَضِيَ عَنْهَا زَوْجُهَا**

"Peyğəmbər (s) buyurub: Vay olsun ərini qəzəbləndirən qadının halına və xoş ərini sevindirən qadının halına!"[3]

**-40-**

**يَا ابنَ عَمِّ ما عَهِدتَنِي كاذِبَةً وَ لا خائِنَةً وَ لا خالَفتُكَ مُنذُ عاشَرتَنِي**

"Ey əmi oğlu! Səninlə yaşadığım gündən nə sənə yalan dedim, nə xəyanət etdim, nə də işinə qarşı çıxdım."[4]

---

1 "Kəşfül-ğümmə", c. 2, səh. 23.
2 "Vəsailüş-şiə", c. 6, səh. 323.
3 "Biharul-ənvar", c. 8, səh. 310.
4 "Biharul-ənvar", c. 43, səh. 191.

# İmam Həsəndən (ə) qırx hədis

-1-

مَصائِبُ الدُّنيا أَربَعٌ: مَوتُ الوَالِدِ وَ مَوتُ الوَلَدِ وَ مَوتُ الأَخِ وَ مَوتُ الْمَرأَةِ فَمَوتُ الوَالِدِ قَاصِمُ الظَّهرِ وَ مَوتُ الوَلَدِ صَدعُ الفُؤادِ وَ مَوتُ الأَخِ قَصُّ الجَناحِ وَ مَوتُ الْمَرأَةِ حُزنُ سَاعَةٍ

"Dünyanın müsibətləri dörd şeydədir: Atanın ölümü, övladın ölümü, qardaşın ölümü və xanımın ölümü. Atanın ölümü beli sındırar. Övladın ölümü qəlbi ağrıdar. Qardaşın ölümü insanın qüdrətini alar. Xanımın ölümü isə insanı bir saat qəmə batırar."[1]

-2-

مَا تَشَاوَرَ قَوْمٌ إِلَّا هُدُوا إِلَى رُشْدِهِمْ

"Heç camaat bir-biri ilə məşvərət etmədi, məgər həqiqətən hidayət oldular."[2]

-3-

اللُّؤْمُ أَنْ لَا تَشْكُرَ النِّعْمَةَ

"Nemətə şükür etməmək alçaqlıqdır."[3]

-4-

يَا بُنَيَّ لَا تُوَاخِ أَحَداً حَتَّى تَعْرِفَ مَوَارِدَهُ وَ مَصَادِرَهُ فَإِذَا اسْتَنْبَطْتَ الْخِبْرَةَ وَ رَضِيتَ الْعِشْرَةَ فَآخِهِ عَلَى إِقَالَةِ الْعَثْرَةِ وَ الْمُوَاسَاةِ فِي الْعُسْرَةِ

İmam Həsən (ə) övladlarından birinə buyurmuşdur: "Ey oğlum! Əgər bir şəxsin hara gedib-haradan gəldiyini, ata-anasının kim olduğunu bilmirsənsə, onunla qardaşlıq etmə. Amma onu tam surətdə tanıyıb bəyəndinsə, o zaman onunla qardaş ol, bir şərtlə ki, onun xətalarını əfv et və çətin gündə onunla birgə ol."[4]

-5-

الْعَارُ أَهْوَنُ مِنَ النَّارِ

---

[1] "Mədənil-cəvahir", səh. 43.
[2] "Tühəful-uqul", səh. 236.
[3] "Biharul-ənvar", c. 75, səh. 105.
[4] Həmin mənbə.

“Dünyanın rüsvayçılığına dözmək, cəhənnəmə dözməkdən yaxşıdır.”[1]

**-6-**

**مَن اَدَامَ الاِختِلافَ اِلَي الْمَسجِدِ اَصَابَ اِحديٰ ثَمَانٍ: آيَةً مُحكَمَةً وَ أَخاً مُسْتَفَاداً وَ عِلْماً مُسْتَطْرَفاً وَ رَحْمَةً مُنْتَظَرَةً وَ كَلِمَةً تَدُلُّهُ عَلَى الْهُدَى أَوْ تَرُدُّهُ عَنْ رَدًى وَ تَرْكَ الذُّنُوبِ حَيَاءً أَوْ خَشْيَةً**

“Hər kəs həmişə məscidə gediş-gəliş etsə, səkkiz nemətdən biri ona nəsib olar: 1. Dini və qeyri işlərdə möhkəm və aydın dəlillər və ayələr; 2. Faydalı dostluq; 3. Yeni elm; 4. Gözlənilən rəhmət; 5. Onu hidayət edən bir söz və ya onu həlakətdən qoruyan söhbət; 6. Camaatdan utanacaq və Allahdan qorxacaq günahları tərk etmək.”[2]

**-7-**

**شُحُّ الرَّجُلِ عَلَى دِينِهِ وَ إِصْلَاحُهُ مَالَهُ وَ قِيَامُهُ بِالْحُقُوقِ**

İmamdan mərdlik haqda sual olundu. Həzrət buyurdu: “Dinə həris olmaq, malı haramdan paklamaq və insanların haqqına riayət etmək mərdlikdir.”[3]

**-8-**

**الْمَصَائِبُ مَفَاتِيحُ الْأَجْرِ**

“Müsibətlər, əcri əldə etməyin açarlarıdır.”[4]

**-9-**

**إِذَا أَضَرَّتِ النَّوَافِلُ بِالْفَرَائِضِ فَارْفُضُوهَا**

“Nə vaxt müstəhəb əməllər vaciblərə ziyan vursa, müstəhəbləri tərk et.”[5]

**-10-**

**الْيَقِينُ مَعَاذٌ لِلسَّلَامَةِ مَنْ تَذَكَّرَ بُعْدَ السَّفَرِ اعْتَدَّ وَ لَا يَغُشُّ الْعَاقِلُ مَنِ اسْتَنْصَحَه**

“Yəqin, salamatlıq pənahgahıdır. Səfərinin uzaq olduğunu bilən kəs tədarük görər. Ağıllı insan öz xeyirxahına kələk gəlməz.”[6]

---

[1] Həmin mənbə.
[2] “Biharul-ənvar”, c. 75, səh. 238.
[3] “Tühəful-uqul”, səh. 238.
[4] “Biharul-ənvar”, c. 75, səh. 114.
[5] “Biharul-ənvar”, c. 75, səh. 239.
[6] “Biharul-ənvar”, c. 75, səh. 239.

-11-

**إِذَا لَقِيَ أَحَدُكُمْ أَخَاهُ فَلْيُقَبِّلْ مَوْضِعَ النُّورِ مِنْ جَبْهَتِهِ**

"Din qardaşınla görüşəndə onun nur yeri olan alnından öp."[1]

-12-

**اِن لَم تُطِعكَ نَفسُكَ فِيما تَحمِلُها عَلَيهِ مما تكرَهُ فلا تُطِعها فِيما تَحمِلُكَ عَلَيهِ فِيما تَهوى**

"Sənin nəfsin sən istədiyinə itaət etmədisə, sən də onun istəyinə itaət etmə."[2]

-13-

**عَلِّمِ النَّاسَ عِلْمَكَ وَ تَعَلَّمْ عِلْمَ غَيْرِك**

"Elmini başqalarına öyrət və başqalarının elmini öyrən."[3]

-14-

**اَلْعَادَاتُ قَاهِرَاتٌ فَمَنِ اعْتَادَ شَيْئاً في سِرِّهِ وَخَلوَتِهِ فَضَحَهُ في عَلانِيَتِهِ عِندَ الْمَلَأِ**

"Adətlər insana qalib gəlir. Ona görə də əgər bir şəxs gizlində bir pis şeyə adət etsə, həmin adət onu camaat arasında rüsvay edər."[4]

-15-

**لَا يُعْرَفُ الرَّأْيُ إِلَّا عِنْدَ الْغَضَبِ**

"Bir şəxs qəzəblənməyincə onun fikri yaxşı aydın olmaz."[5]

-16-

**جَرَّبْنَا وَ جَرَّبَ الْمُجَرِّبُونَ فَلَمْ نَرَ شَيئاً أَنفَعَ وِجداناً وَ لا أَضَرَّ فِقداناً مِنَ الصَّبرِ تُداوىٰ بِهِ الْأُمُورُ**

"Başqaları və biz özümüz də təcrübə edib görmüşük ki, insan üçün ən faydalı şey vicdan və insaf, ən zərərli şey isə işlərin həllində lazım olan səbirin olmamazlığıdır."[6]

-17-

**إِنِّي لَأَستَحيِي مِن رَبِّي أَن أَلقاهُ وَ لَم أَمشِ إِلى بَيتِهِ (فَمَشى عِشرِينَ مَرَّةً مِنَ المَدِينَةِ على رِجلِيهِ)**

---

[1] "Tühəful-uqul", səh. 239.
[2] "Məcmuei-vərram", c. 2, səh. 114.
[3] "Biharul-ənvar", c. 75, səh. 111.
[4] "Məcmueyi-vərram", c. 2, səh. 114.
[5] "Məcmueyi-vərram", c. 2, səh. 114.
[6] "Şərhi Nəhcül-bəlağə", c. 1, səh. 320.

“Mən Allahın evinə getmədən Onunla görüşməyə (qiyamətdə) utanıram. (Həzrət həcc əməllərini yerinə yetirmək üçün 20 dəfə piyada Mədinədən Məkkəyə səfər etmişdir.)”[1]

**-18-**

**أُوصِيكُم بِتَقوَى اللهِ وَ إِدامَةِ التَّفَكُّرِ فإِنَّ التَّفَكُّرَ أبُو كُلِّ خَيرٍ وَ أُمُّهُ**

“Sizə ilahi təqva və daimi təfəkkür tövsiyə edirəm. Çünki təfəkkür hər bir xeyirin mənbəyidir.”[2]

**-19-**

**عَجَبٌ لِمَنْ يَتَفَكَّرُ فِي مَأْكُولِهِ كَيْفَ لَا يَتَفَكَّرُ فِي مَعْقُولِهِ فَيُجَنِّبُ بَطْنَهُ مَا يُؤْذِيهِ وَ يُودِعُ صَدْرَهُ مَا يُرْدِيهِ**

“Təəccüb edirəm o kəsə ki, qidalanması haqda fikirləşir. Amma əqli ehtiyacları haqda fikirləşmir. Mədəsini zərərli şeylərdən çəkindirir. Amma qəlbini (zehn və fikir) ən alçaq şeylərlə doldurur.”[3]

**-20-**

**أَنَا الضَّامِنُ لِمَنْ لَمْ يَهْجُسْ فِي قَلْبِهِ إِلَّا الرِّضَا أَنْ يَدْعُوَ اللَّهَ فَيُسْتَجَابَ لَهُ**

“Mən qəlbində Allahdan başqası olmayan şəxsə zəmanət verirəm ki, əgər bu halda dua etsə, duası qəbul olar.”[4]

**-21-**

**مَنْ قَرَأَ الْقُرْآنَ كَانَتْ لَهُ دَعْوَةٌ مُجَابَةٌ إِمَّا مُعَجَّلَةٌ وَ إِمَّا مُؤَجَّلَةٌ**

“Quran oxuyanın mütləq bir duası qəbul olar, ya tez, ya da gec.”[5]

**-22-**

**الْفُرْصَةُ سَرِيعَةُ الْفَوْتِ بَطِيئَةُ الْعَوْدِ**

“Fürsət tez keçir və gec qayıdır.”[6]

**-23-**

**الْبُخْلُ جَامِعٌ لِلْمَسَاوِي وَ الْعُيُوبِ وَ قَاطِعٌ لِلْمَوَدَّاتِ مِنَ الْقُلُوب**

“Paxıllıq bütün pisliklərin mənşəyidir. Dostluqları və məhəbbətləri məhv edir.”[7]

---

[1] “Kəşfül-ğummə”, c. 1, səh. 567.
[2] “Məcmueyi-vərram”, c. 1, səh. 53.
[3] “Biharul-ənvar”, c. 1, səh. 218.
[4] “Biharul-ənvar”, c. 43, səh. 351.
[5] “Mizanul-hikmət”, c. 2, səh. 273.
[6] “Biharul-ənvar”, c. 75, səh. 113.
[7] “Həyatul-Imamul Həsən”, c. 1, səh. 319.

-24-

**عَليكُم بِالفِكرِ فإِنهُ مَفاتِيحُ أَبوابِ الحِكمَةِ**

"Təfəkkür işlədin, çünki təfəkkür hikmət və elm qapılarının açarıdır."[1]

-25-

**الْمَعْرُوفُ مَا لَمْ يَتَقَدَّمْهُ مَطْلٌ وَ لَمْ يَتَعَقَّبْهُ مَنٌّ**

"Yaxşı iş odur ki, ondan əvvəl səhlənkarlıq olmaya və iş qurtarandan sonra minnət qoyulmaya."[2]

-26-

**حُسنُ السُؤالِ نِصفُ العِلمِ وَ مُداراةِ الناس نِصفُ الْعَقلِ وَ الْقَصدُ في المعيشة نصف المئونة**

"Yaxşı sual, cavabın yarısıdır. Camaatla yaxşı rəftar etmək, ağılın yarısıdır. İfrat və təfrit etməmək, yaşayışın yarısıdır."[3]

-27-

**سُئِلَ الحَسَنُع مَا الْكُلفَةُ قَالَ كَلامُكَ فِيمَا لا يَعْنِيكَ**

İmam Həsəndən (ə) yükün nə olduğu haqda soruşdular. Buyurdu: "Bihudə danışmaq yükdür."[4]

-28-

**لَمَّا قِيلَ لَهُ إنَّ فِيكَ كِبْراً قالَ: كَلاّ، اَلْكِبْرُ لِلّهِ وَحْدَهُ وَ لكِنْ فِىَّ عِزَّةٌ، قَالَ الله تَعَالى: وَ لِلّهِ الْعِزَّةُ وَ لِرَسُولِهِ وَ لِلْمُؤْمِنِينَ**

İmama "səndə təkəbbür var?"—deyildikdə buyurdu: "Xeyr, böyüklük yalnız Allaha məxsusdur. Məndə isə izzətdir. Mütəal Allah buyurmuşdur: İzzət−Allahın, peyğəmbərinin və möminlərindir."

-29-

**خَيْرُ الْغِنَى الْقُنُوعُ**

"Qənaət, ən yaxşı sərvətdir."[5]

-30-

**مَن عَرَفَ اللهَ أَحَبَّهُ وَ مَن عَرَفَ الدُّنيا زَهَدَ فِيهِ**

[1] "Mizanul-hikmət", c. 8, səh. 245.
[2] "Müstədrəkül-vəsail", c. 7, səh. 238.
[3] "Şərhi Nəhcül-bəlağə", c. 18, səh. 108.
[4] "Mizanul-hikmət", c. 8, səh. 429.
[5] "Ələdədul qəviyyə", səh. 33.

“Allahı tanıyan şəxs Onu sevər. Dünyanı tanıyan Ona rəğbət bəsləməz.”[1]

**-31-**

**وَ الخَيرُ كُلُّهُ في صَبرِ ساعَةٍ وَاحِدَةٍ تُورِثُ رَاحَةً طَويلَةً وَ سَعادَةً كَثِيرَةً**

“Bütün xeyirlər bir anlıq səbirdədir ki, uzun rahatlığa və çox səadətə səbəb olar.”[2]

**-32-**

**غَسْلُ الْيَدَيْنِ قَبْلَ الطَّعَامِ وَ بَعْدَهُ يَنْفِي الْفَقْرَ**

“Yeməkdən əvvəl əlləri yumaq kasıblığı aradan aparar.”[3]

**-33-**

**مَنْ أَحَبَّ الدُّنْيَا ذَهَبَ خَوْفُ الْآخِرَةِ مِنْ قَلْبِهِ وَ مَا أُوتِيَ عَبْدٌ عِلْماً فَازْدَادَ لِلدُّنْيَا حُبّاً إِلَّا ازْدَادَ مِنَ اللهِ بُعْداً وَ ازْدَادَ اللَّهُ عَلَيْهِ غَضَباً**

“Dünyanı sevənin ürəyində axirət məhəbbəti olmaz. Dünyaya həris olan axirətdən uzaqlıqdan başqa bir şey qazanmaz və Allahın ona qarşı qəzəbi çoxalar.”[4]

**-34-**

**إِنَّ أَحْسَنَ الْحَسَنِ الْخُلُقُ الْحَسَنُ**

“Həqiqətən, ən üstün xüsusiyyət camaatla xoşüzlü və xoşəxlaqlı olmaqdır.”[5]

**-35-**

**كَيْفَ يَكُونُ الْمُؤْمِنُ مُؤْمِناً وَ هُوَ يَسْخَطُ قِسْمَهُ وَ يُحَقِّرُ مَنْزِلَتَهُ وَالحَاكِمُ عَلَيهِ اللهُ**

“Mömin necə mömin ola bilər ki, Allahın müqəddəratı ilə razı olmayıb öz məqamını kiçik sayır! Bir halda ki, mütləq hakim Allahdır.”[6]

**-36-**

**مَنْ طَلَبَ رِضَى اللهِ بِسَخَطِ النَّاسِ كَفَاهُ اللَّهُ أُمُورَ النَّاسِ وَ مَنْ طَلَبَ رِضَى النَّاسِ بِسَخَطِ اللهِ وَكَلَهُ اللَّهُ إِلَى النَّاسِ**

---

[1] “Məcmueyi-vərram”, c. 1, səh. 53.
[2] “ İrşadul-qlub”, c. 1, səh. 25.
[3] “İsna-əşəriyyə”, səh. 55.
[4] “İrşadul-qlub”, c. 1, səh. 25.
[5] “Vəsailüş-şiə”, c. 12, səh. 153.
[6] “Biharul-ənvar”, c. 43, səh. 351.

“Hər kəs yalnız Allahın razılığını tələb etsə, (camaata görə iş görməsə) Allah onu camaatdan qoruyar. Hər kəs camaatın razılığını tələb etsə, Allah onun işlərini camaata tapşırar.”[1]

**-37-**

**اَلْإِعْطَاءُ قَبْلَ السُّؤَالِ مِن أَكبَرِ السُّؤْدَدِ**

“Ehtiyaclıya bir şey istəməmişdən qabaq onu vermək ən böyük alicənablıqdır.”[2]

**-38-**

**نِعْمَ الْعَوْنُ الصَّمْتُ فِي مَوَاطِنَ كَثِيرَةٍ وَ إِنْ كُنْتَ فَصِيحاً**

“Gözəl natiq olsan da, çox yerdə sükut etmək nə yaxşıdır!”[3]

**-39-**

**واعْمَلْ لِدُنْيَاكَ كَأَنَّكَ تَعِيشُ أَبَداً وَ اعْمَلْ لِآخِرَتِكَ كَأَنَّكَ تَمُوتُ غَداً**

“Dünyanı abadlaşdırmaq üçün elə çalış ki, elə bil həmişə dünyada qalacaqsan. Axirətin üçün də elə çalış ki, elə bil sabah öləcəksən.”[4]

**-40-**

**اتَّقُوا اللَّهَ عِبَادَ اللَّهِ وَ جِدُّوا فِي الطَّلَبِ وَ تُجَاهَ الْهَرَبِ وَ بَادِرُوا الْعَمَلَ قَبْلَ مُقَطَّعَاتِ النَّقِمَاتِ وَ هَاذِمِ اللَّذَّاتِ فَإِنَّ الدُّنْيَا لَا يَدُومُ نَعِيمُهَا وَ لَا تُؤْمَنُ فَجِيعُهَا وَ لَا تَتَوَقَّى فِي مَسَاوِيهَا غُرُورٌ حَائِلٌ وَ سِنَادٌ مَائِلٌ**

“Ey Allah bəndələri! Allaha itaətsizlik etməkdən çəkinin, istəklərinizə çatmaq üçün təlaş edin və pis işlərdən qaçın. Ölüm və bəlalar sizə tuş gəlməmişdən əvvəl yaxşı işlər görməyi qərara alın. Həqiqətən, dünya nemətləri müvəqqəti və kimsə onun bəlalarından amanda deyil. Dünya aldadıcı və güvənc yeri qərarsızdır.”[5]

---

[1] “Mizanul-hikmət”, c. 4, səh. 153.
[2] “Mizanul-hikmət”, c. 4 səh. 580.
[3] “Biharu-ənvar”, c. 1, səh. 117.
[4] “Biharul-ənvar”, c. 44, səh. 139.
[5] “Biharul-ənvar”, c. 75, səh. 109.

# İmam Hüseyndən (ə) qırx hədis

**-1-**

**لَولا ثَلاثَةٌ ما وَضَعَ اِبنُ آدَمَ رَاسَهُ لِشَيئٍ: اَلفَقرُ وَ الْمَرَضُ وَ الْمَوتُ**

"Əgər üç şey olmasaydı, bəşər heç nəyin qarşısında əyilməzdi: 1. Kasıblıq; 2. Xəstəlik; 3. Ölüm."[1]

**-2-**

**لِلسَّلَامِ سَبْعُونَ حَسَنَةً تِسْعٌ وَ سِتُّونَ لِلْمُبْتَدِئِ وَ وَاحِدَةٌ لِلرَّادِّ**

"Salamın yetmiş savabı var. Onun altmış doqquzu salam verənin biri isə salamın cavabını alanındır."[2]

**-3-**

**مَن لَبِسَ ثَوباً يَشهَرُهُ كَسَاهُ اللهُ يَومَ القِيامَةِ ثَوباً مِنَ النّارِ**

"Hər kəs onu məşhur edən bir paltar geysə, Allah qiyamətdə ona oddan paltar geyindirər."[3]

**-4-**

**إِيَّاكَ وَ مَا تَعْتَذِرُ مِنْهُ فَإِنَّ الْمُؤْمِنَ لَا يُسِيءُ وَ لَا يَعْتَذِرُ وَ الْمُنَافِقُ يُسِيءُ كُلَّ يَوْمٍ وَ يَعْتَذِرُ**

"Üzrə səbəb olan işlərdən pəhriz edin. Çünki mömin nə pis iş görər, nə də üzr istəyər. Amma münafiq isə hər gün pis iş görər və sonra da üzr istəyər."[4]

**-5-**

**أَنَا قَتِيلُ الْعَبَرَةِ لَا يَذْكُرُنِي مُؤْمِنٌ إِلَّا اسْتَعْبَرَ**

"Mən göz yaşı üstə öldürülmüşəm. Elə bir mömin tapılmaz ki, məni yad edib müsibətimə ağlamasın."[5]

**-6-**

**مَنْ سَرَّهُ أَنْ يُنْسَأَ فِي أَجَلِهِ وَ يُوَسَّعَ عَلَيْهِ فِي رِزْقِهِ فَلْيَصِلْ رَحِمَهُ**

"Kim istəyir ki, əcəli təxirə düşsün və ruzisi çoxalsın, sileyi-rəhm etməlidir."[6]

---

[1] "Nəzəhətun-nazir", səh. 80.
[2] "Biharul-ənvar", c. 78, səh. 120.
[3] "Furui kafi", səh. 445.
[4] "Tuhəfül-üqul", səh. 253.
[5] "Müstədrəkul-vəsail", c. 1, səh. 311.
[6] "Uyuni-əxbarir-Rza" (ə) c. 2, səh. 48.

-7-

مَنْ طَلَبَ رِضَى اللَّهِ بِسَخَطِ النَّاسِ كَفَاهُ اللَّهُ أُمُورَ النَّاسِ وَ مَنْ طَلَبَ رِضَى النَّاسِ بِسَخَطِ اللَّهِ وَكَلَهُ اللَّهُ إِلَى النَّاسِ

“Hər kim Allahın razılığını camaatın qəzəbi ilə qazansa, Allah onu camaata möhtac etməz. Hər kim camaatın razılığını Allahın razılığından üstün tutsa, Allah-təala onu camaata tapşırar.”[1]

-8-

كَانَ يَرْفَعُ يَدَيْهِ إِذَا ابْتَهَلَ وَ دَعَا كَمَا يَسْتَطْعِمُ الْمِسْكِينُ

“Peyğəmbər (s) dua edəndə miskinin birinə əl açdığı kimi əllərini səmaya qaldırıb dua edərdi.”[2]

-9-

النّاسُ عَبِيدُ الدُّنيا وَ الدِّينُ لَعِقٌ عَلىٰ أَلسِنَتِهِم يَحُوطُونَهُ ما دَرَّتْ مَعايِشُهُم فِإذا مُحِّصُوا بِالبَلاءِ قَلَّ الدَّيّانُونَ

“Camaat dünyanın quludur. Dini yalnız dillərində zikr edirlər və onu dünyəvi işlərini təmin edənə qədər qəbul edirlər. Amma çətinliklə üzləşəndə dindarların sayı azdır.”[3]

-10-

الْقُنُوعُ رَاحَةُ الْأَبْدَانِ

“Qənaət, cismin rahatlığıdır.”[4]

-11-

قَالَ؏ لِرَجُلٍ اغْتَابَ عِنْدَهُ رَجُلًا يَا هَذَا كُفَّ عَنِ الْغِيبَةِ فَإِنَّهَا إِدَامُ كِلَابِ النَّارِ

Həzrət qeybət edən bir kişiyə buyurdu: “Qeybətdən çəkin ki, qeybət, cəhənnəm itlərinin azuqəsidir.”[5]

-12-

نَحنُ وَ شِيعَتُنا عَلَى الفِطرَةِ الَّتِي بَعَثَ اللهُ عَلَيها مُحَمَّداً وَ سَائِرُ النَّاسِ مِنهَا بُرَآءُ

“Biz və şiələrimizin fitrəti Allah-təalanın Peyğəmbəri (s) seçdiyi fitrət üzrədir. Amma başqa insanlar belə deyillər.”[6]

---

[1] “Biharul-ənvar”, c. 78, səh. 126.
[2] “Biharul-ənvar”, c. 78, səh. 282.
[3] “Mizanul-hikmət”, c. 3, səh. 316.
[4] “Mizanul-hikmət”, c. 3, səh. 282.
[5] “Xuruş”, aşla yeyilən qara.
[6] “Ricali kəşşi”, c. 10, səh. 331.

**-13-**

**اِنَّ أَجوَدَ النّاسِ مَن أَعطىٰ مَن لا يَرجُوهُ**

"Ən səxavətli insan o kəsdir ki, qarşı tərəfdən bir şey ummadan ehsan etsin."[1]

**-14-**

**وُجِدَ لَوْحٌ تَحْتَ حَائِطِ مَدِينَةٍ مِنَ الْمَدَائِنِ فِيهِ مَكْتُوبٌ أَنَا اللَّهُ لَا إِلَهَ إِلَّا أَنَا وَ مُحَمَّدٌ نَبِيِّي عَجِبْتُ لِمَنْ أَيْقَنَ بِالْمَوْتِ كَيْفَ يَفْرَحُ وَ عَجِبْتُ لِمَنْ أَيْقَنَ بِالْقَدَرِ كَيْفَ يَحْزَنُ وَ عَجِبْتُ لِمَنِ اخْتَبَرَ الدُّنْيَا كَيْفَ يَطْمَئِنُّ إِلَيْهَا**

"Bir şəhərin divarının altından bir lövhə tapıldı. Orada yazılmışdır: "Məndən başqa Allah yoxdur və Məhəmməd mənim elçimdir. Təəccüb edirəm o kəsə ki, ölümə yəqini var, bununla belə o necə şaddır! Təəccüb edirəm o kəsə ki, qəza-qədəri qəbul edir, amma pis hadisələrlə üzləşəndə qəmgin olur. Təəccüb edirəm o kəsə ki, dünyanı sınayıb, amma buna baxmayaraq ona necə güvənir!"[2]

**-15-**

**اِنَّ مَجَارِيَ الْأُمُورِ وَ الْأَحْكَامِ عَلَى أَيْدِي الْعُلَمَاءِ بِاللَّهِ الْأُمَنَاءِ عَلَى حَلَالِهِ وَ حَرَامِهِ**

"Həqiqətən, işlərin düzgün müqəddəratı ilahi alimlərin əlindədir və onlar Allahın halal və haramına zamindirlər."[3]

**-16-**

**السَّلَامُ قَبْلَ الْكَلَامِ، عَافَاكَ اللَّهُ! لَا تَأْذَنُوا لِأَحَدٍ حَتَّى يُسَلِّمَ**

İmam Hüseyn (ə) salamsız hal-əhval soruşana buyurdu: "Salam kəlamdan qabaqdır. Allah sənə afiyət versin! (Sonra buyurdu:) Sizinlə salamsız danışmaq istəyənə icazə verməyin."[4]

**-17-**

**اَلصِّدقُ عِزٌّ وَ الكِذبُ عَجزٌ وَ السِّرُّ اَمانَةٌ وَ الجِوارُ قَرابَةٌ وَ الْمَعُونَةُ صَدَقَةٌ وَ العَمَلُ تَجرُبَةٌ**

---

[1] "Ricali kəşşi", c. 10, səh. 185.
[2] "Biharul-ənvar", c. 73, səh. 95.
[3] "Biharul-ənvar", c. 100, səh. 79.
[4] "Biharul-ənvar", c. 78, səh. 117.

“Düz danışmaq izzətdir. Yalan danışmaq acizlikdir. Camaatın sirri əmanətdir. Qonşuluq qohumluqdur. Camaata kömək etmək sədəqədir. Iş özü təcrübədir.”[1]

**-18-**

**مَن عَبَدَ اللهَ حَقَّ عِبادِتهِ آتاهُ اللهُ فَوقَ أمانِيهِ وَ كَفايَتِهِ**

“Hər kim həqiqətən Allaha bəndəlik etsə, Allah ona gözlədiyindən də artıq bəxşiş edər.”[2]

**-19-**

**هُوَ اَنْ تَخرُجَ مِن بَيتِكَ فَلا تَلقيٰ اَحداً اِلّا رَأَيتَ لَهُ الفَضلَ عَلَيكَ**

İmamdan ədəbin mənası soruşulduqda, buyurdu: “Ədəb odur ki, evdən xaric olanda üzləşdiyin şəxsi özündən üstün biləsən.”[3]

**-20-**

**رُبَّ ذَنبٍ أَحسَنُ مِنَ الاِعتِذارِ مِنهُ**

“Nə çox xətalar var ki, üzrü onlardan da pisdir.”[4]

**-21-**

**قَالَ لِرَسُولِ اللّهِ يَا أَبَتَاهْ مَا جَزَاءُ مَنْ زَارَكَ فَقَالَ يَا بُنَيَّ مَنْ زَارَنِي حَيّاً أَوْ مَيّتاً أَوْ زَارَ أَبَاكَ أَوْ زَارَ أَخَاكَ أَوْ زَارَكَ كَانَ حَقّاً عَلَيَّ أَنْ أَزُورَهُ يَوْمَ الْقِيَامَةِ وَأُخَلّصَهُ مِنْ ذُنُوبِهِ وَاُدخِلَهُ الجَنَّة**

İmam (ə), Peyğəmbərə (s) dedi: “Səni ziyarət edənin savabı nə qədərdir? Buyurdu: Ey oğlum! Hər kim məni sağlığımda, ya öləndən sonra və atanı, qardaşını, səni ziyarət etsə, (Allahın izni ilə) onu qiyamət günü ziyarət edər, günahlarından keçər və cənnətə daxil edərəm.”[5]

**-22-**

**بادِرُوا بِصِحةِ الاجسامِ فِي مُدةِ الاَعمارِ**

“Ömür boyu bədəninizi sağlam saxlayın.”[6]

---

[1] “Tarixi-Yəqubi”, c. 2, səh. 246.
[2] “Mizanul-hikmət”, c. 6, səh. 27.
[3] “Divani-Imam Hüseyn”, səh. 99.
[4] “Mizanul-hikmət”, c. 6, səh. 116.
[5] “Tənzibul-əhkam”, c. 6, səh. 4.
[6] “Biharul-ənvar”, c. 75, səh. 120.

-23-

خَمْسٌ مَنْ لَمْ تَكُنْ فِيهِ لَمْ يَكُنْ فِيهِ كَثِيرٌ مُسْتَمْتَعٌ الْعَقْلُ وَالْأَدَبُ وَالدِّينُ وَالْجُودُ وَحُسْنُ الْخُلُقِ

"Hər kimdə beş şey olmasa, çox fayda götürməz: 1. Ağıl; 2. Din; 3. Həya; 4. Ədəb; 5. Xoş əxlaq."[1]

-24-

إِنَّ أَعْمَالَ هَذِهِ الْأُمَّةِ مَا مِنْ صَبَاحٍ إِلَّا وَ تُعْرَضُ عَلَى اللهِ تَعَالَى

"Bu ümmətin əməl dəftəri hər gün sübh çağı Allah-təalaya təqdim olunur."[2]

-25-

اِنَّ حَوَائِجَ النَّاسِ إِلَيْكُمْ مِنْ نِعَمِ اللهِ عَلَيْكُمْ فَلَا تَمَلُّوا النِّعَمَ

"Həqiqətən, camaatın sizə möhtac olması Allahın nemətlərindəndir. Ona görə də onların istəklərini yerinə yetirməkdə səhlənkarlıq etməyin."[3]

-26-

مَنْ قَبِلَ عَطَاءَكَ فَقَدْ أَعَانَكَ عَلَى الْكَرَمِ

"Hər kəs sənin hədiyyəni qəbul etsə, sənə böyük bir kömək etmişdir."[4]

-27-

مَنْ كَفَلَ لَنَا يَتِيماً قَطَعَتْهُ عَنَّا مَحَبَّتُنَا بِاسْتِتَارِنَا فَوَاسَاهُ مِنْ عُلُومِنَا الَّتِي سَقَطَتْ إِلَيْهِ حَتَّى أَرْشَدَهُ وَ هَدَاهُ قَالَ اللهُ عَزَّ وَ جَلَّ [لَهُ] يَا أَيُّهَا الْعَبْدُ الْكَرِيمُ الْمُوَاسِي أَنَا أَوْلَى بِالْكَرَمِ مِنْكَ اجْعَلُوا لَهُ يَا مَلَائِكَتِي فِي الْجِنَانِ بِعَدَدِ كُلِّ حَرْفٍ عَلَّمَهُ أَلْفَ أَلْفِ قَصْرٍ وَ ضَمُّوا إِلَيْهَا مَا يَلِيقُ بِهَا مِنْ سَائِرِ النِّعَمِ

"Hər kəs bizə görə bir yetimi (yəni, bizim məhəbbətimiz və mədəniyyətimizdən məhrum olanlar) himayəsinə götürsə və bizim elmimizlə onu hidayət etsə, Allah ona buyurar: "Ey mənim kərim bəndəm, mənim kərəmim lap çoxdur! Ey mələklər, öyrətdiyi hər bir hərfin müqabilində ona minlərlə qəsr və layiq olduğu nemətləri verin."[5]

---

[1] "Həyatul-Imam Hüseyn", c. 1, səh. 181.
[2] "Biharul-ənvar", c. 65, səh. 358.
[3] "Biharul-ənvar", c. 71, səh. 318.
[4] "Biharul-ənvar", c. 65, səh. 358.
[5] "İhticac", c. 1, səh. 116.

**-28-**

**العَجَلَةُ سَفَهٌ وَ السَّفَهُ ضَعفٌ**

“Tələsmək səfehlikdir. Səfehlik isə zəiflikdir.”

**-29-**

**قِيلَ لِلْحُسَيْنِ؏ كَيْفَ أَصْبَحْتَ يَا ابْنَ رَسُولِ اللَّهِ قَالَ أَصْبَحْتُ وَ لِيَ رَبٌّ فَوْقِي وَ النَّارُ أَمَامِي وَ الْمَوْتُ يَطْلُبُنِي وَ الْحِسَابُ مُحْدِقٌ بِي وَ أَنَا مُرْتَهَنٌ بِعَمَلِي لَا أَجِدُ مَا أُحِبُّ وَ لَا أَدْفَعُ مَا أَكْرَهُ وَ الْأُمُورُ بِيَدِ غَيْرِي فَإِنْ شَاءَ عَذَّبَنِي وَ إِنْ شَاءَ عَفَا عَنِّي فَأَيُّ فَقِيرٍ أَفْقَرُ مِنِّي**

Bir nəfər İmamın əhvalını soruşduqda, buyurdu: “Elə bir haldayam ki, Allahım əməllərimə nəzarət edir, cəhənnəm atəşi qarşımdadır, ölüm məni izləyir, hesab (cəza günü) məni əhatə edib, özüm də əməllərimin girovuyam və qorxduğum şeyi də özümdən uzaqlaşdıra bilmirəm. Çünki işlər başqasının əlindədir, istəsə mənə əzab verər, istəsə bağışlayar. Bəs, məndən daha yoxsulu varmı?”[1]

**-30-**

**اَلبَخِيلُ مَنْ يَبْخَلُ بِالسَّلَامِ**

“Paxıl o kəsdir ki, salamı da əsirgəyər.”[2]

**-31-**

**قال رسول الله: مَنْ صَلَّى عَلَيَّ وَ لَمْ يُصَلِّ عَلَى آلِي لَمْ يَجِدْ رِيحَ الْجَنَّةِ وَ إِنَّ رِيحَهَا لَيُوجَدُ مِنْ مَسِيرَةِ خَمْسِمِائَةِ عَامٍ**

“Peyğəmbər (s) belə buyurub: “Hər kim mənə salavat göndərib, Əhli-beytimə isə salavat göndərməsə, cənnətin iyini duymaz. Həqiqətən, cənnətin iyi beş yüz illik məsafədən duyulur.”[3]

**-32-**

**عَمِيَتْ عَينٌ لا تَرَاكَ وَ لا تَزَالُ عَلَيها رَقِيباً وَ خَسِرَتْ صَفقَةُ عَبدٍ لَم تَجعَلْ لَهُ مِن حُبِّكَ نَصِيباً**

“Səni görməyən göz kordur, həyatda məhəbbətindən nəsib etmədiyin bəndə ziyandadır!”[4]

---

[1] “Mən la yənzuruhul-fəqih”, c. 4, səh. 404.

[2] “Mən la yənzuruhul-fəqin”, c. 4, səh. 404.

[3] “Biharul-ənvar”, c. 8, səh. 186.

[4] “Ərəfə” duası.

**-33-**

**مَن جادَ سادَ و مَن بَخِلَ رَذَل**

"Hər kim bağışlasa, əziz olar. Hər kim paxıllıq etsə, xar olar."[1]

**-34-**

**القرآنُ ظاهِرُهُ أنِيقٌ وَ باطِنُهُ عَمِيقٌ**

"Quranın zahiri gözəl, batini isə dərindir."

**-35-**

**أَخْرَبْتَ دارَكَ وَ عَمَرْتَ دارَ غَيْرِكَ غَرَّكَ مَنْ فِي الْأَرْضِ وَ مَقَتَكَ مَنْ فِي السَّمَاءِ**

Böyük bir ev tikib onu göstərmək üçün Həzrəti dəvət edən şəxsə buyurdu: "Əsl evi xarab edib, başqa evi abad etmisən. Yer üzündəkilər səni aldadır, səmadakılar isə məzəmmət edirlər."[2]

**-36-**

**ما كُنَّا نَعرِفُ الْمُنافِقِينَ عَلى عَهدِ رَسُولِ اللهِ ص إلا بِبُغضِهِم عليّاً وَ وُلدَهُ**

"Biz, Peyğəmbərin (s) dövründə münafiqləri Əliyə (ə) və onun övladlarına düşmənçiliklə tanıyırdıq."[3]

**-37-**

**مَن زَارَنِي بَعدَ مَوتِي زُرتُهُ يومَ القِيامَةِ وَ لَو لَم يَكُنْ اِلّا في النّارِ لَاَخرَجتُهُ**

"Hər kəs məni ölümümdən sonra ziyarət etsə, onu qiyamət günü ziyarət edəcəyəm. O, əgər cəhənnəmdə belə olsa, oradan çıxardacağam."[4]

**-38-**

**لا يَكمُلُ العَقلُ اِلّا بِاتِّبَاعِ الحَقّ**

"İnsan ağlı yalnız haqqa tabe olmaqla kamilləşər."[5]

**-39-**

**لا يَنبَغِي لِنَفسٍ مُؤمِنَةٍ تَرىٰ مَنْ يَعْصِ اللهَ فلا تُنكِرُ عَليهِ**

"Möminə yaraşmaz ki, başqalarının günah etdiyini görüb onları əmr be-məruf və nəhy əz münkər etməsin."[6]

---

[1] "Mizanul-həkmət", c. 2, səh. 184.
[2] "Müstədrəkül-vəsail", c. 3, səh. 467.
[3] "Biharul-ənvar", c. 39, səh. 302.
[4] "Əlmüntəhabul-tureyhi", səh. 69.
[5] "Əlamüd-din", səh. 298.
[6] "Kənzul-ümmal", c. 3, səh. 85, hədis: 5616.

**-40-**

**مُجَالَسَةُ أهلِ الفِسقِ رَيبَةٌ**

"Günahkarlarla həmsöhbət olmaq bədgümanlığa səbəb olar."[1]

---

[1] "Mədənul-cəvahir", səh. 63.

# İmam Səccaddan (ə) qırx hədis

-1-

مَنْ كَانَ عِنْدَهُ فَضْلُ ثَوْبٍ فَعَلِمَ أَنَّ بِحَضرَتِهِ مُؤمِناً يَحتَاجُ إِلَيهِ فَلَم يَدفَعْهُ إِلَيهِ أَكَبَّهُ اللهُ عَزَّ وَ جَلَّ فِي النَّارِ عَلَىٰ مِنخَرَيْهِ

"Hər kimin həddindən artıq paltarı olsa və bilsə ki, bir möminin onlara ehtiyacı var, amma ona paltar verməsə, Allah-təala o şəxsi cəhənnəmə atar."[1]

-2-

يَغْفِرُ اللهُ لِلْمُؤْمِنِ كُلَّ ذَنْبٍ وَ يُطَهِّرُهُ مِنْهُ فِي الدُّنْيَا وَ الْآخِرَةِ مَا خَلَا ذَنْبَيْنِ تَرْكَ التَّقِيَّةِ وَ تَضْيِيعَ حُقُوقِ الْإِخْوَانِ

"Allah möminin bütün günahlarını bağışlayır, onun dünya və axirətdə günahlarını pak edir. Amma iki günahı bağışlamır: 1. Təqiyyəni tərk etməyi; 2. Din qardaşlarının haqlarını zay etməyi."[2]

-3-

لَوْ مَاتَ مَنْ بَيْنَ الْمَشْرِقِ وَ الْمَغْرِبِ لَمَا اسْتَوْحَشْتُ بَعْدَ أَنْ يَكُونَ الْقُرْآنُ مَعِي

"Əgər bütün insanlar ölsə, yalnız Quran mənimlə olsa, heç nədən qorxmaram."[3]

-4-

ثَلَاثٌ مُنْجِيَاتٌ لِلْمُؤْمِنِ كَفُّ لِسَانِهِ عَنِ النَّاسِ وَ اغْتِيَابِهِمْ وَ إِشْغَالُهُ نَفْسَهُ بِمَا يَنْفَعُهُ لِآخِرَتِهِ وَ دُنْيَاهُ وَ طُولُ الْبُكَاءِ عَلَى خَطِيئَتِهِ

"Üç şey möminin nicatına səbəb olar: Dili pis sözlərdən və qeybətdən saxlamaq, dünyasına və axirətinə faydası olan işlərlə məşğul olmaq, öz günahlarına görə ağlamaq."[4]

-5-

نَظَرُ الْمُؤْمِنِ فِي وَجْهِ أَخِيهِ الْمُؤْمِنِ حُبّاً لَهُ عِبَادَةٌ

"Möminin öz mömin qardaşının üzünə məhəbbətlə baxması və ona məhəbbət bəsləməsi ibadətdir."[5]

---

[1] "İqabul-əmal", səh. 538.
[2] "Vəsailüş-şiə", c. 16, səh. 223.
[3] "Vəsailüş-şiə", c. 5, səh. 331.
[4] "Tuhəful-uqul", səh. 290.
[5] "Tuhəfül-üqul", səh. 290.

-6-

ما مِن شَيءٍ أحَبُّ إلى اللهِ بَعدَ مَعرِفتَهِ مِن عِفةِ بَطنٍ و فَرجٍ

"Allah yanında onun mərifətindən sonra, qarın və fərc[1] barəsində iffətli olmaqdan daha sevimli bir şey yoxdur."[2]

-7-

لَوْ اَنَّ قَاتِلَ الْحُسَيْنِ ائْتَمَنِي عَلَي السَّيفِ الَّذِي قَتَلَ بِهِ الْحُسَينَ لَرَدَدتُّهُ اِلَيهِ

"Əgər atamın qatili mənə etimad edib atamı öldürdüyü qılıncını mənə əmanət versə, mütləq o qılıncı ona qaytararam."[3]

-8-

إنَّ أَفْضَلَ الْأَعْمَالِ عِنْدَ اللَّهِ مَا عُمِلَ بِالسُّنَّةِ وَ إنْ قَلَّ

"Allah yanında ən üstün əməl (vaciblərdən sonra) müstəhəbləri yerinə yetirməkdir."[4] (az olsa da belə)

-9-

إيَّاكُمْ وَ الْغِيبَةَ فَإنَّهَا إدَامُ مَنْ يَأْكُلُ لُحُومَ النَّاسِ

"Qeybətdən uzaqlaşın, çünki qeybət, insan əti yeyənlərin xuruşudur."[5]

-10-

يَا سَوأَتَاهُ لِمَن غَلَبَتْ إحداتَهُ عَشَرَاتَهُ يُرِيدُ أَنَّ السَّيِّئَةَ بِوَاحِدَةٍ وَ الْحَسَنَةَ بِعَشَرَةٍ

مَنْ جاءَ بِالْحَسَنَةِ فَلَهُ عَشْرُ أَمْثالِها

"Vay olsun o kəsin halına ki, onun birləri onlarına qalib gələ. Birlərdə məqsəd pis əməllər, onlardan da məqsəd yaxşı əməllərdir. Çünki hər kəs bir yaxşı əməli yerinə yetirsə, onun on mükafatı vardır!"[6]

-11-

الْمُؤْمِنُ مِنْ دُعَائِهِ عَلَى ثَلَاثٍ إمَّا أَنْ يُدَّخَرَ لَهُ وَ إمَّا أَنْ يُعَجَّلَ لَهُ وَ إمَّا أَنْ يُدْفَعَ عَنْهُ بَلَاءٌ يُرِيدُ أَنْ يُصِيبَه

"Möminin duasının üç faydası və nəticəsi var. Onun savabı axirətdə, ya da dünyada həmin şəxs üçün zəxirə olunar və

---

[1] Cinsiyyət orqanı.
[2] "Tuhəfül-üqul", səh. 290.
[3] "Əvalil-Ləali", c. 3 səh. 251.
[4] "Üsuli-kafi", c. 1, səh. 70.
[5] Xuruş-aşla yeyilən qara.
[6] "Ənam" surəsi, 160-cı ayə.

yaxud Allah-təala insanı təqib edən bəlanı duaya görə ondan uzaqlaşdırar.”[1]

**-12-**

**اِنَّ الْقَبرَ رَوضَةٌ مِن رِيَاضِ الْجَنَّةِ اَوحُفرَةٌ مِن حُفَرِالنِّيرَانِ**

“Həqiqətən, qəbir ya cənnət bağlarından biridir, ya da cəhənnəmin çalalarından biridir (hədisdə məqsəd bərzəx aləmidir)”[2]

**-13-**

**اِنَّ الْمَعرِفَةَ وَ كَمَالَ دَيْنِ الْمُسْلِمِ تَرْكُهُ الْكَلَامَ فِيمَا لَا يَعْنِيهِ وَ قِلَّةُ مِرَائِهِ وَ حِلْمُهُ وَ صَبْرُهُ وَ حُسْنُ خُلُقِهِ**

“Həqiqətən, dindar insanın mərifəti və kamilliyi, faydasız sözü, davanı tərk edib, helmli, səbirli və xoşəxlaq olmağıdır.”[3]

**-14-**

**طَلَبُ الْحَوَائِجِ إِلَى النَّاسِ اسْتِسْلَابٌ لِلْعِزَّةِ وَ مَذْهَبَةٌ لِلْحَيَاءِ وَ الْيَأْسُ مِمَّا فِي أَيْدِي النَّاسِ عِزٌّ لِلْمُؤْمِنِينَ وَ الطَّمَعُ هُوَ الْفَقْرُ الْحَاضِرُ**

“Camaatdan hacət istəmək (dilənmək) xarlıqdır və həyanın aradan getməsinə səbəb olur. İnsanın vüqarını və mətanətini azaldır. Bu iş fəqirlikdir. Camaatdan bir şey istəməmək ehtiyacsızlıqdır.”[4]

**-15-**

**الرِّضَا بِمَكْرُوهِ الْقَضَاءِ مِنْ أَعْلَى دَرَجَاتِ الْيَقِينِ**

“Qəza-qədərə ikrah hissi bəsləməklə, razılıq, yəqinin ən üstün dərəcələrindəndir.”[5]

**-16-**

**مَنْ كَرُمَتْ عَلَيْهِ نَفْسُهُ هَانَتْ عَلَيْهِ شَهْوَتُه**

“Hər kim özünü izzətli bilsə, ehtiras və şəhvəti ona qalib gələ bilməz.”[6]

**-17-**

**قِيلَ لَهُ مَنْ أَعْظَمُ النَّاسِ خَطَراً فَقَالَ؏ مَنْ لَمْ يَرَ الدُّنْيَا خَطَراً لِنَفْسِه**

---

[1] “Müstədrəkül-vəsail”, c. 9, səh. 113.
[2] “Təfsiri-qumi”, c. 2, səh. 94.
[3] “Üsuli-kafi”, c. 3, səh. 338.
[4] “Üsuli-kafi”, c. 3, səh. 338.
[5] “Tuhəfül-üqul”, səh. 285.
[6] “Tuhəfül-üqul”, səh. 285.

İmam Səccaddan (ə) soruşdular ki, kim ən çox təhlükə qarşısındadır? Buyurdu: “Dünyadan qorxmayan kəs.”

**-18-**

**قَالَ بِحَضْرَتِهِ رَجُلٌ اللَّهُمَّ أَغْنِنِي عَنْ خَلْقِكَ فَقَالَع لَيْسَ هَكَذَا إِنَّمَا النَّاسُ بِالنَّاسِ وَ لَكِنْ قُلِ اللَّهُمَّ أَغْنِنِي عَنْ شِرَارِ خَلْقِكَ**

Bir kişi İmamın (ə) yanında dedi: İlahi, məni bəndələrinə möhtac etmə. Həzrət buyurdu: “Belə demə, çünki camaat öz ehtiyaclarını bir-birinin vasitəsi ilə ödəyir. Belə de: İlahi, məni şər adamlardan qoru.”[1]

**-19-**

**مَنْ قَنِعَ بِمَا رَزَقَهُ اللَّهُ فَهُوَ مِنْ أَغْنَى النَّاسِ**

“Allahın verdiyi nemətlərə qane olan şəxs, ən ehtiyacsız insan sayılır.”[2]

**-20-**

**لَا يَقِلُّ عَمَلٌ مَعَ تَقْوىً وَ كَيْفَ يَقِلُّ مَا يُتَقَبَّلُ**

“Təqva ilə yerinə yetirilən hər bir əməl az olmaz, o əməl necə az ola bilər ki, Allah onu qəbul etmişdir.”[3]

**-21-**

**اتَّقُوا الْكَذِبَ الصَّغِيرَ مِنْهُ وَ الْكَبِيرَ فِي كُلِّ جِدٍّ وَ هَزْلٍ فَإِنَّ الرَّجُلَ إِذَا كَذَبَ فِي الصَّغِيرِ اجْتَرَى عَلَى الْكَبِيرِ**

“Kiçik və böyük yalandan çəkinin, istər zarafat, istər-sə də ciddi olsun. Çünki bir şəxs kiçik yalanı deməyə cürət tapsa, böyük yalan sonra onun üçün asan olar.”[4]

**-22-**

**الْخَيْرُ كُلُّهُ صِيَانَةُ الْإِنْسَانِ نَفْسَهُ**

“Bütün xeyirlər insanın özünü qorumasındadır.”[5]

**-23-**

**رَأَيْتُ الْخَيْرَ كُلَّهُ قَدِ اجْتَمَعَ فِي قَطْعِ الطَّمَعِ عَمَّا فِي أَيْدِي النَّاسِ**

“Mən bütün xeyirləri camaatın malına tamah salmamaqda və ona ümid bəsləməməkdə görürəm.”[6]

---

[1] “Tuhəfül-üqul”, səh. 285.
[2] “Tuhəfül-üqul”, səh. 285.
[3] “Tuhəfül-üqul”, səh. 285.
[4] “Tuhəfül-üqul”, səh. 285.
[5] “Tuhəfül-üqul”, səh. 285.
[6] “Üsuli-kafi”, c. 4, səh. 10.

**-24-**

**عَجَباً لِلْمُتَكَبِّرِ الْفَخُورِ الَّذِي كَانَ بِالْأَمْسِ نُطْفَةً ثُمَّ هُوَ غَداً جِيفَةٌ**

“Təəccüb edirəm özü ilə fəxr edən təkəbbürlü insana, ki, dünən (qiymətsiz və pis iyli) su idi və sabah (iylənmiş) murdar olacaq!”[1]

**-25-**

**قَالَ ع لِابنِهِ: يَا بُنَيَّ إِيَّاكَ وَ ظُلْمَ مَنْ لَا يَجِدُ عَلَيْكَ نَاصِراً إِلَّا اللَّهَ**

“Ey oğul, məbada Allahdan başqaköməyi olmayan şəxsə zülm edəsən!”[2]

**-26-**

**اِنَّ لِسَانَ ابْنِ آدَمَ يُشْرِفُ عَلَى جَمِيعِ جَوَارِحِهِ كُلَّ صَبَاحٍ فَيَقُولُ كَيْفَ أَصْبَحْتُمْ فَيَقُولُونَ بِخَيْرٍ إِنْ تَرَكْتَنَا وَ يَقُولُونَ اللَّهَ اللَّهَ فِينَا وَ يُنَاشِدُونَهُ وَ يَقُولُونَ إِنَّمَا نُثَابُ وَ نُعَاقَبُ بِكَ**

“Hər gün sübh çağı insanın dili bütün bədən üzvlərindən soruşur: Necəsiniz? Onlar cavab verirlər: Əgər sən bizi boşlasan, biz yaxşı olarıq. And veririk Allaha, bizi fikirləş və elə bir söz demə ki, bizim çətinliyə düşməyimizə səbəb olsun. Çünki sən bizə savab və əzabın yetişməyinə bais olursan.”[3]

**-27-**

**إِنَّ الْمُنَافِقَ يَنْهَى وَ لَا يَنْتَهِي وَ يَأْمُرُ بِمَا لَا يَأْتِي**

“Münafiq o kəsdir ki, başqalarını çəkindirdiyi şeylərə özü əməl etsin. Camaata əmr etdiyi şeyləri özü yerinə yetirməsin.”[4]

**-28-**

**الدُّعَاءُ يَدْفَعُ الْبَلَاءَ النَّازِلَ وَ مَا لَمْ يَنْزِلْ**

“Dua nazil olan və olmayan bəlaları uzaqlaşdırır.”[5]

**-29-30-**

**أَرْبَعٌ مَنْ كُنَّ فِيهِ بَنَى اللَّهُ تَعَالَى لَهُ بَيْتاً فِي الْجَنَّةِ مَنْ آوَى الْيَتِيمَ وَ رَحِمَ الضَّعِيفَ وَ أَشْفَقَ عَلَى وَالِدَيْهِ وَ رَفَقَ بِمَمْلُوكِهِ**

---

[1] “Üsuli-kafi”, c. 4, səh. 20.
[2] “Üsuli-kafi”, c. 4, səh. 24.
[3] “Üsuli-kafi”, c. 3, səh. 177.
[4] “Üsuli-kafi”, c. 3, səh. 112.
[5] “Üsuli-kafi”, c. 3, səh. 112.

"Hər kim dörd əməli yerinə yetirsə, Allah cənnətdə ona bir ev tikər: Yetimə pənah versə, zəiflərə məhəbbət etsə, valideynə ürəyi yansa, qulamları ilə xoş rəftar etsə."

**-31-**

**اَلصَّبْرُ مِنَ الْإِيمَانِ بِمَنْزِلَةِ الرَّأْسِ مِنَ الْجَسَدِ وَ لَا إِيمَانَ لِمَنْ لَا صَبْرَ لَهُ**

"Səbrin imana olan nisbəti, başın bədənə olan nisbəti kimidir. Səbri olmayanın imanı olmaz."[1]

**-32-**

**إِنَّ أَفْضَلَ الأِجتِهادِ عِفَّةُ الْبَطْنِ وَ الْفَرْجِ**

"Həqiqətən, ən üstün səy və zəhmət qarın və ondan aşağıdan pəhriz etməkdir."[2]

**-33-**

**مَنْ عَمِلَ بِمَا افْتَرَضَ اللَّهُ عَلَيْهِ فَهُوَ مِنْ خَيْرِ النَّاسِ**

"Hər kim Allahın ona vacib etdiklərinə əməl etsə, insanların ən üstünü olacaq."[3]

**-34-**

**مَن ثَبَتَ عَليٰ مُوَالاتِنَا فِي غَيبَةِ قَائِمِنَا اَعطَاهُ اللهُ عزوجل اَجرَ اَلْفَ شَهِيدٍ مِن شُهَدَاءِ بَدرٍ وَ اُحُد**

"Hər kim imam Məhdinin (əc.) qeybəti dövründə bizə olan məhəbbətini möhkəm qorusa, Allah-təala ona min şəhidin savabını verər."[4]

**-35-**

**مَنْ أَطْعَمَ مُؤْمِناً مِنْ جُوعٍ أَطْعَمَهُ اللَّهُ مِنْ ثِمَارِ الْجَنَّةِ وَ مَنْ سَقَى مُؤْمِناً مِنْ ظَمَإٍ سَقَاهُ اللَّهُ مِنَ الرَّحِيقِ الْمَخْتُومِ**

"Hər kim bir ac mömini doyursa, Allah cənnət meyvələrindən ona nəsib edər. Hər kim susuz möminə su versə, Allah da cənnət suyundan ona içirdər."[5]

**-36-**

**مَنْ كَسَا مُؤْمِناً كَسَاهُ اللَّهُ مِنَ الثِّيَابِ الْخُضْرِ وَ قَالَ فِي حَدِيثٍ آخَرَ لَا يَزَالُ فِي ضَمَانِ اللَّهِ مَا دَامَ عَلَيْهِ سِلْك**

---

[1] "Üsuli-kafi", c. 3, səh. 142.
[2] "Müstədrəkül-vəsail", c. 11, səh. 276.
[3] "Üsuli-kafi", c. 4, səh. 128.
[4] "Kəmalud-din və itmamun-nimət", səh. 323.
[5] "Üsuli-kafi", c. 3, səh. 288.

“Hər kim mömini geydirsə, Allah ona cənnətin yaxşı paltarını geydirər. O paltardan bir sap qalana qədər həmin şəxsə Allah zamin olar.”[1]

**-37-**

**مَا مِنْ رَجُلٍ تَصَدَّقَ عَلَى مِسْكِينٍ مُسْتَضْعَفٍ فَدَعَا لَهُ الْمِسْكِينُ بِشَيْءٍ تِلْكَ السَّاعَةَ إِلَّا اسْتُجِيبَ لَهُ**

“Hər kim zəif bir miskinə (dilənçiyə) sədəqə versə və həmin vaxt miskin ona dua etsə, duası qəbul olar.”[2]

**-38-**

**عَجَبٌ كُلُّ الْعَجَبِ لِمَنْ أَنْكَرَ الْمَوْتَ وَ هُوَ يَرَى مَنْ يَمُوتُ كُلَّ يَوْمٍ وَ لَيْلَةٍ**

“Təəccüb edirəm o şəxsə ki, ölümü inkar edir! Bir halda ki, hər gün insanların ölümünə şahid olur.”[3]

**-39-**

**إِنِّي لَأَكْرَهُ لِلرَّجُلِ أَنْ يُعَافَى فِي الدُّنْيَا فَلَا يُصِيبَهُ شَيْءٌ مِنَ الْمَصَائِبِ**

“Xoşum gəlməz ki, şəxs dünyada afiyətdə olub bir müsibət görməsin.”[4]

**-40-**

**فَإِنْ أَحْسَنْتَ فِي تَعْلِيمِ النَّاسِ وَ لَمْ تَخْرَقْ بِهِمْ وَ لَمْ تَضْجَرْ عَلَيْهِمْ زَادَكَ اللَّهُ مِنْ فَضْلِه**

“Əgər camaata yaxşı dərs öyrətsən, onlarla qəzəblə rəftar etməsən və onları incitməsən, Allah öz fəzlindən sənə bərəkət verər.”[5]

---

1 “Üsuli-kafi”, c. 3, səh. 293.
2 “Vəsailüş-şiə”, c. 9, səh. 424.
3 “Üsuli-kafi”, c. 3, səh. 258.
4 “Üsuli-kafi”, c. 3, səh. 355.
5 “Biharul-ənvar”, c. 2, səh. 62.

# İmam Baqirdən (ə) qırx hədis

**-1-**

**مَن سَبَّحَ تَسبِيحَ الزَّهراءِع ثُمَّ استَغفَرَ غُفِرَ لَهُ وَ هِي مِائَةٌ بِاللِّسانِ وَ أَلفٌ في الْمِيزانِ وَ تَطْرُدُ الشَّيطانَ و تَرضَي الرَّحمنَ**

“Hər kim Həzrət Zəhranın (əh.) zikrini desə, bağışlanacaq. Bu təsbihat yüz dənədir. Amma onun əməl tərəzisində savabı min dənədir. Bu əməl şeytanı rədd, Allahı isə razı edər.”[1]

**-2-**

**مَنْ طَلَبَ الْعِلْمَ لِيُبَاهِيَ بِهِ الْعُلَمَاءَ أَوْ يُمَارِيَ بِهِ السُّفَهَاءَ أَوْ يَصْرِفَ بِهِ وُجُوهَ النَّاسِ إِلَيْهِ فَلْيَتَبَوَّأْ مَقْعَدَهُ مِنَ النَّارِ**

“Hər kim alimlərin qarşısında fəxr etmək, cahillərlə mübahisə etmək və camaatın diqqətini özünə cəlb etmək üçün elm öyrənsə, onun yeri cəhənnəmdir.”[2]

**-3-**

**مَنْ قُسِمَ لَهُ الرِّفْقُ قُسِمَ لَهُ الْإِيمَانُ**

“Hər kəsə yumşaqlıq və xoş əxlaqlı olmaq əta olunsa, o şəxsə iman da nəsib olar.”[3]

**-4-**

**مَا عُبِدَ اللَّهُ بِشَيْءٍ أَفْضَلَ مِنْ عِفَّةِ بَطْنٍ وَ فَرْجٍ**

“Allah dərgahında qarın və ondan aşağının iffətindən üstün ibadət yoxdur.”[4]

**-5-**

**النَّدَامَةُ عَلَى الْعَفْوِ أَفْضَلُ وَ أَيْسَرُ مِنَ النَّدَامَةِ عَلَى الْعُقُوبَةِ**

“Əfv etməyə görə peşman olmaq, günaha görə peşman olmaqdan daha asan və üstündür.”[5]

---

[1] “Səvabul-əmal”, səh. 350.
[2] “Üsuli-kafi”, c. 1, səh. 47.
[3] “Üsuli-kafi”, c. 3, səh. 181.
[4] “Üsuli-kafi”, c. 3, səh. 125.
[5] “Üsuli-kafi”, c. 3, səh. 168.

-6-

صَانِعِ الْمُنَافِقَ بِلِسَانِكَ وَ أَخْلِصْ وُدَّكَ لِلْمُؤْمِنِ فَإِنْ جَالَسَكَ يَهُودِيٌّ فَأَحْسِنْ مُجَالَسَتَهُ

“Münafiqlə dillə rəftar et. Amma mömini ürəkdən sev. Əgər yəhudi ilə həmsöhbət olsan, onunla yaxşı rəftar et.”[1]

-7-

لَقَضَاءُ حَاجَةِ مُسْلِمٍ أَفْضَلُ مِنْ عِتْقِ عَشْرِ نَسَمَاتٍ وَ اعْتِكَافِ شَهْرٍ فِي الْمَسْجِدِ

“Müsəlmanın bir istəyini yerinə yetirmək, on dənə qul azad etməkdən və bir ay məsciddə etikaf saxlamaqdan üstündür.”[2]

-8-

الْكَمَالُ كُلُّ الْكَمَالِ التَّفَقُّهُ فِي الدِّينِ وَ الصَّبْرُ عَلَى النَّائِبَةِ وَ تَقْدِيرُ الْمَعِيشَةِ

“Bütün kamal üç şeydədir: 1. Dində dərin düşüncə; 2. Bəlalar qarşısında səbir; 3. Yaşayışı düzgün idarə etmək.”[3]

-9-

وَاللهِ الْمُتَكَبِّرُ يُنَازِعُ اللهَ رِدَاءَهُ

“Allaha and olsun, təkəbbürlü şəxs Allahın böyüklüyü ilə davaya çıxıb!”[4]

-10-

الظُّلْمُ ثَلَاثَةٌ ظُلْمٌ يَغْفِرُهُ اللهُ وَ ظُلْمٌ لَا يَغْفِرُهُ اللهُ وَ ظُلْمٌ لَا يَدَعُهُ اللهُ فَأَمَّا الظُّلْمُ الَّذِي لَا يَغْفِرُهُ فَالشِّرْكُ وَ أَمَّا الظُّلْمُ الَّذِي يَغْفِرُهُ فَظُلْمُ الرَّجُلِ نَفْسَهُ فِيمَا بَيْنَهُ وَ بَيْنَ اللهِ وَ أَمَّا الظُّلْمُ الَّذِي لَا يَدَعُهُ فَالْمُدَايَنَةُ بَيْنَ الْعِبَادِ

“Zülm üç qisimdir; birini Allah bağışlayır, birini bağışlamır və birindən də keçmir. Bağışladığı insanın günahlarıdır, bağışlamadığı şirkdir və keçmədiyi isə başqalarının hüquqlarıdır.”[5]

-11-

مَنْ تَوَكَّلَ عَلَى اللهِ لَا يُغْلَبُ

“Allaha təvəkkül edən məğlub olmaz.”[6]

---

1 “Tuhəfül-üqul”, səh. 301.
2 “Müstədrəkul-vəsail”, c. 7, səh. 569.
3 “Müstədrəkul-vəsail”, c. 7, səh. 569.
4 “Müstədrəkul-vəsail”, c. 7, səh. 569.
5 “Üsuli-kafi”, c 4, səh. 23.
6 “Müstədrəkul-vəsail”, c. 11, səh. 328.

**-12-**

**إِذَا صَلَّى عَلَى الْمُؤْمِنِ أَرْبَعُونَ رَجُلًا وَ اجْتَهَدُوا فِي الدُّعَاءِ لَهُ اسْتُجِيبَ لَهُ**

"Qırx mömin, mömin şəxsin cənazəsinə namaz qılıb, dua və məğfirət tələb etsə, onların bu əməlləri qəbul olunar və Allah ölən şəxsi bağışlayar."[1]

**-13-**

**سَهَرُ لَيْلَةٍ مِنْ مَرَضٍ أَفْضَلُ مِنْ عِبَادَةِ سَنَةٍ**

"Xəstəliyin şiddətindən bir gecə oyaq qalmaq bir ilin ibadətindən üstündür."[2]

**-14-**

**أَقْرَبُ مَا يَكُونُ الْعَبْدُ إِلَى الْكُفْرِ أَنْ يُوَاخِيَ الرَّجُلَ عَلَى الدِّينِ فَيُحْصِيَ عَلَيْهِ عَثَرَاتِهِ وَ زَلَّاتِهِ لِيُعَنِّفَهُ بِهَا يَوْماً مَا**

"İnsanın küfrə ən yaxın halı din qardaşının xətalarını onu (bir gün) məzəmmət və məhkum etmək üçün yadda saxlamağıdır."[3]

**-15-**

**مَا مِنْ إِنْسَانٍ يَطْعُنُ فِي عَيْنِ مُؤْمِنٍ إِلَّا مَاتَ بِشَرِّ مِيتَةٍ وَ كَانَ قَمِناً أَنْ لَا يَرْجِعَ إِلَى خَيْرٍ**

"Möminə tənə vuran şəxs ən pis ölümlə ölər, və ona xeyir və səadət yetişməz."[4]

**-16-**

**إِنَّ عَلِيّاًع بَابٌ فَتَحَهُ اللَّهُ مَنْ دَخَلَهُ كَانَ مُؤْمِناً وَ مَنْ خَرَجَ مِنْهُ كَانَ كَافِراً**

"Həqiqətən, Əli (ə) bir qapıdır ki, Allah onu camaatın üzünə açıb. Hər kim ondan daxil olsa, mömin, hər kim ondan xaric olsa, kafirdir."[5]

**-17-**

**قَالَ رَسُولُ اللَّهِص مَا يَزَالُ الْهَمُّ وَ الْغَمُّ بِالْمُؤْمِنِ لِيَهْتَمَّ فِي الدُّنْيَا حَتَّى يَخرُجَ مِنْهَا وَ لا ذَنْبٌ عَلَيهِ**

"Peyğəmbər (s) belə buyurmuşdur: Mömin həmişə qəm-qüssəyə düçar olar. Buna görə də onun günahı qalmaz."[1]

---

[1] "Müstədrəkul-vəsail", c. 2, səh. 246.
[2] "Müstədrəkul-vəsail", c. 2, səh. 64.
[3] "Üsuli-kafi", c. 4, səh. 57.
[4] "Üsuli-kafi", c. 4, səh. 57.
[5] "Üsuli-kafi", c. 4, səh. 100.

**-18-**

**إِذَا أَتَتْ عَلَى الرَّجُلِ أَرْبَعُونَ سَنَةً قِيلَ لَهُ خُذْ حِذْرَكَ فَإِنَّكَ غَيْرُ مَعْذُور**

"Qırx yaşından sonra insana deyilər ki, əməllərinə diqqət yetir, daha sən üzürlü sayılmırsan."[2]

**-19-**

**مَنْ قَرَأَ «انا انزلنا» فِي لَيْلَةٍ مِائَةَ مَرَّةٍ رَأَى الْجَنَّةَ قَبْلَ أَنْ يُصْبِحَ**

"Hər kəs bir gecədə yüz dəfə "Qədr" surəsini oxusa, səhər olmamış cənnəti yuxuda görər."[3]

**-20-**

**مَا يَعْدِلُ عِتْقَ رَقَبَةٍ إِطْعَامُ رَجُلٍ مُسْلِمٍ**

"Bir müsəlmana yemək verməyin savabı, qul azad etmək qədərdir."[4]

**-21-**

**إِنَّ اللَّهَ عَزَّ وَ جَلَّ يُحِبُّ الْمُدَاعِبَ فِي الْجَمَاعَةِ بِلَا رَفَثٍ**

"Allah-təala zarafat etməklə bir dəstəni şad edəni sevir. Əlbəttə, gərək zarafat edəndə nalayiq və pis söz işlətməsin."[5]

**-22-**

**مَا طَلَعَتِ الشَّمْسُ بِيَوْمٍ أَفْضَلَ مِنْ يَوْمِ الْجُمُعَةِ**

"Cümə günü günəş daha üstün saçar."

**-23-**

**بُنِيَ الْإِسْلَامُ عَلَى خَمْسٍ الصَّلَاةِ وَ الزَّكَاةِ وَ الصَّوْمِ وَ الْحَجِّ وَ الْوَلَايَةِ وَ لَمْ يُنَادَ بِشَيْءٍ مَا نُودِيَ بِالْوَلَايَةِ يَوْمَ الْغَدِيرِ**

"Islam beş şeyin üzərində qurulub: 1. Namaz; 2. Zəkat; 3. Oruc; 4. Həcc; 5. Əlinin (ə) Qədir-xumda təyin olunduğu vilayət və imamətin qəbulu. Və heç bir şey vilayət və imamət qədər əhəmiyyətli deyildir."[6]

**-24-**

**إِنَّ اللَّهَ عَزَّ وَ جَلَّ جَعَلَ الْإِيمَانَ عَلَى أَرْبَعِ دَعَائِمَ عَلَى الصَّبْرِ وَ الْيَقِينِ وَ الْعَدْلِ وَ الْجِهَادِ**

---

[1] "Üsuli-kafi", c. 4, səh. 181.
[2] "Üsuli-kafi", c. 4, səh. 193.
[3] "Müstədrəkul-vəsail", c. 4, səh. 362.
[4] "Vəsailüş-şiə", c. 24, səh. 303.
[5] "Üsuli-kafi", c. 4, səh. 456.
[6] "Üsuli-kafi", c. 3, səh. 33.

"Allah imanı dörd sütun üzərində qərar verib: 1. Səbir; 2. Yəqin; 3. Ədalət; 4. Cihad."[1]

**-25-**

**الْجَنَّةُ مَحْفُوفَةٌ بِالْمَكَارِهِ وَ الصَّبْرِ فَمَنْ صَبَرَ عَلَى الْمَكَارِهِ فِي الدُّنْيَا دَخَلَ الْجَنَّةَ وَ جَهَنَّمُ مَحْفُوفَةٌ بِاللَّذَّاتِ وَ الشَّهَوَاتِ فَمَنْ أَعْطَى نَفْسَهُ لَذَّتَهَا وَ شَهْوَتَهَا دَخَلَ النَّارَ**

"Cənnətə daxil olmaq üçün gərək çətinliklərə dözəsən. Bəs hər kim dünyada çətinliklərə dözsə, cənnətə daxil olacaq. Cəhənnəm şəhvətlərin və ləzzətlərin (qeyri-şəri) arasındadır. Bəs, hər kim öz istəyinə uyğun ləzzətə və şəhvətə aludə olsa, onun yeri cəhənnəmdir."[2]

**-26-**

**الصَّبْرُ صَبْرَانِ صَبْرٌ عَلَى الْبَلَاءِ حَسَنٌ جَمِيلٌ وَ أَفْضَلُ الصَّبْرَيْنِ الْوَرَعُ عَنِ الْمَحَارِمِ**

"Səbir iki hissəyə bölünür: Bəlaların müqabilində səbir etmək. Bu bəyənilmiş bir işdir. Amma ondan da üstünü, haramlardan çəkinmək üçün səbir etməkdir."[3]

**-27-**

**أَتَى رَسُولَ اللَّهِ ص رَجُلٌ فَقَالَ يَا رَسُولَ اللَّهِ أَوْصِنِي فَكَانَ فِيمَا أَوْصَاهُ أَنْ قَالَ الْقَ أَخَاكَ بِوَجْهٍ مُنْبَسِطٍ**

"Bir kişi Peyğəmbərin (s) yanına gəlib dedi ki, mənə nəsihət et. Həzrətin sifarişlərindən biri bu oldu: "Qardaşlarınla gülərüzlə görüş."[4]

**-28-**

**مَنْ تَرَكَ الْجُمُعَةَ ثَلَاثَ جُمَعٍ مُتَوَالِيَةً طَبَعَ اللَّهُ عَلَى قَلْبِهِ**

"Hər kəs cümə namazını üzürsüz halda üç dəfə tərk etsə, Allah-təala onun qəlbinə qəflət möhürü vurar."[5]

---

[1] "Üsuli-kafi", c. 3, səh. 83.
[2] "Üsuli-kafi", c. 3, səh. 143.
[3] "Üsuli-kafi", c. 3, səh. 145.
[4] "Üsuli-kafi", c. 3, səh. 161.
[5] "Vəsailüş-şiə", c. 7, səh. 299.

-29-

الْبِرُّ وَ الصَّدَقَةُ يَنْفِيَانِ الْفَقْرَ وَ يَزِيدَانِ فِي الْعُمُرِ وَ يَدْفَعَانِ تِسْعِينَ مِيتَةَ السَّوْءِ

"Yaxşılıq etmək və sədəqə vermək kasıblığı məhv edir, ömrü uzadır və insanı yetmiş pis ölümdən qoruyur."[1]

-30-

إِنَّ اللَّهَ يُحِبُّ إِطْعَامَ الطَّعَامِ وَ إِفْشَاءَ السَّلَامِ

"Allah-təala başqalarına təam və salam verməyi sevir."[2]

-31-

إِنَّ لِكُلِّ شَيْءٍ قُفْلًا وَ قُفْلُ الْإِيمَانِ الرِّفْقُ

"Hər bir şeyin qıfılı var. İmanın qıfılı mülayimlikdir. (Çünki hər kim mülayimliyi əldən versə, qəzəbə və əsəbiliyə düçar olar. Bu iş də imanı əldən verməyə gətirib çıxardır.)"[3]

-32-

مَنْ صَبَرَ عَلَى مُصِيبَةٍ زَادَهُ اللَّهُ عِزّاً إِلَى عِزِّهِ وَ أَدْخَلَهُ الْجَنَّةَ مَعَ مُحَمَّدٍ ص وَ أَهْلِ بَيْتِهِ

"Hər kəs bir müsibətə səbir etsə, Allah onu həddindən artıq əziz edər və axırda da Məhəmməd və Ali-Məhəmmədlə birlikdə cənnətə daxil edər."[4]

-33-

كَانَ اَمِيرُ الْمُؤمِنِينَ يَقُولُ: لا يَقِلُّ عَمَلٌ مَعَ تَقْوىً وَ كَيفَ يَقِلُّ مَا يُتَقَبَّلُ

"Təqva ilə birlikdə olan əməl az deyildir. Necə mümkündür ki, Allahın qəbul etdiyi əməl az olsun."[5]

-34-

الْأَعْمَالُ تُضَاعَفُ يَوْمَ الْجُمُعَةِ فَأَكْثِرُوا فِيهَا مِنَ الصَّلَاةِ وَ الصَّدَقَةِ وَ الدُّعَاءِ

"Cümə günü əməllərə iki bərabər savab verilir. Ona görə də həmin gün çoxlu namaz qılın, sədəqə verin və dua edin."[6]

-35-

قَالَ اللَّهُ عَزَّ وَ جَلَّ ابْنَ آدَمَ اجْتَنِبْ مَا حَرَّمْتُ عَلَيْكَ تَكُنْ مِنْ أَوْرَعِ النَّاسِ

---

1 "Biharul-ənvar", c. 71, səh. 311.
2 "Biharul-ənvar", c. 71, səh. 311.
3 "Üsuli-kafi", c. 3, səh. 181.
4 "Vəsailüş-şiə", c. 3, səh. 260.
5 "Vəsailüş-şiə", c. 3, səh. 120.
6 "Müstədrəkül-vəsail", c. 6, səh. 64.

"Allah-təala buyurur: Ey Adəm övladı! Sənə haram edilmiş şeydən çəkin ki, camaatın ən təqvalısı olasan."[1]

**-36-**

**مَن قَرأ آيةَ الكُرسِيَ وَ هُوَ ساجِدٌ لَم يَدخُلِ النارَ أبداً**

"Hər kim səcdə halında "Ayətəl-kürsü"nü oxusa, heç vaxt cəhənnəmə daxil olmaz."[2]

**-37-**

**مَا مِنْ شَيْءٍ أَحَبَّ إِلَى اللهِ عَزَّ وَ جَلَّ مِنْ عَمَلٍ يُدَاوَمُ عَلَيْهِ وَ إِنْ قَلَّ**

"Allah yanında davamlı olan əməldən üstün bir əməl yoxdur. Bu əməl az olmuş olsa da belə."[3]

**-38-**

**تَقُولُ ثَلاثَ مَرَّاتٍ: إِذَا نَظَرْتَ إِلَى الْمُبْتَلَى مِنْ غَيْرِ أَنْ تُسْمِعَهُ الْحَمْدُ لِلَّهِ الَّذِي عَافَانِي مِمَّا ابْتَلَاهُ بِهِ وَ لَوْ شَاءَ فَعَلَ مَنْ قَالَ ذَلِكَ لَمْ يُصِبْهُ ذَلِكَ الْبَلَاءُ أَبَداً**

"Çətinliyə düşmüş şəxsi görəndə onun eşitməməsi şərti ilə üç dəfə de: Şükür olsun Allaha ki, mən bu bəladan uzağam. Əgər iradə etsəydi, məni də onun kimi edərdi. Hər kim belə desə, həmin bəlaya düçar olmaz."[4]

**-39-**

**إِنَّ أَكْمَلَ الْمُؤْمِنِينَ إِيمَاناً أَحْسَنُهُمْ خُلُقاً**

"İnsanların iman cəhətdən ən kamili əxlaqı gözəl olan şəxsdir."[5]

**-40-**

**صِلَةُ الْأَرْحَامِ تُزَكِّي الْأَعْمَالَ وَ تُنْمِي الْأَمْوَالَ وَ تَدْفَعُ الْبَلْوَى وَ تُيَسِّرُ الْحِسَابَ وَ تُنْسِئُ فِي الْأَجَلِ**

"Sileyi-rəhm [6] əməlləri paklayır, malı artırır və bəlanı uzaqlaşdırır, hesabı (qiyamətdə) asanlaşdırır və əcəli təxirə salır."[7]

---

[1] "Üsuli-kafi", c. 3, səh. 122.
[2] "Biharul-ənvar", c. 89, səh. 269.
[3] "Biharul-ənvar", c. 89, səh. 129.
[4] "Üsuli-kafi", c. 3, səh. 153.
[5] "Üsuli-kafi", c. 3, səh. 153.
[6] "Qohumlara baş çəkmək və onlarla əlaqə saxlamaq.
[7] "Üsuli kafi", c. 3, səh. 121.

# İmam Sadiqdən (ə) qırx hədis

**-1-**

**مَنْ أَطْعَمَ ثَلَاثَةً مِنَ الْمُسْلِمِينَ غَفَرَ اللَّهُ لَهُ**

"Hər kəs üç müsəlmana yemək versə, bağışlanar."[1]

**-2-**

**مَشْيُ الْمُسْلِمِ فِي حَاجَةِ الْمُسْلِمِ خَيْرٌ مِنْ سَبْعِينَ طَوَافاً بِالْبَيْتِ الْحَرَامِ**

"Müsəlmanın istəyini yerinə yetirmək üçün səy göstərmək, Kəbəni yetmiş dəfə təvaf etməkdən üstündür."[2]

**-3-**

**مَنْ مَنَعَ قِيرَاطاً مِنَ الزَّكَاةِ فَلَيْسَ بِمُؤْمِنٍ وَ لَا مُسْلِمٍ**

"Hər kəs zəkatın bir qıramını (qıramın beşdə biri) belə verməsə, mömin və müsəlman deyil."[3]

**-4-**

**إِنَّ لِاَهْلِ الْجَنَّةِ أَربَعَ عَلامَاتٍ وَجْهٌ مُنبَسِطٌ وَ لِسَانٌ لَطِيفٌ وَ قَلبٌ رَحِيمٌ وَ يَدٌ مُعْطِيَةٌ**

"Cənnət əhlinin dörd xisləti var: Gülərüzlük, şirin dillilik, mehriban qəlb, səxavətli əl."[4]

**-5-**

**إِنَّ الصَّبْرَ وَ الْبِرَّ وَ الْحِلْمَ وَ حُسْنَ الْخُلُقِ مِنْ أَخْلَاقِ الْأَنْبِيَاءِ**

"Həqiqətən, səbr, yaxşı əməl, təmkinli olmaq və gözəl əxlaq peyğəmbərlərin əxlaqındandır."[5]

**-6-**

**تَسبِيحُ فَاطِمَةَ الزَّهرَاءِع فِي كُلِّ يَومٍ فِي دُبُرِ كُلِّ صَلاةٍ أَحَبُّ إِلَيَّ مِنْ صَلاةِ أَلفِ رَكعَةٍ فِي كُلِّ يَومٍ**

"Fatiməyi-Zəhranın (əh.) "təsbih"ini hər gün namazlardan sonra zikr etmək mənim üçün hər gün (həmin zikrsiz qılınan) min rəkət namazdan üstündür."[1]

---

[1] "Biharul-ənvar", c. 71, səh. 367.
[2] "Biharul-ənvar", c. 71, səh. 311.
[3] "Üsuli-kafi", c. 3, səh. 503.
[4] "Məvaizul-ədədiyyə", səh. 230.
[5] "Məvaizul-ədədiyyə", səh. 227.

-7-

إِنَّ الْمُؤْمِنَ لَيَنْوِي الذَّنْبَ فَيُحْرَمُ رِزْقَهُ

"Şübhəsiz, mömin günah etmək qəsdi etsə, ruzidən məhrum olar."[2]

-8-

مُدْمِنُ الْخَمرِ يَلْقَى اللهَ عز و جل كَعَابِدِ وَثَنٍ وَ مَنْ شَرِبَ مِنْهُ شُرْبَةً لَم يَقبَلِ اللهُ عز و جل صَلاتَهُ أَربَعينَ يَوماً

"Şərabxor, bütpərəst kimi Allah-təalanın hüzuruna gedəcək. Hər kim bir dəfə şərab içsə, Allah onun namazını qırx gün qəbul etməz."[3]

-9-

مَنْ أَذَاعَ فَاحِشَةً كَانَ كَمُبْتَدِيهَا وَ مَنْ عَيَّرَ مُؤْمِناً بِشَيْءٍ لَمْ يَمُتْ حَتَّى يَرْكَبَهُ

"İmam Sadiq (ə), Peyğəmbərdən (s) nəql edir: Hər kim günahı yaysa, həmin şəxs günahı ilk dəfə yerinə yetirmiş şəxs kimidir. Hər kim mömini eybinə görə məzəmmət etsə, özü həmin eybə düçar olmamış dünyadan getməz."[4]

-10-

مَنْ مَشَى فِي حَاجَةِ أَخِيهِ ثُمَّ لَمْ يُنَاصِحْهُ فِيهَا كَانَ كَمَنْ خَانَ اللَّهَ وَ رَسُولَهُ وَ كَانَ اللَّهُ خَصْمَهُ

"Hər kəs mömin qardaşının istəyinin arxasınca getsə, amma əlindən gələni etməsə, həmin şəxs Allaha və Peyğəmbərə (s) xəyanət etmiş şəxs kimidir. Allah onu sevməz."[5]

-11-

مَنْ لَقِيَ الْمُسْلِمِينَ بِوَجْهَيْنِ وَ لِسَانَيْنِ جَاءَ يَوْمَ الْقِيَامَةِ وَ لَهُ لِسَانَانِ مِنْ نَارٍ

"Hər kəs iki üzlə və iki dillə (ikiüzlü kimi) müsəlmanla rəftar etsə, qiyamət günü cəhənnəm atəşinin iki dili ilə üzləşəcək."[6]

-12-

أُكْتُبُوا فَإِنَّكُمْ لَا تَحْفَظُونَ إِلَّا بِالْكِتَابِ

---

[1] "Səvabul-əmal və iqabul-əmal", səh. 350.

[2] "Səvabul-əmal və iqabul-əmal", səh. 521.

[3] "Səvabul-əmal və iqabul-əmal", səh. 523.

[4] "İqabul-əmal", səh. 593.

[5] "İqabul-əmal", səh. 536.

[6] "İqabul-əmal", səh. 533.

"Elminizi yazın. Həqiqətən, siz elminizi yazmaqdan başqa bir yolla qoruya bilməzsiniz."[1]

**-13-**

**قَالَ رَسُولُ اللهِ: مَنْ مَشَى عَلَى الْأَرضِ اخْتِبَالاً لَعَنَتْهُ الأَرضُ وَ مَنْ تَحتَهَا وَ مَن فَوقَهَا**

"Peyğəmbər (s) buyurub: Hər kəs yer üzərində təkəbbürlə yol getsə, yer, onun üstündə və altında olan hər şey həmin şəxsi lənətləyir."[2]

**-14-**

**لَوْ جَرَى الْمَعْرُوفُ عَلَى ثَمَانِينَ كَفّاً لَأُجِرُوا كُلُّهُمْ فِيهِ مِنْ غَيْرِ أَنْ يُنْقَصَ صَاحِبُهُ مِنْ أَجْرِهِ شَيْئاً**

"Əgər yaxşı bir əməl səksən nəfər tərəfindən yerinə yetirilsə, onun savabından azalmadan onların hamısına eyni miqdarda savab yetişəcək."[3]

**-15-**

**إِنَّ صَدَقَةَ النَّهَارِ تَمِيثُ الْخَطِيئَةَ كَمَا يَمِيثُ الْمَاءُ الْمِلْحَ وَ إِنَّ صَدَقَةَ اللَّيْلِ تُطْفِئُ غَضَبَ الرَّبِّ**

"Su duzu həll etdiyi kimi, sübh çağı verilən sədəqə də günahı aradan aparar. Gecə verilən sədəqə isə Allahın qəzəbini aradan aparar."[4]

**-16-**

**كَفَّارَةُ الضِّحْكِ أَنْ يَقُولَ اللَّهُمَّ لَا تَمْقُتْنِي**

"Gülməyin kəffarəsi bunları deməkdir: İlahi, məni düşmən bilmə."[5]

**-17-**

**إِنَّ مِنْ حَقِّ الْمُسْلِمِ عَلَى الْمُسْلِمِ أَنْ يُجِيبَهُ إِذَا دَعَاهُ**

"Müsəlmanın müsəlman qardaşının boynunda olan haqlarından biri də qonaqlığa dəvət edəndə onu qəbul etməsidir."[6]

---

[1] "Biharul-ənvar", c. 2, səh. 153.
[2] "Biharul-ənvar", c. 2, səh. 587.
[3] "Səvabul-əmal", səh. 303.
[4] "Səvabul-əmal", səh. 307.
[5] "Mən la yəhzuruhul-fəqih", c. 3, səh. 377.
[6] "Əlkafi", c. 6, səh. 274.

**-18-**

**ثَلَاثُ خِصَالٍ مَنْ كُنَّ فِيهِ يَسْتَكْمِلُ خِصَالَ الْإِيمَانِ الَّذِي إِذَا رَضِيَ لَمْ يُدْخِلْهُ رِضَاهُ فِي بَاطِلٍ وَ إِذَا غَضِبَ لَمْ يُخْرِجْهُ غَضَبُهُ مِنَ الْحَقِّ وَ إِذَا قَدَرَ لَمْ يَتَعَاطَ مَا لَيْسَ لَهُ**

"Hər kəsdə bu üç şey olsa, imanı kamildir: 1. Hər kəs qəzəblənsə, qəzəbi həddən artıq olmasın; 2. Əgər şad olsa, şadlıtı onu batil işlərə sürükləməsin; 3. Əgər qüdrətli olsa, əfv və güzəşt etsin."[1]

**-19-**

**ثَلَاثَةُ أَشْيَاءَ يَحْتَاجُ النَّاسُ طُرّاً إِلَيْهَا الْأَمْنُ وَ الْعَدْلُ وَ الْخَصَبُ**

"Hamının üç şeyə ehtiyacı var: 1. Təhlükəsizliyə; 2. Ədalətə; 3. Bolluğa."[2]

**-20-**

**ثَلَاثَةٌ تَدُلُّ عَلَى كَرَمِ الْمَرْءِ حُسْنُ الْخُلُقِ وَ كَظْمُ الْغَيْظِ وَ غَضُّ الطَرْف**

"Üç şey insanın böyüklüyünə dəlalət edir: Gözəl əxlaq, qəzəbi udmaq, naməhrəmə baxmamaq."[3]

**-21-**

**مَا بَلَى اللَّهُ الْعِبَادَ بِشَيْءٍ أَشَدَّ عَلَيْهِمْ مِنْ إِخْرَاجِ الدَّرَاهِمِ**

"Allah bəndələrini şəri malı (zəkat və xums) ödəməklə bərk imtahan edib."[4]

**-22-**

**مَنْ لَمْ يَعْرِفِ الحَقَّ مِنَ الْقُرْآنِ لَمْ يَتَنَكَّبِ الْفِتَنَ**

"Hər kəs haqqı Quranla tapmazsa, fitnələrdən amanda qala bilməz."

**-23-**

**أَقْرَبُ مَا يَكُونَ الْعَبْدُ إِلَى اللَّهِ عَزَّ وَ جَلَّ وَ هُوَ سَاجِد**

"Bəndənin Allaha ən yaxın halı səcdədir."[5]

**-24-**

**ثَلَاثَةٌ مَكْسَبَةٌ لِلْبَغْضَاءِ النِّفَاقُ وَ الظُّلْمُ وَ الْعُجْب**

---

[1] "Tuhəful-uqul", səh. 339.
[2] "Tuhəful-uqul", səh. 334.
[3] "Tuhəful-uqul", səh. 322.
[4] "Biharul-ənvar", c. 70, səh. 139.
[5] "Üsuli-kafi", c. 6, səh. 269.

“Üç şey düşmənçiliyə səbəb olur: Nifaq, zülm və özünü bəyənmək.”[1]

-25-

**ثَلاثٌ مَنْ كُنَّ فِيهِ فَهُوَ مُنَافِقٌ وَ إِنْ صَامَ وَ صَلَّى: مَنْ إِذَا حَدَّثَ كَذَبَ وَ إِذَا وَعَدَ أَخْلَفَ وَ إِذَا ائْتُمِنَ خَانَ**

“Namaz qılan və oruc tutan olsa da, hər kimdə üç xislət olsa, o münafiqdir. Yalançılıq, verdiyi vədəyə xilaf çıxmaq, əmanətə xəyanət etmək.”[2]

-26-

**عِنْدَنَا وَاللهِ صَحِيفَةٌ طُولُهَا سَبْعُونَ ذِرَاعاً فِيهَا مَا يُحْتَاجُ إِلَيْهِ حَتَّى إِنَّ فِيهَا أَرْشَ الْخَدْشِ**

“Allaha and olsun, bizim yanımızda bir səhifə vardır ki, uzunluğu 70 ziradır. [3] Bütün vaciblər və haramlar onda gəlmişdir. Hətta, dırnaq cızığının diyəsinin hökmü də onda vardır.”[4]

-27-

**الطَّاعِمُ الشَّاكِرُ اَفضَلُ مِنَ الصَّائِمِ الصَّامِتِ**

“Müstəhəb oruc tutmayıb, Allaha şükr edən şəxs, oruc (müstəhəb) tutub zikr etməyəndən üstündür.”[5]

-28-

**إِذَا رَأَيْتُمُ اْلعَبدَ يَتَفَقَّدُ الذُّنُوبَ مِنَ النَّاسِ نَاسِياً لِذَنبِهِ فَاعْلَمُوا أَنَّهُ قَدْ مُكِرَ بِهِ**

“Nə vaxt bir bəndəni başqalarının günahlarını axtaran, amma öz günahlarını unudan halda görsəniz, bilin ki, o məkrə düçar olub.”[6]

-29-

**إِنَّ اللهَ عَلِمَ أَنَّ الذَّنْبَ خَيْرٌ لِلْمُؤْمِنِ مِنَ الْعُجْبِ وَ لَوْ لا ذَلِكَ مَا ابْتُلِيَ مُؤْمِنٌ بِذَنْبٍ أَبَداً**

---

[1] “Tühəful-uqul”, səh. 329.
[2] “Tühəfül-üqul”, səh. 329.
[3] Arşın.
[4] “Müstədrəkül-vəsail”, c. 18, səh. 387.
[5] “Vəsailüş-şiə”, c. 25, səh. 252.
[6] “Tuhəful-uqul”, səh. 382.

“Həqiqətən, Allah-təala günahın mömin üçün xudbinlikdən daha yaxşı olduğunu bilir. Əgər belə olmasaydı, heç bir mömin günaha aludə olmazdı.”[1]

**-30-**

**رَكعَتَينِ بِالسِّوَاكِ أَفضَلُ مِنْ سَبعِينَ رَكعَةً بِغَيرِ سِوَاكٍ**

“Dişi fırçalayandan sonra qılınan iki rəkət namaz, fırçalamadan əvvəl qılınan namazdan üstündür.”[2]

**-31-**

**إِنَّ الرَّبَّ لَيَتَعَاهَدُ الْمُؤْمِنَ فَمَا يَمُرُّ بِهِ أَرْبَعُونَ صَبَاحاً إِلَّا تَعَاهَدَهُ إِمَّا بِمَرَضٍ فِي جَسَدِهِ وَ إِمَّا بِمُصِيبَةٍ فِي أَهْلِهِ وَ مَالِهِ أَوْ مُصِيبَةٍ مِنْ مُصِيبَاتِ الدُّنْيَا لِيَأْجُرَهُ اللَّهُ عَلَيْهِ**

“Allahın istəyi budur ki, qırx gün keçmədən mömini xəstəliyə düçar etsin və ya ailəsinə, ya da malına bir zərər dəysin, yaxud müsibətlərə düçar olsun. Allah bunları ona əcr və savab verməк üçün edir.”[3]

**-32-**

**وَ اللَّهِ إِنَّ الْمُؤْمِنَ لَأَعْظَمُ حَقّاً مِنَ الْكَعْبَةِ**

“Allaha and olsun, möminin hörməti Kəbənin hörmətindən üstündür.”[4]

**-33-**

**الرَّغْبَةُ فِي الدُّنْيَا تُورِثُ الْغَمَّ وَ الْحَزَنَ وَ الزُّهْدُ فِي الدُّنْيَا رَاحَةُ الْقَلْبِ وَ الْبَدَنِ**

“Dünyaya rəğbət bəsləmək qəm-qüssəyə səbəb olar. Dünyaya zahid olmaq qəlbin və bədənin sakitləşməsinə səbəb olar.”[5]

**-34-**

**اِذَا صَلَحَ اَمْرُ دُنْيَاكَ فَاتَّهِمْ دِينَكَ**

“Əgər dünya işlərin düzəldisə, dininə görə narahat ol.”[6]

**-35-**

**صَلَاحُ حَالِ التَّعَايُشِ وَ التَّعَاشُرِ مِلْءُ مِكْيَالٍ ثُلُثَاهُ فِطْنَةٌ وَ ثُلُثُهُ تَغَافُلٌ**

---

[1] “Tuhəful-uqul”, səh. 382.
[2] “Mən la yəhzuruhul-fəqih”, c. 1, səh. 54.
[3] “Müstədrəkül-vəsail”, c. 2, səh. 63.
[4] “Biharul-ənvar”, c. 71, səh. 222.
[5] “Biharul-ənvar”, c. 71, səh. 374.
[6] “Tuhəful-uqul”, səh. 377.

“Insanlarla rəftarda müvəffəq olmağın sirri peymanə[1] kimidir ki, üçdə ikisi ağılla rəftar etmək, üçdə biri isə başqalarına güzəştə getməkdir.”[2]

**-36-**

**صُحْبَةُ عِشْرِينَ سَنَةً قَرَابَةٌ**

“İyirmi illik dostluq qohumluq kimidir.”[3]

**-37-**

**إِنَّ فِي الْجَنَّةِ مَنْزِلَةً لَا يَبْلُغُهَا عَبْدٌ إِلَّا بِالِابْتِلَاءِ فِي جَسَدِهِ**

“Həqiqətən cənnətdə bir məqam vardır ki, xəstəliyin əziyyətini çəkənlərdən başqa heç kim o məqama yetişə bilməz.”[4]

**-38-**

**مَنْ كَفَّ غَضَبَهُ عَنِ النَّاسِ كَفَّ اللَّهُ تَبَارَكَ وَ تَعَالَى عَنْهُ عَذَابَ يَوْمِ الْقِيَامَةِ**

“Hər kəs insanlara qəzəb etməsə, Allah da qiyamət günü ona qəzəb etməz.”[5]

**-39-**

**مَا افْتَقَرَتْ كَفٌّ تَخَتَّمَتْ بِالْفِيرُوزَجِ**

“Firuzə qaşlı üzük olan əl, heç vaxt kasıb olmaz.”[6]

**-40-**

**لَنْ تَكُونُوا مُؤْمِنِينَ حَتَّى تَعُدُّوا الْبَلَاءَ نِعْمَةً وَ الرَّخَاءَ مُصِيبَةً**

“Siz bəlaları nemət və şadlıqları müsibət saymayınca mömin hesab olunmazsınız.”[7]

---

[1] Ölçü vahidi.
[2] “Tuhəfül-üqul”, səh. 376.
[3] “Tuhəfül-üqul”, səh. 376.
[4] “Biharul-ənvar”, c. 64, səh. 237.
[5] “Biharul-ənvar”, c. 64, səh. 411.
[6] “Səvabul-əmal”, səh. 175.
[7] “Vəsailüş-şiə”, c. 3, səh. 260.

# İmam Kazimdan (ə) qırx hədis

**-1-**

**مَنْ كَفَّ نَفْسَهُ عَنْ أَعْرَاضِ النَّاسِ أَقَالَهُ اللَّهُ نَفْسَهُ يَوْمَ الْقِيَامَةِ وَ مَنْ كَفَّ غَضَبَهُ عَنِ النَّاسِ كَفَّ اللَّهُ عَنْهُ عَذَابَهُ يَوْمَ الْقِيَامَةِ**

“Hər kəs başqalarının abrını hifz etsə Allah-təala qiyamət günü onun günahlarını bağışlayar. Kim camaata qəzəblənməsə, Allah qiyamət günü ona qəzəblənməz.”[1]

**-2-**

**اِتَّقِ اللهَ قُلِ الْحَقَّ وَ إِنْ كَانَ فِيهِ هَلَاكُكَ فَإِنَّ فِيهِ نَجَاتَكَ وَ دَعِ الْبَاطِلَ وَ إِنْ كَانَ فِيهِ نَجَاتُكَ فَإِنَّ فِيهِ هَلَاكَكَ**

“Təqvalı ol və həmişə haqqı de, hətta ölümünə səbəb olsa da. Çünki nicat haqdadır. Həmişə batili inkar et, hətta xilas olmaq üçün də olsa. Çünki həlakət batildədir”[2]

**-3-**

**إِنَّ عَلِيّاًع بَابٌ مِنْ أَبْوَابِ الْجَنَّةِ فَمَنْ دَخَلَ بَابَهُ كَانَ مُؤْمِناً وَ مَنْ خَرَجَ مِنْ بَابِهِ كَانَ كَافِراً**

“Həqiqətən, Əli (ə) cənnət qapılarından biridir. Hər kim bu qapıdan daxil olsa, mömin və hər kim ondan xaric olsa, kafirdir.”[3]

**-4-**

**لَيْسَ مِنَّا مَنْ لَمْ يُحَاسِبْ نَفْسَهُ فِي كُلِّ يَوْمٍ فَإِنْ عَمِلَ حَسَناً اسْتَزَادَ اللَّهَ وَ إِنْ عَمِلَ سَيِّئاً اسْتَغْفَرَ اللَّهَ مِنْهُ وَ تَابَ إِلَيْهِ**

“Hər kəs hər gün öz əməllərini götür-qoy etməsə, bizdən deyil. Belə ki, əgər yaxşı iş görübsə, Allahdan onun çoxalmağını və əgər günah edibsə, Allahdan bağışlanmağını istəsin.”[4]

---

[1] “Müstədrəkül-vəsail”, c. 12, səh. 10.
[2] “Biharul-ənvar”, c. 2, səh. 79.
[3] “Üsuli-kafi”, c. 4, səh. 101.
[4] “Biharul-ənvar”, c. 75, səh. 369.

-5-

عَلَيْكُمْ بِالدُّعَاءِ فَإِنَّ الدُّعَاءَ لِلَّهِ وَ الطَّلَبَ إِلَى اللهِ يَرُدُّ الْبَلَاءَ وَ قَدْ قُدِّرَ وَ قُضِيَ وَ لَمْ يَبْقَ إِلَّا إِمْضَاؤُهُ فَإِذَا دُعِيَ اللَّهُ عَزَّ وَ جَلَّ وَ سُئِلَ صُرِفَ الْبَلَاءُ صَرْفَةً

"Dua edin. Çünki dua bəlanı uzaqlaşdırır."[1]

-6-

لَيْسَ حُسْنُ الْجِوَارِ كَفَّ الْأَذَى وَ لَكِنَّ حُسْنَ الْجِوَارِ صَبْرُكَ عَلَى الْأَذَى

"Qonşularla yaxşı rəftar etmək yalnız onları incitməmək deyil. Bəlkə gərək onların əziyyətlərinə də dözəsən."[2]

-7-

اَلرِّفْقُ نِصْفُ الْعَيشِ

"Gözəl əxlaq sahibi olmaq yaşayışın yarısıdır."[3]

-8-

مَنْ صَلَّى فِي كُلِّ يَوْمٍ أَرْبَعاً عِنْدَ الزَّوَالِ يَقْرَأُ فِي كُلِّ رَكْعَةٍ الْحَمْدَ وَ آيَةَ الْكُرْسِيِّ عَصَمَهُ اللَّهُ فِي أَهْلِهِ وَ مَالِهِ وَ دِينِهِ وَ دُنْيَاهُ

"Hər kəs hər gün günorta (zöhr vaxtı) dörd rəkət namaz qılsa, hər rəkətdə "Fatihə" surəsindən sonra "Ayətəl-kürsü" oxusa, Allah-təala onun ailəsini, malını, dinini və dünyasını pis hadisələrdən qoruyar."[4]

-9-

سَأَلَ رَجُلٌ رَسُولَ اللَّهِ ص مَا حَقُّ الْوَالِدِ عَلَى وَلَدِهِ قَالَ لَا يُسَمِّيهِ بِاسْمِهِ وَ لَا يَمْشِي بَيْنَ يَدَيْهِ وَ لَا يَجْلِسُ قَبْلَهُ وَ لَا يَسْتَسِبُّ لَهُ

"Peyğəmbərdən (s) soruşdular: Övladın boynundakı ata haqqı nədir? Buyurdu: Onu adı ilə çağırmasın, ondan qabağa keçməsin, ondan qabaqda oturmasın və elə bir iş görməsin ki, atasını söysünlər."[5]

-10-

مَنْ زَارَ أَخَاهُ الْمُؤْمِنَ لِلَّهِ لَا لِغَيْرِهِ يَطْلُبُ بِهِ ثَوَابَ اللَّهِ وَ تَنَجُّزَ مَا وَعَدَهُ اللَّهُ عَزَّ وَ جَلَّ وَكَّلَ اللَّهُ عَزَّ وَ جَلَّ بِهِ سَبْعِينَ أَلْفَ مَلَكٍ مِنْ حِينِ يَخْرُجُ مِنْ مَنْزِلِهِ حَتَّى يَعُودَ إِلَيْهِ يُنَادُونَهُ أَلَا طِبْتَ وَ طَابَتْ لَكَ الْجَنَّةُ تَبَوَّأْتَ مِنَ الْجَنَّةِ مَنْزِلًا

---

1 "Üsuli-kafi", c. 4, səh. 216.
2 "Üsuli-kafi", c. 4, səh. 492.
3 "Üsuli-kafi", c. 4, səh. 183.
4 "Vəsailüş-şiə", c. 8, səh. 171.
5 "Vəsailüş-şiə", c. 8, səh. 231.

“Hər kəs yalnız Allaha xatir din qardaşının görüşünə getsə, bu əməlində savabdan başqa bir şey əldə etməz. Bu vaxt Allah onun üçün yetmiş min mələk təyin edər ki, o, evinə qayıdana qədər mələklər belə fəryad edərlər: “Xoş halına ki, cənnətdən mənzil aldın.”[1]

**-11-**

**حَصِّنُوا أَمْوَالَكُمْ بِالزَّكَاةِ**

“Mallarınızı zəkat verməklə qoruyun.”[2]

**-12-**

**مَنْ صَامَ أَوَّلَ يَوْمٍ مِنْ عَشْرِ ذِي الْحِجَّةِ كَتَبَ اللَّهُ لَهُ صَوْمَ ثَمَانِينَ شَهْراً فَإِنْ صَامَ التِّسْعَ كَتَبَ اللَّهُ عَزَّ وَ جَلَّ لَهُ صَوْمَ الدَّهْرِ**

“Hər kim Zil-hiccənin ilk on günündən bir gün oruc tutsa, yetmiş il orucun savabına nail olar. Hər kim bu ayın ilk on gününü oruc tutsa, min ilin orucunun savabına nail olar.”[3]

**-13-**

**مَنْ حَسُنَتْ نِيَّتُهُ زِيدَ فِي رِزْقِهِ**

“Niyyəti yaxşı olanın ruzisi artar.”[4]

**-14-**

**كَمَا لا يَقُومُ الْجَسَدُ إِلّا بِالنَّفْسِ الْحَيَّةِ فَكَذَلِكَ لا يَقُومُ الدِّينُ إِلّا بِالنِّيَّةِ الصَّادِقَةِ وَ لا تَثْبُتُ النِّيَّةُ الصّادِقَةُ إِلّا بِالْعَقْلِ**

“Bədən ruhsuz məhv olduğu kimi, din də pak niyyətsiz məhv olur. Pak niyyət də yalnız ağılın vasitəsi ilə möhkəmlənir.”[5]

**-15-**

**إِذَا خَرَّ بِكَ أَمرَانِ لا تَدْرِي أَيُّهُمَا خَيرٌ وَ أَصوَبُ فَانْظُرْ أَيُّهُمَا أَقرَبُ إِلَى هَوَاكَ فَخَالِفْهُ فَإِنَّ كَثِيرَ الصَّوَابِ فِي مُخَالَفَةِ هَوَاكَ**

“Əgər seçim vaxtı hansı işin xeyrinə olduğunu bilməsən, nəfsinlə müxalif olanı seç ki, əksər hallarda düzgün qərar nəfsinlə müxalifətdədir.”[6]

---

[1] “Vəsailüş-şiə”, c. 8, səh. 259.
[2] “Vəsailüş-şiə”, c. 9, səh. 4.
[3] “Mən la yəhzuruhul-fəqih”, c. 2, səh. 87.
[4] “Müstədrəkul-vəsail”, c. 1, səh. 59.
[5] “Mizanul-hikmət”, c. 19, səh. 287.
[6] “Mizanul-hikmət”, c. 19, səh. 385.

-16-

ثَلَاثٌ مُوبِقَاتٌ نَكْثُ الصَّفْقَةِ وَ تَرْكُ السُّنَّةِ وَ فِرَاقُ الْجَمَاعَةِ

"Üç şey həlakətə səbəb olar: Əhd-peymanı və beyəti sındırmaq, sünnəni tərk etmək, müsəlmanlardan uzaqlaşmaq."[1]

-17-

مَنْ طَلَبَ الرِّئَاسَةَ هَلَكَ وَ مَنْ دَخَلَهُ الْعُجْبُ هَلَكَ

"Hakimiyyətpərəst və özünü bəyənən insan həlak olar."[2]

-18-

إِذَا وَعَدتُّمُ الصِّغَرَ فَأَوْفُوا لَهُم فَإِنَّهُم يَرَونَ أَنَّكُم أَنْتُمُ الَّذِينَ تَرزُقُونَهُم وَ إِنَّ اللهَ عز و جل لا يَغْضُبُ لِشَيْءٍ كَغَضَبِهِ لِلنِّسَاءِ وَ الصِّبْيَانِ

"Uşaqlara verdiyiniz vədələrə əməl edin. Çünki onlar güman edirlər ki, siz onlara ruzi verirsiniz. Allahın qadınlara və uşaqlara görə etdiyi qəzəb, başqa qəzəblərdən artıqdır."[3]

-19-

انْتِظَارُ الصَّلَاةِ جَمَاعَةً مِنْ جَمَاعَةٍ إِلَى جَمَاعَةٍ كَفَّارَةُ كُلِّ ذَنْبٍ

"Namaz qılanın camaat namazını gözləməsi (bir camaat namazından, başqa bir camaat namazına qədər) günahların kəffarəsidir."[4]

-20-

مَنِ اغْتَسَلَ لَيْلَةَ الْقَدْرِ وَ أَحْيَاهَا إِلَى طُلُوعِ الْفَجْرِ خَرَجَ مِنْ ذُنُوبِهِ

"Hər kəs Qədr gecəsi qüsl edib, həmin gecə oyaq qalsa, Allah onun günahlarını bağışlayar."[5]

-21-

قَالَ رَسُولُ اللهِ ص: دَخَلْتُ الْجَنَّةَ فَرَأَيْتُ أَكْثَرَ أَهْلِهَا الَّذِينَ يَصُومُونَ أَيَّامَ الْبِيضِ

"Peyğəmbər (s) buyurub: Cənnətə daxil oldum və gördüm ki, cənnət əhlinin çoxu hər ayın on üçü, on dördü və on beşinci gününü oruc tutanlardır."[6]

---

1 "Mizanul-hikmət", c. 10, səh. 354.
2 "Mizanul-hikmət", c. 10, səh. 354.
3 "Mizanul-hikmət", c. 10, səh. 535.
4 "Cameul-əhadisiş-şiəti", c. 6, səh. 388.
5 "Müstədrəkül-vəsail", c. 12, səh. 112.
6 "Biharul-ənvar", c. 94, səh. 107.

-22-

**قَلِيلُ الْعَمَلِ مِنَ الْعَاقِلِ مَقْبُولٌ مُضَاعَفٌ وَ كَثِيرُ الْعَمَلِ مِنْ أَهْلِ الْهَوَى وَ الْجَهْلِ مَرْدُودٌ**

"Ağıllı insanın az işi çox və qəbul olunmuş hesab olunar. Cahilin çox əməli isə qəbul olunmaz."[1]

-23-

**مَنْ تَوَضَّأَ لِلْمَغْرِبِ كَانَ وُضُوؤُهُ ذَلِكَ كَفَّارَةً لِمَا مَضَى مِنْ ذُنُوبِهِ فِي نَهَارِهِ مَا خَلَا الْكَبَائِرَ وَ مَنْ تَوَضَّأَ لِصَلَاةِ الصُّبْحِ كَانَ وُضُوؤُهُ ذَلِكَ كَفَّارَةً لِمَا مَضَى مِنْ ذُنُوبِهِ فِي لَيْلَتِهِ إِلَّا الْكَبَائِرَ**

"Şam namazı üçün alınan dəstəmaz gündüz edilən günahların kəffarəsidir. Əlbəttə, gərək o günahlar böyük günahlardan olmasın. Sübh namazı üçün alınan dəstəmaz isə gecə edilən günahların kəffarəsidir. Amma gərək gecə böyük günahlara yol verməsin."[2]

-24-

**لَو ظَهَرَتِ الْآجَالُ افْتَضَحَتِ الْآمَالُ**

"Əcəllər çatanda, arzular məhv olar."[3]

-25-

**صِلَةُ الْأَرْحَامِ وَ حُسْنُ الْخُلُقِ زِيَادَةٌ فِي الْإِيمَانِ**

"Sileyi-rəhm və xoş əxlaq imanı artırır."[4]

-26-

**أَفْضَلُ مَا تَقَرَّبَ بِهِ الْعَبْدُ إِلَى اللهِ بَعْدَ الْمَعْرِفَةِ بِهِ الصَّلَاةُ وَ بِرُّ الْوَالِدَيْنِ وَ تَرْكُ الْحَسَدِ وَ الْعُجْبِ وَ الْفَخْرِ**

"Allahı tanıdıqdan sonra bəndə üçün onu Allaha yaxınlaşdıran ən yaxşı iş namaz qılmaq, ata-anaya yaxşılıq, həsədi tərk etmək və özünü başqalarından üstün bilməməkdir."[5]

-27-

**مَنْ حَسُنَ بِرُّهُ بِإِخْوَانِهِ وَ أَهْلِهِ مُدَّ فِي عُمُرِهِ**

---

1 "Müstədrəkül-vəsail", c. 12, səh. 112.
2 "Mən la yəhziruhul-fəqih", c. 1, səh. 150.
3 "Müstədrəkül-vəsail", c. 15, səh. 247.
4 "Mizanul-hikmət", c. 1, səh. 142.
5 "Müstədrəkül-vəsail", c. 12, səh. 19.

“Hər kim din qardaşına və ailəsinə yaxşılıq etsə, ömrü uzanar.”[1]

**-28-**

**قَالَ رَسُولُ اللهِ: تَخَلَّلُوا فَإِنَّهُ لَيْسَ شَيْءٌ أَبْغَضَ إِلَى الْمَلَائِكَةِ مِنْ أَنْ يَرَوْا فِي أَسْنَانِ الْعَبْدِ طَعَاما**

“Peyğəmbər (s) buyurub: “Dişlərinizi təmizləyin. Çünki mələklərin yanında ən pis şey yemək qalıqlarını dişlərdən təmizləməməkdir.”[2]

**-29-**

**إِنَّ اللَّهَ لَيُبْغِضُ الْعَبْدَ الْفَارِغَ**

“Allah işsiz insanı sevmir.”[3]

**-30-**

**قَالَ رَسُولُ اللهِ سِرْ سَنَتَيْنِ بِرَّ وَالِدَيْكَ سِرْ سَنَةً صِلْ رَحِمَكَ سِرْ مِيلًا عُدْ مَرِيضاً سِرْ مِيلَيْنِ شَيِّعْ جَنَازَةً سِرْ ثَلَاثَةَ أَمْيَالٍ أَغِثْ مَلْهُوفاً وَ عَلَيْكَ بِالاِستِغفَارِ فَإِنَّهُ الْمُنجَاةُ**

“Peyğəmbər (s) buyurub: “İki səfər et ki, valideyninə yaxşılıq edəsən, bir il səfər et ki, sileyi-rəhmi yerinə yetirəsən, bir mil (6 kilometr) səfər et ki, xəstənin görüşünə gedəsən, iki mil səfər et ki, dəfn mərasimində iştirak edəsən, üç mil səfər et ki, bir şəxsin çətinliyini həll edəsən. Və istiğfar et ki, nicat bundadır.”[4]

**-31-**

**صِلُوا أَرْحَامَكُمْ وَ إِنْ قَطَعُوكُمْ**

“Qohumlarınız sizinlə əlaqəni kəssələr də, siz sileyi-rəhm edin.”[5]

**-32-**

**لَا تُذْهِبِ الْحِشْمَةَ بَيْنَكَ وَ بَيْنَ أَخِيكَ أَبْقِ مِنْهَا فَإِنَّ ذَهَابَهَا ذَهَابُ الْحَيَاءِ صِلُوا أَرْحَامَكُمْ وَ إِنْ قَطَعُوكُمْ**

---

[1] “Müstədrəkül-vəsail”, c. 12, səh. 421.
[2] “Biharul-ənvar”, c. 62, səh. 253.
[3] “Əvalil-ləali”, c. 3, səh. 201.
[4] “Biharul-ənvar”, c. 66, səh. 403.
[5] “Müstədrəkül-vəsail”, c. 15, səh. 253.

“Qardaşlarınla rəftarında ədəb və xəcaləti əldən vermə. Çünki xəcalət aradan gedəndə, həya da aradan gedir.”

**ثَلاثَةٌ يَسْتَظِلُّونَ بِظِلِّ عَرْشِ اللهِ يَوْمَ الْقِيامَةِ يَوْمَ لا ظِلَّ إلَّا ظِلُّهُ رَجُلٌ زَوَّجَ أَخَاهُ الْمُسْلِمَ أَوْ أَخْدَمَهُ أَوْ كَتَمَ لَهُ سِرّاً**

“O gün ki, Allahın kölgəsindən başqa bir kölgə olmayacaq, bu zaman üç şəxs ilahi ərşin kölgəsinə sığınacaq. 1. Hər kəs evlənmək üçün müsəlman qardaşına kömək etsə; 2. Hər kəs qardaşı üçün xadim hazırlasa; 3. Hər kəs din qardaşının sirlərini gizlətsə.”[1]

**-34-**

**مَلْعُونٌ مَنِ اغْتَابَ أَخَاهُ**

“Din qardaşının qeybətini edən lənətlənmişdir.”[2]

**-35-**

**مَنْ لَمْ يَسْتَطِعْ أَنْ يَزُورَ قُبُورَنَا فَلْيَزُرْ قُبُورَ صُلَحَاءِ إِخْوَانِنَا**

“O kəs ki, bizim qəbirlərimizi ziyarət edə bilmir saleh qardaşlarımızın qəbirlərini ziyarət etsin.”[3]

**-36-**

**دَلِيلُ الْعَاقِلِ التَّفَكُّرُ وَ دَلِيلُ التَّفَكُّرِ الصَّمْتُ**

“Aqilin nişanəsi təfəkkür, təfəkkürün nişanəsi isə sükutdur.”[4]

**-37-**

**إِذَا مَاتَ الْمُؤْمِنُ بَكَتْ عَلَيْهِ الْمَلَائِكَةُ وَ بِقَاعُ الْأَرْضِ الَّتِي كَانَ يَعْبُدُ اللهَ عَلَيْهَا وَ أَبْوَابُ السَّمَاءِ الَّتِي كَانَ يُصْعَدُ أَعْمَالُهُ فِيهَا**

“Mömin vəfat edəndə, mələklər, ibadət etdiyi yer və əməlləri yuxarı getdiyi səma qapıları ağlayar.”[5]

**-38-**

**إِيَّاكَ وَ الطَّمَعَ وَ عَلَيْكَ بِالْيَأْسِ مِمَّا فِي أَيْدِي النَّاسِ وَ أَمِتِ الطَّمَعَ مِنَ الْمَخْلُوقِينَ فَإِنَّ الطَّمَعَ مِفْتَاحُ الذُّلِّ**

---

[1] “Biharul-ənvar”, c. 75, səh. 70.
[2] “Mizanul-hikmət”, c. 7, səh. 333.
[3] “Mizanul-hikmət”, c. 4, səh. 311.
[4] “Mizanul-hikmət”, c. 5, səh. 436.
[5] “Vəsailüş-şiə”, c. 2, səh. 924.

“Tamahdan çəkinin. Camaatda olan şeylərə tamah salmayın. Camaata qarşı olan tamahınızı öldürün. Çünki tamah zillətin açarıdır.”[1]

**-39-**

**لِكُلِّ شَيْءٍ زَكَاةٌ وَ زَكَاةُ الْجَسَدِ صِيَامُ النَّوَافِلِ**

“Hər şeyin zəkatı vardır və bədənin də zəkatı müstəhəb oruclardır.”[2]

**-40-**

**مَثَلُ الدُّنْيَا كَمَثَلِ مَاءِ الْبَحْرِ كُلَّمَا شَرِبَ مِنْهُ الْعَطْشَانُ ازْدَادَ عَطَشاً حَتَّى يَقْتُلَه**

“Dünya dəniz suyu kimidir. Ondan nə qədər içsən, bir o qədər susuzluğun artar və nəhayət, öldürür.”[3]

---

1 “Mizanul-hikmət”, c. 5, səh. 552.
2 Həmin mənbə, səh. 467.
3 “Biharul-ənvar”, c. 78, səh. 311.

# İmam Rzadan (ə) qırx hədis

**-1-**

**رَحِمَ اللّهُ عَبْداً أَحْيَا أَمْرَنَا قُلْتُ وَ كَيْفَ يُحْيِي أَمْرَكُمْ قَالَ يَتَعَلَّمُ عُلُومَنَا وَ يُعَلِّمُهَا النَّاسَ**

“Allah bizim əmrimizi dirildənə rəhmət etsin!”

Soruşdular: “Sizin əmrinizi necə diriltmək olar?” Buyurdu: “Bizim elmlərimizi öyrənib başqalarına öyrətməklə.”[1]

**-2-**

**اِنَّ النَّاسَ لَوْ عَلِمُوا مَحَاسِنَ كَلَامِنَا لَاتَّبَعُونَا**

“Əgər camaat bizim kəlamlarımızın gözəlliyini bilsəydilər, bizə tabe olardılar.”[2]

**-3-**

**مَنْ زَارَ وَاحِداً مِنَّا كَمَنْ زَارَ الْحُسَيْنَ ع**

“Hər kim bizdən (imamlar) birini ziyarət etsə, İmam Hüseyni (ə) ziyarət etmiş kimidir.”[3]

**-4-**

**وَ قِيلَ لَهُ كَيْفَ أَصْبَحْتَ فَقَالَ ع أَصْبَحْتُ بِأَجَلٍ مَنْقُوصٍ وَ عَمَلٍ مَحْفُوظٍ وَ الْمَوْتُ فِي رِقَابِنَا وَ النَّارُ مِنْ وَرَائِنَا وَ لَا نَدْرِي مَا يَفْعَلُ بِنَا**

Həzrətdən soruşdular: “Necəsiniz?” Buyurdu: “Ömrüm azalır və əməllərim yazılır. Ölüm bizi izləyir, cəhənnəm arxamızcadır və bilmirik ki, bizimlə nə edəcəklər?”[4]

**-5-**

**عَوْنُكَ لِلضَّعِيفِ أَفْضَلُ مِنَ الصَّدَقَةِ**

“Çarəsizlərə yardım etmək, sədəqədən üstündür.”[5]

**-6-**

**مَن تَعَوَّذَ بِاللهِ مِنَ النَّارِ وَ لَمْ يَترُكْ شَهَوَاتِ الدُّنيَا فَقَدِ اسْتَهزَأَ بِنَفْسِهِ**

---

[1] “Vəsailüş-şiə”, c. 27, səh. 141.
[2] “Biharul-ənvar”, c. 2, səh. 31.
[3] “Vəsailüş-şiə”, c. 14, səh. 564.
[4] “Tuhəfül-üqul”, səh. 470.
[5] “Tuhəfül-üqul”, səh. 470.

“Cəhənnəm odundan Allaha pənah aparan, amma dünyanın şirinliklərini tərk etməyən şəxs özünü ələ salır.”[1]

**-7-**

**صِلْ رَحِمَكَ وَ لَوْ بِشَرْبَةٍ مِنْ مَاءٍ وَ أَفْضَلُ مَا تُوصَلُ بِهِ الرَّحِمُ كَفُّ الْأَذَىٰ عَنْهَا**

“Bir qurtum su ilə olsa da belə, sileyi-rəhm et. Ən yaxşı sileyi-rəhm qohumları incitməməkdir.”[2]

**-8-**

**صَدِيقُ كُلِّ امْرِءٍ عَقْلُهُ وَ عَدُوُّهُ جَهْلُهُ**

“Ağıl insanın dostu, nadanlıq isə onun düşmənidir.”[3]

**-9-**

**الْأَخُ الْأَكْبَرُ بِمَنْزِلَةِ الْأَبِ**

“Böyük qardaş (hörmət cəhətdən) ata kimidir.”[4]

**-10-**

**إِنَّ أَيَّامَ زَائِرِي الْحُسَيْنِ بْنِ عَلِيٍّ ع لَا تُعَدُّ مِنْ آجَالِهِمْ**

“İmam Hüseynin (ə) ziyarətinə sərf olunan günlər ömürdən sayılmır.”[5]

**-11-**

**مَنْ قَرَأَ قُلْ هُوَ اللَّهُ أَحَدٌ حِينَ يَخْرُجُ مِنْ مَنْزِلِهِ عَشْرَ مَرَّاتٍ لَمْ يَزَلْ فِي حِفْظِ اللَّهِ عَزَّ وَ جَلَّ وَ كَلَائِهِ حَتَّى يَرْجِعَ إِلَى مَنْزِلِهِ**

“Hər kəs evdən xaric olanda on dəfə “İxlas” surəsini (qül hüvallahu əhəd) oxusa, qayıdana qədər Allah və onun mələkləri həmin şəxsi pis hadisələrdən qoruyar.”[6]

**-12-**

**الْغَضَبُ مِفْتَاحُ كُلِّ شَرٍّ**

“Bütün pisliklərin açarı qəzəbdir.”[7]

---

[1] “Mizanul-hikmət”, c. 2, səh. 170.
[2] “Tuhəfül-üqul”, səh. 469.
[3] “Tuhəfül-üqul”, səh. 467.
[4] “Tuhəfül-üqul”, səh. 466.
[5] “Təhzib”, c. 6, səh. 43.
[6] “Üsuli-kafi”, c. 4, səh. 320.
[7] “Mişkatul-ənvar”, səh. 219.

-13-

طُوبَى لِمَنْ أَخْلَصَ لِلَّهِ الْعِبَادَةَ وَ الدُّعَاءَ وَ لَمْ يَشْغَلْ قَلْبَهُ بِمَا تَرَى عَيْنَاهُ وَ لَمْ يَنْسَ ذِكْرَ اللَّهِ بِمَا تَسْمَعُ أُذُنَاهُ وَ لَمْ يَحْزُنْ صَدْرَهُ بِمَا أُعْطِيَ غَيْرُهُ

“Xoş o şəxsin halına ki, ibadəti və duası (Allaha görə) ixlasla ola. Qəlbini gördüyü şeyə məşğul etməyə. Eşitdikləri onu Allahın zikrindən saxlamaya və bağışladığı şeyə görə qəmgin olmaya.”[1]

-14-

14أَحْسِنِ الظَّنَّ بِاللَّهِ فَإِنَّ اللَّهَ عَزَّ وَ جَلَّ يَقُولُ أَنَا عِنْدَ ظَنِّ عَبْدِيَ الْمُؤْمِنِ بِي إِنْ خَيْراً فَخَيْراً وَ إِنْ شَرّاً فَشَرّاً

“Allaha qarşı xoşgüman olun. Çünki Allah-təala buyurur: “Mən mömin bəndəmin gümanının yanındayam. Əgər o mənə xoşgüman olsa, mən də onunla yaxşı rəftar edəcəyəm. Əgər mənə bədgüman olsa, mən də onunla pis rəftar edəcəyəm.”[2]

-15-

اَلسَّخِيُّ يَأكُلُ مِنْ طَعَامِ النَّاسِ لِيَأكُلوا مِنْ طَعَامِهِ وَ الْبَخِيلُ لاَ يَأكُلُ مِنْ طَعَامِ النَّاسِ لِيَأكُلوا مِنْ طَعَامِهِ

“Səxavətli şəxs başqalarının çörəyindən yeyir ki, onlar da onun çörəyindən yesinlər, paxıl isə yemir ki, onlar da onun çörəyindən yeməsinlər.”

-16-

مَنْ فَرَّجَ عَنْ مُؤْمِنٍ فَرَّجَ اللَّهُ عَنْ قَلْبِهِ يَوْمَ الْقِيَامَةِ

“Hər kəs möminə kömək etsə və onun çətinliyini həll etsə, Allah qiyamətdə onun ürəyini genişləndirər.”[3]

-17-

كُلَّمَا أَحْدَثَ الْعِبَادُ مِنَ الذُّنُوبِ مَا لَمْ يَكُونُوا يَعْمَلُونَ أَحْدَثَ اللَّهُ لَهُمْ مِنَ الْبَلَاءِ مَا لَمْ يَكُونُوا يَعْرِفُونَ

“Nə zaman Allah bəndələri əvvəllər etmədikləri günahlara yol verirlərsə, Allah onlar üçün tanımadıqları bəlalar yaradır.”[4]

---

[1] “Üsuli-kafi”, c. 3, səh. 26.
[2] “Üsuli-kafi”, c. 3, səh. 116.
[3] “Üsuli-kafi”, c. 3, səh. 286.
[4] “Vəsailüş-şiə”, c. 11, səh. 240.

**-18-**

**إِذَا أُطِعْتُ رَضِيتُ وَ إِذَا رَضِيتُ بَارَكْتُ وَ لَيْسَ لِبَرَكَتِي نِهَايَةٌ**

"Allah-təala buyurur: "Bəndələrim mənə itaət edəndə razı oluram və razı olduğum zaman bərəkət verirəm ki, mənim bərəkətim sonsuzdur."[1]

**-19-**

**عَلَيْكُمْ بِسِلَاحِ الْأَنْبِيَاءِ فَقِيلَ وَ مَا سِلَاحُ الْأَنْبِيَاءِ قَالَ الدُّعَاءُ**

"Sizə peyğəmbərlərin silahını tövsiyə edirəm."

Soruşdular: "Peyğəmbərlərin silahı nədir?" Buyurdu: "Dua."[2]

**-20-**

**لَيْسَ مِنّا مَنْ لَمْ يَأْمَن جارُهُ بَوائِقَهُ**

"Qonşusu onun şərindən amanda olmayan şəxs bizdən deyil."[3]

**-21-**

**اَلْمُسْتَتِرُ بِالْحَسَنَةِ يَعْدِلُ سَبْعِينَ حَسَنَةً وَ الْمُذيعُ بِالسَّيِّئَةِ مَخْذُولٌ وَ الْمُسْتَتِرُ مَغْفُورٌ لَهُ**

"Yaxşı işi gizlətməyin yetmiş savabı vardır. Hər kim pis işi faş etsə, xar olar. Hər kim onu gizlətsə, bağışlanar."[4]

**-22-**

**التَّوَاضُعُ أَنْ تُعْطِيَ النّاسَ مَا تُحِبُّ أَنْ تُعْطاهُ**

"Təvazökarlıq odur ki, camaatla rəftarında onların da səninlə o cür rəftarını istəyəsən."

**-23-**

**اِنَّ الْعابِدَ مِنْ بَنِي اِسْرائيلَ لَمْ يَكُنْ عابِداً حَتّيٰ يَصْمِتَ عَشْرَ سِنينَ فَإذا صَمَتَ عَشْرَ سِنينَ كانَ عَابِداً**

"Bəni-İsraildə 10 il sükut etməyəni abid saymırdılar."[5]

**-24-**

**مَنْ حاسَبَ نَفْسَهُ رَبِحَ وَ مَنْ غَفَلَ عَنْها خَسِرَ وَ مَنْ خافَ أمِنَ وَ مَنِ اعْتَبَرَ أَبْصَرَ وَ مَنْ أبْصَرَ فَهِمَ وَ مَنْ فَهِمَ عَلِمَ**

---

[1] "Üsuli-kafi", c. 2, səh. 75.
[2] "Üsuli-kafi", c. 2, səh. 468.
[3] "Üyunu-əxbarir-Rza", c. 2, səh. 677.
[4] "Üsuli-kafi", c. 2, səh. 428.
[5] "Üsuli-kafi", c. 2, səh. 503.

“Hər kəs nəfsini cilovlasa, mənfəət əldə edər. Hər kim bu işdən qafil olsa, zərər görər. Hər kim amanda olacağından qorxsa və ibrət götürsə, bəsirət tapar. Hər kəs dərk etsə, alim olar.”[1]

**-25-**

**اَفْضَلُ الْمالِ مَا وُقِيَ بِهِ الْعِرْضُ وَ اَفْضَلُ الْعَقْلِ مَعْرِفَةُ الاِنْسانِ نَفْسَهُ**

“Ən yaxşı mal o maldır ki, insanın abırı onunla hifz olar. Ən üstün ağıl özünü tanımaqdır.”[2]

**-26-**

**مَنْ رَضِيَ بِالْقَليلِ مِنَ الرِّزْقِ قَبِلَ مِنْهُ الْيَسيرُ مِنَ العَمَلِ**

“Hər kim az ruziyə razı olsa, Allah da onun az saleh əməlinə razı olar.”[3]

**-27-**

**يَنْبَغِي لِلرَّجُلِ اِذا أصْبَحَ أنْ يَقْرَأَ بَعْدَ التَّعْقيبِ خَمْسينَ آيَةً**

“Yaxşıdır ki, hər kəs sübh namazının təqibatından (namazdan sonra oxunan dualar) sonra Qurani-kərimdən əlli ayə oxusun.”[4]

**-28-**

**مَا زَارَنِي أحَدٌ مِنْ اَوْلِيَائي عارِفاً بِحَقّي اِلّا شَفَّعْتُ فيهِ يَوْمَ الْقِيامَةِ**

“Məni sevənlərdən hər kim haqqımı bilərək məni ziyarət etsə, qiyamət günü ona şəfaət edəcəyəm.”[5]

**-29-**

**مَنْ لَقِيَ مُسْلِماً فَسَلَّمَ عَلَيْهِ خِلافَ سَلامِهِ عَلَي الْأَغْنِيَاءِ لَقِيَ اللهَ عَزَّوَجَلَّ يَوْمَ الْقِيامَةِ وَ هُوَ عَلَيْهِ غَضْبانٌ**

“Hər kəs bir müsəlmanla görüşərkən salamı varlılara verdiyi salamından fərqli olarsa, qiyamətdə Allah-təalanın qəzəbi ilə üzləşər.”[6]

**-30-**

**تَقْليمُ الْأظْفارِ يَجْلِبُ الرِّزْقَ**

---

[1] “Mizanul-hikmət”, c. 10, səh. 576.
[2] “Mizanul-hikmət”, c. 10, səh. 577.
[3] “Mizanul-hikmət”, c. 10, səh. 577.
[4] “Vəsailüş-şiə”, c. 65, səh. 229.
[5] “Təhzib”, c. 2, səh. 33.
[6] “Üyunu-əxbarir-Rza”, c. 2, səh. 52.

“Dırnağı qısaltmaq ruzini artıran amillərdən biridir.”

**-31-**

**مَنْ لَمْ يَشْكُرِ الْمُنْعِمَ مِنَ الْمَخْلوقينَ لَمْ يَشْكُرِ اللهَ عَزَّوَجَلَّ**

“Yaxşılıq edənə təşəkkür etməyən kəs Allaha da şükür etməmişdir.”[1]

**-32-**

**مَنْ غَشَّ الْمُسْلِمينَ فِي مَشْوِرَةٍ فَقَدْ بَرِئْتُ مِنْهُ**

“Hər kim müsəlmanlarla məşvərətdə xəyanət etsə, mən onunla əlaqəmi kəsərəm.”[2]

**-33-**

**مَنِ اسْتَغْفَرَ بِلِسانِهِ وَ لَمْ يَنْدَمْ بِقَلْبِهِ فَقَدِ اسْتَهْزَءَ بِنَفْسِهِ**

“Hər kim dildə tövbə etsə, amma daxilən peşman olmasa, belə bir şəxs özünü masqara etmişdir.”[3]

**-34-**

**مِنْ عَلاماتِ الْفَقيهِ:اَلْحِلْمُ وَ الْعِلْمُ وَالصَّمْتُ**

“Səbir, elm və sükut fəqihin nişanələrindəndir.”[4]

**-35-**

**اِنَّ الصَّمْتَ بابٌ مِنْ أبْوابِ الْحِكْمَةِ، اِنَّ الصمْتَ يكْسِبُ الْمَحَبَّةَ أَنَّهُ دَليلٌ عَليٰ كُلِّ خَيْرٍ**

“Sükut hikmət qapılarından biridir. Sükut məhəbbəti cəlb edər və hər bir xeyirə səbəbdir.”[5]

**-36-**

**اِنَّ خَيْرَ الْعِبادِ مَنْ يَجْتَمِعُ فيه خَمْسُ خِصالٍ: اِذا أحْسَنَ اِسْتَبْشَرَ وَ اِذا أساءَ إسْتَغْفَرَ وَ اِذا أُعْطِيَ شَكَرَ وَ اِذا ابْتُلِيَ صَبَرَ وَ اِذا ظُلِمَ غَفَرَ**

“Allah bəndələrinin ən üstünü bu beş sifətə malik olanlardır: 1. Yaxşı iş görəndə sevinərlər; 2. Pis iş görəndə də tövbə edərlər; 3. Nemətə sahib olanda şükür edərlər; 4. Müsibət üz verəndə səbir edərlər; 5. Ona zülm olunanda bağışlayarlar.”[6]

---

[1] “Mizanul-hikmət”, c. 5, səh. 153.
[2] “Müstədrəkül-vəsail”, c. 1, səh. 414.
[3] “Biharul-ənvar”, c. 78, səh. 356.
[4] “Mizanul-hikmət”, c. 7, səh. 534.
[5] “Mizanul-hikmət”, c. 7, səh. 435.
[6] “Mizanul-hikmət”, c. 7, səh. 435.

-37-

اِنَّ اَجْرَ الْقَرْضِ ثَمانِيَةُ عَشَرَ ضِعْفاً مِنْ أجْرِ الصَّدَقَةِ لِأَنَّ الْقَرْضَ يَصِلُ اِلي مَنْ لا يَضَعُ نَفْسَهُ لِلصَّدَقَةِ لِأَخْذِ الصَّدَقَةِ

"Borc verməyin savabı sədəqədən on yeddi dəfə çoxdur. Çünki borc vermək möhtac olanın ehtiyacının qarşısını alır."[1]

-38-

مَنِ اتَّخَذَ خاتَماً فُصُّهُ عَقيقٌ لَمْ يَفْتَقِرْ وَ لَمْ يُقْضَ لَهُ اِلّا بِالَّتي هِيَ أحْسَنُ

"Əqiq qaşlı üzük taxan kasıb olmaz və onun əvəzi də (qiyamətdə) çox gözəl olar."[2]

-39-

الصَّغائِرُ مِنَ الذُّنُوبِ طُرُقٌ اِلَي الْكَبائِرِ وَ مَنْ لَمْ يَخَفِ اللهَ فِي الْقَليلِ لَمْ يَخَفْهُ فِي الْكَبيرِ

"Kiçik günahlar insanı böyük günahlara sövq edir. Hər kəs kiçik günaha görə Allahdan qorxmasa, böyük günaha görə də qorxmaz."[3]

-40-

صِلَةُ الاَرْحامِ وَ حُسْنُ الْخُلْقِ زِيادَةٌ فِي الاَعْمارِ

"Sileyi-rəhm və gözəl əxlaq ömürü uzadır."[4]

---

1 "Biharul-ənvar", c. 103, səh. 140.
2 "Üsuli-kafi", c. 2, səh. 11.
3 "Biharul-ənvar", c. 73, səh. 353.
4 "Biharul-ənvar", c. 71, səh. 97.

# İmam Cavaddan (ə) qırx hədis

**-1-**

**تَوَسَّدِ الصَّبْرَ وَ اَعْتَنِقِ الْفَقْرَ وَ ارْفَضِ الشَّهَواتِ وَ خالِفِ الْهَويٰ وَ اعْلَمْ أنَّكَ لَنْ تَخْلُوَ مِنْ عَيْنِ اللهِ فَانْظُرْ كَيْفَ تَكُونُ**

Bir kişi İmama (ə) dedi: Mənə nəsihət et. Həzrət buyurdu: Ona əməl edəcəksənmi? Dedi: Bəli. Buyurdu: "Səbiri özünə balış bil, kasıblığı ağuşuna al, şəhvətləri boşla və nəfslə müxalif ol. Bil ki, sən Allahın hüzurundasan. Ona görə də əməllərinə nəzər yetir ki, nə iş gördüyünü biləsən."[1]

**-2-**

**ثَلاثٌ مِنْ عَمَلِ الاَبْرارِ: اِقامَةُ الْفَرائِضِ وَ اجْتِنابُ الْمَحارِمِ وَ احْتِراسٌ مِنَ الْغَفْلَةِ فِي الدّينِ**

"Üç şey saleh insanların əməllərindəndir: Vacibləri yerinə yetirmək, haramları tərk etmək və dində qafil olmamaq."[2]

**-3-**

**مَنْ اَصْغيٰ اِليٰ ناطِقٍ فَقَدْ عَبَدَهُ فَاِنْ كانَ النّاطِقُ عَنِ اللهِ فَقَدْ عَبَدَ اللهَ وَ اِنْ كانَ النّاطِقُ يَنْطِقُ عَنْ لِسانِ اِبْليسَ فَقَدْ عَبَدَ اِبْليسَ**

"Danışana ürəkdən qulaq asan ona ibadət edir. Əgər o, Allahdan danışırsa, Allaha və əgər şeytanın dilindən danışarsa, şeytana ibadət edər."[3]

**-4-**

**مَا أنْعَمَ اللهُ عَزَّوَجَلَّ عَليٰ عَبْدِهِ نِعْمَةً فَعَلِمَ أنَّها مِنَ اللهِ اِلّا كَتَبَ اللهُ جَلَّ اسْمُهُ لَهُ شُكْرَها قَبْلَ أنْ يَحْمِدَ عَلَيْها**

"Əgər bəndə ona verilən nemətin Allah tərəfindən olduğunu bilsə, Allah o nemətə şükür etməzdən qabaq onun şükürünün savabını yazar."[4]

---

[1] "Tuhəfül-üqul", səh. 478.
[2] "Biharul-ənvar", c. 75, səh. 81.
[3] "Tuhəfül-üqul", səh. 479.
[4] "Kəşful-ğummə", c. 2, səh. 349.

**-5-**

**نِعْمَةٌ لاَ تُشْكَرُ كَسَيِّئَةٍ لاَ تُغْفَرُ**

"Şükür olunmayan nemət bağışlanmayan günah kimidir."

**-6-**

**الْمُؤْمِنُ يَحْتاجُ اِلِيٰ تَوْفيقٍ مِنَ اللهِ وَ واعِظٍ مِنْ نَفْسِهِ وَ قَبُولٍ مِمَّنْ يَنْصَحُهُ**

"Mömin Allah tərəfindən olan tofiqə, daxili nəsihətçiyə və nəsihət edənin sözünü qəbul etməyə möhtacdır."[1]

**-7-**

**اَرْبَعُ خِصالٍ تُعينُ الْمَرْءَ عَلَي الْعَمَلِ: الصِّحَّةُ وَالْغِنيٰ وَالْعِلْمُ وَالتَّوفيقُ**

"Dörd şey insanı işə cəlb edər: Sağlam bədən, sərvət, elm və ilahi tofiq."[2]

**-8-**

**اَفْضَلُ الْعِبادَةِ الْأَخْلاصُ**

"Ən üstün ibadət ixlasdır."[3]

**-9-**

**مَنِ انْقَطَعَ اِلِيٰ غَيْرِ اللهِ وَكَلَهُ اللهُ اِلَيْهِ وَ مَنْ عَمِلَ عَليٰ غَيْرِ عِلْمٍ ما يُفْسِدُ اَكْثَرُ مِمّا يُصْلِحُ**

"Hər kəs Allahdan qeyrisinə bel bağlasa, Allah onu həmin şeyə tapşırar. Hər kəs elmsiz bir iş görsə, onun fəsadı islahından çox olar."[4]

**-10-**

**الْقَصْدُ اِلَي اللهِ تَعالي بِالْقُلُوبِ أَبْلَغُ مِنْ اِتْعابِ الْجَوارِحِ بِالْأَعْمالِ**

"Allaha doğru qəlblə səmimi meyl bəndəni zəhmətə samaqdan üstündür."[5]

**-11-**

**مَنْ هَجَرَ الْمُداراةَ قارَبَهُ الْمَكْرُوهُ**

"Hər kim camaatla mehriban davranmaqdan uzaqlaşsa, xoşagəlməz hadisələrlə üzləşər."[6]

---

[1] "Biharul-ənvar", c. 72, səh. 71.
[2] "Biharul-ənvar", c. 75, səh. 79.
[3] "Biharul-ənvar", c. 67, səh. 245.
[4] "Mizanul-hikmət", c. 10, səh. 578.
[5] "Mizanul-hikmət", c. 10, səh. 578.
[6] "Mizanul-hikmət", c. 10, səh. 578.

-12-

عِنْوانُ صَحيفَةِ الْمُؤْمِنِ حُسْنُ خُلْقِهِ

"Mömünin sərlövhəsinin adı xoş əxlaqdır."[1]

-13-

اَكْبَرُ الْعيبِ اَنْ تُصيبَ ما فيكَ مِثْلُهُ

"Ən böyük eyib özündə olan eybi başqalarında axtarmaqdır."[2]

-14-

الثِّقَةُ (بِاللهِ) ثَمَنٌ لِكُلِّ غالٍ وَ سُلَّمٌ اِلى كُلِّ عالٍ

"Allaha təvəkkül etmək hər bir qiymətli şeyin sərmayəsi və uca məqamlara yetişmək vasitəsidir."[3]

-15-

اِيّاكَ وَ مُصاحَبَةَ الشَّريرِ فَاِنَّهُ كَالسَّيْفِ الْمَسْلُولِ يَحْسُنُ مَنْظَرُهُ وَ يَقْبُحُ أثَرُهُ

"Şər insanla dostluqdan çəkin ki, o qınsız qılınc kimidir, zahiri yaxşı olsa da, pis təsiri və əsəri vardır."[4]

-16-

ثَلاثٌ خِصالٍ تَجْتَلِبُ بِهِنَّ الْمَحَبَّةُ: ألاِنْصافُ فِي الْمُعاشَرَةِ وَ الْمُواسَاةُ فِي الشِّدَّةِ وَ الاِنْطِواعُ وَ الرُّجُوعُ عَلَيٰ قَلْبٍ سَليمٍ

"Üç xislət məhəbbəti artırar: 1. Fərdi və ictimai həyatda insaflı olmaq; 2. Çətinliklərdə başqalarına kömək etmək; 3. Sağlam qəlbə[5] malik olmaq."[6]

-17-

نِعْمَةٌ لا تُشْكَرُ كَسَيِّئَةٍ لا تُغْفَرُ

"Şükrü edilməyən nemət bağışlanmayan günah kimidir."[7]

-18-

راكِبُ الشَّهَواتِ لا تُسْتَقالُ لَهُ عَثْرَةٌ

"Hər kəs şəhvət miniyinə minsə (onu ağlı yox, şəhvəti idarə etsə), heç vaxt xətalardan amanda qalmaz."[1]

---

[1] "Biharul-ənvar", c. 75, səh. 78.
[2] Ən yaxşılar və ən Pislər, səh. 74.
[3] "Biharul-ənvar", c. 78, səh. 364.
[4] "Müstədrəkül-vəsail", c. 2, səh. 67.
[5] Burada imanlı qəlb nəzərdə tutulur.
[6] "Biharul-ənvar", c. 75, səh. 82.
[7] "Biharul-ənvar", c. 75, səh. 82.

**-19-**

**مَنْ اَطاعَ هَواهُ أعْطيٰ عَدُوَّهُ مُناهُ**

"Nəfsinə tabe olan şəxs düşmənin arzularını yerinə yetirmişdir."[2]

**-20-**

**ثَلاثٌ مَنْ كُنَّ فيهِ لَمْ يَنْدَمْ: تَرْكُ الْعَجَلَةِ وَ الْمَشْوَرَةُ وَ التَّوَكُّلُ عَلَي اللهِ عِنْدَ الْعَزْمِ**

"Hər kimdə üç şey olsa, peşiman olmaz: Tələsməmək, işlərində başqaları ilə məsləhətləşmək, işlərində Allaha təvəkkül etmək."[3]

**-21-**

**مَنِ اسْتَفادَ أَخاً فِي اللهِ فَقَدِ اسْتَفادَ بَيْتاً فِي الْجَنَّةِ**

"Hər kəs Allahın razılığına xatir bir şəxsi özünə din qardaşı seçsə, cənnətdə ona bir ev nəsib olar."[4]

**-22-**

**اَلْعِفافُ زينَةُ الْفَقْرِ وَ الشُّكْرُ زينَةُ الغِنيٰ وَ الصَّبْرُ زينَةُ البَلاءِ وَ التَّواضُعُ زينَةُ الْحَسَبِ وَ الْفَصاحَةُ زينَةُ الْكَلامِ وَ الْعَدْلُ زينَةُ الايمانِ**

"Iffət kasıblığın, şükür sərvətin, səbir bəlanın, təvazökarlıq məqamın, fəsahət sözün, ədalət isə imanın zinətidir."[5]

**-23-**

**عَلَّمَ رَسُولُ اللهِ عَلِيّاً أَلْفَ كَلِمَةٍ، كُلُّ كَلِمَةٍ يَفْتَحُ أَلْفَ كَلِمَةِ**

"Peyğəmbər (s), Əli (ə)-a min söz (yəni elm) öyrətdi və hər bir söz də min sözü əhatə edirdi."[6]

**-24-**

**مَنْ أحْيا لَيْلَةَ الْقَدْرِ غُفِرَتْ لَهُ ذُنُوبُهُ وَ لَوْ كانَتْ عَدَدَ نُجُومِ السَّماءِ وَ مَثاقيلَ الْجِبالِ وَ مَكاييلَ الْبِحارِ**

"Hər kəs Qədr gecəsi ibadət edərək oyaq qalsa, günahları bağışlanar, günahları ulduzlar, dağlar və dənizlər ağırlığında olsa da."[1]

---

[1] "Biharul-ənvar", c. 18, səh. 214.
[2] "Səfinətül-bihar", c. 2, səh. 728.
[3] "Biharul-ənvar", c. 75, səh. 82.
[4] "Biharul-ənvar", c. 75, səh. 79.
[5] "Biharul-ənvar", c. 75, səh. 80.
[6] "Xisal", c. 2, səh. 65, hədis: 46.

**-25-**

**اَرْبَعٌ مَنْ كُنَّ فيهِ اسْتَكْمَلَ الايمانُ: مَنْ أعْطيٰ لِلّهِ وَ مَنَعَ فِي اللهِ وَ أَحَبَّ لِلّهِ وَ أبْغَضَ فيهِ**

"Hər kəsdə dörd keyfiyyət olsa, imanı kamildir. Allaha görə ehsan etsə, Allaha görə bir şeydən çəkinsə, Allaha görə sevsə və Allah yolunda qəzəblənsə."[2]

**-26-**

**كَمْ مِمَّنْ كَثُرَ ضِحْكُهُ لاغِياً يَكْثُرُ يَوْمَ الْقِيامَهِ بُكاؤُهُ وَ كَمْ مِمَّنْ كَثُرَ بُكاؤُهُ عَليٰ ذَنْبِهِ خائِفاً يَكْثُرُ يَوْمَ الْقِيامَةِ فِي الْجَنَّةِ ضِحْكُهُ**

"Nə çox olacaq ki, dünyada bihudə gülənlər axirətdə ağlayacaq və nə çox olacaq ki, günahlarına görə dünyada ağlayanlar axirətdə şadlanıb-güləcəklər."[3]

**-27-**

**مَنْ أَتَمَّ رُكُوعَهُ لَمْ يَدْخُلْهُ وَحْشَةٌ فِي الْقَبْرِ**

"Hər kəs namazın rükusunu kamil yerinə yetirsə, qəbir qorxusu ona yetməz."[4]

**-28-**

**مَنْ زارَ أَبي بِطُوسٍ غَفَرَ اللهُ لَهُ ما تَقَدَّمَ مِنْ ذَنْبِهِ وَ ما تَأَخَّرَ**

"Hər kəs Tusda (Məşhəd) atamı ziyarət etsə, keçmiş və gələcək günahları bağışlanar."[5]

**-29-**

**مَنِ اسْتَحْسَنَ قَبيحاً كانَ شَريكاً فيهِ**

"Hər kim başqalarının pis işini tərifləsə, həmin pis işdə onunla şərik olar."[6]

**-30-**

**اِنَّ اللهَ تَبارَكَ وَ تَعالي لَيَصْلَحُ لَهُ (لِلْمَهدي عليه السلام) أَمْرَهُ في لَيْلَةٍ كَما أَصْلَحَ أَمْرَ كَليمِهِ مُوسيٰ عليه السلام اِذْ ذَهَبَ لِيَقْتَبِسَ لِأَهْلِهِ ناراً فَرَجَعَ وَ هُوَ نَبِيٌّ مُرْسَلٌ**

"Allah-təala həzrət Məhdinin (əc.) hakimiyyətinə hazırlıq və zühuru bir gecədə bərpa edəcək. Necə ki, həzrət Musa ailəsi

---

1 "Vəsailüş-şiə", c. 8, səh. 21.

2 "Biharul-ənvar", c. 75, səh. 81.

3 "Vəsailüş-şiə", c. 12, səh. 115.

4 "Üsuli-kafi", c. 3, səh. 321. hədis: 7.

5 "Üyunu-əxbarir-Rza", c. 2, səh. 259 hədis: 19.

6 "Biharul-ənvar", c. 75, səh. 81.

üçün (qızınmaq üçün) od gətirməyə getdi və ailəsinin yanına peyğəmbər kimi qayıtdı."[1]

**-31-**

**أَفْضَلُ أَعْمالِ شيعَتِنا اِنْتِظارُ الْفَرَجِ**

"Şiələrimizin ən üstün əməli İmam Zamanın (ə) zühurunu gözləməkdir."[2]

**-32-**

**التَّوَكُّلُ عَلَي اللهِ نَجاةٌ مِنَ كُلِّ سُوءٍ وَ حَرْزٌ مِنْ كُلِّ عَدُوٍّ**

"Allaha təvəkkül hər bir pislikdən nicat və düşməndən qorunmaq vasitəsidir."[3]

**-33-**

**ثَلاثٌ يَبْلُغَنَّ بِالْعَبْدِ رِضْوانَ اللهِ تَعاليٰ: كَثْرَةُ الِاسْتِغْفارِ وَ خَفْضُ الْجانِبِ وَ كَثْرَهُ الصَّدَقَةِ**

"Üç şey Allahın razılığına səbəb olar: 1. Çox tövbə etmək; 2. Təvazökarlıq; 3. Çox sədəqə vermək."[4]

**-34-**

**مَنْ زارَ عَمَّتي بِقُمْ فَلَهُ الْجَّنَةُ**

"Hər kəs bibim (Həzrət Məsuməni Qum şəhərində) ziyarət etsə, cənnət əhli olacaq."[5]

**-35-**

**مَا زَارَ أَبي أَحَدٌ فَاَصَابَهُ أَذيً مِنْ مَطَرٍ اَوْ بَرْدٍ اَوْ حَرٍّ اِلاّ حَرَّمَ اللهُ جَسَدَهُ عَلَي النّارِ**

"Hər kim atamı (İmam Rza) ziyarət etmək üçün çətinliyə (yağış, soyuq və isti) düşsə, bədəni cəhənnəm odunda yanmaz."[6]

**-36-**

**لَوْ سَكَتَ الْجاهِلُ مَا اخْتَلَفَ النّاسُ**

"Əgər nadanlar sakit olsaydılar, camaat ixtilaflara və düşmənçiliklərə düçar olmazdı."[1]

---

[1] "İkmalud-din", c. 2, səh. 378. hədis: 3.
[2] "Kifayətul-əsər", səh. 276.
[3] "Biharul-ənvar", c. 75, səh. 79.
[4] "Biharul-ənvar", c. 75, səh. 81.
[5] "Biharul-ənvar", c. 102, səh. 265.
[6] "Vəsailüş-şiə", c. 14, səh. 560.

**-37-**

**التَّوْبَةُ عَليٰ أَرْبَعَةِ دَعائِمَ نَدَمٌ بِالْقَلْبِ وَ اسْتِغْفارٌ بِاللِّسانِ وَ عَمَلٌ بِالْجَوارِحِ وَ عَزْمٌ أَنْ لا يَعُودَ**

"Tövbənin dörd rüknü var: Daxili peşmançılıq, dildə tövbə etmək, ibadətləri yerinə yetirmək, bir daha günah etməmək qərarı."[2]

**-38-**

**الْعامِلُ بِالظُّلْمِ وَ الْمُعينُ لَهُ وَ الرّاضي بِهِ، شُرَكاءُ**

"Zülm edən, zülmə kömək edən və ona razı olan onda şərikdirlər."[3]

**-39-**

**لا تَكُنْ وَلِيّاً لِلّهِ فِي الْعَلانِيَةِ عَدُوّاً لَهُ فِي السِّرِّ**

"Zahirdə Allahın dostu, batində onun düşməni olma!"[4]

**-40-**

**كُلُّ مَنْ يَشْرَبُ الْمُسْكِرَ فَهُوَ سَفيهٌ**

"Kim şərab içirsə, səfehdir."[5]

---

[1] "Biharul-ənvar", c. 75, səh. 78.
[2] "Biharul-ənvar", c. 75, səh. 81.
[3] "Biharul-ənvar", c. 75, səh. 81.
[4] "Biharul-ənvar", c. 75, səh. 365.
[5] "Təfsiri-Əyyaşi", c. 1, səh. 23. hədis: 22.

# İmam Hadidən (ə) qırx hədis

**-1-**

**اِذَا كَانَ زَمانُ الْعَدْلِ فيهِ أَغْلَبَ مِنَ الْجَوْرِ فَحَرامٌ أَنْ يَظُنَّ بِاَحَدٍ سُوءً حَتّيٰ يَعْلَمَ ذالِكَ مِنْهُ وَ اِذَا كَانَ زَمانُ الْجَوْرِ أَغْلَبَ فيهِ مِنَ الْعَدْلِ فَلَيْسَ لِأَحَدٍ أَنْ يَظُنَّ بِاَحَدٍ خَيْراً ما لَمْ يَعْلَمْ ذالِكَ مِنْهُ**

"Cəmiyyətdə ədalət zülmdən çox olduğu zaman əmin olmayana qədər bir kəsə bədgüman olmaq haram və amma cəmiyyətdə zülm çoxaldığı zaman məlum olmayana qədər hər kəsə etibar etmək düzgün deyildir."[1]

**-2-**

**أَلدُّنْيا سُوقٌ رَبِحَ فيها قَوْمٌ وَ خَسِرَ آخَرُونَ**

"Dünya bir bazardır ki, bəziləri xeyir qazanar, bəziləri isə zərər görərlər."[2]

**-3-**

**السَّهَرُ أَلَذُّ لِلْمَنامِ وَ الْجُوعُ يَزِيدُ في طيبِ الطَّعامِ يُريدُ بِهِ الْحِنْثَ عَليٰ قِيامِ اللَّيْلِ وَ صِيامِ النَّهارِ**

"Oyaq qalmaq yuxunun ləzzətini duymaq üçün, ac qalmaq isə yeməyin ləzzətini duymaq üçündür və həm də bu iş insanı gecə oyaq qalmağa (ibadət edərək) və gündüzləri oruc tutmağa sövq edər."[3]

**-4-**

**اِنَّ اللهَ جَعَلَ الدُّنْيا دارَ بَلْوىٰ وَالْآخِرَةَ دارَ عُقْبيٰ وَ جَعَلَ بَلْوَي الدُّنْيا لِثَوابِ الْآخِرَةِ سَبَباً وَ ثَوابَ الْآخِرَةِ مِنْ بَلْوَي الدُّنْيا عِوَضاً**

"Həqiqətən, Allah dünyanı bəlalar evi, axirəti isə əbədiyyət mənzili qərar vermişdir. Beləliklə, insan dünyadakı bəlalarla axirətin savabını qazanır və axirət savabı da bəlalarsız verilmir."[4]

---

[1] "Müstədrəkül-vəsail", c. 9, səh. 146.
[2] "Müstədrəkül-vəsail", c. 9, səh. 146.
[3] "Elamud-din", səh. 211.
[4] "Elamud-din", səh. 512.

-5-

لا تَطْلُبِ الصَّفاءَ مِمَّنْ كَدَرْتَ عَلَيْهِ وَ لا الْوَفاءَ لِمَنْ غَدَرْتَ بِهِ وَ لاَ النُّصْحَ مِمَّنْ صَرَفْتَ سُوءَ ظَنِّكَ اِلَيْهِ فَاِنَّما قَلْبُ غَيْرِكَ كَقَلْبِكَ لَهُ

"Əgər bir şəxslə yaxşı rəftar etməsən, səmimiyyət, xəyanət etsən, vəfa, bədbin olsan, ondan yaxşılıq gözləmə. Çünki başqalarının ürəyi sənə qarşı sənin ürəyinin onlara qarşı olduğu kimidir."[1]

-6-

الْعُقُوقُ يُعَقِّبُ الْقِلَّةَ وَ يُؤَدِّي اِلَي الذِّلَّةِ

"Ata-ananı incitmək ruzini azaldır və insanı xar edir."[2]

-7-

مَنْ كانَتْ لَهُ اِلَي اللهِ حاجَةٌ فَلْيَزُرْ قَبْرَ جَدِّيَ الرِّضا عليه السلام بِطُوسٍ وَ هُوَ عَلَيٰ غُسْلٍ وَ لْيُصَلِّ عِنْدَ رَأْسِهِ رَكْعَتَيْنِ وَ لْيَسْئَلِ اللهَ حاجَتَهُ فِي قُنُوتِهِ فَاِنَّهُ يَسْتَجِيبُ لَهُ ما لَمْ يَسْئَلْ مَأْثَماً اَوْ قَطيعَةَ رَحِمٍ

"Allahdan hacət istəyən şəxs Tusda babam həzrət Rzanın (ə) qəbrini ziyarət etsin. Belə ki, əvvəl qüsl edərək qəbirin baş tərəfində iki rəkət namaz qılsın və namazın qunutunda hacətini istəsin. Bu zaman günah və sileyi-rəhmi kəsmək istəyindən başqa hər hacəti qəbul olar."[3]

-8-

اَلْحَسَدُ ماحِقُ الْحَسَناتِ وَ الزَّهْوُ جالِبُ الْمَقْتِ

"Həsəd, yaxşı işləri məhv edir və yalan isə düşmənçilik gətirir."[4]

-9-

النّاسُ فِي الدُّنْيا بِالْأَمْوالِ وَ فِي الْآخِرَةِ بِالْأَعْمالِ

"İnsanlar dünyada malları ilə, axirətdə isə əməlləri ilə birgə tanınacaqlar."[5]

-10-

اُذْكُرْ حَسَراتِ التَّفْرِيطِ بِأَخْذِ تَقْدِيمِ الْحَزْمِ

---

[1] "Elamud-din", səh. 312.
[2] "Biharul-ənvar", c. 74, səh. 84.
[3] "Vəsailüş-şiə", c. 14, səh. 569.
[4] "Biharul-ənvar", c. 69, səh. 200.
[5] "Biharul-ənvar", c. 78, səh. 368.

“Keçmiş müvəffəqiyyətə görə həsrət çəkmək əvəzinə, güclü iradə ilə çalış.”[1]

**-11-**

**مَنْ هانَتْ عَلَيْهِ نَفْسُهُ فَلا تَأْمَنْ شَرَّهُ**

“Özünün qədir-qiymətini bilməyənin şərindən amanda olduğunu güman etmə.”[2]

**-12-**

**الْهَزْلُ فُكاهَةُ السُّفَهاءِ وَ صَناعَةُ الْجُهّالِ**

“Ələ salmaq səfehlərin əyləncəsi və cahillərin işidir.”[3]

**-13-**

**مَنْ تَواضَعَ فِي الدُّنْيا لاِخْوانِهِ فَهُوَ عِنْدَ اللهِ مِنَ الصِّدّيقينَ وَ مِنْ شيعَةِ عَلِيِّ بْنِ أَبِي طالِبٍ<sup>ع</sup> حَقّاً**

“Din qardaşları ilə təvazökarlıqla rəftar edən şəxs Allah yanında siddiqlərdən və Əli ibn Əbu Talibin (ə) şiələrindən olacaq.”[4]

**-14-**

**الْبُخْلُ أَذَمُّ الْأَخْلاقِ وَ الطَّمَعُ سَجِيَّةٌ سَيِّئَةٌ**

“Paxıllıq və tamah ən pis xislətlərdir.”[5]

**-15-**

**مَنْ تَرَكَ اللَّحْمَ أَرْبَعينَ صَباحاً ساءَ خُلْقُهُ وَ مَنْ أكَلَ اللَّحْمَ أرْبَعينَ صَباحاً ساءَ خُلْقُهُ**

“Qırx gün ət yeməyənin səhhəti və qırx gün ardıcıl ət yeyənin isə əxlaqı pisləşər.”

**-16-**

**لَوْ سَلَكَ النّاسُ وادِياً شُعْباً لَسَلَكْتُ وادِيَ رَجُلٍ عَبَدَ اللهَ وَحْدَهُ خالِصاً**

“Əgər bütün insanlar ayrı-ayrı yollara bölünsələr belə mən yalnız Allaha xalis ibadət edən şəxsin yolu ilə hərəkət edəcəyəm.”[6]

---

1 “Mizanul-hikmət”, c. 7, səh. 454.
2 “Mizanul-hikmət”, c. 3, səh. 441.
3 “Biharul-ənvar”, c. 75, səh. 369.
4 “İhticac”, c. 1, səh. 460.
5 “Biharul-ənvar”, c. 69, səh. 200.
6 “Mizanul-hikmət”, c. 3, səh. 60.

-17-

الْعُجْبُ صارِفٌ عَنْ طَلَبِ الْعِلْمِ داعٍ اِلَي الْغَمْطِ وَ الْجَهْلِ

“Özünü bəyənmək elm öyrənməyin qarşısını alır və insanı cəhalətə və zillətə çəkir.”[1]

-18-

مَنْ رَضِيَ عَنْ نَفْسِهِ كَثُرَ السّاخِطُونَ عَلَيْهِ

“İnsanlar özündən razı olan şəxsə bədbin və qəzəbli olarlar.”[2]

-19-

الْحِكْمَةُ لا تَنْجَعُ فِي الطِّباعِ الْفاسِدَةِ

“Hikmət fasid qəlblərə təsir etməz.”[3]

-20-

أَقْبِلْ عَليٰ شَأْنِكَ فَاِنَّ كَثْرَةَ الْمُلْقِ يَهْجِمُ عَلَي الظَّنِّ وَ اِذا حَلَلْتَ مِنْ أخيكَ فِي مَحَلِّ الثِّقَةِ فَاعْدِلْ عَنِ الْمُلْقِ اِليٰ حُسْنِ النِّيَّةِ

“Özünü möhtərəm bil və yaltaqlıq etmə ki, yaltaqlıq suizənn[4] yaradır. Qardaşını etibarlı bildikdən sonra ona yaltaqlıq etmə və yaxşı niyyətlə yanaş.”[5]

-21-

يَكْرُهُ السَّفَرُ وَ السَّعْيُ فِي الْحَوائِجِ يَوْمَ الْجُمُعَةِ بُكْرَةً مِنْ أجْلِ الصَّلاةِ فَاَمّا بَعْدَ الصَّلاةِ فَجائِزٌ يَتَبَرَّكُ بِهِ

“Cümə namazından əvvəl səfərə getmək və bir iş üçün səy və təlaş məkruhdur. Amma namazdan sonra isə bunlar bərəkətli olar.”[6]

-22-

عَلَيْكُمْ بِالْوَرَعِ فَاِنَّهُ الدّينُ الَّذى نُلازِمُهُ وَ نُدينُ اللهَ تَعالي بِهِ وَ نُريدُهُ مِمَّنْ يُوالينا لا تَتْعَبُونا بِالشَّفاعَةِ

“Təqvalı olun. Təqva, həmin dindir ki, biz həmişə ona bağlıyıq və tərəfdarlarımızdan da bunu istəyirik. Təqvasız isə şəfaətimizə nail olmayacaqsınız.”[1]

---

[1] “Biharul-ənvar”, c. 69, səh. 200.
[2] “Biharul-ənvar”, c. 17, səh. 215.
[3] “Biharul-ənvar”, c. 78, səh. 37.
[4] Bədgüman.
[5] “Məhəccətul-bəyza”, c. 5, səh. 283.
[6] “Vəsailüş-şiə”, c. 6, səh. 489.

-23-

لَوْ قُلْتُ اِنَّ تارِكَ التَّقِيَّةِ كَتارِكِ الصَّلاةِ لَكُنْتُ صادِقاً

"Təqiyyəni tərk edən namazı tərk edən kimidir desək, yalan söyləməmişik."[2]

-24-

سُئِلَ عَنِ الْحِلْمِ فَقالَ هُوَ أنْ تَمْلِكَ نَفْسَكَ وَ تَكْظُمَ غَيْظَكَ وَ لا يَكُونُ ذالِكَ اِلاّ مَعَ الْقُدْرَةِ

İmamdan (ə) "helm"in mənası soruşulduqda buyurdu: "Nəfsinə hakim ol və intiqam almağa qüdrətin olduğu halda qəzəbini ud."[3]

-25-

مَا اسْتَرَحَ ذُو الْحِرْصِ

"Həris insanın rahatlığı olmaz."[4]

-26-

اَلْغَضَبُ عَلىٰ مَنْ لا تَمْلِكُ عَجْزٌ وَ عَلىٰ مَنْ تَمْلِكُ لُؤْمٌ

"Gücün çatmayana qəzəblənmək acizlik, gücsüzə isə qəzəblənmək alçaqlıqdır."[5]

-27-

لَوْ عَرَفُوا ما يُؤَدّي اِلَيْهِ الْمَوْتُ مِنَ النَّعيمِ لَاسْتَدْعُوهُ وَ أحَبُّوهُ اَشَدُّ ما يَسْتَدْعِي الْعاقِلُ الْحازِمُ اَلدَّواءَ لِدَفْعِ الْآفاتِ

"Əgər camaat ölümün arxasındakı nemətləri bilsəydi, mütləq onu tələb edərdi və onu xəstənin dərmanı sevdiyindən çox sevərdi."[6]

-28-

راكِبُ الْحَرُونِ أسيرُ نَفْسِهِ وَ الْجاهِلُ أسيرُ لِسانِهِ

"Yüyənsiz tamah atına minən kəs nəfsi-əmmarənin, nadan isə dilinin əsiridir."[7]

---

1 "Vəsailüş-şiə", c. 15, səh. 248.
2 "Vəsailüş-şiə", c. 16, səh. 212.
3 "Müstədrəkül-vəsail", c. 11, səh. 292.
4 "Müstədrəkül-vəsail", c. 12, səh. 62.
5 "Müstədrəkül-vəsail", c. 12, səh. 12.
6 "Məanil-əxbar", səh. 290.
7 "Biharul-ənvar", c. 75, səh. 369.

-29-

اِنَّ لِلّهِ بِقاعاً يُحِبُّ أَنْ يُدْعيٰ فيها فَيَسْتَجيبَ لِمَنْ دَعاهُ وَ الْحَيْرُ مِنْها

"Həqiqətən, bəzi yerlər vardır ki, Allah-təala həmin yerlərdə ona dua edilməyi sevir və onu qəbul edir. Hüseynin (ə) məqbərəsi də bu yerlərdən biridir."[1]

-30-

رُبَّ ابْنَةٍ خَيْرٌ مِنِ ابْنٍ

İmam (ə) ondan uşağının oğlan olmasını istəyən Yəhya ibn Zəkəriyaya buyurdu: "Çox vaxt qız oğlandan xeyirli olur."[2]

31-

اِسْمُ اللهِ الاَعْظَمُ ثَلاثَةٌ وَ سَبْعُونَ حَرْفاً وَ اِنَّما كانَ عِنْدَ آصف مِنْهُ حَرْفٌ واحِدٌ فَتَكَلَّمَ بِهِ فَانْخَرَقَتْ لَهُ الاَرْضُ في ما بَيْنَهُ وَ بَيْنَ سَباءٍ فَتَناوَلَ عَرْشَ بِلْقَيْسَ حَتّيٰ صَيَّرَهُ اِليٰ سُلَيمانَ ثُمَّ بَسَطَتْ لَهُ الاَرْضُ فِي اَقَلَّ مِنْ طَرْفَةِ عَيْنٍ وَ عِنْدَنا مِنْهُ اثْنانِ وَ سَبْعُونَ حَرْفاً

"İsmi-əzəm yetmiş üç hərfdən ibarətdir. Asif ibn Bərxiya yalnız onun bir hərfini bilirdi və bununla o, bir göz qırpımında Bilqeysin taxtını Səbadan Süleyman peyğəmbərin yanına gətirdi. Bir halda ki, biz "Ismi-əzəm"in yetmiş iki hərfini bilirik."[3]

-32-

أَلْقُوا النِّعَمَ بِحُسْنِ مُجاوَرَتِها وَ الْتَمِسُوا الزِّيادَةَ فيها بِالشُّكْرِ

"Neməti gözəl surətdə başqalarına verin və əgər şükrünü yerinə yetirsələr, onu artırın."[4]

-33-

اِنَّ مَوْضِعَ قَبْرِهِ (أَيِ الرِّضاعليه السلام) لَبُقْعَةٌ مِنْ بُقاعِ الْجَنَّةِ لا يَزُورُها مُؤْمِنٌ اِلاّ اعْتَقَهُ اللهُ تَعالي مِنَ النّارِ وَ أَدَلَّهُ دارَ الْقَرارِ

"Babamın (İmam Rza) qəbri cənnət bağlarından biridir. Oranı ziyarət edən hər bir mömini Allah-təala cəhənnəm odundan qoruyar və behiştə sarı yollayar."[5]

---

[1] "Tuhəfül-üqul", səh. 482.
[2] "Biharul-ənvar", c. 5, səh. 177.
[3] "Biharul-ənvar", c. 50, səh. 176.
[4] "Müstədrəkül-vəsail", c. 12, səh. 369.
[5] "Vəsailüş-şiə", c. 14, səh. 569.

**-34-**

**وَاعْلَمُوا اَنَّ النَّفْسَ أقْبَلُ شَيْءٍ لِمَا أُعْطِيَتْ وَ أمْنَعُ شَيْءٍ لِمَا مُنِعَتْ**

"Bilin ki, nəfs onun meylinə uyğun olanları çox asanlıqla və uyğun olmayanları isə çox çətinliklə qəbul edir."[1]

**-35-**

**أُذْكُرْ مَصْرَعَكَ بَيْنَ يَدَيْ أهْلِكَ وَ لا طَبيبٌ يَنْفَعُكَ وَ لا حَبيبٌ يَنْفَعُكَ**

"Can verəcəyin anı heç vaxt unutma ki, nə bir həkim ölümü səndən uzaqlaşdıra bilər və nə də bir dostun sənə kömək edə bilər."[2]

**-36-**

**الْمِراءُ يُفْسِدُ الصَّداقَةَ الْقَديمَةَ وَ يُحَلِّلُ الْعُقْدَةَ الْوَثيقَةَ وَ أقَلُّ ما فيهِ أنْ تَكُونَ فيهِ الْمُغالَبَةُ وَ الْمُغالَبَةُ أُسُّ أسْبابِ الْقَطيعَةِ**

"Mücadilə və mübahisə qədim və möhkəm dostluğu pozar. Bu işdə yalnız başqasına üstün gəlmək var ki, bu da ayrılığa səbəb olur."[3]

**-37-**

**مَنْ أطاعَ الْخالِقَ فَلَمْ يُبالِ بِسَخَطِ الْمَخْلُوقينَ وَ مَنْ أسْخَطَ الْخالِقَ فَلْيَيْقَنْ أنْ يَحِلَّ بِهِ سَخَطُ الْمَخْلُوقينَ**

"Allaha itaət edən şəxs başqalarının qəzəbindən qorxmaz. Hər kim Allahı qəzəbləndirsə, Allah onu insanların qəzəbinə düçar edər."[4]

**-38-**

**مَنِ اتَّقَي اللهَ يُتَّقيٰ وَ مَنْ أطاعَ اللهَ يُطاعُ**

"Hər kəs Allahdan qorxsa, insanlar da ondan qorxar, hər kim Allaha itaət etsə, insanlar da ona itaət edər."[5]

**-39-**

**الشّاكِرُ أسْعَدُ بِالشُّكْرِ مِنْهُ بِالنِّعْمَةِ الَّتي أوْجَبَتِ الشُّكْرَ لأَنَّ النِّعَمَ مَتاعٌ وَ الشُّكْرُ نِعَمٌ وَ عُقْبيً**

"Nemətin şükrü nemətdən üstündür. Çünki nemət fani dünyanın malı, şükür isə əbədi axirətin nemətidir."[1]

---

[1] "Biharul-ənvar", c. 75, səh. 371.
[2] "Biharul-ənvar", c. 75, səh. 370.
[3] "Biharul-ənvar", c. 75, səh. 370.
[4] "Səfinətül-bihar", c. 2, səh. 343.
[5] "Biharul-ənvar", c. 68, səh. 182.

**-40-**

**الْعِتابُ مِفْتاحُ الثِّقالِ وَ الْعِتابُ خَيْرٌ مِنَ الْحِقْدِ**

"Qəzəb pisliklərin açarıdır, amma kin saxlamaq isə ondan da pisdir."[2]

# İmam Həsən Əskəridən (ə) qırx hədis

**-1-**

**مَنْ كانَ الْوَرَعُ سَجِيَّتَهُ وَ الْكَرَمُ طَبيعَتَهُ وَ الْحِلْمُ خُلَّتَهُ كَثُرَ صَديقُهُ**

"Hər kəsin əxlaqı təqva, adəti güzəşt və xisləti səbir olsa, dostları çox olar."[3]

**-2-**

**بِئْسَ الْعَبْدُ عَبْدٌ يَكُونُ ذا وَجْهَيْنِ وَ ذا لِسانَيْنِ يُطْرِي أخاهُ شاهِداً أوْ يَأْكُلُهُ غائِباً اِنْ أُعْطِيَ حَسَدَهُ وَ اِنِ ابْتُلِيَ خانَهُ**

"İkiüzlü və ikidilli bəndə nə qədər pisdir, qardaşının hüzurunda onu tərifləyir, ona nemət verəndə paxıllıq edir, çətinliyə düşəndə isə ona xəyanət edir." [4]

**-3-**

**مَنْ رَكِبَ ظَهْرَ الْباطِلِ نَزَلَ بِهِ النَّدامَةُ**

"Batil miniyə minən peşman olar."[5]

**-4-**

**اَقَلُّ النّاسِ راحَةً الْحُقُودُ**

"Ən az rahatlığı olanlar kinlilərdir."[6]

---

[1] "Biharul-ənvar", c. 75, səh. 365.
[2] "Biharul-ənvar", c. 75, səh. 370.
[3] "Biharul-ənvar", c. 75, səh. 379.
[4] "Biharul-ənvar", c. 75, səh. 379.
[5] "Biharul-ənvar", c. 75, səh. 379.
[6] "Tuhəfül-üqul", səh. 519.

-5-

اَوْرَعُ النّاسِ مَنْ وَقَفَ عِنْدَ الشُّبْهَةِ اَعْبَدُ النّاسِ مَنْ أقامَ عَلَي الْفَرائِضِ اَزْهَدُ النّاسِ مَنْ تَرَكَ الْحَرامَ اَشَدُّ النّاسِ اِجْتِهاداً مَنْ تَرَكَ الذُّنُوبَ

"Şübhəli hallar zamanı ehtiyat edən şəxs ən təqvalı, vacibləri yerinə yetirən ən çox ibadət edən, haramı tərk edən ən zahid və günahı tərk edən ən çalışqan insandır."[1]

-6-

قَلْبُ الْأَحْمَقِ في فَمِهِ وَ فَمُ الْحَكيمِ في قَلْبِهِ

"Axmaq insanın qəlbi ağzında, zəkalı insanın isə ağzı qəlbindədir."[2]

-7-

لا يَشْغَلْكَ رِزْقٌ مَضْمُونٌ عَنْ عَمَلٍ مَفْرُوضٍ

"Allahın ruziyə zamin olması sizi məğrur etməsin və sizi işləmək və çalışmaqdan saxlamasın."[3]

-8-

مَنْ تَعَدّيٰ في طَهُورِهِ كانَ كَناقِصِهِ

"Təharət zamanı (məs. dəstəmaz) suyu israf edən təharət almamış kimidir."[4]

-9-

ما تَرَكَ الْحَقَّ عَزيزٌ اِلاّ ذَلَّ وَ لا أَخَذَ بِهِ ذَليلٌ اِلاّ عَزَّ

"Haqqı tərk edən izzətli insan xar olar və haqqa əməl edən zəlil isə izzətli olar."[5]

-10-

صَديقُ الْجاهِلِ تَعَبٌ

"Cahil dost insana yükdür."[6]

-11-

خَصْلَتانِ لَيْسَ فَوْقَها شَيْءٌ: الْأيمانُ بِاللهِ وَ نَفْعُ الاِخْوانِ

"İki xislətdən üstün şey yoxdur: İman və din qardaşlarına xeyir vermək."[1]

---

[1] "Tuhəfül-üqul", səh. 519.
[2] "Tuhəfül-üqul", səh. 519.
[3] "Əlhədis", c. 2, səh. 81.
[4] "Əlhədis", c. 2, səh. 81.
[5] "Tuhəfül-üqul", səh. 520.
[6] "Tuhəfül-üqul", səh. 520.

**-12-**

**جُرْأَةُ الْوَلَدِ عَليٰ وَالِدِهِ فِي صِغَرِهِ تَدْعُو اِلَي الْعُقُوقِ فِي كِبَرِهِ**

"Uşaqlığında ataya hörmətsizlik edən böyüyəndə üzünə ağ olar."[2]

**-13-**

**لَيْسَ مِنَ الاَدَبِ اِظْهارُ الْفَرَحِ عِنْدَ الْمَحْزُونِ**

"Qəmginin qarşısında şadlıq etmək ədəbsizlikdir."[3]

**-14-**

**اَكْيَسُ الْكَيِّسِينَ مَنْ حاسَبَ نَفْسَهُ وَ عَمِلَ لِما بَعْدَ الْمَوْتِ**

"Ən zirək insan özünü sorğu-suala çəkən və axirəti üçün çalışan şəxsdir."[4]

**-15-**

**التَّواضُعُ نِعْمَةٌ لا يُحْسَدُ عَلَيْها**

"Təvazökarlıq bir nemətdir ki, heç kim ona paxıllıq etməz."[5]

**-16-**

**لا تُكْرِمِ الرَّجُلَ بِمَا يَشِقُّ عَلَيْهِ**

"Bir şəxsə həddən artıq hörmətlə yanaşma ki, narahatçılıq keçirsin."[6]

**-17-**

**مَنْ وَعَظَ أخاهُ سِرّاً فَقَدْ زانَهُ وَ مَنْ وَعَظَهُ عَلانِيَةً فَقَدْ شانَهُ**

"Qardaşına gizli nəsihət verən onu bəzəmiş, aşkarda edən isə təhqir etmişdir."[7]

**-18-**

**مَا مِنْ بَلِيَّةٍ اِلاّ وَ لِلّهِ فيها نِعْمَةٌ تُحيطُ بِها**

"Hər bir balada Allah tərəfindən bir nemət gizlənmişdir."[8]

**-19-**

**مَا اَقْبَحُ بِالْمُؤْمِنِ أنْ تَكُونَ لَهُ رَغْبَةٌ تُذِلُّهُ**

---

[1] "Tuhəfül-üqul", səh. 520.
[2] "Biharul-ənvar", c. 78, səh. 374.
[3] Həmin mənbə.
[4] "Vəsailüş-şiə", c. 16, səh. 98.
[5] "Vəsailüş-şiə", c. 16, səh. 98.
[6] "Tuhəfül-üqul", səh. 520.
[7] "Tuhəfül-üqul", səh. 520.
[8] "Mizanul-hikmət", c. 1, səh. 487.

“Mömininin onu xar edən şeyə ürək bağlaması çox pisdir.”[1]

-20-

أُوصيكُمْ بِتَقْوَي اللهِ وَ الْوَرَعِ فِي دينِكُمْ وَ الْاِجْتِهادِ لِلّهِ وَ صِدْقِ الْحَديثِ وَ أَداءِ الْأَمانَةِ اِليٰ مَنِ ائْتَمَنَكُمْ مِنْ بِرٍّ أَوْ فاجِرٍ وَ طُولِ السُّجُودِ وَ حُسْنِ الجِوارِ فَبِهٰذا جاءَ مُحَمَّدٌ عليه السلام

“Sizi ilahi və dini təqvanı qorumağı, Allah yolunda çalışmağı, düz danışmağı, əmanətə xəyanət etməməyi–istər sahibi yaxşı insan olsun, istər pis–uzun səcdələri, qonşularla yaxşı rəftar etməyi tövsiyə edirəm. Çünki Məhəmməd peyğəmbər (s) buna görə göndərilib.”[2]

-21-

وَاللهِ لَيَغيبَنَّ غَيْبَةً لا يَنْجُوا فيها مِنَ الْهَلَكَةِ اِلاّ مَنْ ثَبَّتَ اللهُ عَزَّوَجَلَّ عَلَي الْقَوْلِ بِاِمامَتِهِ وَ وَفَّقَهُ لِلدُّعاءِ بِتَعْجيلِ فَرَجِهِ

“Allaha and olsun, həzrət Məhdi (ə) o qədər qeybdə qalacaq ki, o Həzrətin imamətinə mötəqid və zühurunun tezliyi üçün dua edən kəsdən başqa heç kim həlakətdən yaxa qurtarmayacaqdır.”[3]

-22-

لَمّا كَلَّمَ اللهُ عَزَّوَجَلَّ مُوسيٰ عليه السلام قالَ: اِلٰهي ما جَزاءُ مَنْ أَتَمَّ الْوُضُوءَ مِنْ خَشْيَتِكَ؟ قالَ: أَبْعَثُهُ يَوْمَ الْقِيامَةِ وَ لَهُ نُوْرٌ بَيْنَ عَيْنَيْهِ يَتَلَأْلَأُ

“Allah, Musa (ə) ilə söhbət edəndə Allaha dedi: “İlahi, sənin qorxundan kamil surətdə dəstəmaz alanın savabı nə qədərdir?” Allah-təala buyurdu: “Onu qiyamətdə məhşərə alnından nur saçan halda gətirəcəyəm.”[4]

-23-

مِنَ التَّواضُعِ السَّلامُ عَليٰ كُلِّ مَنْ تَمُرُّ بِهِ وَ الْجُلُوسُ دُونَ شَرَفِ الْمَجْلِسِ

“Kənarından keçdiyin hər kəsə salam vermək və məclisin aşağısında oturmaq təvazökarlığın əlamətlərindəndir.”[5]

---

[1] “Tuhəfül-üqul”, səh. 520.
[2] “Mizanul-hikmət”, c. 10, səh. 491.
[3] “Kəmalud-din”, c. 2, səh. 384.
[4] “Mizanul-hikmət”, c. 10, səh. 516.
[5] “Mizanul-hikmət”, c. 10, səh. 506.

-24-

لا تُمارِ فَيَذْهَبَ بَهاؤُكَ وَ لا تُمازِحْ فَيُجْتَرَأَ عَلَيْكَ

"Bihudə mübahisə etmə ki, qiymətdən düşərsən və (yerli-yersiz) zarafat etmə ki, başqalarının sənə qarşı cürəti artar."[1]

-25-

اللهُ هُوَ الَّذي يَتَأَلَّهُ اِلَيْهِ عِنْدَ الْحَوائِجِ وَالشَّدائِدِ كُلُّ مَخْلُوقٍ عِنْدَ اِنْقِطاعِ الرَّجاءِ مِنْ كُلِّ مَنْ دُونَهُ

"Allah o məbuddur ki, insan çətinliyə düşəndə və əli hər yerdən üzüləndə ona pənah aparır."[2]

-26-

اِنَّ الْوُصُولَ اِلَي اللهِ عَزَّوَجَلَّ سَفَرٌ لا يُدْرَكُ اِلاّ بِامْتِطاءِ اللَّيْلِ

"Allaha yaxınlaşmaq yalnız gecə oyaq qalmaqla mümkündür."[3]

-27-

اَكْثِرُوا ذِكْرَ اللهِ وَ ذِكْرِ الْمَوْتِ وَ تِلاوَةَ الْقُرْآنِ وَ الصَّلاةَ عَلَي النَّبِيِّ فَاِنَّ الصَّلاةَ عَلَيٰ رَسُولِ اللهِ عليه السلام عَشْرُ حَسَناتٍ

"Allahı həmişə yada salın və ölümü çox xatırlayın. Həmişə Quran oxuyun və Peyğəmbərə (s) və onun ailəsinə salavat göndərin. Çünki salavatın on savabı var."[4]

-28-

مَنْ رَضِيَ بِدُونِ الشَّرَفِ مِنَ الْمَجْلِسِ لَمْ يَزَلِ للهُ وَ مَلائِكَتُهُ يُصَلُّونَ عَلَيْهِ حَتّيٰ يَقُومَ

"Hər kim (təvazökarlıqdan) məclisin aşağısında əyləşsə, Allah və mələklər qalxana qədər ona salam və rəhmət göndərərlər."[5]

-29-

مَنْ آنَسَ بِاللهِ اسْتَوْحَشَ مِنَ النّاسِ

"Hər kim Allahla üns yaratsa, (nadan) insanlardan uzaq olar."[6]

---

[1] "Biharul-ənvar", c. 75, səh. 371.
[2] "Biharul-ənvar", c. 1, səh. 132.
[3] "Mizanul-hikmət", c. 8, səh. 111.
[4] "Tuhəfül-üqul", səh. 487.
[5] "Biharul-ənvar", c. 75, səh. 465.
[6] "Biharul-ənvar", c. 75, səh. 379.

-30-

عَلاماتُ الْمُؤْمِنِ خَمْسٌ: صَلاةُ اِحْديٰ وَالْخَمْسَينَ وَ زِيارَةُ الْأَرْبَعينَ وَالتَّخَتُّمُ بِالْيَمينِ وَ تَعْفيرُ الْجَبينِ وَالْجَهْرُ بِبِسْمِ اللهِ الرَّحْمنِ الرَّحيمِ

"Möminin (şiə) əlamətləri beşdir: 1. Əlli bir rəkət namaz qılmaq (17 rəkət vacib, 34 rəkət müstəhəb); 2. "Aşura" ziyarətini oxumaq; 3. Sağ ələ üzük taxmaq; 4. Alnını torpağa qoymaq (səcdə edəndə); 5. Namazda "Bismillah"ı ucadan demək (namazın birinci və ikinci rəkətlərində Həmd və surənin "bismillahı"nı ucadan demək)."[1]

-31-

شيعَةُ عَلِيٍّ عليه السلام هُمُ الَّذينَ يُؤْثِرُونَ اِخْوانَهُمْ عَليٰ أَنْفُسِهِمْ وَ لَوْ كانَ بِهِمْ خَصاصَةٌ وَ هُمُ الَّذينَ لا يَراهُمُ اللهُ حَيْثُ نَهاهُمْ وَ لا يَفْقِدُهُمْ حَيْثُ أَمَرَهُمْ وَ شيعَةُ عَلِيٍّ هُمُ الَّذينَ يَقْتَدُونَ بِعَلِيٍّ عليه السلام فِي اِكْرامِ اِخْوانِهِمُ الْمُؤْمِنينَ

"Əlinin (ə) şiələri özünün ehtiyacı olsa da din qardaşını özlərindən üstün tutanlardırlar. Əlinin (ə) şiələri Allahın nəhy etdiyindən çəkinir və əmr etdiyinə əməl edir və qardaşlarına hörmət bəsləməkdə Əliyə (ə) təqlid edirlər."[2]

-32-

لَمّا كَلَّمَ اللهُ عَزَّوَجَلَّ مُوسيَ بْنِ عِمْرانَ عليه السلام قالَ مُوسيٰ عليه السلام: اِلٰهي مَا جَزاءُ مَنْ دَمَعَتْ عَيْناهُ مِنْ خَشْيَتِكَ قالَ: أَقِي وَجْهَهُ مِنَ النّارِ

"Allah-təala, Musa (ə) ilə söhbət edəndə Musa (ə) Allaha dedi: "İlahi, sənin qorxundan ağlayan şəxsin savabı nədir?" Allah buyurdu: "Onun üzünü cəhənnəm odundan qoruyaram."[3]

-33-

لَيْسَتِ الْعِبادَةُ كَثْرَةَ الصَّلاةِ وَالصَّوْمِ اِنَّمَا الْعِبادَةُ التَّفَكُّرُ فِي أَمْرِاللهِ

"Çox namaz qılıb, oruc tutmaq ibadət sayılmır. İbadət, Allahın xilqətini də düşünməkdir."[4]

-34-

في قَوْلِهِ تَعالي (اِهْدِنَا الصِّراطَ الْمُسْتَقيمَ) يَقُولُ أَدِمْ لَنْا تَوْفيقَكَ الَّذى بِهِ أَطَعْناكَ في ماضِي أَيّامِنا حَتّيٰ نُطيعَكَ كَذالِكَ في مُسْتَقْبَلِ أَعْمارِنَا وَ الصِّراطُ

---

[1] "Biharul-ənvar", c. 95, səh. 348.
[2] "Mizanul-hikmət", c. 5, səh. 231.
[3] "Müstədrəkül-vəsail", c. 9, səh. 238.
[4] "Biharul-ənvar", c. 71, səh. 325.

الْمُسْتَقيمُ هُوَ صِراطانِ: صِراطٌ فِي الدُّنْيا وَ صِراطٌ فِي الْآخِرَةِ فَأَمّا الصِّراطُ الْمُسْتَقيمُ فِي الدُّنْيا فَهُوَ ما قَصُرَ عَنِ الْغُلُوِّ وَ ارْتَفَعَ عَنِ التَّقْصيرِ وَ اسْتَقامَ فَلَمْ يَعْدِلْ اِلىٰ شَيْءٍ مِنَ الْباطِلِ وَ أَمَّا الطَّريقُ الْآخِرَةُ فَهُوَ طَريقُ الْمُؤْمِنينَ اِلَي الْجَنَّةِ الَّذي هُوَ مُسْتَقيمٌ

"İhdinəs-siratəl"in mənası budur ki, insan həmişə belə desin: İlahi, keçmişdə mənə tofiq verdiyin kimi gələcəkdə də ver ki, sənə itaət edim. Siratəl-müstəqim iki qismdir: Dünya yolu və axirət yolu. Dünyadakı yol ifrat-təfrit və batildən uzaqlaşmaq, axirət yolu isə möminlərin (imamların)[1] yoludur ki, cənnətə doğru aparır və siratəl-müstəqimin özüdür."[2]

**-35-**

جُعِلَتِ الْخَبائِثُ فِي بَيْتٍ وَالْكِذْبُ مَفاتيحُها

"Yalan, bütün pisliklərin açarıdır."[3]

**-36-**

مَا أَقْبَحَ بِالْمُؤْمِنِ أنْ تَكُونَ لَهُ رَغْبَةٌ تُذِلُّهُ

"Nə qədər pisdir ki, mömin onun xar olmasına səbəb olan şeylərə meyl etsin."[4]

**-37-**

لَوْ جَعَلْتُ الدُّنْيا كُلَّها لُقْمَةً واحِدَةً وَ أَطْعَمْتُها مَنْ يَعْبُدُ اللهَ خالِصاً لَرَأَيْتُ أَنّي مُقَصِّرٌ في حَقِّهِ

"Əgər bütün dünyanı loğma şəklinə salıb onu Allahın xalis bəndəsinə versəm, yenə də azdır."[5]

**-38-**

اِتَّقُوا الْمُحَقَّراتِ مِنَ الذُّنُوبِ فَاِنَّها لا تُغْفَرُ قيلَ: وَ مَا الْمُحَقَّراتُ؟ قالَ: الرَّجُلُ يَذْنِبُ الذَّنْبَ فَيَقُولُ طُوبىٰ لِي لَوْ لَمْ يَكُنْ لِي غَيْرُ ذالِكَ

"Günahları kiçik sanmaqdan uzaq olun ki, bağışlanmayacaqdır. Soruşdular: Günahı kiçik sanmaq nədir?

---

[1] Bəzən imamlarımız təqiyyə edərək özlərini belə ünvanlarla tanıtdırmışlar.

[2] "Mizanul-hikmət", c. 5, səh. 346.

[3] "Elamud-din", səh. 314.

[4] "Mizanul-hikmət", c. 5, səh. 553.

[5] "Müstədrəkül-vəsail", c. 16, səh. 253.

Buyurdu: Şəxs günah edir və sonra deyir ki, yaxşı oldu ki, bundan artığa yol vermədim."[1]

**-39-**

**اِنَّ الرَّجُلَ مِنْكُمْ اِذا وَرَعَ في دينِهِ وَ صَدَقَ في حَديثِهِ وَ أدَّي الْأَمانَةَ وَ حَسُنَ خُلْقُهُ مَعَ النّاسِ قيلَ: هَذا شيعِيٌّ فَيَسُرُّني ذالِكَ**

"Sizlərdən hər kim dində təqvalı olsa, doğru danışsa, əmanətə xəyanət etməsə və insanlarla xoş rəftar etsə o, şiədir. Şiələrin belə əməlləri bizi şad edir."[2]

**-40-**

**اِتَّقُوا اللهَ وَ كُونُوا زَيْناً وَ لا تَكُونُوا شَيْناً**

"Təqvalı olaraq bizə zinət olun və bizi alçaltmayın."[3]

---

[1] "Mizanul-hikmət", c. 3, səh. 459.
[2] "Tuhəfül-üqul", səh. 518.
[3] "Tuhəfül-üqul", səh. 518.

# İmam Zamandan (ə) qırx hədis

**-1-**

**وَجْهُ الاِنْتِفاعِ بِي فِي غَيْبَتِي كَالاِنْتِفاعِ بِالشَّمْسِ اِذا غَيَّبَتْها عَنِ الاَبْصارِ السَّحَابُ**

"Qeybət dövründə insanların məndən faydalanması, onların buludların arxasındakı günəşdən faydalanmasına bənzəyir."[1]

**-2-**

**اِنَّ اللهَ تَعالىٰ لَمْ يَخْلُقِ الْخَلْقَ عَبَثاً وَ لا أَهْمَلَهُمْ سُدىً**

"Həqiqətən, Allah-təala insanları əbəs xəlq etməyib və onları özbaşına buraxmayıb."[2]

**-3-**

**اَنَا خَاتَمُ الْأَوْصِيَاءِ وَ بِي يَدْفَعُ اللهُ عَزَّوَجَلَّ الْبَلاءَ أَهْلِي وَ شيعَتِي**

"Mən vəsilərin (imamların) sonuncusuyam. Allah mənim vasitəmlə əhlimdən və şiələrimdən bəlanı dəf edər."[3]

**-4-**

**اَقْدارُ اللهِ عَزَّوَجَلَّ لا تُغالَبُ وَ اِرادَتُهُ لا تُرَدُّ وَ تَوفيقُهُ لا يُسْبَقُ**

"Allahın qəza və qədərindən qaçmaq olmaz, Onun iradəsi dəf edilməz və istəyinin qarşısı alınmaz."[4]

**-5-**

**اَعُوذُ بِاللهِ مِنَ الْعَمىٰ بَعْدَ الْجَلاءِ وَ مِنَ الضَّلالَةِ بَعْدَ الْهُدىٰ**

"Aşkardan sonra olan korluqdan və hidayətdən sonra olan zəlalətdən Allaha pənah aparıram."[5]

**-6-**

**وَلْيَعْلَمُوا أَنَّ الْحَقَّ مَعَنا وَ فينا لا يَقُولُ ذالِكَ سِوانا اِلاّ كَذّابٌ مُفْتَرٌ وَ لا يَدَّعيهِ غَيْرُنا اِلاّ ضالٌّ غَوِيٌّ**

---

[1] "Mizanul-hikmət", c. 1, səh. 289.
[2] "Biharul-ənvar", c. 53, səh. 193.
[3] "Biharul-ənvar", c. 52, səh. 30, hədis: 25.
[4] "Biharul-ənvar", c. 53, səh. 190.
[5] "Əlxəraici vəl-cəraih", c. 3, səh. 111.

“Bilin ki, haqq bizimlədir. Bizdən başqa kim belə bir iddia etsə, yalançı iddiaçıdır. Hər kim bu iddianı etsə, azğın və azdırandır.”[1]

**-7-**

**طَلَبُ الْمَعارِفِ مِنْ غَيْرِ طَرِيقَتِنا أهْلَ الْبَيْتِ مُساوِقٌ لِلْاِنْكارِ**

“Biz–Əhli-beytdən başqa yolla elm və savad kəsb etmək bizi inkar etməyə bərabərdir.”[2]

**-8-**

**وَ اَمَّا الْحَوادِثُ الواقِعَةُ فَارْجِعُوا فيهَا اِلىٰ رُوَاةِ حَديثِنَا فَاِنَّهُمْ حُجَّتي عَلَيْكُمْ وَ أَنَا حُجَّةُ اللهِ عَلَيْهِمْ**

“Ruzigarın hadisələrində bizim hədis ravilərimizə (hədis alimləri və müctəhidlər) müraciət edin. Çünki onlar mənim sizə olan höccətim və mən Allahın onlara olan höccətiyəm.”[3]

**-9-**

**وَ اَمَّا الْمُتَلَبِّسُونَ بِاَمْوالِنا فَمَنِ اسْتَحَلَّ شَيْئاً مِنْها فَاَكَلَهُ فَاِنَّما يَأْكُلُ النّيرانَ**

“Bizim malımıza yiyələnib onu halal sayanlar cəhənnəm odunu yeyirlər.”[4]

**-10-**

**اَكْثِرُوا الدُّعاءَ بِتَعْجِيلِ الْفَرَجِ فَاِنَّ ذالِكَ فَرَجُكُمْ**

“Zühurun tezliyi üçün dua edin ki, bu elə sizin çətinliklərdən qurtulmağınız üçündür.”[5]

**-11-**

**ظُهُورُ الْفَرَجِ فَاِنَّهُ اِلَي اللهِ تَعالي ذِكْرُهُ وَ كَذِبَ الْوَقّاتُونَ**

“Zühurun vaxtını yalnız Allah bilir. Hər kəs onun vaxtını təyin etsə, yalançıdır.”[6]

**-12-**

**مَلْعُونٌ مَلْعُونٌ مَنْ سَمّانِي فِي مَحْفِلٍ مِنَ النّاسِ**

“Hər kim insanların arasında mənim adımı desə, məlundur.”[1]

---

[1] “Biharul-ənvar”, c. 53, səh. 191.
[2] “Səhifeyi-Mənahiyyə”, səh. 334.
[3] “Kəmalüd-din”, c. 2, səh. 454.
[4] “Vəsailüş-şiə”, c. 9, səh. 550.
[5] “Kəmalüd-din”, c. 2, səh. 485.
[6] “Kəmalüd-din”, c. 2, səh. 483.

-13-

اِنّا غَيْرُ مُهْمِلينَ لِمُراعَاتِكُم وَ لا نَاسِينَ لِذِكْرِكُمْ وَ لَوْ لا ذالِكَ لَنَزَلَ بِكُمُ اللَّأْواهُ وَ اصْطَلَمَكُمُ الْأَعْداءُ فَاتَّقُوا اللهَ جَلَّ جَلالُهُ

"Biz sizi özbaşına buraxmamış və sizi unutmamışıq. Əgər belə olmasaydı, çətinliklərlə üzləşər və düşmənlər sizi məhv edərdilər. Ona görə də Allahdan qorxun və öz yaxşı əməllərinizlə bizə yardımçı olun."[2]

-14-

فَاعْلَمْ أنَّهُ لَيْسَ بَيْنَ اللهِ عَزَّوَجَلَّ وَ بَيْنَ أحَدٍ قَرابَةٌ مَنْ أنْكَرَني فَلَيْسَ مِنّي سَبيلُهُ سَبيلُ ابْنِ نُوحٍ

"Bil ki, Allahın heç kimlə qohumluğu yoxdur. Hər kim məni inkar etsə, məndən deyil və o, Nuhun (ə) oğlu kimidir."[3]

-15-

فَاَمَّا السُّجُودُ عَلَي الْقَبْرِ فَلا يَجُوزُ

"Qəbrə səcdə etmək caiz deyil."[4]

-16-

فَاِنَّ فَضْلَ الدُّعاءِ وَالتَّسْبيح بَعْدَ الْفَرائِضِ عَلَي الدُّعاءِ بِعَقيبِ النَّوافِلِ كَفَضْلِ اَلْفَرائِضِ عَلَي النَّوافِلِ

"Vacib namazlardan sonra dua və zikrin, müstəhəb namazlarından sonra deyilən dua və zikrdən üstünlüyü, vacib namazların müstəhəb namazlardan üstünlüyü kimidir."[5]

-17-

سَجْدَةُ الشُّكْرِ مِنْ اَلْزَمِ السُّنَنِ وَ اَوْجَبِهَا

"Şükür səcdəsi sünnənin ən vacibi və zərurisidir."[6]

-18-

اِنَّ الدُّنْيا قَدْ دَنَا فَناؤُها وَ زَوالُها وَ أَذِنَتْ بِالْوداعِ وَ اِنّي أَدْعُوكُمْ اِلَي اللهِ وَ رَسُولِهِ وَ الْعَمَلِ بِكِتابِهِ وَ اِماتَةِ الباطِلِ وَ اِحْياءِ السُّنَّةِ

"Dünyanın məhvi yaxındır və sizinlə vidalaşma üzrədir. Mən sizi Allahın, Onun peyğəmbərinin, Quranın göstərişlərinə

---

[1] "Biharul-ənvar", c. 53, səh. 184.
[2] "Biharul-ənvar", c. 53, səh. 175.
[3] "Kəmalüd-din", səh. 484.
[4] "Sire və soxəne-Pişvayan", səh. 328.
[5] "Biharul-ənvar", c. 53, səh. 161.
[6] "Biharul-ənvar", c. 53, səh. 161.

əməl etməyə, batini məhv etməyə və sünnəni diriltməyə çağırıram.”[1]

**-19-**

**فَمَا أُرْغِمَ الشَّيْطانُ بِشَيْءٍ مِثْلِ الصَّلوةِ، فَصَلِّها وَ اَرْغِمْ أنْفَ الشَّيْطانِ**

“Heç bir şey namaz kimi şeytanın burnunu yerə sürtmür. Ona görə də namaz qıl və şeytanın burnunu yerə sürt.”[2]

**-20-**

**مَنْ أكَلَ مِنْ أَمْوالِنا شَيْئاً فَاِنَّمَا يَأكُلُ فِي بَطْنِهِ نَاراً وَ سَيَصْليٰ سَعيراً**

“Bizim malımızdan haqsız yeyən hər kəs qarnına od doldurur və tezliklə üzü üstə cəhənnəmə düşəcək.”[3]

**-21-**

**اَمّا اَمْوالُكُمْ فَلا نَقْبَلُهَا اِلاّ لِتَطَهَّرُوا فَمَنْ شَاءَ فَلْيَصِلْ وَ مَنْ شَاءَ فَلْيَقْطَعْ فَمَا آتانِيَ اللهُ خَيْرٌ مِمّا آتَاكُمْ**

“Əgər siz pak olmasanız sizin bizə verdiyiniz malları qəbul etmərik. Bundan sonra kim istəyir versin, kim istəyir verməsin. Çünki Allahın bizə verdiyi sizin verdiyinizdən üstündür.”[4]

**-22-**

**فَلا يَحِلُّ لِأَحَدٍ أَنْ يَتَصَرَّفَ مِنْ مالِ غَيْرِهِ بِغَيْرِ اِذْنِهِ فَكَيْفَ يَحِلُّ ذالِكَ فِي مَالِنا**

“İcazəsiz başqasının malından istifadə caiz olmadığı halda, bu iş bizim malımızda necə caiz ola bilər?”[5]

**-23-**

**فَأَغْلِقُوا اَبْوابَ السُّؤالِ عَمّا لا يُعْنيكُمْ وَ لا تَتَكَلَّفُوا عِلْمَ ما قَدْ كَفَيْتُمْ**

“Sizin üçün faydalı olmayan şey haqda soruşmayın və sizdən tələb olunmayan şeyi bilmək üçün özünüzü zəhmətə salmayın.”[6]

**-24-**

**وَ لا تُميلُوا عَنِ الْيَمينِ وَ تَعْدِلُو اِلَي الْيَسارِ وَ اجْعَلُوا قَصْدَكُمْ اِلَيْنا بِالْمَوَدَّةِ عَلَي السُّنَّةِ الْواضِحَةِ**

---

[1] “Sire və soxəne-Pişvayan”, səh. 367.
[2] “Biharul-ənvar”, c. 53, səh. 182.
[3] “Kəmalüd-din”, səh. 521.
[4] “Kəmalud-din”, c. 2, səh. 484.
[5] “Kəmalud-din”, c. 2, səh. 521.
[6] “Biharul-ənvar”, c. 2, səh. 92.

“Yolunuzu sağdan sola çıxmaqla azdırmayın və məqsədinizi məhəbbətinizlə bizə tərəf yönəldin.”[1]

**-25-**

**وَ اِذا اَذِنَ اللهُ لَنا فِي الْقَوْلِ ظَهَرَ الْحَقُّ وَ اضْمَحَلَّ الْباطِلُ**

“Allah-təala bizə danışmağa icazə versə, haqq aşkar və batil məhv olar.”[2]

**-26-**

**فَلْيَعْمَلْ كُلُّ امْرِئٍ مِنْكُمْ ما يُقَرِّبُ بِهِ مِنْ مَحَبَّتِنا وَ لْيَتَجَنَّبْ مَا يُدْنيهِ مِنْ كَرَاهِيَّتِنا وَ سَخَطِنا فَاِنَّ أَمْراً يَبْغَتُهُ فُجْئَةً حينَ لا تَنْفَعُهُ تَوْبَةٌ وَ لا يُنْجيهِ مِنْ عِقابِنا نَدَمٌ عَليٰ حَوْبَةٍ**

“Sizlərdən hər biriniz elə iş görün ki, bizim məhəbbətimizi cəlb etsin və bizi narahat etməsin. Belə olmadığı vaxt əgər ölüm qəfil yetişərsə, tövbənin faydası olmaz və peşmançılıq sizi əzabdan xilas edə bilməz.”[3]

**-27-**

**كُلُّ مَنْ نَبْرَأُ مِنْهُ فَاِنَّ اللهَ يَبْرَأُ مِنْهُ وَ مَلائِكَتَهُ وَ رُسُلَهُ وَ اَوْلِيَائَهُ**

“Biz kimdən üz çevirsək, Allah, mələkləri, peyğəmbərləri və övliyaları da ondan üz döndərərlər.”[4]

**-28-**

**قَدْ آذَانَا جُهَلاءُ الشّيعَةِ وَ حُمَقاؤُهُمْ وَ مَنْ دينُهُ جَناحُ الْبَعُوضَةِ أرْجَحُ مِنْهُ**

“Şiələrin cahil və nadanlarının, ağcaqanadın qanadı qədər dini olmayanların rəftarı bizi incidir.”[5]

**-29-**

**زَعَمَتِ الظَّلَمَةُ أَنَّ حُجَةَ اللهِ داحِضَةٌ لَوْ أُذِنَ لَنا فِي الكَلامِ لَزَالَ الشَّكُّ**

“Zalımlar güman edirlər ki, Allahın höccəti məhv olandır. Amma bizə danışmağa icazə verilsə, şübhələr aradan gedəcək.”[6]

**-30-**

**فِي ابْنَةِ رَسُولِ اللهِ لِي أُسْوَةٌ حَسَنَةٌ**

---

1 “Biharul-ənvar”, c. 53, səh. 179.
2 “Biharul-ənvar”, c. 53, səh. 196.
3 “Biharul-ənvar”, c. 53, səh. 196.
4 “İhticac”, c. 2, səh. 474.
5 “İhticac”, c. 2, səh. 474.
6 “Kəmalud-din”, səh. 430.

“Fatiməyi-Zəhra (əh.) mənim üçün gözəl ülgüdür.”[1]

**-31-**

**إنَّ الْأَرْضُ لا تَخْلُوا مِنْ حُجَّةٍ اِمّا ظاهِراً وَ اِمّا مَغْمُوراً**

“Həqiqətən, yer üzü heç vaxt höccətsiz qalmaz, ya aşkardır, ya da gizli.”[2]

**-32-**

**لَوْ أَنَّ أَشْيَاعَنا وَفَّقَهُمُ اللهُ لِطاعَتِهِ عَلَي اجْتِماعٍ مِنَ الْقُلُوبِ فِي الْوَفاءِ بِالْعَهْدِ عَلَيْهِمْ لَمَا تَأَخَّرَ عَنْهُمُ الْيُمْنُ بِلِقائِنا**

“Əgər şiələrimiz (Allah onları Özünə itaətə müvəffəq etsin) çiyinlərində olan əhd-peymana əməl etsəydilər, onların bizimlə görüş səadəti təxirə düşməzdi.”[3]

**-33-**

**فَاتَّقُوا اللهَ وَ سَلِّمُوا لَنا وَ رُدُّوا الْأَمْرَ اِلَيْنا فَعَلَيْنَا الْاِصْدارُ كَما كانَ مِنَّا الْاِيرادُ وَ لا تُحاوِلُوا كَشْفَ مَا غُطِّيَ عَنْكُمْ**

“Allahdan qorxun, bizim əmrimizə tabe olun və işləri bizim öhdəmizə qoyun. Sizi çeşmə başına aparıb sirab etdiyimiz kimi, geri qayıtmağınız da bizim öhdəmizədir və sizə məlum olmayan şeyin arxasınca getməyin.”[4]

**-34-**

**لَوْ لا ما عِنْدَنا مِنْ مَحَبَّةِ صَلاحِكُمْ وَ رَحْمَتِكُمْ وَ الْاِشْفاقِ عَلَيْكُمْ لَكُنّا عَنْ مُخاطَبَتِكُم فِي شُغُلٍ**

“Əgər sizin məhəbbətinizi və yaxşılığınızı istəməsəydik, sizə məhəbbət bəsləməz və sizə xitab etməzdik.”[5]

**-35-**

**قُلُوبُنا أوْعِيَةٌ لِمَشِيَّةِ اللهِ فَاِذا شاءَ شِئْنا**

“Bizim qəlblərimiz Allahın iradəsinin diyarıdır. Belə isə O, nəyi iradə etsə, biz də ona razı olarıq.”[6]

**-36-**

**اَنَا بَقِيَّةُ اللهِ فِي أَرْضِهِ وَ الْمُنْتَقِمُ مِنْ أَعْدائِهِ**

---

[1] “Biharul-ənvar”, c. 53, səh. 180.
[2] “Kəmalud-din”, səh. 511.
[3] “Biharul-ənvar”, c. 53, səh. 177.
[4] “Biharul-ənvar”, c. 53, səh. 179.
[5] “Biharul-ənvar”, c. 53, səh. 179.
[6] “Biharul-ənvar”, c. 52, səh. 51.

"Mən Allahın yer üzündəki əmanəti və onun düşmənlərinin intiqamçısıyam."[1]

**-37-**

**اِنّي أَخْرُجُ حِينَ أَخْرُجُ وَ لا بَيْعَةَ لِأَحَدٍ مِنَ الطَّواغيتِ فِي عُنُقِي**

"Mən qiyam etdiyim zaman zalımlardan heç birinin beyəti boynumda olmayacaqdır."[2]

**-38-**

**فَمَنْ ظَلَمَنا كانَ مِنْ جُمْلَةِ الظّالِمينَ وَ كانَ لَعْنَةُ اللهِ عَلَيْهِ**

"Hər kim bizə zülm etsə, zalımlardan sayılar və Allahın lənəti ona şamil olar."[3]

**-39-**

**اِنّي لَأَمانٌ لِأَهْلِ الْأَرْضِ كَما أَنَّ النُّجُومَ أَمانٌ لِأَهْلِ السَّماءِ**

"Ulduzlar yeri qoruduğu kimi, mən də yer əhlinin əmin-əmanlığı üçünəm."[4]

**-40-**

**فَاِنّا يُحيطُ عِلْمُنا بِأَنْبائِكُمْ وَ لا يَعْزُبُ عَنّا شَيْءٌ مِنْ أَخْبارِكُمْ**

"Bizim sizin vəziyyətinizdən (tam surətdə) xəbərimiz var və onların heç biri bizim üçün gizli deyil."[5]

---

[1] "Biharul-ənvar", c. 52, səh. 24.
[2] "Kəmalud-din", səh. 485.
[3] "Kəmalud-din", səh. 521.
[4] "Biharul-ənvar", c. 53, səh. 181.
[5] "Biharul-ənvar", c. 52, səh. 51.

## Mündəricat

**Ön söz ....................................................................................................3**
**BİRİNCİ FƏSİL ...................................................................................6**
**«MƏCLİSLƏR»...................................................................................6**
**Birinci məclis..........................................................................................7**
**«ÖZÜNÜTƏRBİYƏ VƏ TƏQVA» ...................................................7**
**Yeddi xislət, bəndəliyin yolu .....................................................................8**
**Alçaq himmət (istək)...................................................................................9**
**Arifin sözü ..............................................................................................9**
**Təqva .....................................................................................................9**
**Təqva ilə xarici aləmi özünə tabe etmək ....................................................10**
**İmam Həsənin (ə) nəsihəti .........................................................................11**
**Allahın hüzurunda günah etmə!.................................................................12**
**Həqiqi bəndə ...........................................................................................13**
**Təqvalı çoban .........................................................................................13**
**Dörd şey günahları silər ............................................................................13**
**Sizin dostunuz xoşəxlaqlı idi!.....................................................................14**
**Peyğəmbərin (s) müsibəti..........................................................................14**
**İkinci məclis............................................................................................16**
**«ELM VƏ ALİMİN QİYMƏTİ»...................................................16**
**Min cihaddan üstün..................................................................................16**
**İki hədis öyrənmək və altmış il ibadət.........................................................17**
**Alimlərdə olan beş xislət............................................................................18**
**Bir saat mütaliə və yetmiş il ibadət ............................................................18**
**Alimin abiddən üstünlüyü.........................................................................19**
**Alimlərin axirətdə şəfaəti .........................................................................19**
**Ən pis və ən yaxşı insan............................................................................20**
**Əməlsiz alimin məzəmməti .......................................................................20**
**Dünyapərəst alim və dinsiz ölüm...............................................................21**
**Yolkəsən.................................................................................................21**
**Alimin xətası və təbil səsi.........................................................................22**
**Uşağın xəbərdarlığı...................................................................................22**
**Musanın (ə) ağlaması...............................................................................23**
**Həzrət Zəhranın (əh.) müsibəti..................................................................24**

**Üçüncü məclis ....................................................................................25**
**«İSLAMDA EVLƏNMƏ» ....................................................................25**
**Dünyanın xeyri dörd şeydədir .........................................................25**
**Dörd şey rəhmətin nazil olmasına səbəb olar ...................................25**
**Min qəsrdə min huri ..........................................................................26**
**Nikahın tərki Allaha qarşı şübhədir .................................................26**
**Ən gözəl ocaq ....................................................................................27**
**Ən pis və ən yaxşı ümmət ..................................................................27**
**Məhəbbət mehriyyə ilə deyil ............................................................28**
**Elçilik edənin şərtləri .........................................................................28**
**Paklıqdan başqa heç nə .....................................................................28**
**Asan nikah ..........................................................................................28**
**Fasiq və şərabxor elçi .......................................................................29**
**Bir il ibadətin savabı .........................................................................29**
**Ən yaxşı şəfaət ...................................................................................29**
**Yetmiş min bərəkət ............................................................................30**
**İmam Əlinin (ə) müsibəti ..................................................................30**
**Dördüncü məclis ................................................................................33**
**«QADININ ƏR QARŞISINDA VƏZİFƏLƏRİ» ..............................33**
**Bir qurtum su ilə altmış illik günahın bağışlanması ........................34**
**Ərdən küsməyin günahı ....................................................................34**
**Cəhənnəmin sürməsi ..........................................................................35**
**Ən yaxşı qadın ....................................................................................35**
**Hamilə qadın və şəhid savabı ............................................................36**
**Cəhənnəm atəşi üç nəfəri yandırmaz ................................................36**
**Allahın qəzəbi ....................................................................................36**
**Qadının ərinə səcdəsi .........................................................................37**
**Qadınların cihadı ................................................................................37**
**Qadın ərinin malını qorumaqda məsuldur .........................................37**
**Bir gecə oyaq qalmağın savabı ..........................................................38**
**Ərin malını oğurlamaq .......................................................................39**
**İnsanın öz qohumlarının əli ilə ölümü ...............................................39**
**Fatimə (əh.) ilə məhşur olan qadınlar ................................................40**
**Hər addıma min şəhid savabı .............................................................40**

**İmam Həsənin (ə) müsibəti ........................................................................ 40**
**Beşinci məclis ........................................................................................ 42**
**«ƏRİN ARVAD QARŞISINDA VƏZİFƏLƏRİ» ................................... 42**
**Ərin xanımına baxması ibadətdir ............................................................ 42**
**Yetmiş odlu sillə ..................................................................................... 43**
**Əsirə ehsan ............................................................................................. 44**
**Ailənin dərdini çəkmək cəhənnəm oduna qarşı sipərdir ......................... 45**
**Kişinin xanımı üçün bəzənməsi .............................................................. 45**
**Min şəhidin savabı .................................................................................. 46**
**Ailəyə xidmət günahların kəffarəsi ......................................................... 46**
**Min xəta və günah ................................................................................... 46**
**Ət almaq və qul azad etmək .................................................................... 47**
**İki şəxsə Allahın qəzəbi tutar .................................................................. 48**
**Fədakarlığın ən üstün dərəcəsi ................................................................ 48**
**İmam Hüseynin (ə) müsibəti .................................................................. 48**
**Altıncı məclis .......................................................................................... 50**
**«ÜNSİYYƏT QAYDALARI (1)» .......................................................... 50**
**Salam Allahın adlarından biridir ............................................................. 50**
**Salamla cənnətə giriş .............................................................................. 51**
**İblisin ağlaması ....................................................................................... 51**
**Günah ağac yarpaqları kimi tökülür ....................................................... 52**
**Afərin deməyin savabı ............................................................................ 52**
**Üç şey nifaqa səbəb olar ......................................................................... 53**
**Qonağa hörmət və bir milyon infaq ........................................................ 53**
**İmanı məhv edən günah .......................................................................... 54**
**Qonaq günahları məhv edər .................................................................... 54**
**İmam Əlninn (ə) ağlaması ....................................................................... 55**
**Küsmək qan tökmək kimidir ................................................................... 55**
**Üç gün küsülü qalmağın günahı ............................................................. 56**
**Davanı tərk etməyin savabı ..................................................................... 57**
**İmam Səccadın (ə) müsibəti ................................................................... 58**
**Yeddinci məclis ....................................................................................... 59**
**«ÜNSİYYƏT QAYDALARI (2)» .......................................................... 59**
**Allahın ziyarəti ........................................................................................ 59**

**Möminin yeməyinin qalığı  yetmiş dərdin dərmanı ........................................60**
**Saleh insanların ziyarəti  məsumların ziyarətidir ..........................................61**
**Əmanətdarlıq ......................................................................................................61**
**Müsəlmana xəyanət etməyin əzabı ...................................................................61**
**Xəyanət və dinsiz ölüm .......................................................................................61**
**Möminə hörmət.....................................................................................................62**
**Böyüklərə hörmət .................................................................................................63**
**İmam Xomeyninin (rəh.) qardaşı ilə görüşü.......................................................64**
**Mələyin fəryadı .....................................................................................................64**
**İmam Baqirin (ə) müsibəti...................................................................................65**
**Səkkizinci məclis ...................................................................................................66**
**«SİLEYİ-RƏHM» ...............................................................................................66**
**Ən asan sileyi-rəhm ..............................................................................................67**
**Yüz şəhidin savabı .................................................................................................68**
**Ağır can verməkdən nicat tapmaq .....................................................................68**
**Qırx addımın soğu-sualı ......................................................................................69**
**Kimlər fəzilət əhlidir?...........................................................................................69**
**İmam Sadiqin (ə)  müsibəti ................................................................................70**
**Doqquzuncu məclis...............................................................................................71**
**«ƏHD-PEYMAN»...............................................................................................71**
**Vəfa ülgüləri...........................................................................................................72**
**Bütpərəstin müsəlman olması..............................................................................72**
**Cənnət əhlinin xüsusiyyətləri...............................................................................73**
**İmam Kazimın (ə) müsibəti .................................................................................74**
**Onuncu məclis........................................................................................................75**
**«GÖZ VƏ İFFƏT»...............................................................................................75**
**Gözün ibadəti .........................................................................................................75**
**Gözün xəyanəti.......................................................................................................76**
**Namuslu olmaq .....................................................................................................77**
**İmam Rzanın (ə) müsibəti.....................................................................................78**
**On birinci məclis ...................................................................................................80**
**«İTRƏT—NİCAT GƏMİSİ» ...........................................................................80**
**Cənnətin yolu .........................................................................................................81**
**Məhəmməd (s) və onun ailəsinin (ə) məqamı ...................................................82**

**Seyidlərə ehtiram ... 82**
**İmam Cavadın (ə) müsibəti ... 83**
**On ikinci məclis ... 84**
**«ƏFV VƏ GÜZƏŞT» ... 84**
**Bağışlamağın savabı ... 85**
**Peyğəmbər və Həmzənin qatili ... 85**
**Qırx il günahdan danışmadı ... 85**
**Alicənablıq ... 86**
**İmam Hadinin (ə) müsibəti ... 86**
**On üçüncü məclis ... 87**
**«SƏXAVƏT XOŞBƏXTLİK NİŞANƏSİDİR» ... 87**
**Çürüməyən əl ... 89**
**Səxavət xilas yolu ... 89**
**İmam Həsən Əskərinin (ə) müsibəti ... 90**
**On dördüncü məclis ... 91**
**«İMAM ƏLİNİN (Ə) MƏQAMI» ... 91**
**Əbu Bəkrin baxışı ... 92**
**Xızr (ə) və Əlinin (ə) şiəsi ... 93**
**İmam Əli (ə) və kimya elmi ... 94**
**Əliyə (ə) məhəbbət və yetmiş peyğəmbərin əməli ... 95**
**İmam Əlinin (ə) müsibəti ... 96**
**On beşinci məclis ... 97**
**«İSLAMDA SƏDƏQƏNİN FƏZİLƏTİ» ... 97**
**Sədəqənin növləri ... 99**
**Xəstələri müalicə etməyin yolu ... 99**
**İtə kömək xoşbəxtliyə səbəb oldu ... 100**
**İmam Hüseynin (ə) müsibəti ... 101**
**On altıncı məclis ... 102**
**«VALİDEYNİN MƏQAMI» ... 102**
**Ananın ayağını öpməyin savabı ... 102**
**Etmədiyim günah yoxdur ... 103**
**Atanın duası ... 103**
**Bir baxışın savabı ... 103**
**Üç dəstə bədbəxt hesab olunar ... 104**

**Kafir ata-anaya itaət..........104**
**Qəzəbli baxış və namazın batil olması..........105**
**Cihadı tərk etmək və valideynə hörmət..........105**
**Atanın ayaq izini öpmək..........106**
**Ananın qarğışı..........106**
**Valideynə dua etməmək ruzini azaldar..........106**
**Atanın ayağını öpmək xoşbəxtlikdir..........107**
**Şəhid Mütəhhərinin valideyninə hörməti..........107**
**İnsanların ən yaxşısı..........108**
**Həzrət Əli Əkbərin (ə) müsibəti..........108**
**On yeddinci məclis..........109**
**«ƏDALƏT VƏ İDARƏÇİLİK»..........109**
**Bir ədalətli rəftar və altmış il ibadət..........109**
**Bir ədalətli hökm və altmış il ibadət..........109**
**İmam Əli (ə) və beytül-mal..........110**
**"Mən ədalətsiz bir işə şahidlik etmərəm"..........110**
**Ədalət divarı..........110**
**İt dərisi ilə ibrət..........111**
**İmam Hüseynin (ə) müsibəti..........112**
**On səkkizinci məclis..........113**
**«ƏMR BE MƏRUF VƏ NƏHY ƏZ MÜNKƏR»..........113**
**Dinsiz mömin..........113**
**Zahidin cəzalanmasının səbəbi..........114**
**Dənizin müqabilində bir damla..........115**
**Başqalarının hidayəti üçün edilən fədakarlıq..........116**
**Qayğıkeş təbib..........117**
**Əlində xəncəri olan qatili hidayəti..........117**
**Həzrət Rüqəyyənin (əh.) müsibəti..........118**
**On doqquzuncu məclis..........119**
**«ÖZGƏ HÜQUQU»..........119**
**Qırx evə qədər qonşu sayılır..........119**
**Peyğəmbərin (s) qonşuya hörmət haqda buyruqları..........120**
**Həzrət Zəhranın (əh.) duası..........121**
**Bəhrul-ülumun qəzəbi..........121**

**İmam Hüseyn (ə) və borclunun vəzifəsi ....................................................121**
**Şəhidin qanı və haqqün-nas ...........................................................................122**
**Hacı Axundun təqvası ......................................................................................122**
**Yeddi haqq ........................................................................................................123**
**Bir dirhəm üçün yeddi yüz namaz ..................................................................123**
**Zəkatı tərk edənin günahı .................................................................................124**
**Üç şeyin, üç şeylə vacib olması........................................................................125**
**Cəhənnəm əqrəbinin fəryadı.............................................................................125**
**Həzrət Əbülfəzlin(ə) müsibəti...........................................................................125**
**İyirminci məclis.................................................................................................127**
**«HALAL RUZİ» ...............................................................................................127**
**Qəbul olunmuş yetmiş həcc...............................................................................127**
**Şübhəli tikəni tərk etmək ..................................................................................128**
**Riba—ən pis qazanc ..........................................................................................128**
**Peyğəmbərin (s) sələmçilər haqda buyurduqları ..........................................129**
**Borc verməyin savabı .......................................................................................129**
**Ühüd dağı qədər savab .....................................................................................130**
**Rüşvət küfrdür...................................................................................................130**
**Təharət və ruzinin artması................................................................................131**
**Nəyə lazım? ......................................................................................................131**
**Varis cənnətdə, vəsiyyət edən cəhənnəmdə....................................................132**
**Çobanın hikmətli sözü......................................................................................132**
**Müslümün övladlarının müsibəti ....................................................................133**
**İyirmi birinci məclis .........................................................................................134**
**«DÜNYA İBRƏT VƏ İMTAHAN EVİDİR»..................................................134**
**Dünya əhlinin nişanələri...................................................................................135**
**Yerin sözü..........................................................................................................136**
**Dünya və milçək qanadı ..................................................................................136**
**Üç talaq..............................................................................................................136**
**Dünya çürümüş qoza bənzəyir .......................................................................137**
**Suyun üzündə yol getmək.................................................................................137**
**Dünyanın əziyyəti və axirətin əcri ...................................................................138**
**Həzrət Əbülfəzlin (ə) müsibəti.........................................................................138**
**İyirmi ikinci məclis ..........................................................................................140**

«TƏKƏBBÜR VƏ HƏSƏD» ........................................................ 140
Məclisin başında əyləşməyin şərtləri ........................................ 141
Altı yerdə altı şey ........................................................................ 141
Təkəbbürün səbəbləri .................................................................. 142
Məğrur pəhləvanın aqibəti .......................................................... 142
Təkəbbür qərq olmağa səbəb oldu ............................................... 143
Fəxr etmək həlakətə səbəb oldu .................................................. 143
Ustad Məhəmməd Təqi Cəfəridən (rəh.) bir xatirə ...................... 144
Həsəd və xəstəlik ......................................................................... 145
İmam Həsənin (ə) müsibəti ........................................................... 145
İyirmi üçüncü məclis .................................................................... 147
«TƏVAZÖKARLIQ» ...................................................................... 147
Böyük şəxsiyyətlər ....................................................................... 148
Əllamə Məhəmməd Təqi Cəfərinin (rəh.) təvazökarlığı ................ 148
Tanınmayan şəxslərdən bir nişanə ............................................... 149
"Mən könüllü əsgərəm" ................................................................ 149
Həqiqi dəli .................................................................................... 150
Həzrət Səkinənin (əh.) müsibəti ................................................... 150
İyirmi dördüncü məclis ................................................................ 151
«DİL NİCAT VƏ HƏLAKƏT ÜZVÜ» ............................................. 151
Üç yaxşı əməlin tövsiyəsi ............................................................. 152
Yaxşı söz və ruzinin artması ........................................................ 153
Dörd peyğəmbərdən dörd hədis .................................................... 153
Böhtan günahı .............................................................................. 154
Həzrət Zeynəbin (əh.) müsibəti .................................................... 155
İyirmi beşinci məclis .................................................................... 156
«EYİBAXTARMA VƏ XƏBƏRÇİLİK» .......................................... 156
Dörd yerdə dörd şey ..................................................................... 156
Üç qiymətli iş ................................................................................ 158
Xızır peyğəmbərin (ə) axırıncı vəsiyyəti ....................................... 158
Xəbərçiliyin əzabı ......................................................................... 159
İmam Hüseynin (ə) müsibəti ......................................................... 160
İyirmi altıncı məclis ...................................................................... 161
«QEYBƏTİN GÜNAHI» ................................................................. 161

**Qeybət və qəbir əzabı ........................................................................161**
**Qeybəti tərk etmək və on min namaz..........................................................162**
**Qeybət münafiqin işidir ..............................................................................163**
**Qeybətin kəffarəsi........................................................................................164**
**Yalan.............................................................................................................164**
**Əli Əsgərin (ə) müsibəti...............................................................................165**
**İyirmi yeddinci məclis .................................................................................167**
**«KASIBLARA YARDIM»......................................................................167**
**Yetmiş min mələyin istiğfarı........................................................................167**
**Edilməyən əməlin savabı..............................................................................169**
**Qabaqcadan olunan ehsan ...........................................................................170**
**Daimi həcc ....................................................................................................170**
**"Vay olsun sənə!".........................................................................................171**
**İmam Hüseynin (ə) müsibəti........................................................................172**
**İyirmi səkkizinci məclis...............................................................................173**
**«NEMƏTLƏRİN ŞÜKRÜ»...................................................................173**
**"Şükür" səcdəsi.............................................................................................173**
**Nemətə qarşı küfr və qıtlıq ..........................................................................175**
**Həzrət Zəhranın (əh.) müsibəti.....................................................................176**
**İyirmi doqquzuncu məclis............................................................................177**
**«DUA».....................................................................................................177**
**Duanın qəbul olmasının səbəbləri ...............................................................179**
**İmam Hüseynin (ə) müsibəti........................................................................180**
**Otuzuncu məclis............................................................................................181**
**«SƏBİRLİLƏRİN MƏQAMI (1)»..........................................................181**
**Əyyubun (ə) səbiri .......................................................................................182**
**Çiy ət və naqis insan ....................................................................................183**
**İbrətli hekayə ...............................................................................................184**
**Həzrət Müslümün (ə) müsibəti.....................................................................185**
**Otuz birinci məclis........................................................................................186**
**«SƏBİRLİLƏRİN MƏQAMI (2)»..........................................................186**
**Min şəhidin savabı........................................................................................186**
**Əziyyətə dözmək kamala doğru addım........................................................187**
**Musanı (ə) təəccübləndirən abid..................................................................188**

**Həzrət Zeynəbin (əh.) müsibəti....189**
**Otuz ikinci məclis....190**
**«QƏZƏB»....190**
**Üç şəxsi üç yerdə tanımaq....190**
**Qəribə nəzir....191**
**Fatiməyi-Zəhranın (əh.) müsibəti....191**
**Otuz üçüncü məclis....192**
**«TƏVƏKKÜL TƏKAMÜL RƏMZİ»....192**
**Qulun təvəkkülü....193**
**Həqiqi kor....193**
**Uşağın dili ilə tövhid dərsi....194**
**Şüşəni daşın qucağında saxlayır....194**
**Əgər möcüzə baş versə....195**
**Həzrət Qasimın (ə) müsibəti....195**
**Otuz dördüncü məclis....196**
**«İSLAMDA NAMAZ»....196**
**Ölülərin arzusu....196**
**Möminin şərəfi....197**
**Namazı tərk edənin məzəmməti....198**
**On beş bəla....198**
**Namazı ilk vaxtda qılmağın savabı....199**
**Bir rəkət namaz qırx ilin namazından üstündür....199**
**Həcc qədər savabı olan oturmaq....200**
**Günahların kəffarəsi....200**
**Üzüklə namaz qılmağın fəziləti....200**
**Əli Əsgərin (ə) müsibəti....201**
**OTUZ BEŞİNCİ MƏCLİS....202**
**«QURAN—HİDAYƏT VƏ SƏADƏT KİTABI»....202**
**Quran oxumağın savabı....202**
**Qurana baxmağın savabı....203**
**Əməlsiz qarilərin məzəmməti....203**
**Qiyamət günü kor....204**
**“Bismillah”ın savabı....204**
**Sübhə qədər savab yazılar....205**

**“Ayətəl-kürsü”nün savabı....................................................................205**
**“İxlas” surəsinin savabı.......................................................................205**
**Həzrət Əlinin(ə) müsibəti.....................................................................206**
**OTUZ ALTINCI MƏCLİS......................................................................208**
**«ƏMƏLLƏRİN CƏZASI (1)»...........................................................208**
**Cəbrailin gülüşü......................................................................................209**
**Zülm çubuğu ilə mükafat.......................................................................210**
**Bir-birinin ardınca mükafat...................................................................211**
**Həzrət Abbasın (ə) müsibəti..................................................................211**
**OTUZ YEDDİNCİ MƏCLİS...................................................................212**
**«ƏMƏLLƏRİN CƏZASI (2)»...........................................................212**
**Rəhimsiz polisin cəzası..........................................................................212**
**Qəlbiqırıq polkovnik..............................................................................213**
**Həzrət Zəhraya (əh.) təvəssül...............................................................214**
**OTUZ SƏKKİZİNCİ MƏCLİS..............................................................216**
**«TƏLAŞ—MÜVƏFFƏQİYYƏT RƏMZİ».............................................216**
**Çalışmaq qələbənin rəmzi.....................................................................216**
**Əbu Cərananin uğuru.............................................................................217**
**Padşah qızının elçiliyi............................................................................218**
**Şeyx Ənsarinin müvəffəqiyyətinin sirri...............................................219**
**Masqara olunan yeddi şey.....................................................................219**
**Alimlərin müvəffəqiyyətlərindəki sirr.................................................220**
**İmam Kazimın (ə) müsibəti...................................................................220**
**OTUZ DOQQUZUNCU MƏCLİS...........................................................222**
**«TÖVBƏ»...........................................................................................222**
**Allah necə “səttar”dır?...........................................................................222**
**Saleh və fasiqin aqibəti..........................................................................224**
**Tövbənin şərtləri.....................................................................................224**
**Xoşbəxtlik və bədbəxtliyin səbəbləri....................................................225**
**İblisin andı..............................................................................................225**
**Hürrün müsibəti.....................................................................................226**
**QIRXINCI MƏCLİS...............................................................................227**
**«MƏAD»............................................................................................227**
**Qəribə ölüm.............................................................................................228**

Altı kəlmədə altı yüz min kəlmə ....................................................................229
Vəsiyyət edib ölən şəxs şəhiddir.....................................................................229
Ölünün gözünün açıq qalmasının səbəbi .......................................................230
Ölüm və min qılınc zərbəsi..............................................................................230
Qəbir sıxıntısının səbəbləri ..............................................................................231
Qəribə və daha qəribə ......................................................................................231
Yeddi yüz alimdən beş sual..............................................................................232
Səkkiz tələbkar..................................................................................................232
Həzrət Zəhranın (əh.) müsibəti........................................................................233
İKİNCİ FƏSİL....................................................................................................234
«HƏR MƏSUMDAN QIRX HƏDİS» .......................................................234
Həzrət Peyğəmbərdən (s) qırx hədis...............................................................235
Həzrət Əlidən (ə) qırx hədis .............................................................................244
Həzrət Zəhradan (əh.) qırx hədis .....................................................................252
İmam Həsəndən (ə) qırx hədis .........................................................................261
İmam Hüseyndən (ə) qırx hədis.......................................................................268
İmam Səccaddan (ə) qırx hədis........................................................................276
İmam Baqirdən (ə) qırx hədis...........................................................................283
İmam Sadiqdən (ə) qırx hədis...........................................................................290
İmam Kazimdan (ə) qırx hədis.........................................................................297
İmam Rzadan (ə) qırx hədis..............................................................................305
İmam Cavaddan (ə) qırx hədis .........................................................................312
İmam Hadidən (ə) qırx hədis ............................................................................319
İmam Həsən Əskəridən (ə) qırx hədis.............................................................326
İmam Zamandan (ə) qırx hədis ........................................................................334
Mündəricat ..........................................................................................................341